# SALMAN QAZİ



# DÜNYA KİMİN DÜNYASISAN

Salman Qazi

# *Dünya, kimin dünyasısan*

Azf-2 79241

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı 2012

Redaktoru: Musa Ələkbərli

Salman Qazi, "Dünya, kimin dünyasısan"
Bakı, «ŞUR» 2012, səh. 360
Təkrar nəşr

*Salman Qazi istedadlı bir şair kimi oxuculara yaxşı tanışdır. Neçə-neçə kitabları işıq üzü görüb, ekranda və efirdə ədəbi çıxışları səslənib.*

*Onun şeir dili doğma dilimizin özəl bədii imkanlarından xəbər verir, yaradıcılığı folklordan, xüsusən aşıq şeirlərindən bəhrələnir. Şair heca vezninin bütün şeir şəkillərində qələmini sınayır, yeri gəldikcə əruz vəzninə də müraciət edir.*

83.3 AZ (2)

Q $\frac{4702600000}{(032-05)}$ 01-12

© Salman Qazi, 2012



## SALMAN QAZİ

( Şamilov Salman Qərib oğlu)



1952 - ci ildə bir yanı Dəli Dağ, bir yanı Əyriqar, bir yanı Ağlağan, başı Ov dərəsi, ayağı Sarvan çayı, bütün Borçalının yaylası olan Loru düzündə - İlməzli kəndində, sazlı - sözlü bir ocaqda - Təmirrər ocağında dünyaya göz açıb. Uşaqlıq illərindən sazın və sözün sehrinə düşən, doğma yurdun ilhamverici gözəlliyindən, füsünkar təbiətindən bəhrələnib, kövrək duyğularını varaqlara köçürə – köçürə, torpağa və vətənə olan məhəbbətini, qarapapaq babaların hikmətli sözlərini, ağbirçək nənələrin şirin və fantastik nağıllarını sinədəftər edə-edə, qələm-dəftəri ilə baş-başa verdi və çox şükürlər olsun ki, bu gün Respublikamızın sayılıb-seçilən şairlərindən biri oldu. Salman Qazi İlməzlidə anadan olsa da taleyin hökmü ilə uşaqlıq və gənclik illəri Dəmirçilər kəndində keçib. Onlar dayılarının himayəsində böyüyüblər. Anaları Tamaşa ananın min bir əzab-əziyyəti hesabına boya-başa çatıblar. Dəmirçilər camaatı bu uşaqları doğma balaları kimi qəbul etmiş, onların böyüməsində hər cür qayğı göstərmişdilər. Necə deyərlər, Salmanın xeyirxahları Dəmirçilər camaatı olmuşdur. Salmana «Almalı» bulağının zümzüməsi gecələr layla çalmış, «Bulaqlı» onu gözəgörünməz bir məkanlara aparmış, «Səngərin», «Qabaq Döş» - ün qartalları məğrurluq öyrətmiş, « Bala dərə», « Tozlu Dərə » - nin gözəlliyi ilham payı vermiş, «Şairin bulağı » isə saflıq və təmizlik öyrətmişdir. Bir sözlə Dəmirçilər Salmanın püxtələşib, bir şair kimi yetişməsində başlıca bir mənbəyə çevrilmişdir. Şair Dəmirçiləri minnatdarlıqla belə yad edir:

**İlməzli deyəndə dostlar inciyir,**
**Adım – ünvanımsan, ay Dəmirçilər!**
**Könlüm səndə gəzir, səni istəyir,**
**Ruhumsan, canımsan, ay Dəmirçilər!**

**Sənin vurğununam Məcnundan betər,**
**Bu sevgi nə ölər, nə də ki itər,**
**Bala anasından necə əl çəkər?**
**Sən mənim anamsan, ay Dəmirçilər!**

Kövrək qədəmləri ilə Dəmirçilər kəndində ibtidai təhsil aldıqdan sonra Salman səkkizillik təhsilini Evli kəndində, orta təhsilini isə anadan olduğu İlməzli kəndində alıb. 1969-cu ildə sənədlərini Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinə verib, müsabiqədən keçmədiyindən, ordu sıralarına çağrılıb. "Hərbi illər dəftəri"ni yazıb. "Şair bulağı", "Yurd həsrəti yaman sıxır sinəmi", "Sığınmışam tanrısına dünyanın", "Hamamlıdan keçən yollar", "İtirdiyim yerlər" "Ellər mənə şair dedi", "Bir könüldən min könülə" kitablarının müəllifidir. 1990-1993-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. Qarabağ müharibəsinin veteranıdır. Respublika Yazıçılar Birliyinin üzvüdür. "Cəngi" ədəbi-bədii məclisinin yaradıcısı və rəhbəridir. "Borçalı" qəzeti və jurnalının fəxri diplomçusu və redaksiyanın fəxri üzvüdür, "Qızıl qələm", "Qızıl saz" və "Vicdanlı qələm" mükafatının laureatıdır. Bakı şəhərində yaşayır. Cənubi Azərbaycan və Türkiyə ədəbi mühitində yaxşı tanınır. Sözləri o taylı-bu taylı Azərbaycan aşıqlarının repertuarından düşmür, sözlərinə mahnılar bəstələnir. Bakıda yaşayır.





## ÖN SÖZ ƏVƏZİ

Əziz oxucularım! Bu kitabdan öncə çap olunan kitablarımın ön sözlərini güvəndiyim, bir-birindən sanballı, tanınmış ziyalılarımız yazırdı. Lakin özüm bu kitaba ön söz yazmağı qərara alıb, sizə müraciət etməyi özümə borc bildim. Bir çox tanınmış şairlərimizin kitablarının redaktoru olub, onlara ön söz yazıb, işıq üzü görməsinə xeyir-dua vermişəm. Ellərimizin, obalarımızın xeyir-duasını alıblar. Mən xalqın arasında tez-tez oluram. Eşitdiyim bir yaxşı məsləhət, bir ağıllı söz mənim üçün bir tapıntı olur. İndi əsl tənqidçi xalq, sevimli oxucularımızdır! Onlardır söz adamlarına qiymət verib, başa çəkən. Xalqın yaddaşını isə heç kəs poza bilməyib. Sevdikləri yazıçını, şairi, rəssamı, bəstəkarı, aşığı, xanəndəni, adi peşə sahiblərini onlardı yaşadan. Deməli, xalqın hafizəsinə həkk olan insanlar ölmür, əbədi yaşayır. İndi şeir yazanlar çoxalıb. Hər bir yan şeir kitabları ilə doludur. Çox qələm sahibləri özlərinə şair deyərək yaxalarını cırırlar. Ancaq iki misra şeiri dalbadal deməyi bacarmırlar. Arxası olanların isə daha yüksək yerlərdən səsi gəlir. Ancaq o səsləri camaat, xalq eşitmir. Çünki o şeirlərdə, o misralarda xalqın ruhunu oxşayan heç nə tapılmır:

**Söz yazan çox, şair olmaz hər yetən,**
**Şair bir zirvədir, başı duman - çən,**
**Bu yol ibadətlə, şəriətlə tən,**
**Bilənlər atını sürsə yaxşı olar.**

Ancaq « babam mənə kor dedi, gələnə - gedənə vur dedi » – deyənlər çoxaldığı bir vaxtda kitab yazmağa adamın əli gəlmir də! Nə yaxşı ki, siz varsınız, obyektiv oxucular potensialı var. Bu oxucuların əksəriyyəti mənə müraciət edir, fikirlərimizi bölüşürük.

Son zamanlar poeziyamızda da deformasiyalar baş alıb gedir. Aşıq şeirləri formalarına toxunanlar təcnis, dodaqdəyməz şeir formalarının qaydalarını pozurlar. Yəni: **- o, u, ü, ö**, həriflərini yazmaqdan belə çəkinmirlər. Halbuki, tam doqquz hərf dodaqdəyməzdə olmalı deyil.

Bunlar: - **o, ö, ü, u, m, b, v, f, p;** hərifləridir. Hətta keçmişdə ustad aşıqlarımız dodaqdəyməz deyişmələrində dodaqlarının arasına iynə düzəllərmiş. Dodaq qanasa, deməli dodaqdəyməz qaydaları pozulubmuş. Belə şeir formalarına isə bir çox folklorşünaslarımız göz yumurlar.

Əziz eloğulları! Mənə bəzən el şairi deyirlər. Mən bu sözdən qürur və iftixar hissi keçirirəm:

Vətən amalımdı, elim murazım,
Sadə insanlardı söhbətim – sözüm,
El şair deyənə fərman nə lazım,
Mənə şair deyən elim var olsun!

Harada oluramsa olum, sizi hər an yanımda hiss edirəm, sizə arxalanıb, sizə də güvənirəm. Mənim bir Allahdan və sizdən başqa kimim var ki?! Mən də öz növbəmdə çalışıram ki, sizin başınızı ucaldım və şairlər cərgəsində axsamayım. Şairin gücü sözündə və təbində olar. Şairin hafizəsi və yaddaşı güclü gərək! Şeirlərimdə isə sizi yazıram. Doğma ellərimizi, eloğlanlarımızı tərənnüm edirəm. Milli yaddaşımızda olanları oxucularıma qaytarıram.

Siz məni həmi də bir din xadimi kimi tanıyırsız. Bəli, mən üç il təhsil alan adamam. Mənim müəllimim əslən türk olan Türküyəli, Süleymaniyyə camesinin müəllimi Mustafa Savçıoğlu olub. Burada da çalışıram ki, camaatmız arasında dini düzgün təbliğ edim. Qurani - Kərimin və orda olan ayələri düzgün, yerli-yerində camaata çatdırım. Burada da bəzi çətinliklə rastlaşıram. Bizim üzdəniraq “mollalarımız” mənə qarşı böhtan danışır, deyirlər ki, şairdi, getsin şairliyini eyləsin. Onun dində nə işi qalıb? Ancaq özləri din pərdəsi altında camaatı aldadır, onlara kələk gəlirlər. Mənim onlara da yazığım gəlir. Ömrü boyu insanlar arasında səliqə-sahmanla gəzən, Məkkəyə gedib-gələndən sonra saqqal buraxırlar. Deyirlər ki, bu vacibdir, belə lazımdır və peyğəmbərin buyruğudur! Mən də məcbur olub belə yazıram:

Adam var milləti talayır, didir,
Yaxşılıq yerinə yamanlıq edir,
Günah yumaq üçün Məkkəyə gedir,
Şeytan da şeytana daş atır Allah!

Əziz eloğulları! Bu günlər hamımız didərgin bir həyat yaşayırıq. Gözümüz öyrəşdiyi yaylaqlar, könlümüzü açan bulaqlar, biçənəyimiz olan dağlar və düzlər artıq xatirələrə dönür. Bir çox dağdan ağır kişilər qəribliyə dözməyərək dünyasını dəyişdi. Şen olsun Azərbaycanı, doğma və əbədi Vətənimizdir. Ancaq yad əllərdə qalan dədə - baba yurdları, müqəddəs qəbirstanlıqlarımızla yanaşı orada, Qərbi Azərbaycanda dədə-babalarımızın ruhları nigaran-nigaran yol gəzləyir. Çox əfsus ki, cavanlarımız qocalır, qocalarımız isə dünyasını dəyişir:

Burda mənə hər şey yaddı,
Nə yedimsə ağı daddı,
Bir yarım var vətən addı,
Ov dərəsi, göl yeridi.

Özümüzdən asılı olmayaraq şəhərliyə döndük. Şəhər isə bizi öz dəyirmanında üyüdə - üyüdə gedir:

Dağ oğluyam, dözənmirəm şəhərə,
Mənim könlüm o dağlarda qalıbdı.
Coşqun təbiətim, şair ilhamım,
Zümzüməli bulaqlarda qalıbdı.

Gör necə dəyişdi zamana, devran,
Qan içən kəsildi insana insan,
Adın qaçqın oldu, ay şair Salman,
Elin - oban uzaqlarda qalıbdı.

Doğma yurddan uzaq düşən dağ kimi kişiləri qəriblik vaxtsız-vədəsiz torpağa tapşırdı. Çoxları da müxtəlif xəstəliklərə düçar oldu. Əli-qolu kərəntiyə, belə, yabaya öyrənmiş adamlar şəhər yerində tor-top olaraq qanadı sınmış quşa döndü.Kimi «Eraz »,kimi isə «vəhşi gəlmələr » deyə tanıdı. Ancaq tam sınmadıq. Nəyə qadir olduğumuzu göstərdik. Tikintidə, sənayedə, ticarətdə, kənd təsərü-fatında biz öz bacarığımızı göstərə bildik. Çox şükür ki, sınmadıq, əyilmədik.

Hörmətli oxucularım! Mən də get - gedə yaşa doluram. Biz insanıq. Insan isə dünyada əbədi deyil. Hər bir insan çalışır ki, bir iz əyləsin. Mənim gücüm və təbim sözdə olub. Nəyə nail olmuşamsa, sizə borcluyam. Siz mənə qol - qanad verdiniz. Sizə inanıb söz və saz dünyasında axsamadım. Bir yerdə çıxış edəndə, görüşə gedəndə sizi arxamda hiss etmişəm. Elə bilmişm ki, məni yox, sizi alqışlayırlar! Mən isə həmişə sizdən bir istiqanlıq, bir doğmalıq, bir qayğı hiss etmişəm. Bu da mənə dünyalar qədər var-dövlətdən daha çox artıqdır. Deməli mən sizin bir parçanızam:

Sənət meydanında çox sınanmışam,
Qorxuda bilməyib boran - qar məni.
Coşqun ilhamıma arxalanmışam,
Tanıyır yaxınlar, uzaqlar məni.

Əziz oxucularım!

Bu kitabım «Dünya, kimin dünyasısan» adlanır. Doğrudan da bu dünya fani bir dünyadır. Insan övladı bu dünyada qonaqdır. Qonaq isə abırlı – həyalı olmalıdır. Çünki, qabağımızda hamımızın gedəcəyi bir məkan var - Axirət deyirlər onun adına! Orada isə heç kəsə fərq qoyulmaz. Hər kəsin əməlinə görə onun yolunu göstərəcəklər. Bu yol Cənnət yoluda ola bilər, Cəhənnəm yolu da!

Insan, çalış aldatmasın
Bu fani dövran bizi.
Yolumuzdan çıxartmasın
Cin bizi, şeytan bizi.
Kimlər gəlib, kimlər gedib,
Bircə anlıq fikirləş,
Fərman haqqın əlindədir,
Tərk edəcək can bizi.

Tarixi tamam oldumu
Keçən - keçər, nə çara.
Əzrayılın kəməndindən
Qaçacaqsan sən, hara?

Qaçmaq qismət olmayıbdı
Mənəm deyən şahlara.
Bilin qabaqda gözləyir
Ərəsət - divan bizi!

Əmanətdir, əbədi döy,
Gələn karvan dönəcək.
Ömür şamın əriyərək,
Tamam olub, sönəcək.
Hinkir - Minkir əldə dəftər
Hesabata gələcək.
Salman, yalvar bağışlasın
Qadiri - Sübhan bizi.

Allah bizim və bizim valideyinlərimizin, yeddi arxadan dolananlarımızın günahlarını bağışlasın!

Allah bağışlayan və Rəhm edəndir, Rəhimlidir!

Bizi xata-bəladan, şər-kələkdən, bədnəzərdən qorusun!

Ona görə də bu kitaba «Dünya kimin dünyasısan» adı verdim və sizin öhdənizə buraxdım, əziz oxucularım!

***Sizi canı qədər sevən, sözündə və könlündə yaşadan:***
***SALMAN QAZI***



**XALQIMIN GÜNƏŞI**

Xalqımın günəşisən, şölən tutub dünyanı,
Qayıdışın xilas etdi oddan Azərbaycanı,
Bütün planet sevir BÖYÜK HEYDƏR babanı,
Yurdun xilaskar oğlu – xalqımın günəşidir!
Millətin HEYDƏR oğlu – xalqımın günəşidir!

Sinə gərdi düşmənə, saxladı qan – qırğını,
Otuzdurdu yerinə dişi qanlı yağını,
Daha ana – bacılar görmür övlad dağını,
Bunun səbəbkar oğlu – xalqımın günəşidir!
Millətin HEYDƏR oğlu – xalqımın günəşidir!

Daha şəhid almayır Şəhidlər xiyabanı,
Xilas etdi bu dərddən qız – gəlini, ananı,
Bu dünyaya tanıtdı doğma Azərbaycanı,
Bu Vətənin nər oğlu – xalqımın günəşidir!
Millətin HEYDƏR oğlu – xalqımın günəşidir!

«Ayını» əhliləşdirən, «pələngi» cilovlayan,
«Qurdun» dişini qıran, «tülküləri» qovlayan,
Neçə qorxunc « heyvanı » yerindəcə ovlayan,
Xalqını sevər oğlu, xalqımın günəşidir!
Millətin HEYDƏR oğlu – xalqımın günəşidir!

Millətin hər dərdinə ürəkdən şərik çıxan,
Alınmaz qalaları alan, zirvədən baxan,
Yağının başı üstə odlu şimşək tək çaxan,
Xalqın igid ər oğlu – xalqımın günəşidir!
Millətin HEYDƏR oğlu – xalqımın günəşidir!

Bir yenilik gözləyir hamı bu xoş insandan,
Sorağına gəlirlər bu gün bütün hər yandan,
Dəfələrlə çıxıbdı zamanın sınağından,
Vaxtın təzə – tər oğlu- xalqımın günəşidir!
Millətin HEYDƏR oğlu – xalqımın günəşidir!

**14. 07.1995**

## BU YOL HEYDƏR YOLUDUR

Bir yolun yolçusuyuq, vətəndaş sən də, mən də,
Bu yolu elə gedək, azmayaq duman - çəndə,
Bu yolu bizə çəkib Allahı sevən bəndə,
Biz getdiymiz bax bu yol, bilin Heydər yoludur!

Millətimi tanıdan Ulu Öndər yoludur!

Bu yoldan sapanları uçrum, zillət gözləyir,
Yenə aclıq, çılpaqlıq, həm səfalət gözləyir,
Yenə də çaxnaşmalar, kin - küdurət gözləyir,
Bu yoldan yayınmayın, bu yol Heydər yoludur!
Bu yol sınaqdan çıxıb, bu yol Öndər yoludur!

Kim bu yolu görmürsə, demək gözləri yoxdu,
Kimlər haqqı danırsa, demək sözləri yoxdu,
Kim bu yolda yanmırsa, odu – közləri yoxdu,
Bu yol haqqın yoludu, bu yol bəşər yoludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

Haqq sevəni Haqq bilək, ona arxa duraq biz,
O deyəni biz deyək, qoy bir olsun sözümüz,
Bəşəriyyətin içində açıq olsun üzümüz,
Bu yol gələcək yolu, bu yol səhər yoludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

Hər şey sülhdən keçir, odur sülhə tərəfdar,
Millətə arxalanıb, namusu – qeyrəti var,
Düşmənə torpaq verməz, Qarabağı qaytarar,
Bu yol oddan qorxmaz igid əsgər yoludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

Zəhmətinə bir baxın, yol çəkir, körpü salır,
Fəhləmiz, qulluqçumuz vaxtında maaş alır,
Milləti fikirləşir, xalqın qeydinə qalır,
Bu yolla addımlayan Heydərin ər oğludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

Bakı tanınmaz olub, yenidən gözəlləşir,
Neçə – neçə lahiyə gəlib burda birləşir,
Dəmiryollar, kəmərlər sürətlə genişləşir,
Indii « **NABUKKO** » gəlir, Ceyhanın bir qoludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

Bizim nicat yolumuz nə Mina, nə Turdadı,
Ey Məkkə, Mədinə gəzən, Məkkə, Mədinə burdadı,
Allahın sevdiyi yer, Zəm – Zəm, Kəbə burdadı,
Bu Allahın seçdiyi Böyük Dindar yoludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

Ey insan! Dur fikirləş, öz yolunu seç, tanı,
Bu yoldan başqa bir yol göstər görüm,de, hanı?
Bu yol zirvələrə aparır Azərbaycanı,
Bu yol rifah yolu, bu yol zəfər yoludur!
Bu yol Heydər yoludur, Ulu öndər yoludur!

**12. 01. 2009**



# USTADNAMƏLƏR ÇƏLƏNGI



## INSAN

Dünyaya gəlibsən, getməyin də var,
Fikir veribsənmi bu yola insan?
Dünyada yığdığın, dünyada qalar,

Qurşan zəhmətinlə halala insan.

Qabildən qalıbdı paxıllıq, kinlik,
O vaxtdan yol gəlir neçə minillik,
Hər vaxt söylənəcək mərdlik, kişilik,
Pisliyi qəlbindən qovala insan.

Hörmət görməlidir insan insandan,
Gen dolan, aralaş şərdən-böhtandan,
Sənə nə gələcək qırğından-qandan?
Batmaynan günaha-babala insan.

Göstər necə varsa səxavətini,
Ataya-anaya et hörmətini,
Bir Allaha olan məhəbbətini,
Dəyişmə dövlətə, var-hala insan.

Ölən kimi, qara torpaq gizləyir,
Xeyri-şəri yazanların izləyir,
Nakür-Makür əldə dəftər gözləyir,
Cavab hazırdımı, suala insan?

Mənəm-mənəm demə, deyənlər hanı?
Fələk viran qoydu çox xanimanı,
Özünü dərk elə, özünü tanı,
Qayıt əyri yoldan düz yola insan.

Adəmi cənnətdən qovdurdu bir dən,
Günahkardı günahlara sövq edən,
Milyonçu görmüşəm, əli boş gedən,
Ürəyim ağrıyıb bu hala insan.

Dünyanın neməti yuxuya bənzər,
Bu yolda məhv oldu çox sərkərdələr,
Əzrayıl götürmür nə qızıl, nə zər,
Qəflətən keçirir çəngələ insan.

Salman Qazi sizin kimi qonaqdır,
Hələ görəcəyim qabaqda haqdır.
Necoldu Suleyman, hardadır taxtı?
Dayan, bir az qayıt əzələ insan.

**22.06.1997.**

## USTADNAMƏ

Şair qarşısında, söz meydanında,
Hər kəs öz yerini bilsə yaxşı olar.
Nadanın - qanmazın çək qulağını,
Yerində payını alsa, yaxşı olar.

Söz dəryadı, söz dənizdi, sözümman,
Bu ümmana girişməynən beyguman.
Öz yükünü dərk eyliyib anla, qan,
O yükündə bi şey varsa yaxşı olar.

Söz qızıldı, söz mərcandı, söz ləldi,
Divani - təcnisdi, qoşma - qəzəldi,
Kökü müqəddəsdi, Allahdan gəldi,
Yazana Allahdan gəlsə yaxşı olar.

Söz yazan çox, şair olmaz hər yetən,
Şair bir zirvədi, başı duman - çən,
Bu yol ibadətlə, şəriətlə tən,
Bilənlər atını sürsə yaxşı olar.

Elə yaz ki, öldürməsin söz səni,
Oxucular sözdə görsün düz səni,
Səndən sonra, söz yaşatsın yüz səni,
Dildə, dodaqlarda qalsa yaxşı olar.

Salman Qazidəndi belə məsləhət,
Yazıram, oxuyan çəksin dələlət,
Bunları bilməyən olar xəcalət,
Xəcalət olunca, ölsə yaxşı olar.

**18.02.2004.**

## USTADNAMƏ

Pis söz deyənlərin özü utanar,
Qürurluq varsa da, xəcalət də var.

Dünya Süleymanı zəlil eyləyib,
Zülüm olan yerdə, mərhəmət də var.

Ağlı olan mənəm-mənəm söyləməz,
Yaxşı insan yamanlıqlar eyləməz,
Pisə yaxşı, yaxşıyasa pis deməz,
Haqsızlıq varsa da, ədalət də var.

Paxıllıqdan qaçar gözü tox olan,
Nə desən törədər zatı yox olan,
Ən xoşbəxt insandır dostu çox olan,
Demə, hər nə varsa var - dövlətdə var.

Salman, haqqa sığın, ondadır kərəm,
Halala sadiq ol, pis şeydir haram,
Əsil dostlar ilə hər yerdə varam,
Mərfətsiz varsa da, mərifət də var.

**10.02.2004.**

## ATMASIN

Insan oğlu bir məclisə buyursa,
Hörməti, izzəti, arı atmasın.
Dediyi sözlərdən gül ətri gəlsin,
Saxlasın böhtanı-şəri, atmasın.

Mənəm-mənəm deyib çox öyünməsin,
Faraş alışmasın, faraş sönməsin,
Küfür sözlər, həcvi-hədyan deməsin,
Tərtəmiz adama kiri atmasın.

Ləli tanıyarlar misin içində,
Yaxşılar seçilər pisin içində,
Işə pəl vurmasın işin içində,
Aralığa boran-qarı atmasın.

Zümrüd yüksək uçar şahin-şonqardan,
Canavar çəkinməz borandan-qardan,
Tülkü qaydasıdır, dolanar daldan,
Özünü irəli-geri atmasın.

Lovğalar ömründə oturmaz sakit,
Qapacaq adamı itin oğlu it,
Döşünə döyməsin hər ağıldan küt,
Vura bilməz Səməndəri, atmasın.

Salmanı çox çətin aldadar gözü,
Dərhal seçəsidir əyridən düzü,
Tanıyıram qudurğanı, quduzu,
Dolaşıq sözləri bəri atmasın.

**13. 12. 2001 Bakı**

## OLSUN GƏRƏK

Şair nə deyişər, nə də döyüşər,
Şairin sinəsi söz olsun gərək!
Şair el içində bişər, yetişər,
Şairin hər sözü düz olsun gərək!

Şair baş qoşarmı qanmaz, nadana,
Meydanda seçilər kəl ilə dana,
Şam gərək yandıra, pərvana yana,
Aşıq sinəsində saz olsun gərək!

Şair öyünürsə, demək dayazdı,
Qanacaqdan kasıb, mərfətdən azdı,
Bilin, ya sırtıqdı, ya utanmazdı,
Insanda həya, ar, üz olsun gərək!

Çaqqalda vərdişdir, gecə ulayar,
Haram didişdirər, artıq yalayar,
Quduz dəymiş itlər tutar, dalayar,
Onları qovmağa paz olsun gərək!

Kəsəllər başını banlasa fərə,
Haram gəlsə, halal dönər zəhərə,

Bağ becərən adam gərək bar dərə,
Adamı çeynəyən az olsun gərək!

Salman meyil salmaz böhtana-şərə,
Sözümdən payını götürsün hərə.
Soxum pis qohumun boyunu yerə,
Dost-qohum arası saz olsun gərək!

**14. 12. 2001. .**

**BU DÜNYA**

Insan oğlu, sən əbədi deyilsən,
Milyon illərdi ki, vardı bu dünya.
Sənli -mənli kimlər gəlib-gedibdi,
Çox bizi kimləri gördü bu dünya.

Bəzən yandırandı, ocaqdı-közdü,
Bəzən kef-damaqdı, söhbətdi, sözdü,
Kimə gül-çiçəkli bahardı, yazdı,
Kimiyə borandı-qardı bu dünya.

Kimiyə  hicrandı, kədərdi, qəmdi,
Kimə eyş-işrətdi, özgə aləmdi,
Kimiyə cənnətdi, baqi-Irəmdi,
Kimiyə qəfəsdi, dardı bu dünya.

Kimiyə zəhərdi, kimiyə baldı,
Kimiyə dəymişdi, kimiyə kaldı,
Kimnən danışandı, kimiynən laldı,
Kimiyə kələkdi, tordu bu dünya.

Salmana da az olmayıb divanı,
Itib ədaləti, yox kərəm-kanı,
Çılpaq yola salar gedən insanı,
Yaman dəliqanlı, kürdü bu dünya.

**09. 12. 2001**

**FƏLƏKLƏ OYNAMA, OXALAR SƏNI**

Çalış  hər yetənlə dostluq eyləmə,

Bir gün şər söyləyər, yaxalar səni.
Sağ olsun evində yol gözləyənin
Tumarlar, darayar, yaxalar səni.

Insan olan kəsdə şirin ola dil,
Çalış bir sözündən inciməsin el,
Əzrayıl başının üstündədir bil,
Bilmirsən harada yaxalar səni.

Əyləşəndə ağır əyləş, batman gəl,
Heç kəsin yolunda törətmə əngəl,
Insansan, insanla yola get, tən gəl,
Elə etmə vuralar, yıxalar səni.

Nə ara vurdurma, nə şər söyləmə,
Pislərdən kanar gəz, pislik eyləmə,
Zorluyam, qoçağam, pələngəm demə,
Tovlasa, ağıldan yuxalar səni.

Salman Qazidəndi belə məsləhət,
Pislikdən kənar qaç, mərfətni göstərt,
Sındırar qabını - Sirkə, olsa sərt,
Fələklə oynama, oxalar səni.

**29.11.2009.**





**DÜNYANIN**

"Beş günlük" deyiblər bineyi-başdan,

Gələn-gedən nə aparıb dünyadan?
Mənəm-mənəm demə, ayıl ay insan,
Axırı var, əzəli var dünyanın.

Var ilə, pul ilə çoxlu baş qatıb,
Neçə fatehləri alıb, aldadıb,
Kimə zəhər dadıb, kimə bal dadıb,
Fəndi-feli, əməli var dünyanın!

Sidqi-dildən "Allah" desən-hay verib,
Dünyamıza eşq-istəyi pay verib,
Hər canlıya öz donunda tay verib,
Çirkini var, gözəli var dünyanın!

Mən yaşa doluram, illər ötüşür,
Yavaş-yavaş saçlarıma dən düşür,
Şair Salman, növbə sənə yetişir,
Payızı var, xəzəli var dünyanın!

## DÜNYADAN KIM NƏ APARIB

Dünya saxlayan döy, gələn qayıdır,
Adəm nə apardı, mən nə aparım?
Varlı da, kasıb da əli boş gedər,
Şahlar nə apardı, mən nə aparım?

Insan başlar kəsib sərvətə görə,
Lələ, cavahirə, dövlətə görə.
Beş arşın payın var, şəriətə görə,
Firon nə apardı, mən nə aparım?

Çingiz, Batı, Teymur getdi əliboş,
Ömər Xəyyam öldü məzəli, meyxoş…
Dünyanın işini dünyadan soruş,
Sultan nə apardı, mən nə aparım?

Bərabər gəzirlər xeyir ilə şər,
Saf əməllər üçün yaranıb bəşər,
Qabaqda gözləyir ərəsət, məhşər,

Gedən nə apardı, mən nə aparım?

Hər gün ruzimi verə yaradan,
Qoruya böhtandan, şərdən, qaradan.
Möminlik qalıbdı mənə babamdan,
Babam nə apardı, mən nə aparım?

Hörmətdir insana həm şərəf, həm şan,
Bu hikmət qalıbdır mənə atamdan,
Öz əlimlə yola saldım dünyadan,
Atam nə apardı, mən nə aparım?

Uçub dağılıbdı xan sarayları,
Sənəti yaşadar sənətkarları,
Salmandan da qalar söz yadigarı,
Ölən nə apardı, mən nə aparım?

**12.12.98.**

## DÜNYADI

Bel bağlama bu dünyanın işinə,
Şər-kələkli, fitnə-felli dünyadı.
Qar-boranlı, sərt ayazlı qışı var,
Deməynən ki, allı-güllü dünyadı.

Çox atlını yəhərindən endirib,
Gur ocağı bir andaca söndürüb,
Könül əzib, ürəkləri yandırıb,
Əyrim-üyrüm çətin yollu dünyadı.

Çox çalışdım, bel büküldü, saçda dən,
Indi bildim ağarırmış saç nədən,
Haqsızlığı ürəyimi göynədən,
Ədavətli, min əməlli dünyadı.

Mən yazığı yandırıb da, yaxıb da,
Bəzi vaxtlar sevindirib, sıxıb da,
Düşmən olub, düşmən kimi baxıb da,

Qəm-hicranlı, qeylü- qallı dünyadı.

"Mənəm"-demə, mənlikləri alandı,
Milyonçunu çılpaq yola salandı,
Gedərgiyik, öz yerində qalandı,
Həmi məğrur, həm sanballı dünyadı.

Bil cənnət də, cəhənnəm də burdadı,
Kef-damaq da, eşq aləm də burdadı,
Alim, loğman, ağlı kəm də burdadı,
Axirətə bircə yollu dünyadı.

Salman Qazi, ayıl, yatma nahaqdan,
Artıq deyəsən hər gedərgi qonaqdan,
Görən nələr hazırlayıb qabaqdan,
Çox insafsız, gözü qanlı dünyadı.

**GƏLMIŞƏM**

Çox çətin peşədir, şair yaranmaq,
Bu sənətə məhəbbətdən gəlmişəm.
Buzlu bulaqlardan ilham almışam,
Qanadlanıb, təbiətdən gəlmişəm.

Dağda duman oldum, düzdə çən oldum,
Bəzən hicran döydü, bəzən şən oldum,
Gözlərim tox oldu, könlü gen oldum,
Haqq yaradan kəramətdən gəlmişəm.

Mənə yaraşmayır nə küdrət, nə kin,
Dalınca düşmədim, şanın-şöhrətin,
Üstündə əsmədim varın-döylətin,
Bol neymətdən, səxavətdən gəlmişəm.

Mənə ilham verib, hər qaya, hər daş,
Qartal dostum olub, bulaqlar sirdaş,

Cənnət guşəsiydi öz yerim, qardaş,
Canbaxça tək şeriyyətdən gəlmişəm.

Babalarım ad - sanıyla ucalıb,
Bac verməyib, yağılardan bac alıb,
Övlüyalar o yerlərdə qocalıb,
Hacxəlil tək ziyarətdən gəlmişəm.

Şəhər pis günlərə salıb Salmanı,
Qanmazlar şahmar tək çalıb Salmanı,
"Yerlilərmiz" "Yeraz" bilib Salmanı,
Bilmirlər ki, ülviyyətdən gəlmişəm.

**1992.**

**KEÇIR**

Tarix tək ömrümüz hey varaqlanır,
Yaşımız çoxalır, vədələr keçir.
Babalar mərfətdən körpü salıblar,
Kişilər əyləşir, gədalar keçir.

Illər il dalınca düzülüb gedir,
Ömrümüz-günümüz, nəzilib gedir,
Əlim yar əlindən üzülüb gedir,
Həyat naxışına ilmələr keçir.

Qartalın gəzdiyi zirvədir, dağdır,
Bülbülün sevdiyi bağçadır-bağdır,
Insan da tanınar neçə ki, sağdır,
Fəqət, bu dünyadan gör nələr keçir.

Bacar yaxşılıqdan sən də körpü sal,
Elinin-gününün gəl qeydinə qal.
Dünyada qalan döy nə döylət, nə mal,
Bil ki, il dalınca çox illər keçir.

Salman nəsyət vermir aqil olana,
Indi insan gərək sakit dolana,
Oturub, durmağın yerini qana,
Çünki bizə baxıb nəsillər keçir.

**MƏNI**

Sənət meydanında çox sınanmışam,

Qorxuda bilməyib boran-qar məni.
Coşqun ilhamıma arxalanmışam,
Tanıyır yaxınlar, uzaqlar məni.

Məhəmməd Sadaxlı çəkdi sınağa,
Mahmudu bənzətdim uca bir dağa,
Sözlərim yayıldı dilə-dodağa,
Neçə gözəllərmiz varaqlar məni.

Şeirdə qaladı Mahmud, Zəlimxan,
Bir yan Azərbaycan, bir yanı Iran.
Bülbül tək ötürlər Əşrəf, Tərmeyxan,
Hələ aşıqlarımız soraqlar məni.

Könlüm Baği-Irəm, gəzən istəyir,
Dərin bir dəryayam, üzən istəyir,
Canlı xatirəyəm, yazan istəyir,
Oxuyub Borçalı Kamandar məni.

Salmanam, ustadım ərşi-əlada,
Səsləsəm o saat yetişər dada,
Ayağım torpaqda, fikrim səmada,
Alıb qanadına arzular məni.

**SORUŞ O DESIN**

Mənim kimliyimi soruşan dostum,
Get, məğrur qartaldan soruş, o desin.
Əzəmət, vüqarmı bilmək istəsən,
Dumanlı dağlardan soruş, o desin.

Torpaqdan xəbər al halallığımı,
Insanlardan soruş insanlığımı,
Mənim təmizliymi, həm saflığımı,
Büllur bulaqlardan soruş, o desin.

Sənətə-şeirə vurğunluğumu,
Sazımla, sözümlə çılğınlığımı,
Eşqimi, təbimi, coşqunluğumu,

Gur axan çaylardan soruş, o desin.

Səsimə Koroğlu nərəsi keçib,
Sevgimə Məcnunun həvəsi keçib,
Şerimə Vurğunun nəfəsi keçib,
Vəfalı dostlardan soruş, o desin.

Heç vaxt, əyilmərəm yalana-şərə,
Bal deyə bilmərəm ağı-zəhərə,
Əgər şübhən varsa belə hünərə,
Yalçın qayalardan soruş, o desin.

Cilovlamaq olmaz söz səməndimi,
Nəsimi sözündən geri döndümü?
Mənim sadəliyim, mənim könlümü,
Körpə uşaqlardan soruş, o desin.

Mərddən öyrənmişəm mərd mənliyini,
Yaylaqlar pay verib sərinliyini,
Salmanın könlünün dərinliyini,
Dərin dəryalardan soruş, o desin.

**24. 07. 2001**

## MEHRACNAMƏ

Yamanca dardayam, özün dayaq ol,
Ya Allahım, ya Məhəmməd, ya Rəsul.
Bu zülmətdə özün mənə çıraq ol,
Ya Allahım, ya Məhəmməd, ya Rəsul.

Sən demə vardaymış adım-hörmətim,
Kasıbladım, itdi qədir-qiymətim,
Gözüm əlindədir, səndən qismətim,
Ya Allahım, ya Məhəmməd, ya Rəsul.

Şair hara, pis gün hara, dərd hara?
Düşmüşəm borana, batmışam qara,
Yetiş köməyimə, sən eylə çara,
Ya Allahım, ya Məhəmməd, ya Rəsul.

Salman sizi ustad bilib əzəldən,
Sizə qul olmuşam, mən cani-dildən,
Özün xilas eylə fitnədən-feldən,
Ya Allahım, ya Məhəmməd, ya Rəsul.

**1999.**

## TƏMIZ OLSUN

Nəyimə lazımdı dünyanın varı,
Vicdan təmiz olsun, əl təmiz olsun!
Üzümü tutmuşam Allaha sarı,
Məqsəd təmiz olsun, yol təmiz olsun!

Şeirə bağlıyam, sözdü-var halım,
Dolanır dağlarda şair xəyalım.
Qələmə verilib hüşum-kamalım,
Sazım cingildəsin, tel təmiz olsun!

Anlayan dostlara kainatam mən,
Sinəsi hikmətli təbiətəm mən,
Təpədən dırnağa məhəbbətəm mən,
Çiçəklər açılsın, gül təmiz olsun!

Məni Nizamiylə söylədir xəyal,
Ürəyimdə ağrı, gözümdə sual,
Salman, keçənlərə yaxşı nəzər sal,
Ürək geniş olsun, dil təmiz olsun!

## TƏLƏSMƏ INSAN

Ərəsət- sirata tələsən insan,
Qabaqda qıl körpü, qaynar qazan var!
Demə iraqdasan haqq nəzərindən,
Əldə dəftər xeyri-şəri yazan var!

Hinkir-Minkir edər sual-cavabı,
Cavab verməyənə verər əzabı,

Bağlı müəmmadır ömür kitabı,
Pis-yaxşıya, xeyrə-şərə yozan var!

Lüt-üryan gedərsən, qalar var-halın,
Səni qutarammaz döylətin, malın,
Əzrayıl gələndə pisləşər halın,
Fələk kimi əli-əldən üzən var!

Hər kəsə bir qismət verib yaradan,
Canın qutaranmaz oddan-qoradan,
Salman Qazi bir gün gedər dünyadan,
Tarix kimi yaddaşından pozan var!

**12. 11.1998.**

**TANRISINA SIĞINMIŞAM DÜNYANIN**

Hey deyirlər beybafadı, fanidi,
Budağına sığınmışam dünyanın.
Nur bilmişəm günəşini, ayının
Çırağına sığınmışam dünyanın.

Hikmətinə, heyrətinə bağlıyam,
Həmi aşıq, həmi şair oğluyam,
Bir dərvişəm - aranlıyam, dağlıyam,
Torpağına sığınmışam dünyanın.

Bir gün acı, bir gün şəkər-bal olur,
Çox dəyişib, bunda neçə hal olur?
Yaz ayları çiçək olur, gül olur,
Yaylağına sığınmışam dünyanın.

Qarlı dağlar, zirvələrdən aşmışam,
Selə dönüb, çaylar kimi daşmışam,
Gözəllərdən ilham alıb, coşmuşam,
Fərağına sığınmışam dünyanın.

Gedərgiyəm, qalan varmı, mən qalam?
Bir zirvəyəm, duman qalam, çən qallam,
Ölənədək bu dünyayla tən qalam,
Qılığına sığınmışam dünyanın.
Ömür verən, qismət verən özüdür,
Ilham verən, qanad verən özüdür,
Kömək duran, nicat verən özüdür,

Tanrısına sığınmışam dünyanın!
**10.03.99**

**EYLƏR, EYLƏR**
**(Ustadnamə)**

Oğul, halal dolan, halaldan yapış,
Halallıq kişini bəy eylər, eylər.
Haramlıq insana ləkə gətirər,
Alçaldar insanı bay eylər, eylər.

Tamah qabağında çoxu alçalıb,
Kor şeytan alladıb, ayağa salıb,
Sonra peşman olub, bəd günə qalıb,
Bəd nəfis ağanı zay eylər, eylər.

Zəhmətlə yetişər bağlar – baxçalar,
Bülbül gülü, gül bülbülü soraqlar,
Günün xoş keçərsə könül açılar,
Qar boranlı qışı yay eylər, eylər.

Mərdin bir adı var, çalış dəyişmə,
El gözündə ucal, ayağa düşmə,
Nadana baş qoşub, ona ilişmə,
Səni də özünə tay eylər, eylər.

Salmanın ötüşür vaxtı – vədəsi,
Başının üstündə əcəl kölgəsi,
Imasız adamla eyləmə bəhsi,
Imanı şeytana pay eylər, eylər.
**11.06.2008**

**ELIM VAR OLSUN**

Allah nə veribsə o da bəsimdi,

Halala öyrəşən əlim var olsun!
Xeyir danışmağı kəramət bilib,
Ucalıq gətirən dilim var olsun!

Şah dağı, Kəpəzəm, Qobustanam mən,
Yaralı Türkmənçayam, Gülüstanam mən,
Söhbəti tükənməz bir dastanam mən,
Yaddaşlara yazan qələm var olsun!

Lap qədimdən gəlir sənət, şeriyyət,
Dodağı nəğməli olub bu millət,
Oğlunda, qızında görmüşəm qeyrət,
Sənətkar, rəsam, alim var olsun!

Vətənim amalım, elim murazım,
Sadə insanlardı söhbətim – sözüm,
El sevən şairə fərman nə lazım,
Mənə şair deyən elim var olsun!

Ey Salman, elindən uzaqlaşma ha.....,
El gözünnən düşən ucalmaz daha,
Mən elin, el mənim, şükür Allaha,
El mənə göstərən yolum var olsun!

**26.02.2008**

## EYLƏR

Qışın qaydasıdır şaxta gətirər,
Bağlayar yolları, qar-boran eylər.
Çərxi-fələk bir kəs ilə düşməsin,
Onu gözdən salar, eldə xar eylər.

Yazda yal-yamacı bəziyər çiçək,
Bir-birindən gözəl, ətirli, göyçək,
Ha yana boylansan açılar ürək,
Insanın könlünü novbahar eylər.

Yayda sinəsini açar yaylaqlar,
Hər yandan axışar, gələr qonaqlar,
Yadıma düşəndə büllur bulaqlar,

Könlüm kədərlənər, göz qubar eylər.

Payızda saralar açılan güllər,
Dəyişər təbiət, susar bülbüllər,
Aramsız yağışlar, car olan sellər,
Bu fani dünyanı mənə dar eylər.

Bu dörd fəsil bərabərdir bir ilə,
Insanın ömründə dönər müşkülə,
Dərd-hicran Salmanı gətirər dilə,
Şair qələm alar, ahuzar eylər.

**26.01.2004.**

## AY INSAN OĞLU

Gəl söylə dərdini, şərikin olum,
Axı mən insanam, ay insan oğlu.
Şəriət, təriqət, ibadət bilən,
Bir əhli quranam, ay insan oğlu.

Sığındım Allaha, odur pənahım,
Mən onun nökəri, o mənim şahım,
Yəqin bağışlayar, varsa günahım,
Mən əhli imanam, ay insan oğlu.

Dünyaya sığışmır söz dünyam mənim,
Könlümdə yerləşib yüz dünyam mənim,
Burda döy, ordadı öz dünyam mənim,
Mən burda mehmanam, ay insan oğlu.

Sənə görünməyən var – dövlətim var,
Əl çatmaz, ünyetməz təbiətim var,
Mənim eşq – istəyim, məhəbbətim var,
Mən şair Salmanam, ay insan oğlu.

**29.09.2005.**

## BELƏLƏRI VAR

Halal danışanı haramda gördüm,

Adam var qisməti qabaxdan çəkər.
Adam var tikəsin min yerə bölər,
Adam var qohumdan, uzaqdan çəkər.

Adam var, unudur əhdü – peymanı,
Tutsa zəli kimi soracaq qanı,
Adam var seçəmmir yaxşı – yamanı,
Adam var, əl tutmaz, ayaqdan çəkər.

Adam var, haramdan doymayır gözü,
Haram güldürməsə, gülməyir üzü,
Adam var, yığıla tay olmaz yüzü,
Adam var minnəti bir haxdan çəkər.

Adam var, kasıbdı qanacağından,
Min yaxşılıq etsən çıxar yadından,
Salman, ləkə gəlməz şair adından,
Sənə ləkə çəkən, nahaqdan çəkər.

**17.10.2007**

**QABAĞINDA**

Ilahi nə günah sahibi idim,
Utandırdın məni yar qabağında?
Bağladın Tərlanın qanadlarını,
Sərçəyə döndərdin Sar qabağında.

Ruzi – qismətimi səndən istədim,
Sən mənə nə verdin, çox şükür dedim,
Halal əməyimlə qazandım, yedim,
Əyilib, sınmadım var qabağında.

Çətin sınaqlarda yoxladın məni,
Bağrımın başından oxladın məni,
Yazığın gəlmədi, saxladın məni,
Tufanda, boranda, qar qabağında.

Yüklədin belimə kədəri – qəmi,

Bu yükü yükləsən batardı gəmi,
Qocaltın Salmanı, itdi görkəmi,
Ömrü bada verdim kor qabağında.

**8.11.2007**

**OĞLUMA**

***Nəsihətnamə***

Şükür yaradana, daha böyüdün!
Verəcəm bir neçə nəsihət, oğlum.
Insan möhtacıdır nəsihət, öydün,
Sayma sən bunları qəbahət, oğlum!

**1-ci**

Salam ver, məclisə girən zamanı,
Bacar tezcə tanı yaxşı-yamanı,
Pis hərəkət edib, qaraltma qanı,
Vermə başqasına əziyyət, oğlum!

**2-ci**

Özündən böyüyə göstər ehtiram,
Heç yerdə deməynən nəhəngəm, zoram.
Halalı aparar, gətirsən haram,
Bil ki, əl kiridir var-dövlət, oğlum!

**3-cü**

Dostları seçəndə, yaxşı seç, tanı,
Dosta əsirgəməz yaxşı dost canı,
Ildə bir dəfə kəs haqqa qurbanı,
Göstər göydəkinə kəramət, oğlum!

**4-cü**

Ailə həyatı quran zamanı,
Bircə anlıq düşün ata-ananı,
Tamahgar yaradıb Allah zənanı,
Gözlə, çəkmiyəsən əziyyət, oğlum!

**5-ci**

Arvad qohumundan qaç, kənar dolan,

Onun qohumluğu yalandır, yalan,
Bir az üz göstərsən edəllər talan,
Görmədim onlarda mərifət, oğlum!

**6-cı**
Bacın ürəyindir, sən də ürəksən,
Hər bir dar məqamda ona gərəksən,
Allah köməyindir, demə ki, təksən,
Göydəkindən istə mərhəmət, oğlum!

**7-ci**
Əlin açıq olsun, verən Allahdır,
Yazıqlara kömək böyük savabdır,
Ailədə haramlıq pisdir, günahdır,
Onlara hamsını sən öyrət, oğlum!

**8-ci**
Hər yetən kimsəyə tanıtma qapın,
Yerindəcə çürüt haqqı - hesabın.
Qoy evində qalsın, söhbətin-gapın,
Olsun ailəndə şərafət, oğlum!

**9-cu**
Seçəndə, qızların mərfətnə bax,
Ailəsni yoxla, hörmətnə bax,
Çalış dostluq eylə, saxəvətnə bax,
Yaxın durma, yoxsa nazəkət, oğlum!

**10-cu**
Sən Salman Qazinin yadigarısan,
Ömrümün çırağı, həm baharısan,
Hər iki bacının Iftixarısan,
Verməynən onlara əziyyət, oğlum!

**03. 01.1993.**

**ÖMÜR KARVANI**

Çəkir karvanını ömür sarvanı,
Nə dəvə yorulur, nə sarvan durur.
Mən başa düşmürəm gedən karvanı,
Illərmi gödəldir, aylarmı qırır.

Sarvan tanıdığım o sarvan deyil,
Hardan peyda oldu, hardan çıxdı bu?
Karvan da özgədir, o karvan deyil,
Deyən dəyşik salıb vədə – vaxtı bu!

Sarvan geri baxmır bir görəm kimdi,
Karvanı haraya çəkib aparır?
Bu nə göstərişdi, bu nə hökümdü?
Elə bil sümükdən əti qoparır.

Karvanın üstündə kimlər getməyir,
Heç bir kəs tullanıb qutara bilmir!
Gedənlərin könlü nələr istəyir,
Özünnən bircə şey apara bilmir!

Birtəhər cəhd edib çatdım sarvana,
Dedim ki, ay ağa qaçhaqaç nədi?
Sarvan təlaş ilə dönərək, - mənə,
Sirat karvanıdır, bu karvan dedi.

Sarvanı tanıdım, Adəməm, dedi –
Karvanı tanıdım, ömür karvanı.
Salman, bu dünyadan umduğun nədi?
Xatırla, dünyadan umanlar hanı?

**30.11.2008**



**A DÜNYA**

Sənnən dostluğumuz tuta, tutmaya,
Mən dostun quluyam bil ki, a dünya.
Dost dostunu çətin anda atmaya,
Budu insanlığın ilki, a dünya!

Dəyişib zamanın ruzi - ahəngi,
Bir gör kim kiminlə eyləyir cəngi,
Daha bəyənmirlər şiri – pələngi,
Çaqqalla birləşib tülkü, a dünya.

Üzdə haqq danışan əyyaşa dönüb,
Doğrudan dəm vuran oğraşa dönüb,
Yaltağın gözündə qumaşa dönüb,
Kirpinin tikanlı kürkü, a dünya.

Allah bəndələri qan axtarırlar,
Əzrailə dönüb can axtarırlar,
Aranı vurmağa an axtarırlar,
Olublar biz, rəndə, kərki, a dünya.

Çəkibsən Salmanı hər imtahana,
Mən sənin əlindən doymuşam cana,
Kim ki qan axtarır qoy düşsün qana,
Boş qalsın atının tərki, a dünya!

**22.08.2009**

.



## NAHAQDAN FƏLƏKDƏN KÜSDÜM - INCIDIM

Nahaqdan fələkdən incidim, küsdüm,
Öz əlimlə oxlamışam ömrümü.
Sevincə – fərəhə həsrət qoymuşam,
Qəm – kədərdə saxlamışam ömrümü.

Allah məni dərd – möhnətə haylayıb,
Sınayanda çətinlikdə sınayıb,
Nadan məni düzgünlükdə qınayıb,
Öz – özümdə ağlamışam ömrümü.

Körpəlikdən ağır günlər görmüşəm,
Ixtiyarmı bir qanmaza vermişəm,
Qaşıq – qaşıq övladlarma bölmüşəm,
Tikə – tikə doğramışam ömrümü.

Mən Salman Qaziyə nələr etmədi?
Mənim ilə mağıl yola getmədi,
Çətin gündə köməyimə yetmədi,
Dəfələrlə yoxlamışam ömrümü.

**15. 12. 2011**



## DOSTUM

Dəvəni eşşəyin quyruğnm qoşmmmq,
Səni tək oğlmnm yaraşmaz, dostum!
Deyən tanımırsan şairi hələ,
Adam bilmədiyni danışmaz, dostum!

Mənə dərs deyir bir əhli - ürfan,
Bunda nə bilik var, nədə ki iman,
Onun dostlarıdı iblislə, şeytan,
Bizimlə qaynayıb-qarışmaz, dostum!

Molla sadə olar, təkəbbür olmaz,
Gözləri tox olar, naşükür olmaz,
Yüz yol həccə getsə, ondan pir olmaz,
Bunu başa düşmür bu qanmaz, dostum!

Həm qələm əhliyəm, həmi də dindar,
Nədən soruşsalar, sinəm üstə var,
Sərraflar incini-ləli tanıyar,
Mislə qarışdırıb, səhv salmaz, dostum!

Sözündə fikirləş, qəbahət etmə,
Uyub şirin dilə, cinmyət etmə,
Pis məsləhət verib, əziyyət etmə,
Şair hər bir sözə uyammaz, dostum!

Salmanın sözöndə həqiqət ara,
Gədaya " bəy" demə açıq-aşkara,
Qardaş, bu mollada, təriqət hara?
Qanmazlar qananla barışmaz dostum!

**23.11.2005**



## IKI ƏLLI YAPIŞMAYNAN DÜNYADAN

Ikiəlli yapışmaynan dünyadan,
Nə sənin döy, nə mənim döy, nə onun.
Bu dünyada tanrı mənəm dedilər,
Axrı hanı Namrud ilə Fironun?

Suleymanlar, Rüstəm Zallar köçübdü,
Şir biləkli pəhləvanlar köçübdü,
Canlar alan neçə canlar köçübdü,
Yerindədi bu tərəzi, bu qanun!

Dünya zərdi, şeş istərsən yek verər,
Dərddən–qəmdən dağdan ağır yük verər,
Aparmağa çox çətin ki, tük verər,
Bilinməyir nə əzəlin, nə sonun.

Paxıl olmaz, xain olmaz xas insan,
Paxılın, xainin dostudur şeytan,
Nə olsun oxuyur ayəti - Quran,
Qanacaqda tayı olub qoduğun!

Dünya gözəl, dünya çirkin, dünya xoş,
Bu Kannan Məkana getmə əliboş,
Salmanı görənlər gördülər sərxoş,
Haram piyaləyə vurmaz dodağın!

**28.04.2010**



# DIVANILƏR ÇƏLƏNGI



## A TANRIM

*Mehracnamə*

Ikiəlli yapışmışam ətəyindən, a Tanrım,
Qul bəndənəm, qoyma məni nəzərindən, a Tanrım.
Yerin-göyün sahibisən, övliylar sultanı,
Yaranannan mən agaham hünərindən, a Tanrım.

Yeri-göyü, ərşi-gürşü altı günə yaratdın,
Adəmi Sərəndibə, Həvvanı Ciddiyə atdın,
Habili dəfn eyləməyi, Qabilə sən öyrətdin,
Heçcə bir şey qaçammadı nəzərindən, a Tanrım.

Sənsən verən qismətini ağanın da, qulun da,
Ismayıl tək mən hazıram, qurban gedəm yolunda,
Bilirəm ki, əməllərim yazılır sağ-solumda,
Günahımla qaçan döyləm qabağından, a Tanrım.

Nə edirəm, nə tuturam, arxalanıram Sənə,
Bağışla günahlarımı, rəhm eylə qul bəndənə,
Bissmillah irrəhman irrəhim,dilimdə dönə-dönə,
Dərk edirəm, anlayıram, mən dərindən, a Tanrım.

Harda olsam ya Rəbbim, öyünürəm səninlə,
Fəxr edirəm mən adınla, işinlə, hünərinlə,
Çağır, tapşır, çərxi-fələk oynamasın mənimlə,
Iraq qoyma sən Salmanı gözlərindən, a Tanrım.

**1996**

## DANIŞ

***( Dodaqdəyməz divani)***

Gəl əyləşək əhli dindar,
Danış, Allahdan danış.
Keçənlərə nəzər yetir,
Ərşdə Haqdan danış!
Yada salaq keçənləri,
Yatanları ayıldaq,
Şəriətdən, təriqətdən,
Ali dərgahdan danış!
Hər gələn kəs qayıdacaq,

Aylar-illər keçsə də.
Siratı yaddan çıxaran,
Qaniçən, qan içsə də.
Həyat qalan, qalan yalan,
Kəndinə Zal desə də
Əlləri açıq gedən
Iskəndər şahdan danış!

Hər kəsin alnındadı
Haqdan yazılan yazı.
Əzrayıl gələr can istər,
Əldə Haqqın kağızı.
Dil yanılar ləhcəsində,
Kəkkildəyər dil – ağızı.
Qazi, ata – ana adı,
Çıxacaq yaddan, danış!

**29.01.2009**

## QABAQDADI

Ayıl, yatma insan oğlu,
Müsibət qabaqdadı.
Bu dünyanın qonağısan,
Şahadət qabaqdadı.
Sağ–solunda xeyir–şəri,
Yazanların oyaqdır.
Əllərdə əməl dəftəri,
Hesabat qabaqdadı.

Bir çox ikanlı görmüşəm,
Lüt–üryan köçüb gedib.
Gözlərini bir geniş aç,
Gör kimlər keçib, gedib.
Əcəl şərbətini şahlar,
Sultanlar içib gedib.
Özündən razı gəzmə,
Qiyamət qabaqdadı.

Baş qarışıb, ağıl çaşıb,
Şeytan aldadıb səni.
Nəfsini ləkələyib,
Çirkaba atıb səni.
Döndərib qara qəpiyə,
Tamaha satıb səni.
Pul verib körpülər keçən,
Bil, sirat qabaqdadı.

Salman Qazi, sur çalınar,
Durar küllü məxluqat,
Hər bir kəs öz əməlinə
Orda verər hesabat.
Yaxşı yamandan seçilər,
Təzdən başlayar həyat.
Burda gəzmə həqiqəti,
Həqiqət qabaqdadı.

**17.10.2008**

## ÇƏTINDI

Dərya gəzmə dəli könlüm,
Qəvvas olmaq çətindi.
Çalış dəymə bircə qəlbə,
Könül almaq çətindi.
Bu dünyanın dərdi çoxdu,
Daşımaqdan qocaldım.
Qan - qalmağal olan yerdə,
Deyib - gülmək çətindi.

Cavanlıqdan od almışam,
Var bədənim közdədi.
Allah dedim, əl uzatdım,
Səbrin olsun, döz - dedi.
Həm təsəllim, həm əlacım,
Qələmdədi, sözdədi.
Söz dediyin bir ümmandı,
Orda üzmək çətindi.
Salman Qazi, bu dünyanın,

Amanı çox, ahı çox.
Hamıya bir gözlə baxmır,
Fələyin günahı çox.
Gədalar Suleyman olub,
Sultanı çox, şahı çox.
Dərd - vərəmli ömür sürüb,
Dərdli ölmək çətindi.

**2.12.2003.**

**BIR VƏ BIR**

Bel bağlama bu dünyaya,
Sonu ara birvəbir.
Mənəm deyəni ağlatdı,
Vurdu yara birvəbir.
Əzdi bəyləri - xanları,
Yerlə yeksan eylədi,
Əflatun, Loğman tapmadı,
Dərdə çarə birvəbir.

Çox gözəllər öyündülər,
Hüsnünə, camalına.
Çoxları heyran etdilər
Dünyanı kamalına.
Çoxları da satıldılar
Puç dünyanın malına.
Saraldılar tər qönçələr,
Düşdü xara birvəbir.

Sultan Suleyman köç etdi,
Taxtı-taraca döndü.
Talan oldu varı - halı,
Əldə hərraca döndü.
Qafil zamana bəd gəldi,
Ağalar aca döndü.
Qanlı fələk qan ağlatdı,
Çəkdi dara birvəbir.

Mən Salmanam, gözlərim tox,

Nəfisim yerindədi.
Acgözlüyün, qəddarlığın
Quyusu dərindədi.
Sirat-sual, çox haqq-hesab
Qiyamətdə, öndədi.
Tamah çoxunu alladıb,
Saldı tora birvəbir.

**30.11.2003.**

## DIVANI

Yarəb, niyə birdən-birə bu dünya viran olub!
Gədalar bəyə dönüblər, tülkülər aslan olub?
Köçüb gedib mərd ərənlər, tərk ediblər dünyanı,
Çox mənəm -mənəm deyənənlər yer ilə yeksan olub!

Mən görmürəm, siz göstərin, hanı haqqın divanı?
Pul üçün, var-hal üçün yeyir insan insanı.
Oğru-əyri başa çıxıb, ələ alıb meydanı.
Haqq-ədalət axtaranın göz yaşı leysan olub!

Gör nə çətin zaman gəldi, atdı qardaş-qardaşı.
Ariflərə xor baxırlar yerindən duran naşı.
Kasıblıq tüğyan eyliyir, saxlamaq olmur başı.
Millətdə birlik qalmayıb, dağılıb düşmən olub!

Yarəb, özün kömək eylə çıxaq bu dərd-bəladan.
Istəyə-muraza çatsın, arzum budu hər Adam.
Sinəm şair sinəsidi, paxıllığa mən yadam.
Könlüm eşqin dəryasıdır, sevdiyim canan olub!

Salman Qazi, qəm eyləmə saza söylə dərdini.
Yarəb, özün uca saxla insanların mərdini.
Biz də qoyub gedəsiyik babaların yurdunu.
Əzrayıl kəmənd atana nə dərd, nə dərman olub!

**05.06.2001.**

## BƏHRI DIVANI

Uşaqlıqdan "Allah" deyib, təriqətə bağlıyam,
Öz dinimə sadiq qulam, möhumata bağlıyam.
Bu dünyada arxam bilib sığınmışam Allaha,
Orucum var, namazım var, ibadətə bağlıyam.
Yaxşılardı qol-qanadım mərhəmətə bağlıyam.

Gah "əlif"ə üz tuturam, gah qibləyə, "Mim", "Dal"a,
Dörd kitabdan agah olub Quranı saydım qala.
Insan gərək kamil ola, kamillikdə ad ala.
Həm ağırdır, həm cəfalı, barı bənzəyir bala.
Min bir hikmətin içində, bir hikmətə bağlıyam.

Mən bir sirli qıfılam ki, aça bilməz hər açar,
Ariflər bir sözdən qanar, nadanlar kanar qaçar.
Zalım fələk çox beymürvət, məni qoyubdur naçar,
Təbim harda coşa gəlsə, könüllərə nur saçar.
Həm sevənəm, həm sevilən, məhəbbətə bağlıyam.

Bir xəznəyəm, pas atmışam neçə illərdən bəri,
Bulud tutsa görünərmi, göydə göylər ülkəri?
Zər zərgərdən gizlədilsə itər-batar dəyəri.
Kim bilir ki, nə olacaq onun qismət, qədəri.
Şeir yazıb, saz çalıram, bu sənətə bağlıyam.

Salman Qazi, zamana bax, bir gör necə dəyişib.
Bu çətinlik, bu ağrılar sənin payına düşüb.
Illər ili əvəz edib, yaş yarıya yetişib.
Keçənlərə heyif-heyif, gəlib, keçib, ötüşüb.
Əllərdə əməl dəftəri, həqiqətə bağlıyam.

**14.03.2000.**

## MƏNƏM MƏN

Həm aşıq, həm də şair, həqiqətdə mənəm-mən.
Həm mollayam, həm də axund,təriqətdə mənəm-mən.
Oruc tutan, namaz qılan ərəbxanam, buyurun.
Mohumatın ustasıyam, şəriətdə mənəm-mən.

Qurandakı ayələrin yarısı əzbərimdi.

Ayağım harda büdrəsə, orda Allah kərimdi.
Sinəmdəki telli sazım ləl-incimdi, zərimdi.
Məcnun, Kərəm, Şeyx-Sənan məhəbbətdə mənəm-mən.

Zabur, Tövrat, Incil, Quran qanadımdı, qolumdu.
Bu dörd kitab bir ümmandı, yolum islam yoludu.
Güvəndiyim Allahımdı, Məhəmmədim, Əlimdi.
Sağ-solumda yazan bilir, ibadətdə mənəm-mən.

Mən Salmanam, yaradana cani-dildən bağlıyam.
Misalda dərviş misallı, aranlıyam-dağlıyam.
Göz tikmişəm beş arşına, axirət soraqlıyam.
Özüm burda, ruhum orda, - o cənnətdə mənəm-mən.

**01.12.2001.**

## KIMDI KI

Nə deyirsən ey nigarım, ürəyi qar kimdi ki?
Sən özünsən döylət-varım, o döylət - var kimdi ki?
Mən sevirəm, sən sevirsən, ortada sar kimdi ki?
Ölənədək sevəsiyəm, hərcayılar kimdi ki?

Allah verib eşq badəsin, çox erkən nuş etmişəm,
Özümü alova atıb, oda tay-tuş etmişəm.
Sən şam oldun, mən pərvanə, arzularma yetmişəm.
Harda olsan səninləyəm, uca dağlar kimdi ki?

Bir loğmansan sənin özün, təbib nəyimə gərək.
Lap gözəllər gözəlisən, həm hürüsən, həm mələk.
Min ətirli bir çiçəksən, döyməsin boran, külək.
Hər gəlişin şəfa versə, dərdi-azar kimdi ki?

Cavanlıqdan həkk olubsan ağılıma, huşuma,
Yer salıbsan ürəyimdə, döndün mürğu quşuma.
Istək bizi qocaldarmı, min yaş gələ yaşıma.
Sevən ürək cavan qalsa, leyli-nahar kimdi ki?

Sən gələndə qələm – sazla çıxaram pişvazına,

Min bir dastan bağlayaram baharına-yazına.
Bülbül gülə vurulan tək, vurulmuşam özünə.
Salman kükrəyib coşanda, coşqun çaylar kimdi ki?

**14.06.2000.**

## DIVANI

A qardaşım, belə baxma, qəflətən coşmağım var.
Sədd dağıdan, bəndi yıxan, sel təki daşmağım var.
Mən sərgərdan bir şairəm, dünyanın səhrasında,
Əllərimdə dəmir əsa, poladdan başmağım var.

Dörd kitabın nökəriyəm, ibadətdi imanım,
Güvəncim bir Allahımdı, yoxdu özgə gümanım.
Bir gün ruh tərk eliyər, torpağa dönər canım.
O səbəbdən taleyimlə küsüb-barışmağım var.

Əgər mənə yaxşı baxsan, bir alınmaz qalayam.
Nə sısqa bir bulağam, nə sakit axan çayam.
Gur çayları udan mənəm, dərin dibli dəryayam.
Sinəm od-köz yuvasıdır, birdən alışmağım var.

Qıfıl-bəndəm, bağlamayam, divaniyəm, təcnisəm.
Kamilə kamil sənətkar, tərs olana tərisəm.
Uşaqlıqdan bu sənətə vurulmuşam-hərisəm.
Paxıl gözlərin oxuyam, bədahət qoşmağım var.

Mən şair Salman Qaziyəm, qələmdir var-döylətim.
Yaxşıların nökəriyəm, pislərədir nifrətim.
Kin-küdurət düşməniyəm, yaxşılıqdır sərvətim.
Bu məsləkdən nə dönməyim, nədə ki, çaşmağım var.



## ELƏ

*Ustadnamə*

Aşıq qardaş, gir məclisə,
Öz yerini bərk elə.
Söz deyəndə dərin düşün,
Nə dediyini dərk elə!
Diqqətli ol, nəzər yetir,
Növcavana, qocaya,
Sənətkar tək ucada ol,
Hər bir kəsə ərk elə!

Aşıq olan mömin gərək,
Şəriətə qul ola.
Ibadətdə, mohumatda,
Mükəmməl, kamil ola.
Hay-küyün qabağnı ala,
Dincliyə nail ola.
Əgər duyan, qanan yoxsa,
O məclisi tərk elə.

Aşıqlıq ulu sənətdir,
Aşıq ellər anası.
Bu sənət qədimdən gəlir,
Möhtəşəmdir binası.
Sazda-sözdə cəmləşibdi,
Salman Qazi dünyası.
Kim sənətə kəm baxırsa,
Allah, onu görk elə!

**29.08.2002.**

## GÖRMÜŞƏM

*ustadnamə*

Uca dağların başında,
Boran-tufan görmüşəm.
Əzəl başdan dünyamızı
Fani, viran görmüşəm.
Hanı Rüstəm, qoç Koroğlu?
Hanı sultan Suleyman?
Pul oynadan milyonçunu
Pulsuz gedən görmüşəm.
Qara torpaq yox eyliyib

Çox mənəm deyənləri.
Əzrail kəməndə salıb
Özünü öyənləri.
Qızıl taxıb, inci düzüb,
Zər -ziba geyənləri.
Beş arşın ağın içində
Lütü-üryan görmüşəm.

Salman Qazi, sərrafa dön,
Söhbətində-sözündə.
Yerində ver qiymətini
Əyrinin də, düzün də.
Hinkir-Minkir qarşısında
Əl qalmasın üzündə.
Axrəti yaddan çıxardan
Bir çox insan görmüşəm.

**30.08.2002.**

## FƏLƏK

Gəl oturaq, söhbət açaq
Hər ikimizdən fələk.
Səbr eliyək, incimiyək
Düz söhbət - sözdən fələk.
Uşaqlıqdan gün vermirsən,
Çalıbsan daşdan daşa.
Əyrilərə həmdəm olub
Qaçırsan düzdən fələk.

Sən ömrümə naxış vurdun
Fikir, hicranı-qəmi.
Şair oldum-sən eylədin
Dərd ərbabı, həmdəmi.
Səndən bəxt-yığval istədim,
Pay göndərdin qələmi.
Əynimə köynək geydirdin
Alovdan-közdən, fələk.

Bağ becərdim, xəzan vurdu,
Saraldı gül-çiçəyim.
Gözlərimdə viran oldu,

Sındı arzu-diləyim.
Cavanikən ağrı tapdı
Bu, alovlu ürəyim.
Sən pəl vurdun, yarımadım
Oğuldan-qızdan, fələk.

Salmanı yoldaş eylədin
Bir əfiyə, şahmara.
Nə günahın sahibiydim?
Mənsur tək çəkdin dara.
Hər dalandan bir ox atdın,
Sinəmə vurdun yara.
Mən sənlə necə barışım?
Dost olum təzdən, fələk.

**12.11.2002.**

## BƏHRI DIVANI

Əl açmışam sənə sarı,
Göydəki şahım mənim.
Səndən qeyri köməyim yox,
Sənsən pənahım mənim.
Çərxi-fələk gözdən alıb,
Göz verib, işıq vermir,
Qalıb ayaqlar altında,
Şərəfim, şanım mənim.

Ey Allahım, sən ucasan,
Hər şey əyandır sənə.
Bu dünyanın yaxşı-pisi,
Aşkar, bəyandır sənə.
Haqsızlıq baş alıb gedir,
Boğub, dayandırsana.
Səndən kömək gözləməkdən,
Çürüdü canım mənim.

Salmanın haqqını alıb,
Döndəribsən qula sən.

Mömin bir bəndənəm-mənlə,

Getməyirsən yola sən.
Demədim ki atəşə at,
Alovlara qala sən.
Gecə-gündüz düşünürəm,
Nədir günahım mənim?

**27.09. 2002.**

## DIVANIDIR DIVANI

Saz məclisni salamlayan
Divanidir, divani.
Qəlbi açan, könül alan
Divanidir, divani.
Haqq kalamlı, haqq hikmətli,
Hərdən də, gileyi var.
Ürəklərdən buz əridən,
Divanidir, divani.

Hər bir sözə diqqət etsən,
Kəlməsi haqdan gəlir.
Ibadətdən, təriqətdən,
Nurdan, çıraqdan gəlir.
Qurbanidən, Ələsgərdən,
Sadıq, Əmrahdan gəlir.
Tufanlara sinə gərən,
Divanidir, divani.

Dilimdə haqqın kalamı,
Sinəmdə telli sazım.
Yarəb, kəm etmə ilhamı,
Sən söz göndər, mən yazım.
Salmanam, xoş günlərdir,
Vətənə arzum -murazım.
Ya Allahım, ya Məhəmməd,
Divanidir, divani.

**15.08.2002.**

## MƏNDƏDI

Bəsdi, dönmə yanan şama,
Pərvanələr məndədi.
Sinəm dolu qoşma, qəzəl,
Meyxanələr məndədi.
Könlüm ceyran oylağıdı,
Tərsanələr məndədi.
Yazılmamış min-min varaq,
Qərinələr məndədi.

Mənimkini verib şahım,
Xilqətinə qurbanam.
Odur mənim bir pənahım,
Ona qul bir insanam.
Yüküm haqqın vergisidi,
Kimsə bilməz, pünhanam.
Istəyirsən bax sinəmə,
Nişanələr məndədi.

Bir bağçanın bağbanıyam,
Billah solmur güllərim.
Haqq nə versə, mən qaniyəm,
Belə keçir illərim.
Şövq odunun insanıyam,
Eşq-atəşdi çöllərim.
Məcnun təki, Kərəm təki,
Divanələr məndədi.

Mən elə bir kitabam ki,
Varaqlarım ləldi-ləl.
Ürəyim ətdən də olsa,
Orda yanır bir məşəl.
Yaxın durma, yanar odam,
Yandıraram əlvəhəl.
Bir sehirli yanan şamam,
Pərvanələr məndədi.

Yeri - göyü xəlq eyliyən,

Sığınmışam adına.
Yanıb, gedir cismi canım
Bu haqsızlıq oduna.
Adımdı Salman Qazi,
Qalmışam umuduna.
Əllərim ətəyində,
Şikayətlər məndədi.

**25.08.2003.**

**GƏLIB**
***(Divan)***

Ay ariflər, qulaq asın,
Sinəmə hikmət gəlib.
Ilk ğncə insan yaranıb,
Sonra məhəbbət gəlib.
Baxmayın şeytan sözünə,
Satmayın din - imanı,
Haqq yolundan sapanların
Başına zillət gəlib.

Tanrı yaratdı Adəmi,
Həvvanı xəlq eylədi.
Bir ağac gğstərib -ona,
Yaxın gəlməyin - dedi.
Şeytan girdi bəd əmələ,
Hər iksi meyvə yedi.
Kökü şeytana bağlıdı,
Ondan cinayət gəlib.

Qovuldu Adəm və Həvva
Ərşi - cənnət bağından.
Qabil batdı günahlara,
Doğma qardaş qanından.
Bağışlamadı Adəm ata,
Qovdu onu yanından.
Qabildən insanlığa
Kinlə xəyanət gəlib.

Iki mələk sağ - solunda,
Yazır xeyir - şərini.
Halallıqla dostluq eylə,
Axıt alın tərini.

Hələlik heç kəs bilənməz,
Axirətin sirrini.
Sirat yolunu qaçılmazdır,
Cəhənnəm-cənnət gəlib.

Insalar artıb, çoxaldı,
Dillə, təriqətlə bir.
Tayfalar peyda oldu,
Cürbəcür adətlə bir.
Sənətkarlar ad aldılar,
Yayılan sənətlə bir.
Bir atadan, bir anadan
Bir belə millət gəlib.

Insan artıb çoxaldıqca,
Əqidə də çoxaldı.
Bir-birini öldürməyə
Kaman tapdı, ox aldı.
Kimi aza qane oldu,
Kim doymadı, çoxaldı.
Hər millətə bir cürə dil,
Bir cürə adət gəlib.

Şis peyğənbər, Nuh peyğəmbər,
Allah üçün çalışdı.
Inamsızlar Ibrahimi
Qəsdlə oda atmışdı.
Cəbrayıl kanardan baxıb
Qaşlarını çatmışdı.
Ibrahimə Xəlülüllah
Adı mərhəmət gəlib!?

O buraxdı Ismayılı
Anasıyla ilə bərabər.
Ismayıl Mina dağında
Ac qalaraq, dad çəkər.
Həcər ana dağ dolandı
Düz yeddi yol sərbəsər.
Ismayıla Zəmzəm adlı
Tükənməz sərvət gəlib.

Ibrahim Mina dağında

Əhdinə əməl eylədi.
Tanrının göstərişni
Özünə amal eylədi.
Qurbanlığın şərtini
Yerdə təməl eylədi.
Ismayıl qurbanlığı
Islama adət gədib.

Musanı tanrı qorudu
Min qadadan, bəladan.
Tanrı göstəriş verirdi
Ona Turi - Sinadan.
Tayfa salamat qurtardı
Musa ilə dəryadan.
Kitabların birincisi,
Musaya "Tövrat" gəlib.

Yusifi tələ qurdular
Sevdiyi qardaşları.
Hara gedib, nə etdilər,
Gətirmədi işləri.
Yusifi də qul eylədi
Zamanın gərdişləri,
Axırda da sultan oldu,
Ondan səxavət gəlib

Davud peyğənbər öyünmədi
On doqquz oğla görə.
Birləşib uz daş cibində
Bir oldu birdən-birə.
Calutu məğlub eyləyib
Qoşunu sərdi yerə,
O zamandan, bu zamana
"Zabur " ibadət gəlib.

Davud oğlu Suleymanın
Hökmü çatdı hər şeyə.
Ağa idi, ənni-cinnə,
Quşlara, hətta döyə.
Heç nəyi vecə almazdı,
Dünya mənimdir deyə,
Dünya yedi Suleymanı,
Hər şey əmanət gəlib.

Məryəm ana boylu qaldı
Cəbrailin sözünnən.
Isa çəkildi çarmıxa,
Çəkilmədi sözünnən.
Kimlər haqqı danırlarsa
Şikəst olsun gözünnən.
“Incil” Isa müjdəsidir,
Haqdan dəlalət gəlib

Xızır, Loğman, Əlyəsə,
Üzeyir, Ilyas,Yunisə,
Saleh, Luta, Idrisə,
Yaqub, Huda, Əyyuba,
Zəkəriyyə, Zülqeyrinə,
Isaqa, Zül - Kifilə,
Hizgil ilə Şəmuyelə
Peyğəmbərlik adət gəlib.

Nur gətirdi özü ilə
Əhli Ərəb dünyasına.
Öz əliylə bəzək vurdu
Islamçılıq simasına.
“Qurani - Kərim” çevrildi
Peyğəmbərin aynasına
Rəsulillah adı ilə
Sonda Məhəmməd gəlib.

Bu dğnyada insanların
Yaxşısı var, pisi var.
Hər kəs bir cğrə olanmaz,
Ağıllı-dəlisi var.
Alimi, aqili varsa da,
Anlamaz, tərisi var.
Harda mehribanlıq varsa
Ora var-dğvlət gəlib

Zərgər, sərraf bəzək verər,
Qızıl, zərə, inciyə.
Insan da vara allanar,
Var - döylətim var - deyə.
Insan da var, çox görmüşəm,
Sığışmır yerə - göyə.

Yerə - göyə bəzək olan,
Sənətkar - sənət gəlib.

Rəhmət şair Nizamiyə,
Sözün sultanı oldu.
Bizə əylədiyi“ Xəmsə “,
Kitablar xanı oldu.
Ondan sonra çox şairlər,
Sözün mehmanı oldu.
Ilk öncə “qələm” surəsi,
Sonra şeriyyət gəlib.

Fizuli, Nəsimi, Xəqani,
Zakir, Vaqif, Vidadi.
Səməd Vurğunla Məzahir
Fələkdən gün görmədi.
Sücayətlə Şair Bəhmən
Bir xoş ömör sürmədi.
Şair olan - qəmə qardaş,
Haqdan bəyanat gəlib.

Ay ariflər çox demirəm,
Deyləsi sözüm çoxdu.
Sinəm dəryadı, ümmandı,
Ucu - bucağı yoxdu.
Tanrı yanda üzüm açıq,
Könlüm, gözüm də toxdu.
Salmana - vergi deyilən,
Haqdan əmanət gəlib.

**14.05.2005**



**İNŞALLAH**

Dəli könlüm burax qəmi,
Gələr, keçər inşallah.
Sən deyəni deyən olar,
Hicran qaçar inşallah.
Ürəyin şair ürəyi,
Ilhamın sellər qədər.
Könül bağının gülləri,
Solmaz, açar inşallah.

Günəş də zirvədə durmaz,
Zirvədən enməyi var.
Şamın ömrü qısa olar,
Onun da sönməyi var.
Insan torpaqdan yaranıb,
Torpağa dönməyi var.
Süleymanlar gəlib – gedib,
Gələn köçər, inşallah.

Sağ – solunda yazanların,
Gözdən qoymur bir anı.
Faniliyni dərk eyləynən,
Mənimsəmə dünyanı.
Qarı dünya yox eyləyib,
Çox sənin tək Salmanı.
Siratda yaxşını, pisi,
Özü seçər inşallah.

**27.10.2006**

**YAŞ ÖZÜNÜ GÖSTƏRIR**

Könül dostum çox incimə,
Iş özünü göstərir.
Yavaş – yavaş yorur bizi,
Qaş özünü göstərir.
Şair qəmgin olanda da,
Xoş üzünü göstərir.
Haxlamışam əlli beşi,
Yaş özünü göstərir.
Bu gün varam, sabah yoxam,
Nə yazılıb alında?

Şahin– şonqara bənzərsən,
Istədiyni alanda.
Gülüm, yaylaq axtarırsan,
Gül – çiçək xəyalında.
Könlümə soğan doğrayır,
Qış özünü göstərir.

Salmanı illər qocaldır,
Getdi cavanlaq çağım.
Hərdən bir – birnə dolaşır,
Yolda əlim – ayağım.
Gah seyrəlir, gah ağarır,
Şəvə kimi saçlarım.
Mən deyəni fələk demir,
Baş özünü göstərir.

**29.10.2006**

**VƏSSALAM**

Dərya könlum çalxalanma,
Izin qalar, vəssalam.
Yarğan tək uçar gedərsən,
Tozun qalar, vəssalam.
Dünya dəyirmandı bil,
Çox insanlar üyüdüb.
Əl çatmayan arzularda,
Gözün qalar, vəssalam.

Dünyaya baş endirməyən,
Bəylər, xanlar hardadı?
Anasını ağlar qoydu,
Suleymana qalmadı.
Çox xəqanlar mənəm dedi,
Onlar deyən olmadı.
Sən gedərsən, dil – dodaqda,
Sözün qalar, vəssalam.

Üçün keçər, yeddin keçər,
Qırxın da ki, birtəhər.

Qəbrin üstə deyərlər ki,
Beləymiş tale – qədər.
Hinkir – Minkir əldə dəftər,
Sorğu – suala çəkər.
Salman, bir daşın üstündə,
Yazın qalar, vəssalam.

**O1.11.2006**

## SƏNIN
**(bəhri divani)**

Gözəl, məni valeh edib,
Dilin – dodağın sənin.
Götürüb dörd bir tərəfi,
Səsin – sorağın sənin.
Mən pərvana, sən yanar şam,
Qovlama çırağından,
Harda olsam çəkir məni,
Hüsnü – çırağın sənin.

Insaf eylə, kəsmə məni,
Kərəm eylə bu qula.
Inanmıram sən tək gözəl,
Belə insafsız ola.
Qorxuram şikar olasan,
Qafil tutub Sar ala.
Toxuna daşa – torpağa,
Əlin – ayağın sənin.

Başıma od ələyir,
Baxanda gözün sənin.
Ay – günəşi xatırladır,
Görənə üzün sənin.
Bəyan eyləynən şairə,
De, nədir sözün sənin.
Salmanı vaxtsız qocaldır,
Cavanlıq çağın sənin.

**14.01.2007**

## SƏNIN SORAĞINDAYAM
**(bəhri divani)**

Nə vaxtdandır könlüm şahı,
Sənin sorağındayam.
Vüsalın yandırır – yaxır,
Məşhər ayağındayam.
Eşqin alıb caynağına,
Buraxmır mən yazığı,
Məhəbbətin Məcnun edib,
Leyli fərağındayam.

Sən ki,bir murğü quşusan,
Könlümdə yer vermişəm.
Axtardığım gözəlliyin,
Hamsın səndə görmüşəm.
Allah mənə nicat verə,
Sənlə gündə görüşəm.
Döndəribsən bir bülbülə,
Ey gül, budağındayam.

Sən yanımda ola – ola,
Neyləyər zülmət mənə?
Səndən qeyri lazım deyil,
Nə var, nə dövlət mənə.
Başdan – başa bir hikmətsən,
Nə lazım hikmət mənə.
Pərvanələr öyünməsin,
Hüsnün çırağındayam.

Od qoyubsan sinəsinə,
Sən bu Qazi Salmanın.
Yar deyib, kənar durubsan,
Necolubdu vicdanın?
Yaşım çatıbdı yarıya,
Üzü bozdu dünyanın.
Bir də baxıb görəcəksən,
Ölüm ayağındayam.

**1992**

**DEMƏ**
**(bəhri divani)**

Insan oğlu, yatma, ayıl,
Topam-tüfəngəm – demə.
Dilini şirin saxlaynan,
Qovğayam-cəngəm – demə.
Biz bir yolun yolçusuyuq,
Bu yol siratdan keçir.
Görən nə vaxt düzələcək,
Düşdüyüm döngəm – demə.

Zal oğlu Rüstəmin,
Sinəsinə dağ çəkib.
Diz titrədən xaqanların
Torpağında turp əkib.
Abad könülləri uçurub,
Viran könüllər tikib.
Öz-özünə havalanıb,
Şirəm, pələngəm – demə.

Şirin hanı, Leyli hanı?
Gözəlliyi söylənir.
Dünya fani dünyadı,
Gələn beş gün əylənir.
Qocalıq atdığı oxlar,
Ömrümüzə teylənir.
Açan güllər solacaqdır,
Çox da qəşəngəm – demə.

Torpaqdan yaranan insan,
Qayıdacaq torpağa.
Salman, bərabər tutular,
Orda yoxsulla ağa.
Dərk eyləynən kimiliyini,
Gah sola bax, gah sağa,
Axirəti yadda saxla,
Sözdə nəhəngəm – demə.

**18.112007**

**VAR**
**(bəhri divani)**

Könül, demə çox dərdliyəm,
Hər dərdin dərmanı var.
Hər bir kəsin öz qisməti,
Qədəri – fərmanı var.
Bu dünya Fani dünyadı,
Qabaqdadı məkanın.
Xeyir – şər hesablanacaq,
Hər şeyin zamanı var.

Ya Mövlam, ya Allahım,
Ətəyindən tutmuşam.
Tək sənsən mənim pənahım,
Hər kəsi unutmuşam.
Axı nədədir günahım,
Dərdə – qəmə tay - tuşam.
Insanlar niyə belədir?
Yaxşısı, yamanı var.

Yazıq başım nələr çəkdi,
Od götürdü gözünnən.
Kərəm oldu, Məcnun oldu,
Söhbətinnən, sözünnən.
Aləm yandı, külə döndü,
Alovumnan, közümnən.
Salman, demə bu dünyanın
Ərəsət, divanı var.

**9.05.2008**

## GƏRƏK

Mərifət axtaran kəsdə,
Ədəb-ərkan yol gərək.
Bülbüllər şövqə gələndə,
Boz sərçələr lal gərək.
Dana kal ilə çəkənməz,
Kal yanında kal gərək.

Saf nəfisin sahibləri

Taleyinə qul gərək.

Şer yazan haqdan yaza,
Nahaqdan kanar gəzə.
Nə xainlik, pislik bilə,
Nə də dövlət - var gəzə.
Əsli saflara yaraşmaz,
Əyri baxa, xor gəzə.
Haqqın adından danışan,
Insanlıqdan bol gərək.

Şair olan ustad tanına,
Dərya tək dərin ola.
Ocaq kimi alovlana,
Bulaq tək sərin ola.
Qazancı el alqışı,
Əhsən, Afərin ola.
Kükrəyəndə, coşanda da,
Sinəsində sel gərək.

Sərçənin də qanadı var,
Ondan tərlan olanmaz.
Ulaqdan qatır törəyər,
Tülkü aslan olanmaz.
Elin gözü tərəzidir,
Eldə yalan olanmaz.
Şahin olmaq istəyənə,
Qanad gərək, qol gərək.

Söz dediyin bir ümmandır,
Hər girən özə bilməz.
Çoxları şairə dönöb,
Bir şeri yaza bilməz.
Keçər pələng pəncəsinə,
Zərəbəyə dözə bilməz,
Salmandan nəsihət budur,
Şair qaya, sal gərək!

**30.01.2005.**

**BURDADI**

***Qəbirstanlıqda da varlı-kasıb qəbirləri seçilir.***
***Insalar hələ də dünyanın işlərinə inanmır.***

Insan oğlu, bax, fikirləş,
Son məqamın burdadı.
Varın-halın, cəh-cəlalın,
Xanimanın burdadı.
Baban-nənən, atan-anan,
Qarışıbdı torpağa,
Beşcə arşın ağla gəlib,
Çox əcdadın burdadı.

Nə qədər yığmaq olar,
Nə bezib, nə doyubsan.
Ondan - bundan oğurlayıb
Burda heykəl qoyubsan.
Abidələr qoymaq üçün
Soydurubsan, soyubsan.
Abidəli, abidəsiz,
Kişi - qadın burdadı.

Heç olmasa buraya bax,
Pisliklərdən uzaqlaş.
Ölü üçün bəs etmirmi
Ad - ünvanlı bircə daş?
Qiymətli daş əvəzində
Yetim doyduraydın kaş.
Allah - taala qabağında
Hər isbatın burdadı.

Salman, ağlın yığ başına,
Qarışmaynan hər işə.
Çərxi - fələk çox "Bəyləri",
Çəkib saldı gərdişə.
Sultan, Xanlar Əzrayılla,
Duranmadı döş - döşə.
Bir də baxıb görəcəklər
Sənin adın burdadı.

**18.06.2005.**

# TƏCNISLƏR ÇƏLƏNGI



## DODAQDƏYMƏZ CIĞALI TƏCNIS

Taleyindən küsən Allahı səslər,
Əlacı yazılan yazıda qaldı.
Yazıda qaldı …
Yazı, yazıda qaldı.
Yaxşı cənnət qazandı,
Lənət Yezidə qaldı.
Ömrüm xatırladır şaxtalı qışı,
Gerdə yaylağı da, yazı da qaldı.

Haqq yazana nə xilas gəz, nə çarə,
Xata gəlsə, qızıl - inci, nə çarə?
Nə çarə….
Yazılana nə çarə,
Alnında yazı - qədər,
Nə əlac gəz, nə çarə.
Yaz - taleyindən qaçan hardadır?
Talelər tanrıdan yazıda qaldı.

Qalx ayağa, irəli at sinəni,
El alçaldar sənətində sinəni,
Sinəni….
Dərddən saxla sinəni,
Salman, eşqi kənar at,
Atəş alar sinəni.
Kənd - kəsək xatırlar, tanışlar deyər,
Cənnətlik şairdən yazı da qaldı.

**09.10.2002.**



## DODAQDƏYMƏZ CIĞALI TƏCNIS

Dərd nə eyləyəcək, arsız kəslərə,
Qanan çəkəcəkdir ha çəkə-çəkə.
Şair deyər ha çəkə…
Çəkən istər ha çəkə.
Keçən keçir, sən kənar,
Əllər istər ha çəkə.
Nə gələnsən, nə gedənsən qadası,
Şair həsrətini ha çəkə, çəkə!

Can alışar axtaranda cananı,
Canan səndən can istəyər, can anı.
Şair deyər cananı…
Can axtarar cananı.
Xəstə sağlıq diləyər,
Əzrayıl da can anı.
Əldə saxla, əzizləynən cananı,
Dərd-hicrandan kənar ha, çəkə-çəkə!

Salman, çək dərdini çəkənə qədər,
Yazıq can nə etsin, çəkə nə qədər?
Şair çəkənə qədər…
Çəksin çəkənə qədər,
Dərd az deyil ay qağa,
Artır çəkənə qədər.
Saç ağarır, dizlər qalır taqətsiz,
Əcəl ətəyindən ha çəkə-çəkə.

**14.10.1998.**



## DODAQDƏYMƏZ CIĞALI TƏCNIS

Haqqa elə inan, elə secdə qıl,
Ərəsət siratda desinlər: - gəl keç.
Desinlər: - gəl keç,
Şair, desinlər: - gəl keç,
Axirət qarşındadı,
Darda desinlər: - gəl keç.
Təriqət əhlinə hədyandan yayın,
Yer elə cənnətdə, desinlər: - gəl keç!

Əlin açıq, halal gəz də, yaşa da,
Yaşlanırsan, yaş calanır yaşa da,
Yaşa da…
Çalış yaşat, yaşa da.
Sirat, keçid irəldə,
Yaş calansa yaşa da.
Kaş insanı yaxşı işi yaşada,
Haqqı axirətdə desinlər: - gəl keç!

El yaşadar, elə yanan kəsləri,
Yanan getdi, elə, yanan kəsləri,
Şair, yanan kəsləri,
Yaşat yanan kəsləri,
Yandıran da yandırdı,
Elə, yanan kəsləri.
Salman, yaz yaddaşa yanan kəsləri,
Əhli təriqətdə desinlər: - gəl keç!

**9.10.2005**



## TÖRƏMƏ TƏCNIS

Dəli könlüm, dəymə mənə, qoy durum,
Bir təbib tap, dərdə məlhəm qoydurum.
Demədinmi: - hardan alım qoydurum?
Deyirlər, dərmanı özgəsindədi.
Özgəsində,
Yad yerdə, özgəsində,
Mən təbib axtarıram,
Təbib də özgəsində.

Yatmayır meylimə özgəsi nədən?
Istilik görmədim özgə sinədən,
Eşqimdən vermədim özgəsinə dən.
Şair cavan döylü, özgə sindədi.
Özgə sində….
Day sinim özgə sində ,
Canan özgədə qaldı,
Qocaldım özgəsində.

Indii sirrmi açım bir özgəsinə?
Bu sirr qabağında bir özgəsi nə?
Bir gün Salman gedər bir özgə « Sin »-ə,
Axtaran görər ki, özgə « Sin » - dədi.
Əzizim, özgəsinə,
Özgə ləb, özgə sinə,
Meylim sinəndə qalıb,
Lazım döy özgə sinə.

**8.10.2005**



## CIĞALI TƏCNIS

Dərd haqdan gələndə əlac tapılmaz,
Əridər canını ay üzə-üzə.
Şair deyər ay üzə,
Gül yanağa, ay üzə.
Fələk sənə neylədim?
Həsrət qoydun ay üzə.
Yaxam keçib bir qanmazın əlinə,
Qalmışam canımı ay üzə, üzə.

Sona göldən küsməz, qartal qayadan,
Sənsə yaranıbsan daşdan, qayadan.
Əzizim Daş - qayadan,
Insan olmaz qayadan.
Mən ah çəkdim, dözmədi,
Qaya qopdu, qayadan.
Əhd peymanı tullayıbsan qayadan,
Deyəndə durursan, ay üzə, üzə!

Bil, Salmanı yandıran sən, yaxan sən,
Ağasanmı, sultansanmı, ya xan, sən?
Əzizinəm, yaxan sən,
Yandıran sən, yaxan sən.
Mən könüllər tikirəm,
Uçuran sən, yıxan sən.
Bəd əməldən yaxa qurtar, yaxan sən,
Paklar dəryasında ay üzə -üzə!

**29.09.1998.**



## CIĞALI TƏCNIS

Nə yaman qəddarsan, ay fani dünya,
Gəlhəgəlin dönüb olub köçhaköç.
Əzizinəm, köçhaköç,
Durma, tərpən köçhaköç.
Nə  yeri var, nə yurdu,
Qarışıbdı köçə köç!
Hər gələnə beş gün vədə verirsən,
Sonra da deyirsən, durma, köçhaköç.

Sözlərimə fikir verin ağalar,
Hanı bəylər, xanlar, hanı ağalar?
Əzizinəm, ağalar,
Gəlib, gedib ağalar,
Nə Süleyman əyləşib,
Nə də ağır ağalar.
Köç eyləyən beşcə arşın ağ alar,
Budur payın, fərman gəlsə köçhaköç.

Fələk viran qoydu çox xanimanı,
Satdı var-dövlətə çox xan, imanı.
Əzizimin xanimanı,
Dövləti, xanimanı.
Yaxşıdan yaxşılıq qalar,
Qalan döy xanimanı.
Salman, sözdən yarat, qur xanimanı,
Gedərgisən, qabaqdadı köçhaköç.

**18.10.1998.**



## CIĞALI TƏCNIS

Ay Ərşi-əlada əyləşən ağam,
Əlim ətəyində, yetir, ha yetir!
Əzizinəm, ha yetir…
Gəl köməyə, ha yetir.
Yönüm qiblə, üzüm sən,
Əlimdən tut, ha yetir.
Hər bəndəyə rüzu, qismət verən sən,
Mənim imdadıma yetir ha, yetir.

Mən sənə nökərəm, sən də ağasan,
Nökərinə nəzər yetir ağa, sən.
Əzizinəm, ağa sən…
Yerə, göyə ağasan.
Kərəm eylə, kömək ol,
Bu bəndənə, ağa, sən.
Od qoyubsan bu sinəmə ağa, sən,
Söndürənim yoxdu, yetir ha, yetir.

Ərşü-gürşü altı günə yaratdın,
Qismətimə qəm, kədərlə yara atdın.
Əzizinəm, yaratdın…
Dünyanı sən yaratdın,
Özgələrdən nə umum?
Məni ki, sən yaratdın…
Qismətimə bir naşükür yar atdın,
Salmanı yandırır, yetir ha, yetir!

**16.10.1998.**



## CIĞALI TƏCNIS

Bir gecə ağamdan bir elçi gəldi,
Apardılar məni Minaya, gəzdim.
Əzizim, Minaya gəzdim,
Dildə min ayə gəzdim.
Məcnun Leyli gəzəndə,
Mən də Minaya gəzdim.
Kəbanı ziyarət eylədim bu gün,
Ərəfətdən baxdım Minaya, gözəl!

Həm Məkkə gözəldir, həm Minayəsi,
Zəmzəmdən nuş etdim, gövsər mayası.
Əzizim, min ayəsi,
Quranın min ayəsi.
"Mim", "Nun", "Şin" mənim olsun,
Lazım döy  min ayəsi.
Allahın sinəmdə min ayəsi var,
Mənim  əzbərimdi Minaya gözəl!

Ağam məni dolandırdı Minaya,
Mənə qalsa gedəmməzdim min aya.
Salman qurban Minaya,
Qurban gərək Minaya.
Ibrahim də Ismayılı,
Aparmışdı Minaya.
Həcərin göz yaşı leysan olanda,
Qurbanlıq göndərdi Minaya gözəl!

**06.07.99.**



**CIĞALI TƏCNIS**

Sən nəyə lazımsan, ay qara baxtım,
Rəhmin gəlməyir naçara - belə.
Əzizinəm, nə çara?
Çarasıza nə çara?
Fələk gözdən salana,
Nə əlac gəz, nə çara.
Qəza vurub, tuş olmuşam naçara,
Nə dərman tapıram, nə çarə belə.

Bağ becərdim, tərsə döndü, ovand, zay.
Vəxtim belə, tərsi xarab, ovand, zay.
Əzizim, ovandına,
Iş düşmür ovandına,
Nə ovçu insaflıdır,
Nə doğru, ov andına.
Bu dünyada tərs çoxdu, ovand zay,
Şələ dərddən olsa, nə çarə, belə?

Salmanı qocaltdı dərd də, kədər də,
Yaşamaq olarmı dərddə - kədərdə,
Əzizinəm, kədərdə,
Canım dərddə - kədərdə ,
Bəxtim ələk içində,
Qismətim də, kədərdə.
Bir loğman lazımdı məndəki dərdə,
O da kı rast olmur naçara belə.

**20.02.2004.**



## CIĞALI TƏCNIS

Nuri -təcalladan nəyin əksikdi,
Hər nəyə baxıram camalıncadı.
Gülüm, camalıncadı,
Kamal camalıncadı,
Allah yaradan bəndə
Onun camalıncadı.
Məndə camalını gördüm, vuruldum,
Özün ləl - göhvərsən, camal oncadı.

Yeni açmış xoş ətirli laləsən,
Gül-çiçəkdən çox gözəlsən Lalə, sən.
Əzizinəm laləsən,
Süsən - sünbül laləsən,
Təbib əlac etmədi,
Dil öyrətdin lala sən.
Bülbül kimi ötməyimə az qalıb,
Əlimə mey dolu cam alıncadı.

Salman Qazi, bu gözəl nə şirindi,
Ya mələk, ya Leyli, ya da Şirindi.
Əzizim nə şirindi,
Şəkər-baldan şirindi,
Ayıl, a Fərhad canım,
Bu gəzdiyin Şirindi.
Belə gözəllikdə camal görmədim,
Əl incə, bel incə, camal incədi.

**09.10.2002.**



## CIĞALI TƏCNIS

Gözüm gördü, yenə düşdü od cana,
Al canımı, calaq eylə od cana.
Qurban olum od cana,
Odlu cana, od cana,
Kərəm olub yanıram,
Neyliyəcək od cana.
Təlaşdayam, canda gələ od cana,
Seyraqublar deyə, nə yandı, yandı !

Axtarıram, görükmürsən arabir,
Belə olmaz, səndə yoxla, ara, bir,
Əzizinəm, ara bir,
Otaq iki ara bir,
Demirəm ki, hər gün gəl,
Heç olmasa, arabir.
Yaxşı döylü beşi - onu, ara bir,
Deməyim ilqara nə yandı, yandı.

Dəli könlüm, dərya dərin, sən dəyaz,
Qarlı qışsan, açası döy səndə yaz.
Ay əzizim sən dəyaz,
Məndə payız, səndə yaz,
Kim eştdi, anladı,
Anlamadın sən dayaz.
Şair Salman, beyilqardan sən də yaz,
Nə məsləki düzdü, nə andı, andı.

**13.02.2003.**



## CIĞALI TLCNIS

Dəli könlüm, zox intizar zlkirdin,
Həsrət gözün yaxşı baxsın, o da o.
Əzizinəm o da o,
Od alovdu, o da o.
Yar deyib uzaq gəzir,
Səni salıb oda, o.
Məcnun oldun, Leyli gəzdin çöllərdə,
Əsli oldu, Kərəm saldı oda, o.

Havalanıb, açıb töküb yaxanı,
Vecə almır ya ağanı, ya xanı.
Görmürsənmi yaxanı?
Yandıranı, yaxanı.
Görərsə namaz əhli,
Qüsl eylər, yaxanı.
Kərəm eylə, zalım bağla yaxanı,
Ya öldürər, ya da salar oda, o.

Salman Qazi, etibar yox gözəldə,
Söz verirlər, sonra qalır göz əldl.
Əzizinəm gözəldə....
Göz də gözəl, gözəldə.
Mən xəstəyə təbib ol,
Qoyma qala göz əldə.
Bu gözəli Haqq yaradıb gözəl də,
Bax bu mənəm, bax bu budu, o da o!

**22.10.2004.**



**DAHA NƏ**

Bir bəri gəl, piyaləyə şərab süz,
Bardaq bircə, biz ikicə, daha nə?
Deyək-gülək qoy açılsın könlümüz,
Yataq bircə, biz ikicə, daha nə?

Kanar durma, badə götür, a sağı,
Ölən ölüb, yad eyləyək, a sağı,
Çək pərdəni, pəncərədən as ağı,
Otaq bircə, biz ikicə, daha nə?

Dünya fani qonağıyıq biz də ki,
Son nəfəsə belə gedək biz təki,
Saxlamaynan ürəyini buz təki,
Çıraq bircə, biz ikicə, daha nə?

Qoy yaşasın sevilən də, sevən də,
Nə olar ki, bir gözəli sevəndə?
Alqış söylə bu hikmətə, sevin də,
Ömür bircə, biz ikicə, daha nə?

Salman sənin, sən Salmanın, ay gülüm,
Ləbi qönçə, ay qaşları yay gülüm,
Belə günə tapılarmı tay gülüm?
Varaq bircə, biz ikicə, daha nə?

**10.06.2001.**



**GÖZƏL**

***təcnis***

Mən qocaman şair, sənsə bir canan,
Özündən razı, ay ağa gözəl.
Çox demişəm az can istə, az can an,
Bir gün düşəcəksən ayağa, gözəl.

Çoxlarını oda salıb göz-qaşın,
Dediklərini təsdiq etmir göz, qaşın,
Demirsənmi düşmən ola göz qaşın,
Bahar buludu tək a, yağa gözəl.

Öyünmə ki, uca dağlar qarısan,
Höcətlikdə Salman ilə yarısan,
Bu gün sabah bir qocalmış qarısan,
Əndamın bükülər ay ağa, gözəl.

**05.10.2002**

**AY ÜZƏ MƏNI**

***təcnis***

Mən xəstən olmuşam gəl əlac eylə,
Sən qoyma bu azar, ay üzə məni.
Verdiyin büsalar dərmandı, dərman,
Tamarzı qoymaynan ay üzə, məni.

Yaşayırsan, əhdə düz ol, a yaşa,
Qoyma gözlər həmdəm ola, a yaşa.
Yaşlaşırıq yaş calanır, a yaşa,
Fələk çatdıraydı, a yüzə- məni!

Salman göldü, gəlib qonsan ay sona,
Bu sevgi saxlama yanan ay sona,
Qorxum budu könlüm sına, oysana,
Həftələr qocalda, ay üzə məni.

## AY BELƏSİNƏ

***təcnis***

Ömür-gün keçirdim kefdə, damaqda,
Rast gəlməmişdim ay beləsinə.
Gözü, közə dönüb yandırır məni,
Buxağa nur salır, ay belə sinə.

Dodağı baldandı, dişi incidən,
Gözləri mehriban, qaşı incidən,
Tellərə səpibdi qızıl, inci, dən,
Mələkmi, pərimi, ay bələsi, nə?

Salıbdı alova-oda Salmanı,
Yoxsa odmu bilir o da Salmanı?
Naz edir, yandırır odda Salmanı,
Mən də vurulmuşam ay, beləsinə.

**04.03.2000.**

## YA SARI

***təcnis***

Sevəndə gözəlin göyçəyini sev,
Çalış sevmə qəlbi çirkin, yasarı.
Allah sənə kamal verib, huş verib,
Seçməlisən ya tərlanı, ya sarı.

Deyiblər ki, yaz gətirməz bircə gül,
Bir bülbülə bəs edərmi bircə gül?
Sən də apar sevdiyinə bircə gül,
Ya ağ olsun, ya qırmızı, ya sarı.

Salmanı qul etdin ilqara könlüm,
Ay dolaşıq gəldi, il qara könlüm,
Belə ilqar olmaz ilqar, a könlüm,
Birdəfəlik ya kəs tulla, ya sarı!

**12.01.2002.**

## AY SARI SARI

*təcnis*

Qaysağı qopartın, yaram qan verir,
Gətir məlhəmini ay sarı, sarı.
Demirsənmi can dediyim can verir,
Kanarda durmaynan ay sarı, sarı!

Əhd eylədik, düz olmadın əhdinə,
Beybafanın ilqarı nə, əhdi nə?
Ləkə vurdun sən tərlanın əhdinə,
Özünə yar seçdin ay sarı, sarı!

Eşqin bir azardı, çətin sağalı,
Bu azara düçar olan sağ qalı?
Ağarıb Salmanın saçı-saqqalı,
Indi bax, yaxşı gül, ay sarı, sarı!

**05.03.2002.**

## GƏRAYLI TƏCNIS

Keçən-keçdi, ələ gəlməz,
Axtarsan da, arasan da.
Qayda budur yar-yarını,
Axtarsın da, arasın da.

Gözün qalıb güldə gözəl,
Sən də gözəl, gül də gözəl,
Bülbül ötər güldə gözəl,
Tər çiçəklər arasında.

Ayrı saldı, ölən anı,
Istəyini bölən anı,
Salman ölə, ölən anı,
Qollarının arasında.

**20.02.2004**

## YADA SAL MƏNI

Mən sənə nə yadam, nə də özgəyəm,
Ya qaya bilirsən, ya da sal məni?
Mənim ürəyimdə yoxdu özgə - sən,
Sən də unudubsan yada salmanı.

Mənə demədinmi gözlə? Gözlədim.
Hicranın yaş oldu gözdə, gözlədim,
Baxmaqdan tor tutdu göz də, gözlədim,
Nolar, sən də axtar, yada sal məni.

Şirinlik var idi dilində gözəl,
Dodağın da gözəl, dilin də gözəl,
Əzbərsən Salmanın dilində gözəl,
Bəs niyə salmırsan yada Salmanı?

**22.02.2004.**

## MƏNI

Çoxdan arzumuydu, bircə gecəlik
Öz isti qoynuna yar ala məni.
O səbəbdən dedim, gəl mehmanım ol,
Demədim ki, incit, yarala məni.

Ürəyimi sənə verdim əzəldən,
Istəyindən saça düşdü əzəl dən,
Sənnən sevgi istəmirəm az əldən,
Ya yar et özünə, ya arala məni.

Salman arasında qalıb “Mən”, “Sən”-in,
Demirdinmi sən mənimsən, mən sənin,
O səbəbdən qulun oldum mən sənin,
Gördünmü sözümdə yar, ala məni?

**24.02.2004.**

## GÖZƏL GÖZƏLƏ

Mən olsam qoymazdım həsrət çəkəsən,
Belə zülm edərmi gözəl , gözələ?
Dedim ki, dərdliyəm. Dedin çək - əhsən!
Axı həsrət qalıb göz, əl - gözələ.

Qorxutma şəriət - imannan məni,
Zalım eylibsən imannan məni,
Dəyişmə Növrəstə Imannan məni,
O sözlər qoşarmış gözəl, gözələ.

Gözəl göyçək ola, gözünnən ala,
Mənəm deyənlərin gözünnən ala,
Ovlaya könlümü, gözünnən, ala.
Deyələr tuş gəldi gözəl - gözələ.

Bir vaxtlar gülərdin Məcnuna, gülüm,
Döndərdin Salmanı Məcnuna, gülüm.
Leylisiz durarmı Məcnun a gülüm?
Nə qədər baxacaq gözəl, göz ələ?

**27.02.2004.**

## TƏCNIS

Göz deyir: - Qoy baxım gözəlliklərə,
Allahın əlləri nə gözəl çəkir.
Göz gözələ baxır, gözəl də gözə,
Nə gözəl əl çəkir, nə göz əl çəkir.

Dedim gülsən, dodaq büzdü, incidi,
Düz sözümdü, inciyirsən inci di,
Zalım qızı mirvaridi, incidi,
Gözələ sığalı gözəl əl çəkir.

Könlüm dərya, gəl gir, üz də, yaxan da,
Gözüm qalıb ağ sinəndə yaxanda,
Gözün döymü yandıran da, yaxan da,
Salmanı özünə nə gözəl çəkir.

**23.10. 1990**

## TƏCNIS

Mən sazı götürüm, sən sapa düzül,
Səninlə qol-boyun olum, a təcnis.
Səninlə sevinim, sənlə kövrəlim,
Bulud tək boşalım, dolum, a təcnis.

Gah cığalı, gah cığasız gəlirsən,
Gah sığallı, cah sığalsız gəlirsən,
Gələndə də yaman kefsiz gəlirsən,
Onsuz da kefsizdi halım, a təcnis.

Sənlə Alı gəlir, Ələsgər gəlir,
Hər nə gəlir gəlsin, təzətər gəlir.
Könlümə səninlə min əsər gəlir,
Səninlə gödəlməz dilim , a təcnis.

Dirildən də sənsən, öldürən də sən,
Mən öldürən döyləm, - öldürən desən,
Hansı şair ölər, öldürəndə sən,
Gəl-gəl qabağında ölüm, a təcnis.

Salmanın tacısan, həm sərvərisən,
Bütün şeirlərin şah əsərisən,
Öz sənət dünyamın ləl-gövhərisən,
Sənsiz necə olar halım, a təcnis?

**14.01.2007**



## BIR AYƏ MƏNI
***(Borçalıya məktublar silsiləsindən)***

Çoxdandı əlimdən tutub, buraxmır,
Hey çəkir özünə bir ayə məni.
Əzzim, bir ayə məni,
Gəl gör bir aya məni.
Səndə insaf yoxdumu?
Ara bir, aya, məni.
Gəlsən görüşərik, şad olar könül,
Gəlməsən görməzsən bir aya məni.

Görmürsənmi gözdən axan qanı, yar,
Qurdalama yaralarmı, qanıyar.
Əzizinəm, qanıyar,
Kim qanmasa, qanı yar,
Yadlar ilə nə işim?
Qanmaz, məni qınıyar.
Insafa gəl, qaraltmaynan qanı yar,
Həsrətin sındıra, ya əyə məni?

Şair Salman gör dolanır nə sində,
Tale - qədər nə yaşdadı, nə sində.
Əzizinəm nə sində?
Nə torpaqda, nə « Sin » - də.
Gözlərim yollarında,
Sənsə nəslər nəsində.
Öz yeri var yaxşının da, nəsin də,
Niyə yoxlamırsan bir, aya, məni.

**26.02.2007**



## MEHRACNAMƏ - CIĞALI TƏCNIS

Ey Allahım, ey rrəhmani, ey rrəhim,
Şər – kələkdən özün məni daldala.
Yarəb, məni daldala,
Qoru məni, daldala,
Bu dünyada qəribəm,
Çək qoynuna, daldala.
Arxalandım etiqada – imana,
Bel bağladım «Əlif»,«Mim»-ə, «Dal», «Dal»-a.

Sən köməksən yaradana, qurana,
Şamu – səhər sığınmışam Qurana.
Mən aşiqəm Qurana,
Otuz cüzə, Qurana,
Tovrat, Zabur, Incil də,
Bağlanıbdı Qurana.
Əl basmışam, and içmişəm Qurana,
Haqq yolundan çəkilmərəm dal – dala.

Səndən qeyri kimə açım əlimi?
Sən ucaltdın Hüseynmi, Əlimi.
Unutmaram Əlimi,
Əhli - Beyti, Əlimi,
Ilhamım səndən gəlir,
Bağlamaynan əlimi.
Mən Salmana eşq – ilhamı sən verdin,
O səbəbdən dur mənimlə dal – dala.

**13.06.2008**



## YARALI CANIM

Aşiq oldum bir canana, bir yara,
Dedim: - gözəl, gəl eşqimə bir yara,
Aşiq oldum bir yara,
Bir canana bir yara,
Kor ol səni ay fələk,
Həsrət qoydun bir yara.
Olmaz, - dedi, o da vudu bir yara,
Bilmir yaralıdı, yaralı canım.

Bu yaşımdı məni saldı eşqinə,
Necə dözüm eşq odunun eşqinə?
Əzizimin eşqinə,
Eşqim çatmaz eşqinə,
Bu ki, eşqi qanandı,
Qanmazların eşqi nə?
Qurban olum qananların eşqinə,
Dilbilməz əlindən yaralı canım.

Salman Qazi, oynadığın odladı,
Xumar gözü odlu baxdı, odladı.
Əzizinəm odladı,
Mənim peşəm odladı.
O alovdu, mən ocaq,
Ha yandırdı, odladı.
Öpdüm, məni dil – dodağı odladı,
O məndən, mən ondan aralı canım.

**25.05.2008**



## O YARA DEDI

Tapdığım təbibə yaram göstərdim,
Vallah sağalan döy o yara, dedi.
Dedim: - Təbib söylə, əlac kimdədir?
Durma, apar göstər o yara, dedi.

Dedim: - Təbib, yar özgənin yarıdı,
Nə mən yarımışam, nə o yarıdı.
Sinəmdədi, ürəyimlə yarıdı,
Utanma, çəkinmə, oy ara dedi.

Dedim: - Təbib, kim sağalıb yaradan?
Dedi: - Şair, bunu bilər Yaradan.
Dedim: - Salman sağalarmı yaradan?
Haqqdan vurulubdu o yara, dedi.

**27.05.2008**

## BIR AYA BURDA

Yanına gəlmişəm bir mömin kimi,
Izin ver dincəlim bir aya burda.
Quran varağına bənzər yanağın,
Bir aya burdadır, bir aya burda.
Qoy ziyarət edim bir, aya, səni,

Deyirlər, - axirətin cənnəti gözəl,
Cəhənnəmi əzab, cənnəti gözəl,
Qoynunda tapmışam cənnəti, gözəl,
Bir günəşə baxdım, bir aya burda.
Bənzətdim günəşə, bir aya səni.

Saxlaynan Salmanı yanında, gülüm,
Söndür alovunu yananda, gülüm.
Sənsən yandıran da, yanan da, gülüm,
Qoy yanım, kül olüm, bir aya burda.
Yada ki, yandırım bir aya səni.

**9. 04. 2007**

### TUTAR - TUTAR

Sənin dostluğun da özün kimiymiş,
Sözündə yoxuymuş ha tutar, tutar.
Dedim ki, insandı, insan oğludu,
Dedilər, gözləynən ha, tutar – tutar.

Namərdlik olarmı duzda – çörəkdə,
Səninlə kəsmişəm duz da, çörək də,
Qarğış möcüzəsi vardır çörəkdə,
Bir gün, gözlərini ha tutar , tutar.

Dostdur, bıçaq olub gözə batan da,
Qoymadım tikanı gözə batanda,
Ağlın itib, boğulanda – batanda,
Qoymaz, əllərindən ha tutar, tutar.

Aləm bilir sən nökərsən, mən ağa,
Sən nökərə neyləmişəm mən ağa?
Orda – burda qara yaxma mən ağa,
Göydəki yaxandan ha, tutar, tutar.

Kin – kifrətlə dolu imiş gözün də,
Diyən Salman iynə olub gözündə?
Ürəyindən keçən qalsın gözündə,
Qalmasın canında ha tutar – tutar.

**12.07.2007**

### AY AĞI GÖRDÜM

Çoxdandı görmürdüm, gördüm təzədən,
Görüşdük yenidən, gördüm təzədən,
Şahmar tellərində gördüm təzə dən,
Fələyin əlində ay, ağı gördüm.

Necə qıydı sənin kimi canana?
Canan gərək aşiqindən can ana,
Demirdinmi qocalarmı canan, a?
Titrəyən əlini, ayağı gördüm.

Göy üzündə ulduz gözəl, ay gözəl,
Deyirdilər bu qız gözəl, ay gözəl,
Leyli hanı, Şirin hanı ay gözəl?
Gözəllər bükülən ay, ağı gördüm.

Çox öyündün, elə mənəm, mən dedin,
Ha öyrətdim, ha qandırdım, mən dedin,
Hər bir işdə günahkaram mən, dedin,
Mən səni Salmana a, yağı gördüm.

**23.05.2008**

**YAN DA YAN**

***( təcnis)***

Olan oldu, keçən keçdi, ağlama,
Geri gəlməz, innən belə yan da, yan!
Təzədən alovu salma canıma,
Yanırsansa aralı dur, yanda yan!

Keçdi cavanlığmız, zamana yarı,
Təzəmi ayıldıb zamana yarı?
Kəsdi ömrümüzü zamana yarı,
Vüsal dəmi sənnən mənə yandı yan.

Saçlarıma yeni düşür təzə dən,
Kim yarayıb, mən yarıyam təzədən?
Salmanı alova atma təzədən,
Bu günaha bais olma, yan dayan!

**26. 01. 2006**



## A CANIM
( *təcnis* )

Bir zaman bəy idin, bəylik edirdin,
Nə gündü  çəkirsən, ay ağa canım?
Ömrünü dilbilməz taladı, yedi,
Saldı sən  yazığı ayağa, canım?

Şairlər sözünün  ağası oldu,
Gördün qara günü, ağ asi oldu,
Bir gör kim başının ağası oldu,
Yıxdı, duranmırsan ayağa, canım.

Dərdimə dərd çatmaz, dərdin eyidir,
Sinəm lap əzəldən dərdin öyüdür,
Salman dəyirmandı, dərdin üyüdür,
Dərdlə ayaqlaşmır  ayağ,  a canım!

**8. 07.2009**



**BAŞ BAŞA DƏYMƏZ**

Ey insan, ağlını topla başına,
Başda ağıl yoxsa, baş, başa dəyməz.
Əgər xarabdırsa, içi boşdusa,
O başı baş sayma, baş başa dəyməz.

Bacar yaxşılıqlar elə, gərəksə,
El mərdi unutmaz, elə gərəksə,
Hər ikisi vətənə - elə gərəksə,
Paxıllıq eləyib baş, başa dəyməz.

Mərd insan mərdanə saxlar adamı,
Incidib, bezdirməz adam adamı,
Qeyrətsiz adamla qoçaq adamı,
Götürüb dəyişsən baş başa, dəyməz.

Salmandan nəsihət, duyana dedim,
Qanmazı bizlədim, oyana dedim,
Xalqıma qurbanam: - deyənə, dedim,
Qurbanlıq olmursa baş, başa dəyməz!

**22.09.2009.**



# QOŞMALAR ÇƏLƏNGI



## MƏN YAZIQ

Möhnətim çaylar tək aşıb-daşıbdı,
Çəkməkdən gəlmişəm cana mən yazıq.
Yığval daşa dəyib, bəxt dolaşıbdı,
Köz olmuşam yana-yana mən yazıq.

Sənə neyləmişəm ay Allah-taala?
Alıbsan gözümdən, getmirsən yola,
Salıbsan başımı bu qeydi-qala,
Necə dözüm bu tufana mən yazıq?

Cavanlığım qaçır, yox beh-bazarı,
Bağban tək bağ saldım, görmədim barı,
Sinəmə dağ üstən, çəkdin dağları,
Çox çəkildim imtahana mən yazıq.

Qələmim alovdan, sözüm ataşdan,
Nə qədər söyləyim, yazım ataşdan,
Od almışam, mənim özüm ataşdan,
Sarvan oldum qəm-hicrana mən yazıq.

Şairəm, sinəmə salıbsan közü,
Bədbəxt eyləyibsən oğulu-qızı,
Kor olsun, tökülsün fələyin gözü,
Dözənmirəm qar borana mən yazıq.

Əlim ətəyində şikayətliyəm,
Divanə olmuşam, dəli kimiyəm,
Adi bir bəndənəm, çox gileyliyəm,
Yaradandan, yaradana mən yazıq

Qisməti verən də, alan da sənsən,
Salmanı bu günə salan da sənsən,
Dar gündəköməyə gələn də sənsən,
Sığınmışam ol subhana mən yazıq.

**1996**

## MƏNDƏDI

Səndə gözəllik var, məndə şairlik,
Dünyanın söhbəti, sözü məndədi.
Sevgimi qoyubsan sinənin üstə,
Aloyu məndədi, közü məndədi.

Qəşəng camallısan, incə bellisən,
Şirin ləhcəlisən, şirin dillisən,
Nazənin pərisən, allı-güllüsən,
Qışın sərt boranı, buzu məndədi.

Canımı od alıb, könlümü hicran,
Sevənlər sevənə ağladarmı qan?
Səni də qocaldar bu fani dövran,
Kamanı səndədi, sazı məndədi.

Bir əlin bahardı, bir əlin yaydı,
Baxışın oxladı, sinəmi oydu.
Istəyin Salmanı bu günə qoydu,
Ömrün çoxu gedib, azı məndədi…

## HA DÖŞƏ - DÖŞƏ

Demədimmi, ağır əyləş, batman gəl,
Salma yollarını ha, döşə, döşə.
Əl - əldən üzülüb, könül könüldən,
Iki əlli başına ha döşə, döşə.

Ağlın səni çölə salıb ay qağa,
Yıxılıbsan, duranmırsan ayağa,
Özgə qapısında, qara torpağa,
Soğan, sarımsaqdan ha döşə, döşə.

Allah dedin, - əməlin düz olmadı,
Möminlikdə təməlin düz olmadı,
Itib - çaşdı, xəyalın düz olmadı,
Mənəm deyib döydün, ha döşə - döşə.

Qəza tapmaz, ibadəti düz olan,
Nəfisi tox, tamahında az olan,
Harda olsa, yolunacaq qaz olan,
Indi qəm - kədərdən ha döşə - döşə.

Salmanın sözünü sözə saymadın,
Danladım, qandırdım, məhəl qoymadın,
Üzdə mömin oldun, haqqa uymadın,
Indi yüz arxamca ha döşə - döşə.

**3.07.2007**

## YAZDI

Gülüm, təcüblənmə fələk işinə,
Bəxtimizə özü biləni yazdı.
Yaxşını yamana yoldaş eylədi,
Doğrunun yanına yalanı yazdı!

Bu kor olmuş fələk ayırdı bizi,
Sinəmdə sönməyib eşqinin közü,
Sənin taleyinə bir dilbilməzi,
Mənim taleyimə ilanı yazdı.

Qovğadan açılmır bəlalı başım,
Mən kimə söyləyim, kimə danışım?
Tüstüm ərşə çıxıb, ağırdı daşım,
Viranə könlümə talanı yazdı.

Salmana zülməti, sənə zilləti,
Mənə dərdi-səri, sənə möhnəti,
Sənə tənələri, mənə töhməti,
Gündə şahmar təki çalanı yazdı.

**10.04.2002.**

## NƏ FAYDA

Çalışdım, əlləşdim bir yuva qurdum,
Ilan yuvasına döndü, nə fayda?
Özgələrə çıraq oldum, nur oldum,
Özümün çırağım söndü, nə fayda?

Bəxt-yığvalım birdən birə qudurdu,
Fələk düşmən oldu, üzümə durdu,
Başıma budadı, qolumu qırdı,
Arzular gözümdə sındı, nə fayda?

Oğul-qız saymadı böyük, kiçiyi,
Dillənəndə qapdı qancıx küçüyü,
Sirr təki saxladım bu hayı-küyü,
Ürəyim od kimi yandı, nə fayda?

Salmanam, gözümlə odlar götürdüm,
Haqqıma sığındım, köksüm ötürdüm,
Bağ saldım, çox əfsus tikan bitirdim,
Üstünə qarğalar qondu, nə fayda?

**08.03.2001**

## AĞRIN ALIM

Əl çəkmir sinəmdən yenə qəm-kədər,
Bu sınıq könlümü al ağrın alım.
Çoxdandı həsrətəm saza-söhbətə,
Oxu ağrın alım, çal  ağrın alım.

Məndən nə istəyir bu çərxi- fələk,
Cavab tapammıram ay nazlı mələk.
Məni tez -tez yoxla, axtarma tək-tək
Dünya puç dünyadır bil ağrın alım.

Gəl qov kədərimi, dağıt hicranı,
Bilirəm səndədir dərdin dərmanı,
Qoyma qocalmağa şair Salmanı,
Qolların boynuma sal ağrın alım.

**17.10.2001**

## DƏRDIMI KIMƏ DANIŞIM

Ay ellər, dərdimi kimə danışım,
Günahkar olmuşam bilən yanında.
Vallah qanadlanmış quşa dönürəm,
Oynayan yanında, gülən yanında.

Mən sazın ölüsü, söz dəlisiyəm,
Alovam, atəşəm, köz dəlisiyəm,
Bir şeyda bülbüləm, yaz dəlisiyəm,
Saralıb-soluram, solan yanında.

Salmanam, qələmə müştaq olmuşam,
Hicrana-kədərə ortaq olmuşam,
Əl - ayağı bağlı, dustaq olmuşam,
Şahmar qabağında, ilan yanında!

**BƏS DÖYMÜ SƏNƏ**

Mən sənin qəlbinə yol tapanmıram,
Bir ülvü hörmətim bəs döymü sənə?
Eşqini sinəmdən çıxaranmıram,
Çılğın məhəbbətim bəs döymü sənə?

Səni vəsf edirəm yazılsın sözdə,
Məni yandırmaynan alovda, közdə,
Səni çiçək bildim çəməndə, düzdə,
Sadə təbiətim bəs döymü sənə?

Mən sənin əlindən hayana gedim?
Sənsiz tək qalanda qəm-kədər yedim,
Dedin: - sevirsənmi, sevirəm-dedim,
Əsil həqiqətim bəs döymü sənə?

Mən səni görəndə mehriban bildim,
Qayğıkeş, lütfükar bir insan bildim,
Dərdimi söylədim, dərd qanan bildim,
Şirin söz-söhbətim bəs döymü sənə?

Daha nə söylüyüm, daha nə deyim?
Yalvardım, yapışdım, özgə neyniyim?
Salmanam, bax budu sənə gileyim,
Vəfam, sədaqətim bəs döymü sənə?

**07.04.2000.**

## ÖPÜŞ VAR

Öpüş var yalandan yanaq bulayar,
Öpüş var ömürdən ömürlər kəsər.
Öpüş var ömürə ömür calayar,
Öpüş var hər biri gözəl bir əsər.

Öpüş var bal kimi, şəkərdən şirin,
Öpüş var hikməti, mənası dərin,
Öpüş var buz kimi, bulaqdan sərin,
Öpüş var özünə cəlb edər, çəkər.

Öpüş var tikan tək, dalayar, batar,
Öpüş var - qan salar, aralıq qatar,
Öpüş var savabı Allaha çatar,
Öpüş var qalalar dağıdar, sökər.

Öpüş var Salmana şəkərdi, baldı,
Öpüş var ağlımı başımdan aldı,
Öpüş var daddınmı, sonu zavaldı,
Gözə tor gətirər, qədd-qamət bükər.

**22. 05. 2001**

## AÇMAZ - AÇMAZ

Dərdin de, qanana divanə könlüm,
Adam hər yetənə dil açmaz-açmaz.
Onsuz da viransan, viranə könlüm,
Bəxtin taleyinə yol açmaz-açmaz.

Gülərüz yanında zəhər bal olar,
Qaraqabax yanında bülbül lal olar,
Həvəslə becərsən tikan gül olar,
Həvəssiz becərsən gül açmaz-açmaz.

Ürəyimdə alov, sinəmdə ocaq,
Yüklənib belimə dərd qucaq-qucaq,
Sığınsam, Tanrıma sığınnam ancaq,
Şair hər yetənə əl açmaz-açmaz.

Salmanı qocaldır bu qismət-qədər,
Heç kəsin əməyi getməsin hədər,
Hicran saç ağardar, fikir - qəm didər,
Arzum qanadlanar, qol açmaz-açmaz.

**12. 09. 2001.**

## GÜLÜM

Nə bəxtim yarıdı, nə də taleyim,
Nə sən xoşbəxt oldun, nə də mən, gülüm.
Səndə saç ağarıb, mən qocalmışam,
Haqqın var şairə nə desən, gülüm.

Düşdüm bu yollara, dönmək olmadı,
Dərdim başdan aşdı, demək olmadı,
Yalvardım, yapışdım kömək olmadı,
Nə Ömər, nə Əli, nə Həsən, gülüm.

Bu da bir taledi, bu da bir qədər,
Mənim dostlarımdı qəm ilə kədər,
Həmdəmim bir sazdı, bir qələm - dəftər,
Təndirə düşürmüş tələsən, gülüm.

O vaxtlar vuruldum özüm bilmədən,
Mən necə unudum o sən, bu da mən,
Sinəmdə od-alov, başım üstə çən,
Bunları bilmirsən hələ sən, gülüm.

Ayırmaq olarmı candan cananı,
Gəzmirsən Salmanı, demirsən hanı?
Beləmi yoxluyar insan insanı?
Neyləyim beləsən, beləsən, gülüm.

**15. 10. 2001**



## MƏNI

Məni el tanıtdı, elə bağlıyam,
Ayırma bu kökdən, budaqdan məni!
Mən eldən çıxmışam, elin oğluyam,
Qopartma bu daşdan- torpaqdan məni!

Uca dağlar aşa-aşa gəlmişəm,
Selə dönüb coşa-coşa gəlmişəm,
Uşaq döylən, əlli yaşa gəlmişəm,
Darama yaxından, uzaqdan məni!

Qələmə bağlıyam, sazam-sözəm mən,
Bir yanan məşələm, sönməz közəm mən,
Sadə təbiətli, gülərüzəm mən,
Pərvanəyəm, qovma çıraqdan məni!

Həvəsim dünyaya sığışan deyil,
Böhtanla, nahaqla barışan deyil,
Könlüm gözəllərdən yığışan deyil,
Qısqanma yanaqdan, dodaqdan məni!

Könlüm istəyəndə dağlar gəzirəm,
Bülbülə qoşulub bağlar gəzirəm,
Sinəm yanır, buz bulaqlar gəzirəm,
Ayrı salmaq olmaz yaylaqdan məni!

Salmanam illərim ötdü, yanıram,
Ömrüm hədər yerə getdi, yanıram,
Mənimki də belə gətdi, yanıram,
Sən də şərləyirsən nahaqdan məni!

**15. 03. 2002**

## YANDIR A DÜNYA

Yaman alışmışam, qəfil odlara,
Yaman yandırırsan, yandır, a dünya.
Bu şairlik hara, bu zillət hara?
Bir məni başa sal, qandır, a dünya.

Həmi insafsızsan, həmi də haqsız,
Sevmirsən ədalət, nə də doğru, düz
Qoymaynan tək-tənha, qalmışam yalqız,
Məni də tərkinə mindir, a dünya.

Istəyim nə dövlət, nə də ki, vardır,
Səndən gileylənmək bizlərə ardır,
Dedim əlimdən tut, ayağa qaldır,
Demədim ki, alçalt, endir, a dünya.

Salmana bir yerdə vermirsən qərar,
Məni xalq içində xar eylədin, xar,
Bir olsa, bir dərdi çəkməyə nə var?
Yükləyib belimə mindir, a dünya.

**11. 09. 2001**

**BƏDNƏZƏRDƏN QORXURAM**

A sağ olmuş, bir gör necə gözəlsən,
Demirsənmi yandırıram, yaxıram.
Dünya sənin vecinə döy, bilirəm
Mən arxanca yana-yana baxıram.

Bu gün təmiz oxşayırsan günəşə,
Axı belə olmayırdın həmişə,
Bənzəyirsən saf qızıla, gümüşə,
Gözdən yayın, bədnəzərdən qorxuram.

Yaşıl donu dəyişibsən göy dona,
Demirsənmi yer od ala, göy dona,
Doğrudan da çox qəşəngdir göy don a,
Pis ağızdan, pis gözlərdən qorxuram.

Salman bu gün  od alıbdı, bilmirsən,
Çox ciddisən, danışmırsan, gülmürsən,
Kənar durub heç yaxına gəlmirsən,
Düz edibsən, bəd sözlərdən qorxuram.

**11.09.2001**

## GÖZÜMDƏ

Mən nəyə baxım ki, könlüm açılsın,
Bütün arzularım öldü gözümdə.
Bu dərdi-kədəri viranə qalsın,
Dəryadı gözümdə, göldü gözümdə.

Hədəfi olmuşam boran-küləyin,
Tamarzısı oldum arzu-diləyin,
Qələmi sıneydi çərxi-fələyin,
Yarımı yarıca böldü gözümdə.

Sinəmin üstündə ilan saxladım,
Pünhanca canımı alan saxladım,
Bilmədim, düşmənim olan saxladım,
Tikan təki batıb qaldı gözümdə.

Əlləşdim, bəxtimlə barışanmadım,
Iblislə qaynayıb-qarışanmadım,
Qanmazla, nadanla yarışanmadım,
Qananlar incidi, ləldi gözümdə.

Bu günlərə düşdüm qüssə-kədərdən,
Axı, necə qaçım yazı-qədərdən,
Hicran hücum çəkdi Salmana hərdən,
Özünə yurd-yuva saldı gözümdə.

**30.06.2002.**

## GÖRMÜŞƏM

Zülm ilə çatmışam bu əlli yaşa,
Çox şükür, ömrümü yarı görmüşəm.
Düz yollar gəzmişəm dağ aşa-aşa,
Boranı görmüşəm, qarı görmüşəm.

Gözəllər görmüşəm, bəxtsiz-yığvalsız,
Mərdi dili gödək, namərdi arsız,
Baxıram çinara, boy uzun, barsız,
Qönçənin köksündə xarı görmüşəm.

Insanlıq aldanıb qızıla-zərə,
Fələk də qurşanıb böhtana-şərə,
Qırx ilin arvadı kəf gəlir ərə,
Tərlanlar ovlayan sarı görmüşəm.

Tənədəyəm əlim qələm tutandan,
Betər oldum şahmar ilə yatandan,
Zəhləm gedir dostu vara satandan,
Ürəklərdə ilanları görmüşəm.

Oğul var arxadır mahala, elə,
Aldanmır fitnəyə, aldanmır felə,
Nə yaxşı dünyada yaxşı var hələ,
Düz ilqarı, beh-bazarı görmüşəm.

Salmanam, qüssədən haraya qaçım,
Dərd od tək yandırır, kimlərə açım,
Görə-görə gəldim, ağardı saçım,
Qəm-hicranı, dərd - azarı görmüşəm.

**BILƏ – BILƏ**

Sənə neyləmişəm ay çərxi-fələk?
Məndən döndəribsən üz bilə-bilə.
Bəs döymü bu fitinən, bu şər, bu kələk,
Gözlərin doymayır az bilə-bilə.

Səndən bəxt dilədim, qismət dilədim,
Çətinliyə saldın, səbir eylədim,
Səndən isinməyə günəş istədim,
Sən basdın sinəmə köz bilə-bilə.

Aldın əllərimdən xoş günlərimi,
Artırdın, çoxaltdın boş günlərimi,
Eylədin zülümə tuş günlərimi,
Bu qədər zülümü düz bilə-bilə.

Hara getdim, əl-qolumu bağladın,
Yesir kimi bir bucaqda saxladın,
Hər gün kef-halıma soğan doğradın,
Salmanın kefini saz billə -bilə.

**15.11.2002**

## KASIBLIQ

Ömrün bu vaxtında yaman ilişib,
Haradan başıma gəldi kasıblıq?
Dəyirman daşı tək boynuma düşüb,
Qəddimi qəflətən əydi kasıblıq.

Arıqlayıb sifət, köhnəlib paltar,
Genəlib, belimdə durmayır şalvar,
Deşir gözlərimi arvad-uşaqlar,
Ailədə nüfuzdan saldı kasıblıq.

Xəbərim olmadı, bax-necə gəldi,
Şaxtalı qar-boran, tufandı, yeldi,
Əlimdən dostumu, qohumu aldı,
Mənimlə tək - tənha qaldı kasıblıq

Salmanın çoxalıb hər dərdi-səri,
Beləymiş ömrümün yazı-qədəri,
Sirdaşım bilmişdim qələm-dəftəri,
Yazdığım sözlərə güldü kasıblıq.

**24.01.98.**

## BIR KÖNÜL DOSTUMA

Niyə soruşursan ərzi-halımı?
Nə vaxtdan bəridir atıb gedibsən.
Xəzan vurub çiçəyimi, gülümü,
Insafı, mürvəti satıb gedibsən.

Hərdən zəng edirsən, hərdən susubsan,
Öz-özünə inciyibsən, küsübsən,
Aralıqdan haqq-salamı kəsibsən,
Özün aralığı qatıb gedibsən.

Gəzəndə tapmıram, yoxa çıxırsan,
Könül bulandırıb, ürək sıxırsan,
Edib-etmədiyimi başa qaxırsan,
Qarıyı qarıya tutub gedibsən.

Hərdən axtarırsan,olmur xəbərim,
Aşıbdı başımdan hər dərdi-sərim,
Mən həmin Salmanam, nazlı dilbərim,
Demə ürəyimdən itib gedibsən.

**12.12.98.**

**BU GECƏ**

Məcnun könlüm dağı-daşı dolandı,
Yenə də Leylini gəzdi bu gecə.
Əslini, Kərəmi alovda gördü,
Sinədən gələni yazdı bu gecə.

Bir ceyran baxışlı, bir ala gözlü,
Bir mina gərdənli, bir şirin sözlü,
Bir dünya gözəli, bir gülər üzlü,
Mənə eşq şərbəti süzdü bu gecə.

Nə gözəl olurmuş aylı gecələr,
Ovçulu gecələr, ovlu gecələr,
Kaş çox ola belə saylı gecələr,
Sevdiyim hər şeyə yozdu bu gecə.

Ey könlüm ulduzu, gəl hərdən-hərdən,
Sən mənə əzizsən qızıldan – zərdən,
Ürəyim silindi qəmdən, kədərdən,
Çünki qəm-qayğımız azdı bu gecə.

Nura boyanıbdı külli-asiman,
Bir yanda piyalə, bir yanda canan,
Döz belə gecəyə, ay Qazi Salman,
Desinlər ki, şair dözdü bu gecə…

**8.10.2001**

**NƏ GÖZƏL ZƏNG IDI O GECƏKI ZƏNG**

Mən səni ananda, sən zəng edirsən,
Ürəkdən-ürəyə yol var, düzdümü?
Nə yaxın gəlirsən, nə əl çəkirsən,
Hələ sökülməyib yollar, düzdümü?

Bu sirri kim bilir, nədir bu hikmət?
Məni parçalayır qəm, hicran, möhnət,
Çoxdandı görüşüb, etmirik söhbət,
Ələ həsrət qalıb əllər, düzdümü?

Çoxdandı görmürəm, can çəkir səni,
Könlüm arzulayır, qan çəkir səni,
Görən məndən kimlər yan çəkir səni?
Dağılmır sinəmə tellər, düzdümü?

Zaman dəyişdikcə yaşa doluruq,
Çiçək kimi saralırıq, soluruq.
Birmiz baba, birmiz nənə oluruq,
Qocaldır bizləri illər düzdümü?

Sən ayrı, mən ayrı, hanı ilqarın?
Ay zalım yoxuymuş behin, bazarın.
Tək-tənha qalıbdı Salman tək yarın,
Bülbülsüz qalıbdı güllər, düzdümü?

**YANDIR MƏNI, YANDIRMAĞA NƏ VAR KI**

Mən Kərəm olmuşam, sən də ki, Əsli,
Yandır məni, yandırmağa nə var ki?
Sazlı, sözlü könlü sınıq şairəm,
Sındır məni, sındırmağa nə var ki?

Qaşın bizi, gözün bizi, yandırır,
Od-alovun, közün bizi yandırır,
Nazı-qəmzən, sözün bizi yandırır,
Yandır məni, yandırmağa nə var ki?

Bilirəm ki, məndən betər sevirsən,
Bu sevgini gizləyirsən, demirsən,
A beyinsaf, ürəyimi əzirsən,
Öldür məni, öldürməyə nə var ki?

Gülüm, yoxlamırsan Salman Qazini,
Görükmürsən, itirmişəm izini,
Sığallayıb çox çəkmişəm nazını,
Sındır məni, sındırmağa nə var ki?

## NƏDI

Çox maşallah camalına ay xanım,
Sən ki, varsan çiçək nədi, gül nədi?
Dörd bir yana şölə saçır camalın,
Gözəllikdə ərgən nədi, dul nədi?

Mən gəlmişəm, qonaq eylə varına,
Bir bağbanam, həsrət qoyma barına,
Gözüm düşdü qoynundakı narına,
Bəri eylə, dəymiş nədi, kal nədi?

Boyun göyçək, qamətin şux, göz ala,
Şövq əhlilər qul kəsilər gözələ,
Insaf eylə, qoy baxmasın göz ələ,
Kərəm eylə, cavan nədi çal nədi?

Gəl, Salman Qazini yaxından tanı,
Yer göstər, əzizlə gələn mehmanı,
Tərk eyləyib gedəsiyik dünyanı,
Qalasıdı dövlət nədi, mal nədi?

**12.09.99**.

## GÖZƏLLIYIN TƏRƏNNÜMÜ

Mən elə bilirdim gözəl döyülsən,
Hələ yazılmamış varaqsanmışkı.
Mələk misalısan, insan döyülsən,
Mənim gözlərimdən uzaqsanmışkı.

Duman, çən içindən çıxan gözəlim,
Izin ver səninlə görüşə gəlim,
Incə əllərinə toxunsun əlim,
Sən ki, bir bar verən budaqsanmışkı.

Bircə busə alım al yanağından,
Kəsmə, endir məni Mina dağından,
Doldur piyaləmi bal dodağından,
Yenicə çağlayan bulaqsanmışkı.

Şair zəlil olub görəndən bəri,
Gözünlə oxlayıb öldürmə məni,
Qovma işığından bu pərvanəni,
Ay qız, bir şöləli çıraqsanmışkı.

Salman Qazi söz qoşmayır yetənə,
Görəntək vuruldum vallahi sənə,
Bir cüt şamamadan pay göndər mənə,
Qoynu bağ, bağçalı yaylaqsanmışkı.

**DÜNYANIN**

Nə qədər ehtiyat etdim olmadı,
Ilişmişəm tələsinə dünyanın.
Ona inam, etibarım qalmadı,
Nahaq düşdüm həvəsinə dünyanın.

Yaranannan od-alovla dağladı,
Əllərimi-qollarımı bağladı,
Bir qulaqda nökər kimi saxladı,
Kefi düşdü özgəsinə dünyanın.

Addımbaşı yandırandı, yaxandı,
Qalıxanda badaqlayıb, yıxandı,
Bir şairə ögey kimi baxandı,
Dözəmmirəm tənəsinə dünyanın.

Bu dünyada çox naz-əda görmüşəm,
Sinəsində ağrı-qada görməşəm,
Keçən keçdi, canı bada vermişəm,
Belim dözmür şələsinə dünyanın.

Salman qocalırsan, çoxalır yaşın,
Çallaşıb saç-saqqal, ağarıb başın,
Yada döndü dost-qohumun, qardaşın,
Dönüb üzü tərisinə dünyanın.

**23.10.2000.**

## BU CANIM

Payız girib, qış kəsibdir qapını,
Bir çılpaq ağaca döndü bu canım.
Allah alıb fələyin insafını,
Ayrılıq oduna yandı bu canım.

Qartal kimi zirvələrdə gəzərdi,
Gözləri tutana tərif yazardı,
Şamu-səhər yanan şama bənzərdi,
Külək əsdi, daha söndü bu canım.

Daha yalqızlığa qalmayıb tabı,
Elə bil bağlanır ömür kitabı,
Qəmli dəyqələrmin yoxdu hesabı,
Tikanlar üstünə qondu bu canım.

Şövq əhliyəm, qulam mən gözəllərə,
Neçəsnin vəsfini yazdım dəftərə,
Alırlar canımı çox nahaq yerə,
Elə bilirlər ki, ondu bu canım.

Salmanam, görürəm ürəyi üzdən,
Dağdan qar itməsin, lalə də düzdən,
Bir ilqar  istədim ürəyi buzdan,
Üzümə baxanda dondu bu canım.

**1992**

## KÖNLÜMÜN HARAYI

Eşqi, məhəbbəti sən nə qanırsan?
O qədər yazdım ki, bilən ha döysən.
Özünü sultanmı, şahmı sayırsan,
Ölüb gedəsiyik, qalan ha döysən.

Bilmədin necədir eşqin ləzzəti,
Mən yox ey, sən gəzdin şanı-şöhrəti,
Neyliyim sevirəm, bu məhəbbəti
Sən gəlib sinəmdən silən ha döysən.

Mən səni sevdiyim, sən qudurduğun,
Bəs döymü yarama yara vurduğun,
Öldürür hicranın, kənar durduğun,
Şahmar tək çalırsan, ilan ha döysən.

Sən varsan, varlığın var-döylətimdir,
Sənin hər bir nazın məhəbbətimdir.
Şairəm, hər sözün səxavətimdir,
Salmanın qədrini bilən ha döysən.

**1975**

## ƏZIZIM

Könlüm sorağında, gözüm yolunda,
Qulağım səsində qaldı, əzizim.
Mən qəm tanımazdım sənlə olanda,
Ayrılıq canımı aldı, əzizim.

Haçan gələcəksən, darxıram tez ol,
Demədim canıma alov sal, köz ol,
Peyman bağlayıbsan, əhdinə düz ol,
Vaxt yetişdi, vədə gəldi əzizim.

Atəşin yandırır, canım qalmadı,
Yandı, getdi din-imanım qalmadı,
Yara vurdun, axdı qanım, qalmadı,
Demirsənmi bəlkə öldü, əzizim.

Etmə bu divanı Salman Qaziyə,
Təpik atma taleh yazan yazıya,
Köhnəni unudub, uyma təzəyə,
Çox səni kimləri soldu əzizim.

**20.02.90**

## GÖZLƏRIM

Çox gözlədim, niyə gəlib çıxmadın,
Baxmaqdan yolları yordu gözlərim.
Küsüb getdin, sən sözümə baxmadın,
Dalınca boylanıb doldu gözlərim.

Səndə nə qaydadır, mən anlamıram?
Bir məni başa sal, bəlkə qanmıram,
Məndə də səhvlik var, məndə danmıram,
Məni bu günlərə saldı gözlərim.

Vüsalın atəşi salıb canıma,
Cəllad döysən, gəl susama qanıma,
Xatırla keçmişi, dur-gəl yanıma,
Axı, gözlərində qaldı gözlərim.

Qorx! Hər bir şeyi görür göydəki,
Nə desən hazıram, sən qayıt təki.
Əritmə Salmanı yanan şam təki,
Nağayrım, düşmənim oldu gözlərim.

**10.02.93**

## SƏNI

Mən alov tutanda, sən uzaqda dur,
Alovum uzanıb, yandırar səni.
Şövq əhliyəm zalım, bil peşəm budur,
Çəkib ulduzlardan endirər səni.

Çox da havalanma, en asimandan,
Həvəsin gəlməsin qadadan, qandan,
Bir dəli cinlisi çıxar yanından,
Atının tərkinə mindirər səni.

Bəlkə məhəbbətə sən inanmırsan?
Məni oda salıb, özün yanmırsan,
Eşqin nə olduğunu niyə qanmırsan?
Salaram sinənə, qandırar səni.

Salmanın əlçatmaz zirvələri var,
Orda qərar tutub neçə arzular,
Bircə gecəliynə qoynuna alar,
Qoymaz alışmağa, söndürər səni.

**14.02.93.**

## GÖRƏM

Dünya, sənə hansı gözlə baxım ki?
Könlüm gülə, hər tərəfi şən görəm.
Nə qədər canımı oda yaxım ki?
Dost- tanışı özüm ilə tən görəm.

Kaş insan insanın qədrini bilə,
Nə ürək qəmlənə, nə can üzülə,
Gözəl balalarmız sevə-sevilə,
Gözləri tox, ürəkləri gen görəm.

Bəsdir fələk, sən də bir gəl insafa,
Dağılsın bu zülmət, qurtarsın dava.
Igidlər qayıtsın doğma ocağa,
Istəmirəm gözəllərdə qəm görəm.

Bircə aylığına çıxım yaylağa,
Gedib qonaq olam qatıq-qaymağa,
Binələr yüklənib, gedəndə dağa,
Nola nə bir duman, nə də çən görəm.

Cavanlıq get-gedə yaman incəlir,
Qocalıq xonçalı pişvaza gəlir,
Salman Qazi yoluna bax, gödəlir,
El var olsun, təki onu şen görəm.

## DƏRDIMI

Zalım fələk, məndən nə istəyirsən?
Hər il çıxarırsan yaza dərdimi.
Deyirəm, kaş qutara, sən qoymayırsan,
Qaytarıb endirsən təzə, dərdimi.

Əyibsən qəddimi kamana dönüb,
Yediyim, içdiyim al qana dönüb,
Günüm-güzaranım zindana dönüb,
Di gəl, görünməyir gözə dərdimi.

Yediyim burnumdan tökülür geri,
Bir sümük qalmışam, birdə ki, dəri,
Salıbsan canıma beş ildən bəri,
Çoxaltdın, çatdırdın yüzə dərdimi.

Gəl Salman Qaziyə eyləmə divan,
Axı bu zülümə dözərmi insan?
Gəzirəm tapılmır, bu dərdə loğman,
Sinəmdən qoparda, üzə, dərdimi.

**18.03.93**

### ÖZÜNƏ BIR BAX

Yenə baxışıyla ova çıxıbdı,
Bu zalım qızının gözünə bir bax.
Oğrun baxıb, neçə öylər yıxıbdı,
Ceyrana oxşuyur, özünə bir bax.

Dodağı piyalə, sifəti aydı,
Gözəllərə şahdı, Şirinə taydı,
Nola, bircə gecə mehman olaydı,
Bədirlənmiş aydı, üzünə bir bax.

Gözləri ox atır gördüyü kəsə,
Verəllər, hər kimdən canı istəsə,
Sağalar xəstələr bir dəfə görsə,
Di gəl məhəl qoymur yüzünə, bir bax.

Salman Qazi gözəllərə müştəri,
Vəsf etdim hamsını, doldu dəftəri.
Könlüm əl çəkməyir görəndən bəri,
Deyir qocalıbsan, sözünə bir bax.

**08.04.93**

### FƏLƏK

Nə qədər yalvardım - yapşdım sənə,
Gəlmədin insafa - imana, fələk.
Kömək əvəzinə zülüm verirsən,
Salırsan qar - boran, dumana fələk.

Mərd sənə əl açsa, olmaz - deyirsən,
Ürək sındırırsan, qəlbə dəyirsən,
Yaxşının gözündən alıb, döyürsən,
Qol - qanad verirsən yamana, fələk.

Mömin bir bəndəyəm, neylədim sənə?
Verdiyin əzabdan doymursan yenə,
Dərdi dərd üstündən caladın mənə,
Tamarzı eylədin dərmana, fələk.

Nə qəsdin tükəndi, nə də qərəzin,
Şair şad olanda, dötürmür gözün,
Canımı yandırır alovun - közön,
Baxmırsan möminə, qurana, fələk.

Körpə vaxtlarımdan çöllərə saldın,
Qismət hiyaləmi daşlara çaldın,
Sevib - sevilləndə əlimdən aldın,
Məni həsrət qoydun canana, fələk.

Allah, Allah - deyə ibadət etdim,
Tək Allaha səndən şikayət etdim,
Nə günah işlədib, cinayət etdim?
Sən duşman kəsildin Salmana, fələk.

**28.11.2004.**

## AY SAZIM

Sinəmə gəl, dərdi bölüm səninlə,
Şirin-şirin söhbət edək ay sazım.
Gödələrmi mənim dilim səninlə,
Hara desən durma, gedək ay sazım.

Məni görüşdürdün Qərib, Kərəmlə,
Tufarqanlı Abbas, nakam Dilqəmlə,
Qoç Koroğlu ilə, sultan Səlimlə,
Coşdu könül, açdı ürək, ay sazım.

Qorqud dədəmizdən yadigar qaldın,
Ələsgərlə, Ağacanla ucaldın,

Bütün Turan dünyasına səs saldın,
Şair dostu belə gərək, ay sazım.

Ürəyimin telləridir tellərin,
Bayatısı, laylasısan ellərin,
Tufanına sinə gərdin illərin,
Qorxutmadı boran, külək ay sazım.

Ağ Aşığın, Imaninin eşqisən,
Sair Nəbi, xan Əmrahın eşqisən,
Səməd Vurğun, Zəlimxanın eşqisən,
Pərvanəndir huri -mələk, ay sazım.

Sınamışam-etibarsız deyilsən,
Yandırsan da, boran-qarsız deyilsən,
Salman sənsiz, sən Salmansız deyilsən,
Ayırmasın bizi fələk, ay sazım.

**12.06.2002**

**INCIYIB KÜSMƏYƏ NƏ VAR KI GÜLÜM**

Inciyib küsməyə nə var kı, gülüm,
Bunun da öz ətri, təravəti var.
Borcumdu yüz kərrə ayağna gəlim,
Şairin, şairəyə məhəbbəti var.

Küsəndə fələkdən küs də, inci də,
Ləkə tapammazsan dürdə, incidə,
Səndədi könlümün hər sevinci də,
Sənlə əyləşməyin öz ləzzəti var.

Acıqlanıb mənə qocaman dedin,
Hirsin başa vurdu, qana - qan dedin,
Təmiz bir insana şər - böhtan dedin,
Bu sözün xatası, cinayəti var.

Qorxuram odundan, közündən sənin,
Mən necə gizlənim gözündən sənin?
Inciyən deyləm sözündən sənin,
Şairin başqa cür təbiəti var.

Salman çox eşidib tənəli sözlər,
Ədəbi - ərkanı, həyanı gözlər,
Bəd söz deyəni də sevər, əzizlər,
Ibadət əhlidir, mərifəti var.

**7.02.2003.**

## GEDIRƏM

Deməsinlər nəyi qaldı, nəyi var?
Saz əyliyib, söz əyliyib gedirəm.
Məndən sonra yeri-göyü yandırar,
Od əyliyib, köz əyliyib gedirəm.

Şair oldum, bədahətən söz dedim,
Pislərə pis, düz adama düz dedim,
Öyünmədim, ədəb-ərkan gözlədim,
Imanımı düz əyliyib gedirəm.

Fələk dara çəkdi, heç deyinmədim,
Danlandım, əzildim, yalan demədim,
Çox təklif etdilər, haram yemədim,
Halal çörək, duz əyliyib gedirəm.

Unutmaz, yad edər vəfalı dostlar,
Dillərdə dolaşan söhbət-sözüm var,
Atam deyib, məni gəzər, axtarar,
Oğul - uşaq, qız əyliyib gedirəm.

Dünya beş günlükdü, qalmaz heç kəsə,
Hasar çəkmək olmaz eşqə- həvəsə,
Taleyim əzəldən döndü tərisə,
Sevincimdən az əyliyib gedirəm.

Salmanda cəmləşdi dünya beşcə gün,
Ona etibarım yox oldu bütün,
Olmaq da çətinmiş, ölmək də çətin,
Şair kimi iz əyliyib gedirəm.

**ƏZIZIM**

Əsli saf olanlar dupduru olar,
Mərd bildirər baxışından, əzizim!
Axar bulaq bulansa da durular,
O bildirər axışından, əzizim!

Ceyran ola bilməz danaynan kalça,
Xoruza tay olmaz üç aylıq beçə,
Qiymətin bildirər toxunan xalça,
Bəzəyindən, naxışından, əzizim!

Çəməndə yanaşı qanqalla çiçək,
Darını, arpanı xəlbir seçəcək,
Hər üzü göyçəklər olanmaz mələk,
Pis seçilər yerişindən, əzizim!

Salman nəzər salar yaxşı, yamana,
Bu yolda düşübdü çənə, dumana,
Canım qurban sözlərimi qanana,
Narazıyam bu işindən, əzizim!

**23.10.98.**

**DÜNYA**

Nə yaman nazlısan, yaman qəmzəli,
Ərköyün, zəhimli, ədalı dünya.
Nə sonu görünür, nə də əzəli,
Tarixi salğarlı - sədalı dünya.

Pəhlivan yıxıbdı Rüstəm-Zal kimi,
Dadlıdır ne'məti, şəkər, bal kimi,
Sirli bir aləmdi, bağlı fal kimi,
Cənnət-cəhənnəmdi "səfalı" dünya.

Nə qədər yaşatdın, neylədin Nuhu?
Min doqquz yüz il oldu, bir günlük yuxu,
Nə təlaş bilirsən, nədə ki, qorxu,
Savaşlı, qırğınlı, davalı dünya.

Mənəm-mənəm deyib Həzrət Suleyman,
Bütün canlılara olubmuş xəqan,
Səni nə satan var, nə də ki, alan,
Yaman bahalısan, bahalı dünya…

Isgəndər çalışıb, tutmayıb qərar,
Böyük padşahları edib tarımar,
Əlindən diz çöküb, ağlayıb şahlar,
Əlindən alıbsan cəlalı dünya!

Hanı Əmir Teymur, hanı Çingiz xan?
Osmanlı yaradan o Qazi Osman?
Nizami, Füzuli, Vaqif, Natəvan?
Göstər Məshəti tək maralı dünya.

Hanı Zeynalabdin, hanı o var-hal?
Milyonçu köç etdi dilənçi misal,
Olub keçənləri bir-bir yada sal,
Verək bir-birmizə sualı dünya.

Dərk etsin, anlasın hər gələn insan,
Sən güzgü misallı, baxanlar mehman,
Hələlik yolçudur yolunda Salman,
Asiman dolanır xəyalı dünya.

**NƏ DƏRDIM**

Aylar aynan tuta, illər xoş gələ,
Mən deyəni fələk desə, nə dərdim?
Hər kəsin üzünə taleyi gülə,
Dostlarım əlimdən tutsa, nə dərdim?

Pisliyi eyləmək asan olmaya,
Inciklik olmaya, küsən olmaya,
Öldürən, itirən, kəsən olmaya,
Hər şey qaydasında getsə, nə dərdim?

Gülləri döyməyə nə yel, nə boran,
Insan tanımaya nə qəm, nə hicran,
Beşgünlük dünyadı, şən keçə dövran,
Gül - gülün yanında bitsə, nə dərdim?

Gecəyə yazılıb parlaq ay - ulduz,
Xoşbaxt olaydılar həm oğul, həm qız,
Yar yarsız qalmaya, gözəllər yalqız,
Sevənlər sevənə yetsə, nə dərdim?

Budur Allahımdan umduğum murad,
Elimi şən görəm, obamı azad,
Dostları güləriüz, qohumları şad,
Salman murazına çatsa, nə dərdim?

**10.05.1999.**

**BACARDIM**

Bu dünyada hə bir kəsin yeri var,
Mən ömrümlə yarışmağı bacardım.
Dəqiq bildim beşcə günlük qonağam,
Düz deməyi, danışmağı bacardım.

Bəzən mənə ögey kimi baxdı da,
Bəzi vaxtlar ucaltdı da, yıxdı da,
Bəzi vaxtlar yandırdı da, yaxdı da,
Oda düşüb, alışmağı bacardım.

Haqsızlıqlar başım üstə od oldu,
Haqq - ədalət zülümkara ad oldu,
Dost - dostundan uzaq düşdü, yad oldu,
Mən qaynayıb - qarışmağı bacardım.

Sevgi oldu sultanım da, şahım da,
Sevgi oldu amanım da, ahım da,
Yerə dəydi, sındı erkən çağımda,
Taleyimlə barışmağı bacardım.

Utanmadım - sözü gözə düz dedim,
Məclislərdə ədəb - ərkan gözlədim,
Gözəllərə tərif qoşdum, söz dedim,
Nə azmağı, nə çaşmağı bacardım.

Deməsinlər şair hanı, söz batıb,
Xoş sözün sədası Allaha çatıb,
Salmanam, bir gözəl könlümə yatıb,
Vədəsində görüşməyi bacardım

**24.08.2003.**

## BU INSAN GƏNDINƏ GƏLƏ BILMƏYIR

Bu insan gəndinə gələ bilməyir,
Qohumdan, qardaşdan, uzaqdan qaçır.
Heç kəsi bəyənmir, özündən deyir,
Imtahandan qorxur, sınaqdan qaçır.

Allahdan danışır, allahsız olub,
Guya yaranandan günahsız olub,
Insafı itirib, insafsız olub,
Dindən, təriqətdən, papaqdan qaçır.

Şeytanı qəlbindən qova bilməyir,
Əstəfürullah deyib, tova bilməyir,
Nə Allah yoluna gələ bilməyir,
Nə də işlətdiyi günahdan qaçır.

Satılıb mənliyi, sınıb qüruru,
Gözləri götürmür işığı, nuru,
Salman qandıranmır bu gözü koru,
Yarasaya dönüb, çıraqdan qaçır.

**24. 11. 2011.**

## ÇƏKDI

Hər səni görəndə birtəhər oldum,
Ya gözün oxladı, ya sinə çəkdi.
Cavanlıq istədi şahlıq eyliyə,
Qocalıq əlindən yasinə çəkdi.

Çoxu vüqarından əyildi, düşdü,
Itdi gözəlliyi, soldu - ötüşdü,
Ətəyi Əzrayıl qarmağna keçdi,
Atdı axirətə, "Yasinə" çəkdi.

Demə - üzüm aydı, yanağım lalə,
Niyə öyünürsən hüsnə, camala?
Fələk qan ağladıb qaşı hilala,
Ya "Əlif" eylədi, ya "Sin"-ə çəkdi.

Hanı gözəl Şirin, necoldu Leyli?
Hər iksi dünyadan köçdü gileyli.
Yoxdu özgələrdə Salmanın meyli,
Eşqi ya Allaha, ya sənə çəkdi.

**28.08.2003.**

**DOSTUM MIRASLAN BƏKIRLIYƏ**

Bu qaçqınlıq xəcalətdir üzümə,
Xar olmuşam, ay gözümün işığı.
Ağlamaqdan tor gəlibdir gözümə,
Kor omuşam, ay gözümün işığı.

Dil gödələr mərd ayrılsa elinnən,
Uzaq düşdüm bülbülümnən, gülümnən,
Bu şəhərdə qarğa - quzğun əlinnən
Sar olmuşam ay gözümün işığı.

Çərxi - fələk şax belləri bükəndi,
Görən deyir bu dərd - kədər çəkəndi,
Yandım – yandım, od alovum tükəndi,
Qor olmuşam, ay gözümün işığı.

Talanan mən, bölünən mən, itən mən,
Parçalandım tikə - tikə bütün mən,
Belə getsə sağalaram çətin mən,
Saralmışam, ay gözümün işığı.

Dədə - baba yurdum qalıb işğalda,
Necə deyim, necə gülüm bu halda?
Ürəyim qəmdədir, can qeylü - qalda,
Yorulmuşam, ay gözümün işığı.

Dərd olarmı bu boyda, bu biçimdə?
Od püskürür, alov yanır içimdə,
Mən Salmanam, dərd dən oldu saçımda,
Qocalmışam, ay gözümün işığı.

**14.09.2003.**

## BILDIM

Keçdin boğazıma kal armud kimi,
Nə çıxarda bildim, nə yeyə bildim.
Könlüm sevməyənə yar - yoldaş oldum,
Nə danışa bildim, nə deyə bildim.

Dərd əlindən canım oyma - oymadı,
Şər - böhtan deməkdən gözü doymadı,
Oğul - qız qabağmı kəsdi, qoymadı,
Nə boşaya bildim, nə döyə bildim.

Mənim ağ dediymə sən dedin qara,
Çəkdin sinəm üstə çal - çarpaz yara,
Bir şahin - şonqarı döndərdin sara,
Nə dalaşa bildim, nə söyə bildim.

Salmanı hər yerdə hörmətdən saldın,
Göz görə - göz görə canımı aldın,
Düz sözü deyəndə şahmar tək çaldın,
Nə düzəldə bildim, nə əyə bildim.

**5.08.2003**

## GƏLIBDI

Siz allah, deməyin 50 yaşın var,
Bu gün cavanlığım geri gəlibdi.
Elə bil məclisdə açıldı bahar,
Çiçəklərin təzə - təri gəlibdi.

Dəli könlüm havalandı bir anda,
Eşqi - məhəbbəti sönməyib canda,
Qoymayıb şairi ahda - amanda,
Atıb iş - gücünü bəri gəlibdi.

Gözəlliyi, təravəti özündə,
Saf duyğusu, ülvüyyəti sözündə,
Etibarı, məhəbbəti üzündə,
Gözəllərin bir dilbəri gəlibdi.

Necə qaynamayım, necə coşmayım?
Necə kükrəməyim, necə daşmayım?
Mən necə yazmayım, necə qoşmayım,
Salmanın cananı, yarı gəlibdi.

**4.12.2003.**

## EYLƏR

Qışın qaydasıdır şaxta gətirər,
Bağlayar yolları, qar - boran eylər.
Çərxi - fələk bir kəs ilə düşməsin,
Onu gözdən salar, eldə xar eylər.

Yazda yal - yamacı bəziyər çiçək,
Bir - birindən gözəl, ətirli, göyçək,
Ha yana boylansan açılar ürək,
Insanın könlünü novbahar eylər.

Yayda sinəsini açar yaylaqlar,
Hər yandan axışar, gələr qonaqlar,
Yadıma düşəndə büllur bulaqlar,
Könlüm kədərlənər, göz qubar eylər.

Payızda saralar açılan güllər,
Dəyişər təbiət, susar bülbüllər,
Aramsız yağışlar, car olan sellər,
Bu fani dünyanı mənə dar eylər.

Bu dörd fəsil bərabərdir bir ilə,
Insanın ömründə dönər müşkülə,
Dərd - hicran Salmanı gətirər dilə,
Şair qələm alar, ahu - zar eylər.

**26.01.3004.**

## MƏNI

Çərxi - fələk erkən aldı gözümdən,
Kövrəltdi, incitdi, ağlatdı məni.
Sınmağa qoymadı, dayaq durdular,
Sağ olsun el - obam, ucaltdı məni.

Taleyim tuş gəldi dərdə - kədərə,
Yediyim - içdiyim döndü zəhərə,
Bir nərd taxtasında döndərdi zərə,
Zamana əlində oynatdı məni.

Ayrı düşdüm gülşənimdən - gülümdən,
Əlim çıxdı vətənimdən , elimdən,
Cavanlığım vaxtsız çıxdı əlimdən,
Nağayrım, qocaldan qocaltdı məni.

Nənəmi, babamı, atamı yedi,
Sındırdı könlümü, qəlbimə dəydi,
Salman inciyəndə döz, tabla dedi,
Etibarsız dünya allatdı məni.

**CEYRANIM**

Ağrın alım, sənə dünyam demişəm,
Can istərəm, calaq olum, ceyranım.
Gir qoynuma, öz odumla isidim,
Eyvan olum, otaq olum, ceyranım.

Bu sevgidə geri durma, utanma,
Hərcayılar nə də desə inanma,
Pünhanca alışma, gizlicə yanma,
Qoy oduna ortaq olum, ceyranım.

Qismətim kəm olub, taleyim zalım,
Hər an səninlədir şair xəyalım,
Məni qoru, qoyma vaxtsız qocalım,
Qəm – qüssədən uzaq olum, ceyranım.

Din – imanım, qibləgahım olgunan,
Məkkə, Mədnəm – səcdəgahım olgunan,
Murğu quşum, könlüm şahı olgunan,
Qoyma səndən qıraq olum, ceyranım.

Nə desən, deyərəm – baş üstə, buyur,
Sevən sevənini baxışdan duyur,
Qaranlıq gecədə gözlərinə nur,
Əllərində çıraq olum, ceyranım.

Arzularna yeni arzu gətirim,
Sinən üstən dərdi – səri götürüm,
Ürəyindən keçənləri bitirim,
Bir sehirli budaq olum, ceyranım.

Salman Qazi ağasıdır sözünün,
Haqqın nuru bəzəyidir üzünün,
Bir dənəsən ortasında yüzünün,
Mən də sənə dayaq olum, ceyranım.

**21. 06. 2004.**

## SƏNIN

Ay evi tikilmiş, əl çəkmək olmur,
Alovunnan sənin, közünnən sənin.
Nə qədər qocasan deyirsən də, de,
Şair inciyən döy sözünnən sənin.

Eşqin atəşini salıb canıma,
Sahib kəsilibsən din - imanıma,
Hərdən - hərdən susayanda qanıma,
Canıma ox yağır gözünnən sənin.

Saxlama oxunu kaman içində,
Yaxşılar axtarma yaman içində,
Gedərəm dünyadan bir an içində,
Deyərlər ki, öldü üzünnən sənin.

Qaşın gəriləndə yaya oxşuyur,
Gözlərin dolanda çaya oxşuyur,
Üzün bədirlənmiş aya oxşuyur,
Xəbərin yoxdumu özünnən sənin?

Sinəm bir körükdür, dəymə, alışar,
Ilhamım sel təki çağlayar, coşar,
Salman bu yollarda çox çətin çaşar,
Ayaq götürrəmmi izindən sənin?

## ŞAIRƏM, AŞIĞAM, SÖZ ADAMIYAM

***Son zamanlar tez - tez televizorda göstərirlər və radio dalğalarında efirə çıxarırlar. Bir tanışım mənə sual verdi ki, kimin adamısan?***

Verdiyin sualı başa düşmədim,
Mən qələm əhliyəm, söz adamıyam.
Namərddən, paxıldan qaçağam, qaçaq,
Düz olan kəslərin düz adamıyam.

Ibadət əhliyəm başdan ayağa,
Bənzərəm dumanlı, uca bir dağa,
Coşanda dönürəm qaynar bulağa,
Adi bir məclisin yüz adamıyam.

Etibarda – ilqarımda səlisəm,
Amalımda, əqidəmdə xəlisəm,
Qıfılbəndəm, divaniyəm, təcnisəm,
Şairəm, aşığam, saz adamıyam.

Alovum dünyanı yandırar, yaxar,
Şimşək tək guruldar, hər yanda çaxar,
Ilhamım sel olar, qaynayar, axar,
Yaylaq ətirliyəm, yaz adamıyam.

Vətən, xalqım olub müqəddəs andım,
Xalqa arxalandım, xalqa inandım,
Xalqımdan güc aldım, parladım – yandım,
Alovam, atəşəm - köz adamıyam.

Mən haqq adamıyam, haqqa bağlıyam,
Haqqa sığınmışam, haqqın oğluyam,
Salmanam ay qağa, haqqın quluyam,
O haqq deyilənin öz adamıyam.

**28.07.2004.**

### FƏLƏK

Könüldən keçəni mən sayım, sən say,
Görək saydığımızı sayırmı fələk.
Sən Leyliyə taysan, mən Məcnuna tay,
Bizim dediymizi deyirmi fələk.

Baxışın yandırır, yaxır görəndə,
Dünyamı dağıdır, yıxır görəndə,
Nə səndə can qoyub, nə də ki məndə,
Bizləri yeməkdən doyurmu fələk.

Sinəmi yandırır bu ah, bu Aman,
Gəzirəm dünyanı başımda duman,
Yükləyib belimə qəm – kədər, hicran,
Şairi bir yerdə qoyurmu fələk.

Salmanı əlində əsir eyliyib,
Yazığa döndərib, yesir eyliyib,
Bizi bəxtimizdən kəsir eyliyib,
Gör adam yerinə sayırmı fələk.

**29.06.2006.**

### DÜNYA

Yenə mən yazıqdan nə istəyirsən?
Çəkibsən üstümə dumanı dünya.
Könlüm açılanda başıma döydün,
Vermədin şairə amanı dünya.

Ilqarı, dostluğu, andı unutdun,
Hər yerdə mərdləri namərdə satdın,
Seçib - ayırmadın, bərabər tutdun,
Yarımçıq, qanmazı, qananı dünya.

Aləm yandı alovumdan, közümdən,
Gileylənmək gəlmədi də üzümdən,
Körpə - körpə, erkən aldın gözümdən,
Göstərdin ərəsət - divanı dünya.

Tufanlara verdin əmanətimi,
Çırıpdın daşlara məhəbbətimi,
Məni qocaltdığın bəs etmədimi?
Qocaltdın sevdiyim cananı dünya.

Sevib - sevənləri yandırdın, yaxdın,
Abad könülləri uçurdun, yıxdın,
Bütün günahlardan tərtəmiz çıxdın,
Vermədin əllərə yaxanı dünya.

Həyatı Salmana cəhənnəm etdin,
Yaşamağı mənə dərd - vərəm etdin,
Nə insafa gəldin, nə kərəm etdin,
Susuz əyləyibsən yananı dünya.

**22.10.2004**

**AY INSAN OĞLU**

Gəl söylə dərdini, şərikin olum,
Axı mən insanam, ay insan oğlu.
Şəriət, təriqət, ibadət bilən,
Bir əhli quranam, ay insan oğlu.

Sığındım Allaha, odur pənahım,
Mən onun nökəri, o mənim şahım,
Yəqin bağışlayar, varsa günahım,
Mən əhli imanam, ay insan oğlu.

Dünyaya sığışmır söz dünyam mənim,
Könlümdə yerləşib yüz dünyam mənim,
Burda döy, ordadı öz dünyam mənim,
Mən burda mehmanam, ay insan oğlu.

Sənə görünməyən var – dövlətim var,
Əlçatmaz, ünyetməz təbiətim var,
Mənim eşq – istəyim, məhəbbətim var,
Mən şair Salmanam, ay insan oğlu.

**29.09.2005.**

## ALLAHA XITAB

Hacılıq nə yaman dəbə düşübdür,
Bu yol çoxlarını aldadır Allah!
Cibgirlə, yol kəsən Məkkədə gəzir,
Necolub möcüzən, hardadır Allah?

Halal əvəzinə sələm yeyənlər,
Ona – buna həcvi – hədyan deyənlər,
Yazıqları döydürənlər, döyənlər,
Sənin adın ilə baş qatır Allah!

Burada milləti talayır – didir,
Yaxşılıq əvəznə pisliklər edir,
Günahnı yumağa Məkkəyə gedir,
Şeytan da şeytana daş atır Allah!

Budumu ibadət, budumu iman?
Bağışla, könlümdə varsa da güman,
Gördükləri budur, neyləsin Salman?
Məndən bu gumanı sən qaldır Allah!

**25.02.2004.**

## ƏLIM ALLAH ƏTƏYINDƏ

Oğru da, əyri də səndən danışır,
Necolub,hardadır qüdrətin, Allah?
Bu cür fırıldaqla, bu gethagetlə,
Axrı nə olacaq millətin, Allah!

Haqqı dananlar çox, haqq deyə – deyə,
Sonra da gedirlər Məkkə - Mədnəyə,
Belə bəndələri görk eyləməyə,
Niyə çatışmayır cürətin, Allah?

Binalar tikdirir döyən – döydürən,
Ədalətdən deyir söyən – söydürən,
Hacıya dönübdür soyan - soyduran,
Yaman şeytanlaşıb ümmətin,Allah!

Dəmirdən seçilmir nə qızıl, nə zər,
Düz deyən zillətdə, yaltaq təzətər,
Şəkilə, heykələ səcdə edirlər,
Heykəlcə də yoxmuş hörmətin, Allah!

Salmanam, eşqinlə yaşa dolmuşam,
Şövqümün gücünü səndən almışam,
Mən mömin olandan zəlil olmuşam,
Qalıbdı boynumda minnətin, Allah!

**25.03.2008**

## ŞEYTANA DAŞ ATANLARA

Məkkədə şeytanı daşlayan qardaş,
Niyə daş atırsız şeytana orda?
Vicdanı ləkəli, ürəkləri daş,
Meydan sulayırlar şeytanlar burda!

Burada şeytana papış tikənlər,
Orada şeytanı daşa basırlar.
Burada milləti qurban verənlər,
Orada Allaha qurban kəsirlər.

Içdikləri qandı, qarınları tox,
Gör nələr edirlər göz qabağında.
Orda bir şeytan var, burda sayı yox,
Şeytan axtarmayın Mina dağında!

Şeytanlar başını qatıb millətin,
Rahatca gəzir də, rahatca yatır.
Daşları burdakı şeytana atın,
Onu daşlamağa haqqınız çatır!

Burdakı şeytanlar daha hiyləgər,
Ordakı şeytanı alıb - satarlar.
Orada şeytanı daşlasaz məgər,
Burda şeytanların sayı azalar?

**23. 03. 2009**

## HƏVƏSIM BIR ÖZGƏ ÇIRAĞA YOXDU

Bəhanə axtarma dava salmağa,
Şairin dilinə qadağa yoxdu.
Bir canım var onu sənə vermişəm,
Özgəyə verməyə sadağa yoxdu.

Bilmirəm dəlisən, ya divanəsən,
Sənki mənim üçün bircə dənəsən,
Eşqim dünyasında sən yeganəsən.
Meylim səninlədi, qırağa yoxdu.

Yüz gözələ tərif dedim, söz qoşdum,
Coşanda tək sənin eşqinlə coşdum.
Səninlə neçə yol küsdüm – barışdım,
Yolum yanındadı, uzağa yoxdu.

Salmanı yandırma ataşa – nara,
Bu yaşda mən hara, özgələr hara?
Könlüm çırağısan, dönmə şahmara,
Həvəsim bir özgə çırağa yoxdu.

**18.01.2009**

## GÖRDÜM

Uca Tanrım, bir gör nələr olurmuş,
Kimə arxalandım, xəyanət gördüm.
Ədalət axtardım, əfsus tapmadım,
Ədalət deyəndə, cinayət gördüm.

Deyəsən bu millət səni unudur,
Hər kəs öz xeyrini, glirni güdür,
Pul şeytana dönüb, millәti didir,
Hər yerdə, hər yanda mən rüşvət gördüm.

Mənlik də, mərfət də satılıb pula,
Qurdu satın alır pulunnan tula,
Pul üstə ər – arvad getmiyir yola,
Ailə içində, fəlakət gördüm.

Atanın – ananın haqqı tapdanır,
Cavanlar nə qoca, nə ahıl qanır,
Dükanlar, bazarlar od alıb yanır,
Varlını hər yerdə kəmfürsət gördüm.

Vədələr bambaşqa, insan cürbəcür,
Kimi dindirdimsə, gördüm naşükür,
Ağıla – kamala verəndə fikir,
Nə əxlaq, nə abır, nə mərfət gördüm.

Salmanı dəhşətə gətirib bu hal,
Nə olar, nəzərini bu millətə sal,
Mənim də canımı alasısan, al!
Mən də yarannan əziyyət gördüm.

**20.04.2007**

**DÜŞDÜM**

Aman Allah, özün yetir imdada,
Nə çətin dövrana, zamana düşdüm.
Yaxşını axtardım, tapa bilmədim,
Tale urcah etdi, yamana düşdüm.

Hayladım, yuxudan bəxtim durmadı,
Od təki alışdım, kimsə görmədi,
Gül – çiçək axtardım, çəmən vermədi,
Dağlara qalxanda, dumana düşdüm.

Mənlə dost olmadı, yığvalım qaçdı,
Fələk addım başı döydü, sataşdı,
Könlümün səməndi dünya dolaşdı,
Dünyadan təşvişə, gümana düşdüm.

Hicranı – kədəri, dərdi çoxuymuş,
Görüb – gördüyümün hamsı yuxuymuş,
Sən demə dünyanın axrı yoxuymuş,
Nahaq dağa düşdüm, arana düşdüm.

Salman Qazi od içində qovrulur,
Qocalıram, külüm göyə sovrulur,
Dağ üstündən gündə bir dağ vurulur,
Mən bir qəm deyilən ümmana düşdüm.

**11.04.2007**

**BIR BAX**

Ay talelər yazan, əlin qurusun,
Böldürənə bir bax, bölənə bir bax.
Qanmaza tuş gəlib dünya gözəli,
Söyülənə bir bax, söyənə bir bax.

Ayılar armudun dəymişni yedi,
Bayquşlar sevdiyi vir - viranədi,
Qarğa nə bilir ki, qızılgül nədi?
Tapdayana bir bax, solana bir bax.

Bir gözəl alçalır, əzilir hər gün,
Ağlayır, əhvalı pozulur hər gün,
Adına gör nələr yozulur hər gün,
Dedirdənə bir bax, deyənə bir bax.

Bununmu yeriydi bu əzab, bu dar,
Kor ol səni fələk, səndə nələr var.
Bədəndə halı yox, canında tutar,
Döyülənə bir bax, döyənə bir bax.

Arı oğurladıb, namusu yeyib,
Bir ürək sındırıb, bir qəlbə dəyib,
Suleyman mülkünə mənimki deyib,
Böldürənə bir bax, bölənə bir bax.

Salmanın belinə dərd şələlənib,
Görəndən başıma odlar ələnib.
Əndamı lalə tək qana bələnib,
Öldürənə bir bax, ölənə bir bax.

**16.07.2008**

## GƏLIR

Ömrümün baxçası saralır - solur,
Yarpağı tökülür, payızı gəlir.
Hələ görəcəyim nələr var Allah?
Könlümə sərt qışın ayazı gəlir.

Bu da bir qismətdi, bu da qədərdi,
Dünya fani dünya, ömür hədərdi,
Şələm qəm – hicrandı, dərddi, kədərdi,
Başıma oları, olmazı gəlir.

Ömrə bax sən Allah, heç olur gedir,
Arzular gözümdə puç olur gedir,
Dost – tanış karvanı köç olur gedir,
Yerinə qanmazın qanmazı gəlir.

Salmanam, yaxamı buraxmır, çəkir,
Ömrüm binasını laxladıb, sökür,
Qocaldıb - qarıdır, belimi bükür,
Əlində paltarın bəyazı gəlir.

**31.01.2009**

## YAXŞI DÖY
***Bir şair dostuma***

Qayıt öz evinə binava dostum,
Məsləhətmə «yox» deməyin yaxşı döy!
Oğul –qızın, nəvələrin gözləyir,
Qapı – qapı sülənməyin yaxşı döy!

Aramızda halal duz var, çörək var,
Məndə sənə qarşı təmiz ürək var,
Öz evində xanım – xatın mələk var,
Toz – torpğa bələnməyin yaxşı döy!

Gözəl ruhanisən, yaxşı şairsən,
Bilə – bilə öz əksinə gedirsən,
Bu yaşındı niyə belə edirsən?
Ələklərdə ələnməyin yaxşı döy!

Öz oğlunun dağ boydadı ürəyi,
Səndən əsirgəməz halal çörəyi,
Oğul – qızdı ataların gərəyi,
Yedəklərdə sürünməyin yaxşı döy!

Salmanın sözünü düz anla, düşün,
Çəkin tərslikdən, evinə daşın,
Hələ qabaqdadı boranın – qışın,
Höcətliyə bürünməyin yaxşı döy!

**16.08.2008**

## QORXURAM DAHA

Hər günü ömrümdən bir kərpic düşür,
Dünyanın əlində karxıram daha.
Baş – başa qalıram öz aləmimlə,
Nədənsə sıxılıb, darxıram daha.

Diz taqətdən düşür, qolum qüvvətdən,
Başım nələr çəkib zulum, zillətdən,
Qorxuram qəfləti bir məhəbbətdən,
Evimdən bayıra çıxmıram daha.

Ötən günlərimin itib dəyəri,
Elə bil olmayıb, gedib dəyəri,
Çılğın gəncliyimin yoxdu xəbəri,
Gurlamıram daha, çaxmıram daha.

Öz - özümə baxıb vüqarlanardım,
Oğrun baxışlardan od tək yanardım,
Neçə yol daranıb, tumarlanardım,
Güzgüyə baxmağa qorxuram daha.

Bəxtim ürcah etdi bir qəlbi daşa,
Gah tufana saldı, gah qarlı qışa,
Mən Salman Qaziyəm, doluram yaşa,
Qaynar bulaq kimi axmıram daha.

**07.11.2009**



# GƏRAYLILAR ÇƏLƏNGI



## TORPAQ DEDI : MƏNIMKIDI

Soruşdum: - bülbül kiminsən?
Budaq dedi: - mənimkidi!
Bəs tər qönçə, tər bənövşə?
Yaylaq dedi: - mənimkidi!

Gənclik mindirdi səməndə,
Bir gözəl saldı kəməndə,
Qələmdən söz töküləndə,
Varaq dedi: - mənimkidi!

Kürə oldum köz görəndə,
Oda döndüm saz görəndə,
Öpüləsi üz görəndə,
Dodaq dedi: - mənimkidi!

Dərd sinəmi dağlayanda,
Kövrək könlüm ağlayanda,
Eşqim coşub - çağlayanda,
Bulaq dedi: - mənimkidi!

Çərxi - fələk zaman - zaman,
Yedirtdi qəm, ağlatdı qan,
Dünya dedi: - kimdi Salman?
Torpaq dedi: - mənimkidi!

**22.06.2005**

## ELLƏR MƏNƏ ŞAIR DEDI

Vətən üçün ağlayanda,
Sinələri dağlayanda,
Sellər təki çağlayanda,
Sellər mənə şair dedi.

Aran gəzdim, dağ dolandım,
Mərd dostlara arxalandım,
Hara getdim, alqışlandım,
Yollar mənə şair dedi.

Məcnun oldum, Kərəm oldum,
Gözəllikdən ilham aldım,

Çiçək gördüm, bülbül oldum,
Güllər mənə şair dedi.

Oxudular baxışımı,
Bəyəndilər yerişimi,
Sözdə görüb naxışımı,
Çöllər mənə şair dedi.

Fələk xəlbirdə ələdi,
Belimə qəm şələlədi,
Saçlarıma dən bələdi,
İllər mənə şair dedi.

Döydü hicran, boğdu kədər,
Üz döndərdi qismət - qədər,
Salman yaşamadı hədər,
Ellər mənə şair dedi.

**15.10.2004.**

**VARMI SƏNDƏN DOYAN DAĞLAR**

Yenə gəldim qucağına,
Oyan dağlar,oyan dağlar.
Nədir bu yağış, bu lehsan?
Dayan dağlar, dayan dağlar.

Mənim qaynar ilhamımsan,
Gül – çiçəkli yaylağımsan,
Çayım, çeşməm, bulağımsan,
Mənəm sənə həyan dağlar.

Qoynunda sevib – sevildim,
Sənlə dedim, sənlə güldüm,
Nə eşitdim, hər nə bildim,
Etdim sənə bəyan dağlar.

Sən Salmanın cananısan,
Eşqimin ruhu, canısan,
Suleymanlar meydanısan,
Varmı səndən doyan dağlar?

**6.05.2006**

**DƏYMƏ MƏNIM ÜRƏYIMƏ**

Həsrətindən nələr çəkib,
Qıyma mənim ürəyimə.
Bu kədəri, bu hicranı,
Qoyma mənim ürəyimə.

Könül qapısını açıb,
Harda olsan sənə qaçıb,
O bəyənib, o da seçib,
Söymə mənim ürəyimə.

Bir məşəldi, çətin sönər,
Salman dönsə, oda dönər,
Əl vurarsan çiliklənər,
Dəymə mənim ürəyimə.

**2.01.2006**

**BIR KÖNÜLDƏN MIN KÖNÜLƏ**

Gözəlliynə qul olmuşam,
Qabağında lal olmuşam,
Gülüm sənə vurulmuşam,
Bir könüldən min könülə.

Ürəyimdə közə döndün,
Sinəm üstə saza döndün,
Dil – ağızda sözə döndün,
Bir könüldən min könülə.

Sən Salmandan uzaqlaşdın,
Qəmlə, dərdlə qucaqlaşdın,
Sözlərimlə ayaq açdın,
Bir könüldən min könülə.

**8.12.2005**



## YARI SƏNIN, YARI MƏNIM

*(Mamam Qızı Pakizər xanıma)*

Gətir bölüm dərd – sərini,
Yarı sənin, yarı mənim.
Dünyadakı qəm - kədərin,
Yarı sənin, yarı mənim.

Allah bizə belə yazdı,
Sirdaşımız qələm – sazdı,
Onsuz sevincimiz azdı,
Yarı sənin, yarı mənim.

Mən bir dərviş, sən divanə,
Mən bir şamam, sən pərvanə,
Eşq camıma süz peymanə,
Yarı sənin, yarı mənim.

Sənsiz dünya Salmana dar,
Təbibimsən, dərman axtar,
Allah verən bir canım var,
Yarı sənin, yarı mənim.

**08. 10. 2005**

## DEMƏDIMMI

Bir zamanlar qartal idin,
Enəcəksən – demədimmi?
Bənzəyirdin gül – çiçəyə,
Solacaqsan – demədimmi?

Gözəliyni öyə – öyə,
Sığışmırdın yerə – göyə,
Baş – gözünə döyə – döyə,
Qalacaqsan demədimmi?

Ömrü – günü verdin bada,
Qəm – hicranı dada – dada,
Özünü atanda oda,
Yanacaqsan – demədimmi?

Seçimində oldun naşı,
Özün seçdin qəlbi daşı,
Qəmin – kədərin yoldaşı,
Olacaqsan – demədimmi?

Istəyimi qova – qova,
Sinəmdə salıbsan yuva,
Sən Zamanı od – alova,
Salacaqsan – demədimmi?
**4.10.2005**

**O TƏRƏFDƏN, BU TƏRƏFDƏN**

Yazıq başım nələr çəkib,
O tərəfdən, bu tərəfdən.
Qarğış alıb, söyüş alıb,
O tərəfdən bu tərəfdən.

Əqidəmdə təmiz qaldım,
Ilqarımda düzgün oldum,
Danlaq gördüm, tənə aldım,
O tərəfdən , bu tərəfdən.

Qaldım od - su arasında,
Ağ günlərin qarasında,
Qohum - qardaş davasında,
O tərəfdən, bu tərəfdən.

Bəxti verdim boran - qışa,
Dedim , düşmədilər başa,
Salmanı tutdular daşa,
O tərəfdən, bu tərəfdən.
**31.01.2004.**



## GÜLƏ – GÜLƏ
(*təcnis*)

Çərxi - fələk baş ağardır,
Üzümüzə gülə - gülə.
Bir şeyindən gileyliyəm,
Niyə yazmır gülü gülə.

Sağlıqda qədrimi bil, bil,
Yandırıbsan o il, bu il,
Bilmisənmi, şeyda bülbül,
Meyl eliyə gülə, gülə.

Salman ölməz, gülsən gülüm,
Bir çiçəksən, gülsən - gülüm,
Mən dərdliyəm, gül sən, gülüm,
Qoy qocalaq gülə - gülə.

**21.02.2004.**

## MƏNI

Bəxti azan bir kişiyəm,
Qədər atıb selə məni.
Qismətimdən beygumanam,
Əydi bilə - bilə məni.

Dönük çıxdı qismət - qədər,
Neylədimsə getdi hədər,
Qəm izləyər, böhtan güdər,
Əzər bala - bala məni.

Salman Qazi yaşa doldu,
Yol yoldaşım hicran oldu,
Arzularım bir - bir soldu,
Verdi boran - yelə məni.

## BU DÜNYANIN BƏDBƏXTLƏRI

Bu dünyada bədbəxt olan,
Biri sənsən, biri mən.
Ömrü viran, könlü talan,
Biri sənsən, biri mən.

Bizə qarşı fələk nankor,
Dərdli - qəmli yaşamaq zor,
Taleyinin gözləri kor,
Biri sənsən, biri mən.

Istəyinə çatanmayan,
Səhərə tək yatanmayan,
Uçurduğnu tutanmayan,
Biri sənsən, biri mən.

Salman dərdli, sən vərəmli,
Könlü ağlar, gözü qəmli,
Gülərüzlü, xoş görkəmli,
Biri sənsən, biri mən.

**26.01.2004.**

## AĞRIN ALIM

Xoş gəlib, safa gətirdin,
Coşub gələn, ağrın alım.
Dumanlı - zənli dağları
Aşıb gələn, ağrın alım.

Hez zıxmırdın xəyalımdan,
Necə dönöm sən zalımdan?
Qutarıb məni zulumdan,
Qaçıb gələn, ağrın alım.

Bakı hara, Gəncə hara?
çox düşmüşdüm intizara,
Özün tapıb dərdə çara,
Uçub gələn, ağrın alım.

Ürəyimdə gülə dönən,
Dağ başında yelə dönən,
Dərələrdə selə dönən,
Daşıb gələn, ağrın alım.

Sənsən Salmanın səhəri,
Həm cananı, həm dilbəri,
Ürəyindən keşənləri,
Qoşub gələn, ağrın alım

**20.10.2004.**

## QOCALIRAM

Gecə – gündüz boğur məni,
Yavaş-yavaş qocalıram.
Çoxalır saçların dəni,
Ağarır baş qocalıram.

Azalmır qəmim-kədərim,
Lap çoxalıb dərdü-sərim,
Beləymiş qismət-qədərim,
Artır təlaş, qocalıram.

Sabaha bir ümid qalmır,
Yar dediyim könül almır,
Heç axtarıb yada salmır,
Qohum-qardaş, qocalıram.

Allah mənə söz göndərdi,
Verdi qəmi, verdi dərdi,
Yandırıb külə döndərdi,
Bu od-ataş, qocalıram!

Salman keçdi yarı yaşdan,
Nələr gəlib keçdi başdan,
Kömək umma, qəlbi daşdan,
Olmaz sirdaş, qocalıram.

**11.08.99.**

## TANIDIM SƏNI

Niyə məni tanımadın,
Telindən tanıdım səni.
Şəkərdən şirin ləhcəndən,
Dilindən tanıdım səni.

Nazlı - nazlı yerişindən,
Oğrun - oğrun baxışından,
Hürkək - hürkək duruşundan,
Belindən tanıdım səni.

Salmanda ürək varıydı,
Çox arzu - dilək varıydı,
Əlində çiçək varıydı,
Gülündən tanıdım səni.

**12.11.2004**

## QOCALIQ

Tələsmirəm, hələ gəlmə,
Insaf eylə, ay qocalıq.
Mən yazığı dərdə salma,
Mürvət eylə, ay qocalıq.

Qar təki yağma başıma,
Qoy sirr verim sirdaşıma,
Yaraşmırsan bu yaşıma,
Kərəm eylə, ay qocalıq.

Istəyirəm belə qalam,
Nə saralam, nə də solam,
Istəmir ki, heç qocalam,
Saçı leylam, ay qocalıq.

Salmanı salma hicrana,
Qoyma məni yana-yana,
Sən qismətsən hər insana,
Hələ dayan, ay qocalıq.

**13.10.89**

## IBADƏTI IRAD TUTMA

Ibadəti irad tutma,
Ibadətə qurban olum!
Mən Allahın bir quluyam,
Təriqətə qurban olum!

Kim sevməyib, söylə görən?
Eşqdi mənə ilham verən,
Həm sevilən, həm sevdirən,
Məhəbbətə qurban olum!

Haqq yoludu oruc, namaz,
Ibadətsiz insan olmaz.
Sirdaşımdı qələmlə, saz,
Bu sənətə qurban olum!

Salman, ömür oldu yarı,
Necə atım əhd-ilqarı?
Tut üzünü haqqa sarı,
Həqiqətə qurban olum!

**11.04.99.**

## SAZ SEHRINƏ QURBAN OLUM

Ələddinin çırağısan,
Saz, sehrinə qurban olum.
Eşqin məni dəli eyləyib,
Qız sehrinə qurban olum.

Çoxalanda dərdü-qəmim,
Sənsən yeganə həmdəmim,
Durma, çağla ay qələmim,
Yaz, sehrinə qurban olum.

Sənsən Salmanın hünəri,
Ovsunlayan könülləri,
Yığ başına gözəlləri,
Söz sehrinə qurban olum.

**24.02.2000.**

**MƏNIMKINDƏN BEŞDI BETƏR**

Bir ailədə qonaq oldum,
Mənimkindən beşdibetər.
Bu həyata nəzər saldım,
Mənimkindən beşdibetər.

Arada var umu-küsü,
Itibdir arı-namusu,
Tapdanır ölü-dirisi,
Mənimkindən beşdibetər.

Gah söyləyir, gah qarğayır,
Öz-özünə donquldayır,
Nə böyük, nə kiçik sayır,
Mənimkindən beşdibetər.

Bir sadə kəndçi qızıdır,
Öz-özündən narazıdır,
Bir kişiyə dal pazıdır,
Mənimkindən beşdibetər.

Hər bir şeyə nöqsan tapır,
Həqiqətdən qaçır, sapır,
Qancıx kimi tutur, qapır,
Mənimkindən beşdibetər.

Salman görmədi hörməti,
Anlamadı söz-söhbəti,
Insanlığı yoxmuş qəti,
Mənimkindən beşdibetər.

**17.07.2002.**



## VAR

Dəli könlüm havalanma,
Hər qartalın enməyi var!
Hər oyçunun öz bərəsi,
Hər karvanın dönməyi var!

Çox da sevmə ucalmağı,
Pisdir mərdin qul olmağı,
Hər çiçəyin saralmağı,
Hər çırağın sönməyi var!

Salman uyma var-döylətə,
Çox baş qoşma boş söhbətə,
Kişi yaranıb qeyrətə,
Mərdin haqdan köməyi var!

**1990.**

## KAŞ KI

Nə qan ola, nə də qada,
Dərd insandan qaça kaş ki.
Şənlik ola bu dünyada,
Inciklikər keçə kaş ki.

Gül üstündə bülbül ötə,
Nə istəsən, gələ yetə,
O göydəki əldən tuta,
Arzu gül tək aça kaş ki.

Ömürə-ömür calayaq,
Dünyamızdan ləzzət alaq,
Qocalmayaq, cavan qalaq,
Dən düşməyə saça kaş ki.

Gül düşməsin boran-qara,
Insan oğlu ahu-zara,
Salman Qazi yaylaqlara,
Bir quş ola, uça kaş ki.

**20.12.99.**

## QURBAN OLUM

Gəl qutaraq işimizi,
Gedək sizə, qurban olum!
Bölüşdürək dərdimizi
Gəzə-gəzə, qurban olum!

Istəmərəm saralıb, sol,
Qocal, qarı, tez yaşa dol,
Bircə gecə mehmanım ol,
Ömrü bəzə, qurban olum!

Nazlı-duzlu bir mələksən,
Yaşa baxma çox qəşəngsən,
Könül sevən gül-çiçəksən,
Sən təptəzə, qurban olum!

Salmanı yandırıb, yaxma,
Oğrun, oğrun süzüb baxma,
Könül qırıb, ürək sıxma,
Atma közə, qurban olum!

**12.07.98**

## QIŞ AYLARI

Bu Bakıda bir adət var,
Çərxi dönür qış ayları.
Lift işləmir, su da gəlmir,
Işıq sönür qış ayları.

Bahalaşır bazar-dükan,
Cib boşalır, olmur imkan,
Millətin dərdini çəkən,
Yoxa çıxır qış ayları.

Şaxta düşsə, qaz yox olur,
Çox cəhənnəm, az yox olur,
Ərzaq, çörək, duz yox olur,
Qiymət qalxır qış ayları.

Evlərdə qıtlıq dolaşır,
Dərd çəkməkdən ağıl çaşır,
Ər söyür, arvad dalaşır,
Evlər yıxır qış ayları.

Hər bir an qaraldır qanı,
Günəşlinin yel-boranı.
Əldən salıbdı Salmanı,
Ürək sıxır qış ayları.

**14.01.2001.**

### GÖZƏL

Ayaq saxla, sözlərim var,
Xanım gözəl, canım gözəl.
Öldürüb olma günahkar,
Tutar səni qanım, gözəl.

Ay insafsız alma canı,
Imanın, insafın hanı?
Bu qüssəni, bu hicranı,
Səndən necə danım, gözəl?

Könlümü etdin tarımar,
Daha məndən yoxdu tutar,
Öldürürsən, öldür qurtar,
Barı qoyma yanım, gözəl.

Salmanı hər şeydən etdin,
Çox ağrıtdın, çox incitdin,
Ilqar verdin, hara getdin?
Hardan səni tapım gözəl?

**28.05.2002.**



## OYNAYARMI

Toy-nişanda pərvazlanıb,
Sönən ürək oynayarmı?
Közə dönüb, alovlanıb,
Yanan ürək oynayarmı?

Bürünübsə qəm-kədərə,
Öyrəşibsə dərdü-sərə,
Min bir ağrı görə-görə,
Qanan ürək oynayarmı?

Qəm ilməli, dərd naxışlı,
Dili ahlı, gözü yaşlı,
Adı beddam, başı daşlı,
Sınan ürək oynayarmı?

Baş açılmır boran-qışdan,
Qurtarmır oddan-ataşdan,
Soyuq candan, buz baxışdan,
Donan ürək oynayarmı?

Mənim dərdim oxşar dağa,
Salmanı salıb ayağa,
Sərçə kimi bir bucağa,
Sinən ürək oynayarmı?

**14.09.2002.**

## A CEYRANIM

Oğrun-oğrun baxma mənə,
O deyiləm, a ceyranım.
Öz bəxtimdən, taleyimdən.
Gileyliyəm, a ceyranım.

Ilqarımda düz olmuşam,
Dil-ağıza söz olmuşam,
Yana-yana köz olmuşam,
Od deyiləm, a ceyranım.

Nə nadanam, nə naşıyam,
Məndə belə bir kişiyəm,
Ya dünyanın dərvişiyəm,
Ya veyliyəm, a ceyranım.

Salmana qaynardı qanın,
Canımdan od alıb canın,
Öz yeri var hər qonağın,
Yad deyiləm, a ceyranım.

**26.08.2002.**

**KÖNLÜM**

Qönçə təki açılırdın,
Tutur səni xar, ay könlüm.
Bülbül tək cəh-cəh vururdun,
Boğur səni sar, ay könlüm.

Ömrü verdin boran-yelə,
Qula döndün bilə-bilə,
Üşüdəcək innən belə,
Boran-tufan, qar ay könlüm.

Salmanı verdin gudaza,
Xeyri-şəri anlamaza,
Yarım dedin bir qanmaza,
Şahmar oldu yar, ay könlüm.

**17.07.2002.**

**FƏRQI VAR**

Gözəl səni necə sevim,
Aramızda yaş fərqi var.
Məndə saç ağ, səndə qara,
Başımızda baş fərqi var.

Yaş fərqimiz az olaydı,
Kef-halımız saz olaydı,
Fani dünya düz olaydı,
Onda qışla-yaz fərqi var.

Gözəlliynə yoxdur sözüm,
Salmanda qoymadın dözüm,
Hər yanı tor görür gözüm,
Bizdə gözlə-qaş fərqi var.

**29.07.2002.**

## GÖZƏL

Gəl oturaq yan-yanaşı,
Məni məndən alan gözəl.
Sinəmdən çək od-atəşi,
Məni oda salan gözəl.

Bu nə əda, bu nə nazdı,
Göz alovdu, dodaq közdü,
Şıltaqlığın canım üzdü,
Ay düşmənim olan gözəl.

Belin incə, saç şəlalə,
Öldürürsən bilə-bilə,
Hər bir şeyə gülə-gülə,
Talan etdin, talan gözəl.

Şıltaqlıq sənin olacaq,
Qocalan anın olacaq,
Qalsa, hicranın qalacaq,
Bil Salmana qalan gözəl.

## QURBAN OLUM

Dağlar sənin sərin,buzlu,
Bulağına qurban olum.
Yaylaq sənin otlağına,
Alağına qurban olum.

Qəribsəmə qoca qartal,
Dostluğmuzu bir yada sal,
Zirvələrdən sor, xəbər al,
Sorağına qurban olum.

Oxu,oxu şeyda bülbül,
Belə getməz, qayıdar el,
Sən Salmanı özün tək bil,
Avazına qurban olum.

**1991**

## DAĞLAR

Bir neçə dostla-tanışla,
Qonaq gəldim, sizə dağlar.
Dağılıbdır boran-qarın,
Açılıbsan təzə, dağlar.

Gəlmişəm beş-on gün qalam,
Ilhamımı sizdən alam,
Irka, Ilhoş, Mişka balam,
Qoynunuzda gəzə dağlar.

Nə gözəldir "Ov dərəsi",
Çox qəşəngdir mənzərəsi,
"Dəli dağın" gen sinəsi,
Gəl-gəl dedi bizə, dağlar.

Neçə qonaq gəlib, gedər,
Gül açılar, solub, gedər,
Bir gün Salman ölüb, gedər,
Sözü qalar, sizə dağlar.

**1984.**



## BIZIM DAĞLARA, DAĞLARA

***Bu il yenə gedəmmədim,***
***Bizim dağlara, dağlara.***
***Görən gedib çatacaqmı,***
***Sözüm dağlara, dağlara.***
***Abbas Abdulla.***

Şükür, bu il gedə bildim,
Bizim dağlara, dağlara.
Səcdə qıldım, baş endirdim,
Özüm dağlara, dağlara.

Duman-çənə sinə gərdim,
Bir idi, yüz oldu dərdim,
Abbasdan salam gətirdim,
Bizim dağlara, dağlara.

Çox sıxırdı şəhər məni,
Fikir, hicran, qəhər məni,
Apardı boz kəhər məni,
Bizim dağlara, dağlara.

Qartal ilə salamlaşdım,
Kəklik ilə doğmalaşdım,
Saz götürdüm, şer qoşdum,
Bizim dağlara, dağlara.

Haşqallı etdim ziyarət,
Gözlərimdə qəzəb, nifrət,
Yaraşmayır bu sükunət,
Bizim dağlara, dağlara.

Məni yola saldı qartal,
Baxışında əzm, vüqar.
Dedi:- Salman, el qayıdar,
Bizim dağlara, dağlara.

***Ilməzli, Ov dərəsi, Hacı Xəlil dağı.***

**24.10.1999**

## OLMASA

Dağ itirər gözəlliyni,
Onda duman-çən olmasa.
Itər kişinin mənliyi,
Əgər ürək gen olmasa.

Yaxşıdan yaxşılıq qalar,
Mərd əməlinnən ucalar,
Igid sınar, tez qocalar,
Ömür dostu şən olmasa.

Ömür-günü sürmə hədər,
Fələk bildiyini edər,
Sonu incikliyə gedər,
Dost arası tən olmasa.

Salman solub-saralıbdı,
Qəmdən yanıb-qaralıbdı,
Kim deyərdi qocalıbdı,
Saçlarımda dən olmasa.

**20. 09. 2002.**

## GÖZƏLDIR

Dostluq etməyə əsl dost,
Güvənməyə el gözəldi.
Mərd oğulda tərəfkeşlik,
Ədəb - ərkan, yol gözəldi.

Əsli olan insan olar,
Könül yıxmaz, könül alar,
Qırıldamasın qarğalar,
Ötməyə bülbül gözəldi.

De, kim sevməz incə beli,
Gül üzlünü, şirin dili,
Əllər üçün siyah teli,
Qollar üçün bel gözəldi.

Qurban olum dərd qanana,
Qandırmaq olmur nadana,
Salman canın ver canana,
Get yanında öl, gözəldi.

**12. 09. 2009**

## SINƏMDƏDI BU DAĞ MƏNIM

Tale çəkdi sinəmizə,
O dağ sənin, bu dağ mənim.
Həsrət qaldıq bir - birmizə,
O dağ sənin, bu dağ mənim.

Ilqarımdan dönənmərəm,
Bu atəşdən sönənmərəm.
Bir Məcnun da indi mənəm,
O dağ sənin, bu dağ mənim.

Ömür keçdi, bir ana bax,
Sən bu dünya virana bax,
Yaşa dolub, Salmana bax,
Sinəmdədi bu dağ mənim.

**22.06.2006.**

## RİZVANIN OTAĞINDA

***Bu gün şair dostum Alxan Yekə Əhmədli ilə gözəl sənətkar, şəxsiyyətinə və sənətinə hörmət etdiyim sazbənd Rizvana baş çəkdik.***

Dəli könlüm havalandı,
Rizvanın otağında.
Qəlbimizə nur ələndi,
Rizvanın otağında.

Sənətkar, sənətdən dedi,
Aşıq məhəbbətdən dedi,
Dörd tərəf cənnətə döndü,
Rizvanın otağında.

Məcnun sığal çəkdi saza,
Bülbüllər qayıtdı yaza,
Sinəm dolu, ilham təzə,
Rizvanın otağında.

Telli sazlar dilə gəldi,
Bir «Sarıtel » yola gəldi,
Gələn gülə – gülə gəldi,
Rizvanın otağında.

Şair unutmaz bu dəmi,
Hikmətdi sənət Aləmi,
Salman götürdü qələmi,
Rizvanın otağında.
**17.01.2007**

## ALLAH MƏNIM HALIMA BAX

Dağ üstündən dağlar çəkir,
Bu insafsız zalıma bax.
Kürəyimdə kotan əkir,
Allah, mənim halıma bax!

Sevdi məni cannan - başnan,
Yandırır odnan – ataşnan,
Öldürəcək göznən - qaşnan,
Deyəcəklər ölümə bax!

Bir şairi çal eylədi,
El içində lal eylədi,
Salmanı xəyal eylədi,
Mənə olan zülümə bax!



## SƏN ARALI, MƏN ARALI

Zalım fələk bir ox vurub,
O yaralı, mən yaralı.
Göz gözə həsrət qalıbdır,
O aralı, mən aralı.

Gen dünyası dar olubdu,
Yuvası tarmar olubdu,
Bir gör kimə yar olubdu?
O haralı, mən haralı.

Bir birmizdən ayrılalı,
Salmanın çaşıb xəyalı,
Götürmüşük qəm – məlalı,
O saralı, mən saralı.

**23.11.2008**

## ŞAIR ELIN VURĞUNUDUR

Yaranannan görmüşəm ki,
Bülbül gülün vurğunudur.
Bulaqlar qonaq – qaranın,
Çaylar selin vurğunudur.

Neçə ki işləyir beyin,
Bu dünyada gülün – deyin,
Saz – söz əhli gözəlliyin,
Arı balın vurğunudur.

Salman, hər bir gələn dönər,
Sənətində göstər hünər.
Sənə baxıb qoy desinlər,
Şair elin vurğunudur.

**11.12.2008**

**YA SƏN MƏNI, YA MƏN SƏNI**

Dəli könlüm arzulayır,
Nədəndisə yaman səni.
Orda – burda axtarırıq,
Ya  sən məni, ya mən səni.

Bu sevgiyə  sənnən  şərik,
Gah barışıb, gah küsərik,
Könlümüzdən  siləmmərik,
Nə sən məni, nə mən səni.

Salmanın sən yada salar,
Bulud tək boşalar – dolar,
Demirsənmi oda salar,
Bu ah səni, aman səni.

**24.03.2009**



**BƏXTIM**

Başım üstə bulud kimi,
Qaralıbdı, qara bəxtim.
Yenə tutub əllərimdən,
Aparırsan  hara, bəxtim?

Hər bir dərdin öz həkimi,
Parçaladı şüşə kimi,
Hərdən Həzrət Isa kimi,
Çəkir məni dara bəxtim.

Urcah eylədi yamana,
Qoydu məni yana – yana,
Döşəyir  Şair Salmana,
Yara üstən yara bəxtim.

**14.03.2009**

## SAZNAN ARAN HƏNCƏRIDI

Əsl şair görübsənmi,
Söznən aran həncəridi?
Könüllərə körpü salan,
Saznan aran həncəridi?

Oğrun - oğrun baxmağı var,
Şimşək kimi çaxmağı var,
Yandırmağı – yaxmağı var,
Köznən aran həncəridi?

Salman Qazi sərsəridi,
Seyid, Dərviş təhəridi,
Könlüm eşqin şəhəridi,
Biznən aran həncəridi?

**23.02.2010**

## SƏN OLUBSAN

Saqqalımın çal vaxtında,
Söz – söhbətim sən olubsan.
Unutmuşam ibadəti,
Ibadətim sən olubsan.

Bilirsənmi könül şahım,
Onsuz da çoxdu günahım,
Məkkəm, Mədnəm, qibləgahəm,
Zirayətim sən olubsan.

Sinəmə salıbsan közü,
Yanıram gecə – gündüzü,
Salmana məleykə özü,
Təriqətim sən olubsan.

**19.04.2009.**

## GƏLƏNDƏ

Neyliyəsən kor fələyə,
Bəxt - taleyin küt gələndə.
Geyib ceyran libasını,
Qismətinə it gələndə.

Sevgi Haqqın şah əsəri,
Sevgi yaradıb bəşəri,
Allah sevər sevənləri,
Cüt gedəndə, cüt gələndə.

Sinəm dəftər, dilim qələm,
Yol yoldaşım qüssə və qəm,
Hər nadandan incimərəm,
Sözləri bayat gələndə.

Salman Qazi gələr - gedər,
Simruğ kimi yanar gedər,
Gələn insan dönər gedər,
Haqdan bəyanat gələndə.

**5.05.2009.**

## ISTƏMIRƏM

Yenə könlün qan axtarır,
Mən nahaq qan istəmirəm.
Düşün, daşın bir fərman ver,
Qeyri fərman istəmirəm.

Məhəbbətin olub azar,
Canımda qoymayıb tutar,
Heç olmasa ara – axtar,
Səndən dərman istəmirəm.

Söylə, mənnən qəsdin nədir?
Ayrılığın məni didir,
Öldürürsən di gəl öldür,
Mən ki aman istəmirəm.

Əsir –yesir olub Salman,
Həsrətindən çürüyür can,
Bir canım var, sənə qurban,
Özgə bir can istəmirəm.

**DÜNYA KIMIN DÜNYASISAN**

Dünya kimin dünyasısan,
Atan kimidi, anan kimidi?
Süleymanlar gəlib – kedib,
Gedən kimdi, qalan kimdi?

Elə, boşalıb dolursan,
Nə saralıb, nə solursan,
Niyə beş günlük olursan,
Satan kimdi, alan kimdi?

Duman basdı ucalıqda,
Şam eylədin qaranlıqda,
Unuduldum qocalıqda,
Indi yada salan kimdi?

Bal dadırsan hər gələnə,
Ancaq zulum verdin mənə,
Dara çəkdin dönə – dönə,
Axı sənin balan kimdi?

Hər gələn bir iz əylədi,
Hər gedən bir söz əylədi,
Salman səndən gileylidi,
Bəs razı olan kimdi?

**21.08.2009**

**TANRIM, SƏNƏ GƏLƏCƏYƏM**

Saf eşqimlə, amalımla,
Əqidəmlə – imanımla,
Günahımla, savabımla,
Tanrım, sənə gələcəyəm!

Nələr gördüm qədərimdə,
Sənnən oldum əməlimdə,
Hər şey əməl dəftərimdə,
Tanrım, sənə gələcəyəm!

Ya əhv elə, ya oda at,
Torpağınam, torpağa qat,
Ya yıx sürü, ya da ucalt,
Tanrım, sənə gələcəyəm!

Sən yaradan, mən yaranan,
Səninkidir sən verən can,
Rəhman bilib səni Salman,
Tanrım, sənə gələcəyəm!

**29.11.2007**

**BƏSINDIMI**

Bu gün sənin ad günündü,
Gəlsəm, görüş bəsindimi?
Gül ətirli yanağından,
Bircə öpüş bəsindimi?

Könül vermərəm yetənə,
Nə verim daha sənə, nə?
Keçsə sinəmdən sinənə,
Bu od – ataş bəsindimi?

Qolunu boynuna salsa,
O sınıq könlünü alsa,
Salman sənə qurban olsa,
Ay qələmqaş, bəsindimi?

**12.07.2008**



## SƏNIN XƏTIRINƏ

Sevən könüllər birləşdi,
Qoca dünya təzələşdi,
Çəmən – çiçək gözəlləşdi,
Gülüm, sənin xatirinə.

Qəm karvanın çəkdi, getdi,
Bu gün dərd – möhnətim itdi,
Bəxtim əllərimdən tutdu,
Gülüm, sənin xatirinə.

Eşqim səməndinə mindi,
Könlümün bülbülü dindi,
Bu gün təbiət sevindi,
Gülüm, sənin xatirinə.

Dəli könlüm dağlar aşdı,
Arzusuyla qucaqlaşdı,
Salman Qazi coşdu – daşdı,
Gülüm, sənin xatirinə.

**18.06.2008**

## KEÇƏN GÜNƏ QAYTAR MƏNI

Aylar – illər xəstəsiyəm,
Təbibim, gəl qutar məni.
Sən gülə dön, mən bülbülə,
Keçən günə qaytar məni.

Sinəm üstə çatma ocaq,
Köhnə dostlar gəzməz uzaq,
Dərdim – sərim qucaq – qucaq,
Dərdi – sərdən qopar məni.

Itib – batıb yad olubsan,
Bu canıma od olubsan,
Sən də saralıb - solubsan,
Dərdin gəzər, tapar məni.

Salmanın qanına hopdun,
Ruhu tək canına hopdun,
Sən küsməyi hardan tapdın?
O yerlərə apar məni.

**12.10.2008**

**SATIRAM**

Bu dünyada bir dərvişəm,
Dərd alıram, dərd satıram.
Fələk qovur ora – bura,
Yurd alıram, yurd satıram.

Qovruluram hərdən – hərdən,
Oxlanmışam neçə yerdən,
Od – alovlu ürəklərdən,
Od alıram, od satıram.

Paralandım para – para,
Bəxtim məni çəkdi dara,
Çıxanda dükan, bazara,
Söz adlı sərvət satıram.

Sinəm oxlara nişana,
Dəyib, edib şana – şana,
Məndən kef – hal soruşana,
Dad çəkirəm, dad satıram.

Salman Qazi ah – amanda,
Daha tutar yoxdu canda,
Əyrüm – üyrüm bu zamanda,
Haqqa kəramət satıram.

**16. 09. 2009.**

## ZIRVƏLƏRDƏN ENƏN CANIM

Qartal ilə bəs edirdin,
Zirvələrdən enən canım.
Od – alovdan betər idin,
Yavaş – yavaş sönən canım.

Üzürsən dərd – qəm gölündə,
Zəlil oldun Haqq yolunda
Bir dilbilməzin əlində,
Kösöv olub yanan canım.

Pul görməyən pul göstərir,
Naşı zərgər ləl göstərir,
Yetən mənə yol göstərir,
Arabası dönən canım.

Keçən keçdi, neyliyəsən,
Dərdi çətin əyliyəsən,
Salmandan kimə söyləyəsən,
Kimdi səni qanan canım?

**18. 09. 2009**



## GÖZƏLDIR

Dostluq etməyə əsl dost,
Güvənməyə el gözəldi.
Mərd oğulda tərəfkeşlik,
Ədəb - ərkan, yol gözəldi.

Əsli olan insan olar,
Könül yıxmaz, könül alar,
Qırıldamasın qarğalar,
Ötməyə bülbül gözəldi.

Qurban olum dərd qanana,
Qandırmaq olmur nadana,
Salman canın ver canana,
Get yanında öl, gözəldi.

**12. 09. 2009**

## GÖDƏK DAĞDA

***Qarabulaq kəndində dincəlirdim. Qarabulağa bitişik Gödək dağ kəndində yaşayan qohumumuz, çox hörmətli Ibad müəllimə baş çəkdim. Ot biçini idi deyən evdə yox idi. Çöldə biçin biçirdi.Tək başına, köməksiz. Düzü bir az dilxor oldu ki, indi mən nə edim? Yanında xəcalət oluram. Sən burda, mən biçində. Dedim bəs Haley hanı? Qaçıb, dedi və güldü. Dedim xəcalətli düşmənin olsun, işini gör, biçindən qalma. Allaha şükür, yengəm Amalya xanım yanındadır. Yüz kişinin işini görür.***

***Mal - qaranı ac qoymaq olmaz. Bizim söhbətimizi isə nəzmə çəkməli oldum.***

**IBAD MÜƏLLIM:**
Salman Qazi, xoş gəlibsən,
Belə gəliş məgər, olar?
Iş - gücün qızğın çağında,
Kəndçi çətin bekar olar.

**SALMAN QAZI:**
Niyə xəcalət çəkirsən?
Kəndçinin alnı tər olar.
Özün üçün çalışırsan,

Kişi ağa - nökər olar!

**IBAD MÜƏLLIM:**
Bir tutma dağı - aranı,
Qabaqda qışın boranı,
Mən ac qoysam mal -qaranı ,
Əməyimiz hədər olar.

**SALMAN QAZI:**
Nə bileydim çoxdu işin,
Biçinə qarışıb başın,
Biç, yemini topla qışın,
Qonaq gəldi - gedər olar.

**IBAD MÜƏLLIM:**
Ibad təkcə əkir - biçir,
Haley gəlir yeyir - içir,
Iş olanda qoyur qaçır,
Allatmaq nə qədər olar?

**SALMAN QAZI:**
Haleyi gözləmə aya,
Əldən çıxıbdır Dubaya,
Biçdiyini vur tayaya,
Bu gün olmaz, səhər olar.

**30.08.2008**



# QIFILBƏNDLƏR ÇƏLƏNGI



BIR ALIMDƏN EŞITMIŞƏM BIR SUAL

## DÜNYA KİMİN DÜNYASISAN

*(Borçalıya məktublar silsiləsindən)*

Bir alimdən eşitmişəm bir sual,
Bu sualı beş ağaca bağladı.
Bu ağacın iyrimi iki qolu var,
Kim bilirsə çox qadadan saxladı.

Bir ayədə 23 «Kaf» əyləşib,
Bir ayədə 16 «Mim» yerləşib,
Bir ayədə 70 «Eyn» birləşib,
Bu yetmişi 140 - nan çoxladı.

Bir məxluqda üç ruhun yeri var,
Bu ruhların hikməti var, sirri var,
Üçü də aramızda tutubdu qərar,
Bunlar nə yox oldu, nə də azaldı.

Bir bədən var, üç yüz altımış damarı,
Iki yüz altımış sümükdəndi hasarı,
Arasında var göyçəyi, yasarı,
Biri – birindən həm çirkin, həm gözəldi.

Eşitdim: - cənnətin beş xilqəti var,
Nə mələkdir, nə cinnədir, nə davar,
Hərəsinin öz adı, ünvanı var,
Görən onlar orya haradan gəldi?

Bir yol da var, otuz min il mənzildi,
Gah qalıxdı, gah da endi, düzəldi,
Eninə baxdım, ha baxdıqca nəzildi,
Heç bilmirəm bu nə cığır, nə yoldu?

Altımış iki gördüm, otuz altıyla,
Yetmiş iki min dörd yüz otuz doqquzdu,
Üç yüz iyrimi üçü, altı, yeddi, ikidi,
Bu nə müəmmadı, bu nə elimdi?

Bir ağac var, yarpağı yox, boyu yox,
Bu ağacın bərabəri, tayı yox,
Nə səsi – səmiri, nə harayı yox,

Görən deyir, ağac deyil, ruhdu!

Bir kişi var, bir qadınnan yaranıb,
Bir qadın var, bir kişidən yaranıb,
Hər iksinə atasızlıq sıranıb,
Salman Qazi bilənlərin quludu.

**17.02.2007**

## VAR

***( Borçalıya məktublar silsiləsindən)***

Bir evin içində dörd alim gördüm,
Dördünün başında bir əmması var.
Bu alimlər başqa dillə danışır,
Hər dilin özünün min əmması var.

Dil özgədir, ad özgədir, əməl bir,
Otaq ayrı, eyvan ayrı, təməl bir,
Dördündə də əqidə bir, amal bir,
Hər bir amalın da müəmması var.

Işarədən bir – birini anlayır,
Bir söz üstə bir - birini danlayır,
Bu dördü də bir ağrıdan inləyir,
Hamsının dilində haqq kəlməsi var.

Bu dördü də bir yol ilə gedirlər,
Bir – birinin etdiyini edirlər,
Baxıb gördüm bir – birini didirlər,
Salmanın köməyə təmannası var.



## BAX

***( Borçalıya məktublar silsiləsindən)***

***Dostum, qardaşım ƏLI ABBASA***

Qəbul et salamım ay Əli Abbas,
Sinəm yanır, hərdən – hərdən bizə bax!
Sizə deyiləsi çoxlu sözüm var,
Fikir eylə, diqqət yetir sözə, bax!

Bir çıraq var, – sönəsi döy, yanır hey,
Bir atəş var, - dönəsi döy, yanır hey,
Bir zirvə var, - enəsi döy, yanır hey,
Hikmətində atəşə bax, közə bax!

Bir can var ki, cananı yox dünyada,
Bir könül var, - qananı yox dünyada,
Bir gerçk var, - ananı yox dünyada,
Bir gün də rast gələcəkdi bizə, bax!

Salman Qazi gəldi – gedər şairdi,
Neynəyək ki, tale – qədər şairdi,
Görən deyir: sinədəftər, şairdi,
Bu sözlərdə həqiqət gəz, düzə bax!

***Bakı* 03.02.2007**

**DÜŞMÜŞƏM**

Oxuyub, eşitdim çox möcüzələr,
Altısının heyrətinə düşmüşəm.
Beşi canlı, biri cansız yaranıb,
Mən bu sirrin hikmətinə düşmüşəm.

Bunları yaradıb haqqın qüdrəti,
Ikisində vardır insan sifəti,
Ikisi kəsilir, yeyilir əti,
Ikisində lap çətinə düşmüşəm.

Ikisindən biri lap möcüzəymiş,
Bəzi vaxtlar haldan - hala düşərmiş,

Birisinin əcdadı palçıqdan gəlmiş,
Çox keçmişin söhbətinə düşmüşəm.

Böyük bir söhbətdir, açanlar bilər,
Saflanar, durular, imana gələr,
Salman, söylənəcək neçə min illər,
Mən bu elmin zəhmətinə düşmüşəm.

**24.04..1998.**

**BAĞLANIB**

Bir ad məni heyran edib .özünə,
“Mim” “Əlif”-ə, “Hey” də “Dal”-a bağlanıb.
Vurulmuşam söhbətinə - sözünə,
Bu ad özü şah Heydara bağlanıb.

Yaranannan bəzək olub “Mim” “Kaf”-a,
Sorağı yayılıb dörd bir tərəfə,
Adlayıb Minadan, yetişib Qafa,
Bir açardı, min suala bağlanıb.

Ha tərəfə baxdım, o yanda gördüm,
Şeirdə, qəzəldə, quranda gördüm,
Mehrac yollarını - bir anda gördüm,
Marağım bu izə - yola bağlanıb.

Salmanam, yazıram Allaha savab,
Təki düzgün ola söylənən cavab.
Hər kəs öz əməlnə verəcək hesab,
Şair olan saf əmələ bağlanıb.

**30.01.2004.**

**BAĞLIYAM**

Haqqın buyruğuna qulam - nökərəm,

Bir "Əlif"-ə, bir də "Mim"-ə bağlıyam.
Verdiyi qisməti nər tək çəkirəm,
Pənahımdı, dörd isimə bağlıyam.

Biri "Mim","Sey", biri"Dal"- nan "Vov" oldu,
Biri "piş"-dən, iki "Sey"-dən duruldu,
Biri "Mim"-dir, haqq önündə nur oldu,
Mən bu kökə, mən bu himə bağlıyam.

Yaranmışıq "Əlif" ilə "Dal","mim"-dən,
Oddan, sudan, hava, torpaq - cismindən.
Təmənnam var "Əlif" adlı isimdən,
Körpəlikdən bu isimə bağlıyam.

Yönüm qibləyədi - ustadım quran,
Qarşımda - axirət, ərəsət-divan,
Köküm Təmirrərdi, öz adım Salman,
Allah verən bir hökümə bağlıyam.

**30.01.2004.**

### DÜŞMƏK OLMUR IZINƏ

Bir alim var, sorağı çox, özü yox,
Bütün dünya göz tikibdir üzünə.
Adı ürəklərdə, sözü dillərdə,
Tapılmayır, düşmək olmur izinə!

Dörd sözü var, mənası bir, ad özgə,
Evladları bir-birinə yad, özgə,
Hərəsində ocaq özgə, od özgə,
Baxmayırlar atasının sözünə.

Dörd nökər var, qulluğunda hazırdı,
Bu nökərin birisi baş vəzirdi,
Gördüm iki qulu nəsə yazırdı,
Biri əyrisinə, biri düzünə.
Yolu birdi, ayrıcı dörd, üç bulaq,
Yetmiş iki bu bulağa göz-qulaq,
Bir binadı, burda yanır bir ocaq,

Isinirlər bu ocağın közünə.

Bir bina var, çox məşhurdur cahana,
Əziz, möhtəşəmdir cəmi Islama,
Salmanam, sığındım sirri-sübhana,
Mən özümü tapşırıram özünə.

**11.03.98**

## YOXDU

Bir hikmət görmüşəm, bağlı-qıfıllı,
Gözləri var, burnu-qulağı yoxdu.
Ab-havalı, od-ataşlı bir şeydi,
Danışanmır, dili-dodağı yoxdu.

Bir əlində zəhər, birində şəkər,
Gələni məst eylər, özünə çəkər,
Saxlamaz qonağı, başından əkər,
Varı həddən aşar, dayağı yoxdu.

Gözləri çaşıdı, üzləri xallı,
Yaman əməlkardı, fitnəli-felli,
Böyük bir ağadı dövlətli-mallı,
Gəzməyi bacarmır, ayağı yoxdu.

Yeməyi həzm etməz, canında saxlar,
Kimini əzizlər, kimini oxlar,
Əlindən qaçanlar qurtarmaz, haqlar,
Qanadı, dimdiyi, caynağı yoxdu.

Salmanam, mat qaldım bu müammaya,
Heç kəsdən pəsinmir, almayır saya,
Mehrini bağlayıb ulduza, aya,
Pəhlivandı, silah-yarağı yoxdu.

**21.03.1998**

***(Açanlara eşq olsun!)***

# ELLƏRIMIZDƏN, OBALARIMIZDAN



## ELLƏR VAR OLSUN

Əlçatmaz, ünyetməz sirdi kainat,

Əbədi döysə də şirindi həyat,
Dünya Süleymana qalmadı heyhat,
Təki yaşayanlar bəxtiyar olsun.
Səni yaşadacaq ellər var olsun!

Insan dən, dünyasa dəyirman olub,
Bir əldən boşalıb, bir əldən dolub,
Şahlar - bəylər köçüb, açılan solub,
Allah yaxşılara havadar olsun.
Səni yaşadacaq ellər var olsun!

Bu fani dünyanın min bir üzü var,
Yaz – yayı varsa da, qarı – buzu var,
Ağır pəhləvanlar tutmayıb qərar,
Bu bir həqiqətdir söylə, car olsun.
Səni yaşadacaq ellər var olsun!

Yaş keçib yarıdan, saça dən düşüb,
Olan olub keçib, ötən ötüşüb,
Qocalıq ətəkdən tutub, yetişib,
Şair yaz, yazdığın yadigar olsun,
Səni yaşadacaq ellər var olsun!

Gəzdim Rüstəm – Zalı, görən olmadı,
Nuha, Süleymana qalan olmadı,
Dedilər fanidi, yalan olmadı,
Kim görüb bu dünya düz ilqar olsun?
Səni yaşadacaq ellər var olsun!

Hər ömrün qabaqda vardır bir anı,
Ölüm çox əllərdən alır imkanı,
Salman, qabaqdadır əcəl karvanı,
Kaş sənə siratda tanrı yar olsun.
Səni yaşadacaq ellər var olsun!

**7. 10. 2008**

## BORÇALI

Bir cənnətsən dağ-aranlı, əvəzsiz,

Səndən gedir söhbət-sözüm Borçalı!
Hər qarışın həm müqəddəs, həm əziz,
Səndən gəlib odum-közüm Borçalı!

Dəli dağdı, Əyri qardır yaylağın,
Vüqarlıdır həm aranın, həm dağın,
Dünyalar dolaşır səsin, sorağın,
Səndən qanadlanıb arzum Borçalı!

Hacxalıl babaydı ziyarət yerin,
Axışıb gələrdi bütün ellərin,
Ucalıqda uca, yoxdur dəyərin,
Ötən dilim, görən gözüm Borçalı!

Yay ayları yaylağına sığındım,
Susayanda bulağına sığındım,
Arxam bilib dağlarına sığındım,
Qalıb hər qarışda izim Borçalı!

Sazın-sözün beşiyisən, yurdusan,
Babalarmın baş qoyduğu gorusan,
Mən Salmanam, gözlərimin nurusan,
Bir oğlunam mənim özüm Borçalı!

**BAŞKEÇID**

Gəldim, Ilməzliyə əlim yetmədi,
Yurd ətrini səndən alım, Başkeçid.
Yayda yaylağına pənah gətirim,
Ildə bircə dəfə gəlim, Başkeçid.

Babam Ilməzlidi, nənəm Hamamlı,
Qonağa mehriban, həm istiqanlı,
Bir el döymü Dəmiçilər, Muğanlı?
Qarışıb elinə elim, Başkeçid.

Qıraq döyləm, doğma elə gəlmişəm,
Özümünkü bilə-bilə gəlmişəm,
Göy yaylağa, çəmən-çölə gəlmişəm,

Bakıda çatmıyır əlim Başkeçid.

Qəriblik şairi sıxır, saraldır,
Hicranı, möhnəti qəlbi daraldır,
Salmana ruh ver, ayağa qaldır,
Gələn ili bir də gəlim, Başkeçid.

**15.08.20**

## QARAÇI

Gəl qaldır köçünü, çıxaq dağlara,
Gözləyir yolmuzu el, ay "Qaraçı".
Gül-gülü çağırır, bülbül - bülbülü,
Bülbülə naz edir gül, ay "Qaraçı".

Ibadla aramda beh var, bazar var,
Şair ilqarında doğru, düz olar,
Gözləyir Gödək-dağ, qoca Əyriqar,
Sən mənim yanımda ol, ay "Qaraçı".

Bu dağlardan Kərəm, Qərib keçibdir,
Neçə bizim kimlər gəlib keçibdir,
Çox bizim kimilər görüb keçibdir,
Karvanlar ötürüb yol, ay "Qaraçı".

Tufarqanlı Abbas, Gülgəz hardadır?
Məhəmməd, Güləndam, Nərgiz hardadır?
Necolub Yəhya bəy, get gəz, hardadır?
Dünyadan sorağnı al, ay "Qaraçı".

Gəl qaldır köçünü, durma, tərpənək,
Gözləyir yaylaqlar, çöl-çəmən, çiçək,
Amandı, Salmanı qoyma tənha-tək,
Mənimlə dərdini böl, ay "Qaraçı".

**20.08.2002**

## KƏPƏNƏKÇİDƏ

***Dostum Mollayev Əkrəmə***

Gəl Əkrəm qardaşım, söhbət eyləyək,

Gör nələr görmüşəm Kəpənəkçidə.
Mən bir - bir danışım, sən hesaba çək,
Əzm - hünər görmüşəm Kəpənəkçidə.

Kimi dindirdimsə hamsı din əhli,
Hansı evə getdim, duzlu - çörəkli,
Dili bayatılı, boynu təsbehli,
Nənələr görmüşəm Kəpənəkçidə.

Almaza, Isaya qaynadı qanım,
Museybə hörmətmi mən necə danım?
Bəkirov Rəşiddi pirim, sultanım,
Dədələr görmüşəm Kəpənəkçidə.

Yaşasın Abbası, həm Zəlimxanı,
Abbas Abdullanın qaynardı qanı,
Şair tək sevirəm mən Ziyatxanı,
Şairlər görmüşəm Kəpənəkçidə.

Aşıq Imamalı, Yaqubov Çingiz,
Bədəlov Abbası ilqarında düz,
Ismayıl dayımı sadə, gülərüz,
Ərənlər görmüşəm Kəpənəkçidə.

Evləri gərdəkli, başı dingəli,
Əlləri xınalı, yanı yengəli,
Ləzzətlə bişirən xaşıl - xəngəli,
Gəlinlər görmüşəm Kəpənəkçidə.

Yedəyi buzovlu, yanı inəkli,
Əlləri vedrəli, çiyni sənəkli,
Çox ceyran baxışlı, nazik biləkli,
Gözəllər görmüşəm Kəpənəkçidə.

Gözlərində vüqar, saçlarında dən,
Alagöz Nigarın yolunnan gedən,
Oğul - qız bəsləyən, övlad böyüdən,
Analar görmüşəm Kəpənəkçidə.
Biçin aylarında söküləndə dan,
Götürür çiyninə kərənti - zindan,
Qorxan döy alovdan, qorxan döy oddan,

Babalar görmüşəm Kəpənəkçidə.

Salmanam ay Əkrəm, sinəm doludu,
Bu kəndin getdiyi haqqın yoludu,
Hər biri Rüstəmdi, qoç Koroğludu,
Oğlanlar görmüşəm Kəpənəkçidə.

**12.02.2003**

## BU « HACI» - LARIN

Məkkəyə getdilər, Hacı oldular,
Gözləri doymadı bu «hacı» - ların.
Düzəlmək istədi Allah yolunda,
Tamahı qoymadı bu «hacı» - ların.

Min oyundan çıxan, mollalıq edir,
Telfon qulağında öləni güdür,
Səsi baş aparır, adam ülküdür,
Işi müəmmadı bu «hacı» - ların.

Cibləri kompaslı, başları fəsli,
Həm paxıl ürəkli, həm bəd nəfəsli,
Yas yeri arzulu, ölü həvəsli,
Yediyi halvadı bu «hacı» - ların.

Yas yeri eşitsə küləyə dönür,
Millətin gözündə mələyə dönür,
Birdən fırıldağa, kələyə dönür,
Dayazdı savadı bu «hacı» - ların.

Salman, zəri yonan baqqala bir bax,
Sifətə yaraşmır, saqqala bir bax,
Dalınca deyirlər: - çaqqala bir bax,
Qazancı bu oldu, bu «hacı» - ların.

**18.10.2008**

## NEYLƏK GURULDAYIR QOY GURULDASIN

Kamil insan baş qoşmasın nadana,

Dəymə, cırıldayır qoy cırıldasın.
Günəşi sevməyən yarasalardı,
Günəş parlayırsa, qoy parıldasın!

Kəkliyi, ceyranı çöllərə yazıb,
Aşmağı – daşmağı sellərə yazıb,
Bülbülün eşqini güllərə yazıb,
Qarğa qırıldayır, qoy qırıldasın.

Hələ yer üzünün axmağı çoxdu,
Öz – öznə gurlayıb çaxmağı çoxdu,
Buludu seyrəkdir, yağmağı yoxdu,
Neylək guruldayır, qoy guruldasın,

Paxılın ürəyi çoxdan bulanıb,
Ömür – gün bulağı haqdan bulanıb,
Dayaz gölməçədə yoxdan bulanıb,
Hələ quruldayır, qoy quruldasın!

Salman qələm əhli, ibadət əhli,
Təriqət, mohumat, mərhəmət əhli,
Allaha xoş gələr kəramət əhli,
Xəsis xırıldayır, qoy xırldasın.

**28.04.2010.**



**OLAN OLDU, KEÇƏN KEÇDI BAĞIŞLA**

Qul xatasız olmaz, ağa kərəmsiz,
Məgər sənin kərəmətin yoxdumu?
Allah sevər bağışlayan insanı,
Yaradana mərhəmətin yoxdumu?

Sənlə keçirdiyim xoş anlar hanı,
Bir iş üçün dağıdırsan dünyanı,
Əzrayıla dönüb, alırsan canı,
Bəs şairə məhəbbətin  yoxdumu?

Yerimə üstümə boranla - qışla,
Doldurma ətəyni  kəsəklə  – daşla,
Olan olub, keçən keçib  bağışla,
Yoxsa sənin cinayətin yoxdumu?

Yazdığım bu sözlər bir etirafdı,
Bilirəm, ürəyin  billurdan safdı,
Salmanı  incitmək  bəyəm insafdı,
Yaxşılıqdan səxavətin  yoxdumu?



**ŞAIR EDIB, DÖNDƏRIB SÖZ DƏLISINƏ**

Gəl verək baş – başa ay sədəfli saz,

Kim nə deyir desin  saz dəlisinə.
Sən sehrli çıraq, mən də pərvanən,
Pərvanə deyirlər köz dəlisinə.

Mən indi bilmişəm nə çəkib Kərəm,
Binava, çöllərdə bağladı vərəm.
Məni qınamaynan, onnan betərəm,
Yazıq yandı, döndü qız dəlisinə.

Mənə nə eyliyibsə, özü eyləyib,
Sinəmdə alovu – közü əyliyib,
Sən mənim divanəm – dəlimsən deyib,
Gəlib yiyə durmur öz dəlisinə.

Salmana qırx ildi divan eyləyir,
Sevgisi başımda tufan eyləyir,
Uçurub, könlümü viran eyləyir,
Şair edib, döndərib söz dəlisinə.

**24.02.2010.**



**MURAD MÜƏLLİMƏ**

***Mənə uşaqlıq illərimdə ədəbiyyat dərsi deyən, şeir yollarında ilk çırağım olan, nəfəsindən nəfəs, həvəsindən həvəs verən Murad müəllimin (MURAD***

***DƏMIRÇI) həyat yoldaşı Fatma xanım kitablarımda Murad müəllimə ithaf etdiyim şerlərimi axtarıb. Məni Salman Qazi kimi yetişdirən Murad müəllim deyilmi? Deməli Salman Qazi – elə Murad müəllim deməkdir! Çünki bağban bağı ilə tanınar.***

Hər nə yazsam, qarşımda oturub, əyləşibdi.
Uşaqlıqdan o mənim könlümlə birləşibdi.
Iki ruh bir olub, bir canda yerləşibdi.
Fatma xanım, ilhamım sapırdanmaz meylimi,
Salmanın təb – ilhamı Murad müəllim deyilmi?

Onunla görüşəndə, qanadlanıb uçuram.
Harda görsəm uşaq tək, qabağına qaçıram.
O verdiyi işıqla, dörd bir yana saçıram.
Mən pərvana, o çıraq, gəzmərəm ondan qıraq,
Məndəki həvəs -maraq, Murad müəllim deyilmi?

Ustad unudularmı, şilləsi üzümdədi.
Günəşim, ayım olub, şöləsi üzümdədi.
O mənimlə birgədir, şerimdə – sözümdədi!
O sveməyi öyrədib vətənimi – elimi,
Torpaq, Vətən, el – oba Murad müəllim deyilmi?

Harda mən danışıramsa deməli o danışır!
Harda mən coşuramsa deməli o da coşur!
Bu gün coşan – çağlayan, çox bəndləri bağlayan,
Sözü od – ocaq olub, sinələri dağlayan,
Sinəmdəki od – ocaq, Murad müəllim deyilmi?

Görən deyir – yol verin, sözün sultanı gəlir.
Sinəsində bir ümman, şeirin Aslanı gəlir.
Nənələr bayatısı, elin dastanı gəlir.
Nağıl, dastan yaşadır doğma ana dilimi,
Bu günkü Salman Qazi Murad müəllim deyilmi?!

**ODUN PEÇI**

Sənə qurban olum ay odun peçi,

Bakıda düşmürsən əlimə mənim.
Beton divarlardan buz tutur canım,
Bankalar döşənir belimə mənim.

Bir az şaxta düşsə yoxa çıxır qaz,
Soyuq binalarda can olarmı saz?
Sən olmayan yerdə bərəkət olmaz,
Görənlər acıyır halıma mənim.

Axşamdan üç dənə odun atardım,
Səhərədək üstü açıq yatardım,
Qırağında çox azardan qutardım,
Şikayət gəlməzdi dilimə mənim.

Dörd yanına yığışardı körpələr,
Cəhrə əyrər, yun didərdi nənələr,
Nağıla dönərdi uzun gecələr,
Girərdi arzular qoluma mənim.

Bir maşın odunla qışı çıxarıb,
Qaz ilə işığa ümid etməzdik.
Nə başı ağrıdıb, nə diş çıxarıb,
Nə də orda – burda həkim gəzməzdik!

Sənin qırağında nənə – babalar,
Firavan yaşayıb, yüzü keçərdi.
Səninlə şen olub od – ocağımız,
Sən olan ailənin olmazdı dərdi.

Kartof dilimlənib, çörək köyrənib,
Üstündə nə qədər xörək bişərdi.
Sənin bərəkətin qədimdən gəlib,
Sənin ətrafına el yerləşərdi.

Babamın aftafası bir tərəfində,
Çuqun qazanımız hey qaynayardı.
Sənsiz keçəmməzdi qız da, gəlin də,
Pişiymiz altında xumarlanardı.

Üstündə bişərdi xaşılla – xəngəl,
Dadı damağmıza ləzzət verərdi.
Yadlarından çıxıb sönsə, əlvəhəl,

Nənəm gəlinlərə töhmət verərdi.

Bir gəl qucaqlaşaq ay odun peçi,
Yenə də içinə üç odun atım.
Bakının soyuğu döyməsin məni,
Mən sənin istində doyunca yatım!

Sənə qurban olum ay odun peçi,
Atəşin – alovun, istin çatışmır.
Salmanın tüstüsü gözləri tökür,
Səninsə Bakıda tüstün çatışmır!

**29.12.2006**

## MƏNƏ BƏS EYLƏR

Ay şəhərli dostum, sən şəhərdə qal,
Bir kəndin həvəsi mənə bəs eylər.
Şəhər gözəlliyi nəyimə gərək,
Çəmənin laləsi mənə bəs eylər.

Hikmət açarıdır daşı – qayası,
Təmizdir suyu, safdır havası,
Könlümdən keçəndə ana laylası,
Çayların laylası mənə bəs eylər.

Səhər qırqovullar verir səs – səsə,
Şanapipik insanı salır həvəsə,
Bülbül oxumasa, kəklik ötməsə,
Çobanın nəğməsi mənə bəs eylər.

Itburnu, yarpızı, əvəliyi var,
Ölüyə can verər, onu sağaldar,
Orda lazım deyil nə dövlət, nə var,
Dərmanı – davası mənə bəs eylər.

Orda lazım gəlmir həkimlə, loğman,
Canı gümrah olar, ağrımaz insan,
Bunu mənə dedi yüz yaşlı çoban,

Yaylağın safası mənə bəs eylər.

O gün nəyə lazım, yadda qalmasa,
Təbiət açılıb, könül almasa,
Bir bulaq başında həmdəm olmasa,
Şirin zümzüməsi mənə bəs eylər.

Salmanam, sinəmi açıb gedirəm,
Cəhənnəm odundan qaçıb gedirəm,
Quş tək bir yuvaya uçub gedirəm,
Dağların havası mənə bəs eylər.
**30.08.2008**

**QARABULAQ, GÖDƏK DAĞDA**

Bu il yenə qonaq oldum,
Qarabulaq, Gödək dağda.
Bulud tək boşaldım, doldum,
Qarabulaq, Gödək dağda.

Yağış yağdı, külək əsdi,
Görən qoyun – quzu kəsdi,
Hörmət etməyə tələsdi,
Qarabulaq. Gödək dağda.

Dovğa, əvəlikli isti,
Qonaq yesə nəyi pisdi?
Ət yeməkdən iştah küsdü,
Qarabulaq, Gödək dağda.

Xəşil – xəngəl əziz neymət,
Cana xeyir, ağza ləzzət,
Bax budu qonağa hörmət,
Qarabulaq, Gödək dağda.
Dost – qardaşlar vəfalıdı,
Salman hər şeydən halıdı,
Yaylaq, bulaq səfalıdı,

Qarabulaq, Gödək dağda.
**1.09.2008**

**IBADƏTI BOŞDU BOŞ**

Insan oğlu, bu dünyanın var – dövləti boşdu boş.
Ölənə tək çalışırıq, əziyyəti boşdu boş.
Gedənlər nə apardı ki, bizlər də nə aparaq?
Gedəni çılpaq göndərir, səxavəti boşdu boş!

Kim imandan danışırsa, imanını satmasın,
Allah yolu müqəddəsdir, özünü allatmasın,
Əldə Quran, içdə şeytan, aralığı qatmasın,
Imanı şeytana versə, ibadəti boşdu boş.

Misal var ki, uzaq görən kişi imiş atalar,
Halal əkmiş, halal biçmiş, halal yemiş atalar,
Əl tutmaq Əlidən qalıb, belə demiş atalar,
Əl verib, başa qaxırsa kəraməti boşdu boş.

Ağır otur, batman gəl ki, bərəkallah desinlər,
Elə hərəkət etmə ki, küssünlər, incisinlər,
Bir məclisdə zəhlə töküb, baş aparan kişilər,
Gəvəzəlik eyliyirsə, mərhəməti boşdu boş.

Bel bağlama bu dünyaya, dünya sənə yar olmaz,
Hər kəsin bir taleyi var, hər kəs bəxtiyar olmaz,
Qocalıb əldən düşərsən, əldə ixtiyar olmaz,
Salman, dünyaya bağlanma, sədaqəti boşdu boş.

**12 .06.2011**

**VAXTIM GƏLIBDI**

Dəli könlüm keçən keçdi, qurtardı,
Zirvələrdən enən vaxtım gəlibdi.
Inadkarlıq peşəm idi bir zaman,
Inadımdan dönən vaxtım gəlibdi.

Artıq ətrafımda deyib - gülən yox,
Mənim nə çəkdiymi daha bilən yox,
Yox olur dostlarım, gedib gələn yox,
Ocaq kimi sönən vaxtım gəlibdi.

Yaş artır, ağarır saçım - saqqalım,
Dəyişir əhvalım, pisləşir halım,
Itirdiyim itdi, day hardan alım?
Kərəm kimi yanan vaxtım gəlibdi.

Şairi qatladı, əydi zamana ,
Qəm - hicran kirmişcə yeridi cana,
Salman o Salman döy, dəymə Salmana,
Olanları danan vaxtım gəlibdi!

**2.06.2011**



**DAĞLAR SAĞ OLSUN**

Ay qoca dədələr, ərən igidlər,
Biz gəldi gedərik, dağlar sağ olsun.

Qoymayın gülşəni sarala - sola,
Bağçalar sağ olsun, bağlar sağ olsun.

Şair burda görüb əsl cənnəti,
Qonağa ehtiram, dosta hörməti,
Cəmi ölənlərə deyək rəhməti,
Köçən köçüb gedib, sağlar sağ olsun.

Şen olsun kəndiniz Qarabulağı,
Göz üstə saxladı gələn qonağı,
Sürfədən əksilmir balı – qaymağı,
Könül açan buz bulaqlar sağ olsun.

Salman Qazi gördü mərhəmət burda,
Açıq əllər burda, səxavət burda,
Allah sizə verib kəramət burda,
Siz sağ olun, belə çağlar sağ olsun!
**3.09.2008**

**AŞIQ HAQVERDIYƏ**

Ağır elli bir ustadsan, ay aşıq,
Ata ocağın, odun – közün var olsun.
Sənsən verən toy – nişana yaraşıq,
Xoş avazın, sazın – sözün var olun.

Bizim ellər, saxavətli, əli açıq,
Sənətkarın hər məclisə yolu açıq,
Səni gördüm sinəsi dolu, dili açıq,
Xoşbəxt olsun oğul – qızın, var olsun.

Hər qonağın gəlib – getmə vaxtı var,
Hər gələnin öz qisməti, baxtı var,
Çox maşallah, baxtavarsan – baxtavar,
Halal mayan, çoxun – azın var olsun.

Allah səni pis gözlərdən qorusun,

Bədxahların gözlərindən kor olsun,
Salman istər yolun çıraq – nur olsun,
Bu el – oban, dağın – düzün var olsun.
**5.09.2008**

### GEDIRƏM

Salamat qal dağlar, görüşənədək,
On beş gün səfanı sürdüm, gedirəm.
Özümə qayıtdı ötən günlərim,
Itdi ürəyimdən dərdim, gedirəm.

Səni var olasan qoca Əyri qar,
Nə axtardım, tapdım, hamsı səndə var,
Sən məni saxladın dərd – qəmdən kənar,
Səndə səxavəti gördüm, gedirəm.

Şen olsun qaldığım Qarabulağı,
Bu kənd əzizlədi gələn qonağı.
Sürfələr bəzədi balı – qaymağı,
Bu kənddə on beş gün qaldım, gedirəm.

Salamat qal çəmən, ay dərə, ay düz,
Mən necə dözəcəm Bakıda sizsiz?
Harda olur - olum ürəyimdəsiz,
Qonağam, görüşə gəldim, gedirəm.

Salmanın qurtardı vaxtı – vədəsi,
Sizdən ayrılmağa yoxdu həvəsi,
Başımın üstündə haqqın kölgəsi,
Sizin mehmanınz oldum, gedirəm.

**7.09. 2008**

### AY KƏND CAMAATI, ŞƏHƏRDƏ NƏ VAR

Əzəldən sevirəm kənd həyatını,
Kənddə məğrur gördüm kişi – qadını,
Niyə alçaldırsız kəndin adını,
Səzə qarğamırmı nakam ruhlar?
Ay kənd camaatı şəhərdə nə var?

Kənddə hava təmiz, sular da büllur,
Orda dağ vüqarlı babalar durur,
Cavanlar evlənir, yaşayır qurur,
Övlada toy edir ata – analar.
Ay kənd camaatı şəhərdə nə var?

Deyin, nə görübsüz siz bu şəhərdə?
Necə yaşayırsız dar küçələrdə?
Ünvan da deyirsiz yeri gələndə,
Özgəyə qalıbdı səfalı dağlar.
Ay kənd camaatı şəhərdə nə var?

Mən də gedib qaldım yarım ay qonaq,
Sürfələrdə şülən bal ilə qaymaq,
Şəhərdə alırsınız kilo – kilo yağ,
Acından belinizdə durmayır şalvar.
Ay kənd camaatı şəhərdə nə var?

Çayların laylası, bulağı gözəl,
Səfalı, tərtəmiz yaylağı gözəl,
Nehrə yağı gözəl, qaymağı gözəl,
Birdimi, beşdimi gələn qonaqlar.
Ay kənd camaatı şəhərdə nə var?

Orda əkmək lazım, biçmək lazımdı,
Kartofu tığlarda seçmək lazımdı,
Kənddə tənbəllikdən qaçmaq lazımdı,
Kənddə ağa olub qoçaq, işgüzar.
Ay kənd camaatı şəhərdə nə var?

Sahibsiz evlərniz viranə dönüb,
Hasarı dağılıb, damı sökülüb,

Atanın – ananın çırağı sönüb,
Görən bu dəhşəti çətin unudar.
Ay kənd camaatı şəhərdə nə var?

Kənddə toy da gördüm, nişan da gördüm,
Qeyrətli qoca da, cavan da gördüm,
Gözü yollar çəkən canan da gördüm,
Bəlkə də könlündə sizi arzular.
Ay kənd camaatı şəhərdə nə var?

Burda əlləşməyin küncdə – bucaqda,
Sizi gözləyirlər doğma ocaqda.
Qoy sizi görsünlər  çəməndə, dağda,
Szin arxanızda durubdu dağlar.
Ay kənd camaatı şəhərdə nə var?

**7.09.2008**



**SAQQALLI HACILARA**

***Son zamanlar həcc ziyarət edib gələnlərin bəziləri saqqal saxlayırlar. Sağlıqlan olsun.***

Sizin sifətnizdən itib gözəllik,
Onları gizləyib eybəcər tüklər.
Altı yol, yeddi yol gedib – gəliblər,
Saqqal saxlamayıb Dədə Türklər!

Iman – etiqadnız, nəfsiniz gərək,
Həcc qədər saf olsun, tərtəmiz olsun.
Kimdən peyda olub saqqal gəzdirmək?
Saqqal bəlkə bizim rəmzimiz olsun?

Bu saqqal qoymağın nə mənası var?
Deyin, siz kimlərlə eyliyirsiz bəs?
Vaxtında düşünüb, deyib atalar,
Saqqalla ağsaqqal olammaz hər kəs.

Allah qəbul etsin ziyarətnizi,
Məkkəyə getdiniz saqqal dalınca?
Millət necə varsız tanıyır sizi,
Saqqal varıydımı « Hacı » olunca?

Əsl möminlərin dayağı Haqqdır,
Qabaqda cənnətlə cəhənnəm durur.
Əməllər yazılır, yazılacaqdır,
Heç kəs « Hacı » - lıqla etməsin qürur!

Küsməsin Salmandan « Hacı » dostları,
Şeir də Allahın bir kəlməsidir!
Yönüm qibləyədi, üz haqqa sarı,
Şairin harayı, haqqın səsidir!

**OĞLUMA**

Gəl, ulu babandan söhbət eyliyim,
Onlardan bizlərə nəsihət varıydı.
Hər biri bənzərdi pəhlivanlara,
Hərəsində bir təbiət varıydı.

Başları papaqlı, əyni çuxalı,
Çiyini tüfəngli idi , beli xançallı,
Yerişi ləngərli, sözü samballı,
Sözlərində min bir hikmət varıydı.

Əfsus, indi bir təhərdi cavanlar,
Böyük – kiçik tanınardı o vaxtlar,
Qanacaxlı – mərfətliydi uşaqlar,
Böyüklükdə bir həqiqət varıydı.

Ağsaqqallar danlayardı, öyərdi,
Günahkarı şillələyər, döyərdi,
Hər nə desə, Allah üçün deyərdi,
Doğru kalam, düzgün söhbət varıydı.

Ana kimi baxırdılar Vətənə,
Qoymazdılar Vətən düşə çətinə,
Torpaqmı verərdi onlar düşmənə?
Onlarda kişilik, qeyrət varıydı.

Ölərdilər, qaçmazdılar elindən,
Həyalıydı cavan qızdan – gəlindən,
Bircə kimsə incimərdi dilindən,
Qanacax deyilən sərvət varıydı.

Yüz yaşında gümrah gördüm onları,
Cavan kimi qaynayırdı qanları,
Dörd bir yana səyirdirdi atları,
Sinəsində eşq – məhəbbət varıydı.

Hamsı öpər, gözü üstə qoyardı,
Biri « Dunquş», biri « Nəzik» deyərdi,

Hər dördü də məni görcək öyərdi,
Bax onlarda belə adət varıydı.

Unutmaq olarmı bu babaları,
El içində mərd görmüşəm onları,
Salman üçün qaynar olub qanları,
Hamısında bir mərhəmət varıydı.

**2. 07. 2007**

**SÖZ ADAMININ**

Çiynində el – oba dərdi – səridir,
Yediyi dünyanın qəm – kədəridir,
Yazdığı Allahın kəlmələridir,
Sözü müqəddəsdir söz adamının.

Ilhamlı sinəsi boşalar, dolar,
Hərdən aşiqanə baxanda nolar?
Yandıranda nolar, yaxanda nolar?
Közü müqəddəsdir söz adamının.

Dilində yalan yox, qəlbində nifrət,
Gəzdiyi bir haqdı, bir də ədalət,
Yoluna yoldaşdır sevgi – məhəbbət,
Özü müqəddəsdir söz adamının.

Bir qarna tox gəzər, bir qarına ac,
Onu Allah – Taala qoymaz naəlac,
Bir kəsə əl açmaz, olsa da möhtac,
Üzü müqəddəsdir söz adamının.

Təmizdir vicdanı, toxdu gözləri,
Heç kəsin malında yoxdu gözləri,
Dilləri kəsildi, çıxdı gözləri,
Sözü müqəddəsdir söz adamının.

A Salman, bu yolu tutubsan sən də,
Azma söz yolunu dumanda – çəndə,
Xatırlan, yada düş, ölüb – köçəndə,
Izi müqəddəsdir söz adamının.

**4.01.2007**

**OĞLUYAM**

***Bizə «Yeraz» deyib ayrıseçkilik salanlara***

Qardaş, «Yeraz» deyib ayrılıq salma,
Özgə döyləm, mən bu xalqın oğluyam.
Dağlar arxam olub, qartal sirdaşım,
Daşqın çayın, buz bulağın oğluyam.

Sizinlə olmuşam xeyir – şərimlə,
Əkib – becərmişəm alın tərimlə,
Halal dolanmışam öz əməyimlə,
Bərəkətli bir torpağın oğluyam.

Şəfəqlər görmüşəm al səhərinnən,
Darayıb saçımı dağlar mehinnən,
Yumuşam üzümü gülün şehinnən,
Gül – çiçəkli bir yaylağın oğluyam.

Ayağım Borçalı, başım  Dəlidağ,
Hələ ümidimdə sönməyib çıraq,
Məni  bu torpaqda saymayın qıraq,
Canbaxça  tək ağır elin oğluyam.

Tamam bambaşqadır bizdə təbiət,
Bizlərə yad idi  alverlə rüşvət,
Kişidə - qadında görmüşəm qeyrət,
Haqdan yanan bir çırağın oğluyam.

Babalar pislikdən qaçmaq öyrədib,
Qönçə könüllərdə açmaq öyrədib,
Qartal qanad verib, uçmaq öyrədib,
« Hacı Xəlil» tək  ziyarətin oğluyam.

Qoluma güc verib kərənti – zindan,
Yanmaq öyrənmişəm ocaqdan – oddan,
Hikmət öyrənmişəm alim, ustaddan,
Qorqud kimi bir ozanın oğluyam.

Salmanam, a qardaş, qanım  qanından,
Bizləri dağıdıb nadanlıq müdam,
Qaranlıq gecədə alovam – odam,
Axı mən də bu diyarın oğluyam.

**10.05. 1996.**

**MƏSCIDƏ YAXŞILAR – YAMANLAR GƏLIR**

Incimәsin mәndәn din qardaşlarım,
Könlümә cürbә cür gümanlar gәlir.
Ibadәt edirәm mәn öz evimdә,
Mәscidә yaxşılar - yamanlar gәlir.

Qapısı açıqdır, it qanacaqsız,
Görәndә yanıram odsuz – ocaqsız,
Imandan danışır dinsiz – imansız,
Dindar libasında şeytanlar gәlir.

Ağlını tamaha satan kişilәr,
Arvad gölgәsindә yatan kişilәr,
Ara bulandırıb, qatan kişilәr,
Dilindә böhtanlar, yalanlar gәlir!

Mәscidlә baş qatır, bәzi müsәlman,
Şeytanın payıdır ondakı iman,
Min oyundan çıxır әlindә Quran,
Günahı dağ boyda olanlar gәlir.

Hәr molla özünü ülama sayır,
Yalandan – kerçәkdәn hәdislәr yayır,
Paxıllıqdan nә yorulur, nә doyur,
Içindә әqrәblәr, ilanlar gәlir.

Mәscid qatmaqarşıq, hәyatı bazar,
Ora ayaq açıb hәr mәrdümazar,
Salman necә görüb elә dә yazar,
Ay Allah, Islama talanlar gәlir!

**29.04.2010**



## DÜŞÜBDÜ

*(Eloğlum şair Salman Qaziyə)*

Salman Qazi, səni görüb kövrəldim,
O nəhs gələn il yadıma düşübdü.
Yırğançaydan perik düşən, dağılan,
Pərən – pərən el yadıma düşübdü.

Yaz olanda qucaq – qucaq dərilən,
Yal – yamaca xalı kimi sərilən,
Gözəllərin tellərinə düzülən,
Çəmənlərdə gül yadıma düşübdü.

Kükrəyəndə bənd – bərəni saymayan,
Qeyzə gəlib, pələng kimi oynayan,
Haray çəkən, təbin kimi qaynayan,
Dağdan daşan sel yadıma düşübdü.

Arxaclarda papaq – papaq köbələk,
Yamaclarda quzqulağı, çiyələk,
Dərya kimi dalğalanan biçənək,
Ördək üzən göl yadıma düşübdü.

Elim vardı bağ – bağatlı, baxçalı,
Harda qaldı Ov dərəsi, Axçalı,
Qan ağlayır səcdəgahım Hacxalı,
Gəl gözümü sil, yadıma düşübdü.

Viran qaldı gözəl ellər, obalar,
Düşündükcə dərd sinəmi parçalar,
Özü, sözü dağdan ağır babalar,
Öyüd dolu dil yadıma düşübdü.

Ilahidən tərs yazıldı yazımız,
Birdən birə qışa döndü yazımız,
Daha bəsdir bəmdə dindi sazımız,
«Misri», « Cəngi», zil yadıma düşübdü.
Alıxanın dərdi çoxdu, ay Qazi,
Duyan yoxdu, qanan yoxdu, ay Qazi,

Ömrümüzü həsrət yıxdı, ay Qazi,
Vətən dərdi bil, yadıma düşübdü.

**Cücəkəndli ALIXAN KAMAL ( ORUCLU)**
**15.05.2009**

**SALMAN QAZININ**
**ALIXAN KAMALA ( ORUCLUYA) CAVABI**

Nədən danışırsan Alıxan müəllim?
Yazırsan ki, el yadıma düşübdü.
Bilirsənmi nələr keçir könlümdən?
Çəkic – zindan, bel yadıma düşübdü.

Vətənsiz insanlar saralar – solar,
Həsrət çəkən ürəkləri xar alar,
Gül – çiçəkdən şirə çəkən arılar,
Pətəyində bal yadıma düşübdü.

O yerlərdə qalıb bağrım parası,
Əlləşirəm, tapılmayır çarası,
Varansoyla Ilməzdinin arası,
Qaçdığımız yol yadıma düşübdü.

Ilməzli düzündə bülbül gül üstə,
Bir vüsal ucundan olmuşam xəstə,
Xəyalımdan getmir o boyu bəstə,
Ağ üzündə xal yadıma düşübdü.

Soyuqbulaq, Ilməzli, Canbaxça adnan,
Cücəkənd, Yırğançay çıxarmı yaddan?
Diz təpərdən düşüb, ağzımız daddan,
Qoyun – quzu, mal yadıma düşübdü.

Burda ələ keçmir o qatıq – qaymaq,
Üzsüz şor - pendirlə olarmı doymaq,
Qapını açmağa utanır qonaq,
Səxavətli əl yadıma düşübdü.
Göy – göyərti dadsız, meyvə xarici,
Olan olub keçib, nə küs, nə inci,

Bizə kələk gəlir şəhərin bici,
Ölmüş eşşək, nal yadıma düşübdü.

Salman Qazi dərd əlindən çal olub,
Sözlərini deyənməyir, lal olub,
Arxalı adamlar Rüstəm – Zal olub,
Rəhmətlik o, Zal yadıma düşübdü.

**16.05.2009**

## KIÇIK QARDAŞIM AŞIQ ƏŞRƏFƏ

Aşıq Əşrəf, zaman məni qocaldır,
Nə tez keçdi, ötən çağlar hardadı?
Bakının istisi aman verməyir,
Könül açan buz bulaqlar hardadı?

Sarvan çayı yenə aşıb daşırmı?
Maral atın Axçalını aşırmı?
Moyroğlu bulaqda kabab bişirmi?
Gül – çiçəkli o yaylaqlar hardadı?

Qaranlıqda yaylayırmı sürülər,
Yaylaq ləzzətini çobanlar bilər,
Qoyun sağan, qaymaq çəkən nənələr,
Nəğmə deyən o dodaqlar hardadı?

Cənnət güşəsiydi kənd Qalağalı,
Hanı Qaraisələrin qaymağı – balı,
Qaldı yad əllərdə babam Hacxalı,
Inandığmız od – ocaqlar hardadı?

Ağlağanda yenə şimşək çaxırmı,
Dəli dağ, Oy dərə bizsiz darxırmı,
Yenə Qoşa göldən sona qalxırmı,
Ov etdiymiz o oylaqlar hardadı?

Cücə kənd, Yırğançay çıxmayır yaddan,

Ilməzli köynəkdi əynimə oddan,
Can iştahdan küsüb, ağzımız daddan,
Biz saldığımız bağça - bağlar hardadı?

Seyid təpəsinnən, Şifhannı düzü,
Bavlı dərəsinin gülü – nərgizi,
Şəməni dərəsində ot basıb izi,
Gəlib – gedən o qonaqlar hardadı?

Kotan arxı, El yeri, bir də Örənə,
Çəhlim gözəl idi onu görənə,
Əfsus! Elim – obam qaldı viranə,
Qafil sönən o çıraqlar hardadı?

Təmirlər oxusa mövlüd, meyxana,
Şirin avazları işlərdi qana,
Aşıq qardaş, söylə şair Salmana,
Sən sevdiyin qarlı dağlar hardadı?

**30.06.2009**



**SAQQAL**

Bir ay üz qırıxmayıb,
Saqqal həvəsnə düşdüm.
Dostların, tanışların,
Nəzərindən sürüşdüm.
Görənlər ağız büzüb,
Dedilər ki, - bu nədir?
Dedim: - Saqqal qoyana,
Bu əsl nümunədir!
Bu saqqalı qoymuşam,
Qocalığmı görüm mən.
Ağsaqqal deyiləndə,
Ucalığmı görüm mən.
Saqqal səliqəsini
Göstərim saqqallıya,
Bəlkə saqqalmı görüb,
Saqqal qoymaq anlıya.
Eybəcər tük gəzdirən,
Görsün ki, saqqal nədir?
Yoxsa, bəzi adama,
Saqqal da bəhanədir!
Dedilər ki, şairsən,
Sözdü sənin mətahın.
Dindarsan, din əhlisən,
Nəyə gərək saqqalın?
Saqqal aldadar səni,
Iman gedər əlindən.
Saqqal gəzdirənlərin
Qeybət düşmür dilindən.
Nə olsun saqqalı var,
Könlündə şeytan gəzir.
Ürəklərində hiylə,
Dilində hədyan gəzir.
Gördüm ki, düz deyirlər,
Mən kimə oxşayıram?
Mənim təmiz adım var,
Mərdanə yaşayıram.
Itirə bilərəmmi,
El tək havadarımı.
Ülgücü alıdım ələ,
Qırıxdım saqqalımı!

**24.07.2009**

## ALLAH VERGISI

Əuzubillah imna şeytan irracim,
Dinlə məni ya rəhman, ya rahim.
Deməliyəm, daha yoxdu əlacım,
Kəramətin harda qalıb, ey Kərim?

Müğənni, şairəyə, fala baxana,
Allahım, nə qədər vergi verirsən?
Niyə fərq qoyursan sən yaradana,
Kişidən qadını niyə seçirsən?

Vergili qadınlar meydan sulayır,
Yoxsa qadınlara gözünmü düşüb?
Kim deyir qadını kişidən ayır,
Vergi verdiklərin həddini aşıb!

Gündə gör nə qədər «ulduz» parlayır,
Ulduzu ulduzla tərs salmışıq.
Niyə qadınlara cam-cam paylayır,
Vermirsən kişiyə sən bircə qaşıq!

Sən «vergi» verdiyin bu qadınlara
Kimi maşın alır, kimi ev verir.
Biganə baxırsan bu şeytanlara,
Deyirlər: - Bəs bunu o, Allah görmür?

Qurban olum sənə, bağışla məni,
Bəlkə sözlərimlə qəbahət etdim.
Mən sənin adını qorumaq üçün
Mən sənin qarşında cinayət etdim!

**02.01.2012**

## H. ARIFIN XATIRƏSIƏ

*« Yüzünüz bir şair yaratmadınız,*
*Biriniz yüz şair bada verdiniz! »*
***H.Arif***

Şairin Əzraili gözəllər olub,
Çoxuna qəm-kədər, qada veriblər.
Şeyx Sənanları kafir eyləyib,
Yazığın imannı bada veriblər.

Nə olsun dilləri şəkərdi-baldı,
Sevirəm deməyə dilləri laldı,
Leylilər Məcnunu çöllərə saldı,
Əslilər Kərəmi oda veriblər.

Qılınclar toqqaşdı məhəbbət üçün,
Zaman dastan qoşdu Təbiət üçün,
Gözəl həyat üçün, var dövlət üçün,
Quruca sərvətə, ada veriblər..

Fərhadın qisməti olmadı Şirin,
Öldü, Xosrova da qalmadı Şirin,
Kim deyir dünyaya gəlmədi Şirin?
Gəliblər, dünyada sədə veriblər!

Salman Qaziyə də dəyib xətəri,
Çıxmayır yadımdan o vaxtdan bəri,
Mənlə ilqar etdi bir el dilbəri,
Gələndə gördüm ki, yada veriblər!

**26.12.2011**



**AY MUSA**

*Ustad şairimiz, əziz dostum*

*Musa müəllim Ələkbərliyə*

Bu beşgünlük dünya viran olardı,
Yaranmasa məhəbbətdən, ay Musa!
Nə şair olmazdı, nə söz olmazdı,
Gəlməsəydi ülviyətdən, ay Musa!

Könlümdən keçəni gözünnən vurdun,
Bütün dostlarımın önündə durdun,
Odlu ürəyimdə imarət qurdun,
Mərifətdən, məhəbbətdən, ay Musa!

Şerində sambal var, sözündə ləngər,
Gözündə sərrafsan, işində zərgər,
Həm şirin ləhcəli, həm sinədəftər,
Çox varlısan şeriyyətdən, ay Musa!

Kasıb bir tacirik söz bazarında,
Düzlər yoxa çıxıb düz bazarında,
Zər -qumaş yerimir bez bazarında,
Söz tapmırıq xəcalətdən, ay Musa!

Çoxalıb şairlər, artıb şairə,
Mənəm- mənəm deyir, dırmaşır dörə,
Şeir ucuzlaşır göz görə-görə,
Üzülürük bu dəhşətdən, ay Musa?

Sinəmdə şeriyyət, dilimdə Allah,
Arxamda keçmişim, qarşımda dərgah,
Yolumun yoldaşı savabla - günah,
Qaçan döyləm həqiqətdən ay Musa!

Bir əlimdə qələm, birində Quran,
Ibadət əhliyəm, qəlbimdə iman,
Şeirdən bəzənib külli - asiman,
Necə qaçım bu sərvətdən, ay Musa?
Allaha sığındı peyğəmbər Musa,
Dərya araladı əlində əsa,

Bir kəsə ki, Allah kömək olmasa,
Qurtaran döy əziyyətdən, ay Musa!

Qanında qaynarlıq duymuşam sənin,
Üzündə doğmalıq duymuşam sənin,
Qəlbində dindarlıq duymuşam sənin,
Biliklisən ibadətdən, ay Musa!

Ha çalışaq, ha əlləşək yalandı,
Dünya bizi çılpaq yola salandı,
Nə veribsə əlimizdən alandı,
Söz qalacaq var-dövlətdən, ay Musa!

Dünya həm cəhənnəm, həm cənnət olub,
Kasıba, yoxsula qiyamət olub,
Salmanın gəzdiyi ədalət olub,
Ac qalmışam ədalətdən, ay Musa!

**ÇƏRXI FƏLƏK MƏNLƏ YOLA GETMƏDI**

Çərxi fələk mənlə yola getmədi,
Başımdan budadı, yıxıldım durdum.
Yalvardım yapışdım kömək etmədi,
Odlara qaladı, yıxıldım durdum.

Arzu muradımı əlimdən aldı,
Məni körpə - körpə çöllərə saldı,
Yaxamdan yapışıb daşlara çaldı,
Sinəmdən oxladı, yıxıldım durdum.

Mənə göz versə də, işıq vermədi,
Başım nələr çəkdi, gözü görmədi,
Köməyə əl açdım,bir söz demədi,
Ömrümü taladı, yıxıldım durdum.

Qismətdən kəm etdi, sevgimdən uzaq,
Əlləşdim, bəxtimdə yanmadı çıraq,

Qohumu-qardaşı eylədi qıraq,
Qanmaza caladı, yıxıldım durdum.

Salmanın ömrünə qənim kəsildi,
Pis günü çox yazdı, yaxşını sildi,
Bir fağır şairi düşməni bildi,
Kənara tulladı, yıxıldım durdum.

**26.12.2011**

**HALALLIĞA HAYLAMIŞAM ÖMRÜMÜ**

Aman Allah indi-indi anladım,
Öz əlimlə oxlamışam ömrümü.
Qocalıram, əl-ayaqdan düşürəm,
Gör nə günə saxlamışam ömrümü!

Gənclik məni zirvələrə haylayıb,
Qədər məni qul yerində əyliyib,
Qaşıq-qaşıq övladlarma paylayıb,
Tikə-tikə doğramışam ömrümü.

Yaralarım sızım- sızım sızıldar,
Yazıq canım kədər yeyər, qəm udar,
Olanları çox çətin ki unudar,
Neçə kərə yoxlamışam ömrümü.

Susuyanda ağı içdim, doymadım,
Başım çəkənlərə məhəl qoymadım,
Dost-qardaşı çətin gündə sınadım,
Onlara da paylamışam ömrümü.

Salmanam, vicdanmın quluna döndüm,
Neçə kasıbların puluna döndüm,
Darxanda Allahın yoluna döndüm,
Halallığa haylamışam ömrümü.

**22.12.2011**

# MƏN DƏ MƏHƏBBƏTDƏN ÇƏLƏNG HÖRMÜŞƏM, MƏNIM DƏ ÇƏLƏNGIM OLUB MƏHƏBBƏT.



**AY ÖZÜNDƏN XƏBƏRSIZ, MƏNDƏN XƏBƏRIN VARMI**

Bir zamanlar əl basıb, and içmişdik Qurana,
Sən sadiq olmalıydın o əhdə, o peymana,
Həsrətin mən yazığı edib dəli – divana,
Sənsiz keçirdiyim an, gündən xəbərin varmı?
Ay özündən xəbərsiz, məndən xəbərin varmı?

Tüstüm başımdan çıxır, yandırır odun məni,
Vaxt - vədəsiz qocaldıb, bu günə qoydun məni,
Nəsimi yalan oldu, eşqinlə soydun məni,
Tanrıya gileyliyəm səndən, xəbərin varmı?
Ay özündən xəbərsiz, məndən xəbərin varmı?

Sən bir mömin bəndənin din – imanını aldın,
Məcnuna tay eyləyib, məni çöllərə saldın,
Görən deyir: - ay şair, niyə vaxtsız qocaldın?
Sən isə dolanırsan gendən, xəbərin varmı?
Ay özündən xəbərsiz, məndən xəbərin varmı?

Axı, bizim içmizdə sevginin həsrəti var,
Bu sevgi arxasında Allahın qüdrəti var,
Sevib – sevilməyin də özünün hikməti var,
Ruhundan ayrı düşən, candan xəbərin varmı?
Ay özündən xəbərsiz, məndən xəbərin varmı?

Deyirsən ki gələcəm,gözlərim yollar çəkir,
Sənin bu sənsizliyin mənim qəddimi bükür,
Dağlar kimi başıma duman gəlir, çən çökür,
Sən aran gözəlisən, çənnən xəbərin varmı?
Ay özündən xəbərsiz, məndən xəbərin varmı?

Söylə, haçan gələcən, yolunda çıraq olum,
Əllərinin xınası, telində daraq olum,
Salmanı əsir eylə, yanında dustaq olum,
Vaxtsız saçıma düşən dəndən xəbərin varmı?
Ay özündən xəbərsiz, məndən xəbərin varmı?

**30.10.2007**

## VERMƏRƏM SƏNI

Əvəzsiz bir gülsən sevda bağımda,

Heç vədə xəzələ verməm səni.
Leyli kimdi, Şirin kimdi yanında,
Yüz dənə gözələ verməm səni.

Eşqim göylərində ulduzsan – aysan,
Sən mənə Allahın verdiyi paysan,
Məkkəm – Mədinəmsən, Kəbəmə taysan,
Peyğəmbər də gələ, verməm səni.

Gecələr yuxumda, gündüz canımda,
Bir Tərlan quşusan asimanımda,
Hər an hiss edirəm səni yanımda,
Min çəmənə, çölə verməm səni.

Ömrümün bəzəyi, naxışı oldun,
Gözümün dünyaya baxışı oldun,
Mənimlə hər yerdə yanaşı oldun,
Qızıl, inci, lələ verməm səni.

Gətir göz önünə bircə Allahı,
Qısqanıb üstümə atma günahı,
Salmanın könlünün şahısan – şahı,
Əldən elə – belə verməm səni.

**1.07.2007.**

## ISTƏK ISTƏK OLDU, YOL YOLA DƏYDI

Bir könül dostumnnan çıxdıq şəhərdən,
Əl əldən yapışdı, qol qola dəydi.
Dedim: - Uzaqlaşaq qəmdən – kədərdən,
Yanaqlar yanağa, tel telə dəydi.

Könüldən sevilən xoşdu insana,
Can qurban edərsən belə canana,
Odlu baxışları işlədi qana,
Baxışlar toqqaşdı, əl ələ dəydi.

Təbiət açıldı, sevindi yaylaq,
Allaha xoş gəldi hər iki qonaq,
Birisi bal idi, bu biri qaymaq,

Yarpaqlar yarpağa, gül gülə dəydi.

Göydən pişvazmıza endi mələklər,
Saça sığal çəkdi sərin küləklər,
Bu gün cavanlaşdı odlu ürəklər,
Dodaqlar dodağa, dil dilə dəydi.

Xeyir – şər yazanlar yazmadı bu gün,
Görənlər heç nəyə yozmadı bu gün,
Salmanın kefini pozmadı bu gün,
Istək istək oldu, yol yola dəydi.

**12. 06. 2006 Qala altı**

**QÖNÇƏ BIR TƏRƏFDƏ, XAR BIR TƏRƏFDƏ**

Dünya vecinə döy dəli könlümün,
Boran bir tərəfdə, qar bir tərəfdə.
Çölün ortasında vüsala bir bax,
Yağış bir tərəfdə, yar bir tərəfdə.

Pozanlar aranı pozmasın bu gün,
Yozanlar hez nəyə yozmasın bu gün,
Yazanlar günaha yazmasın bu gün,
Tanrı bir tərəfdə, yer bir tərəfdə.

Baxıram dodağa, bənzəyir közə,
Odmu ələnibdi yanağa, üzə ?
Qorxuram baxmağa can alan gözə,
Kəmənd bir tərəfdə, tor bir tərəfdə.

Günahkar bilmişəm çərxi-fələyi,
Məndən uzaq salıb belə mələyi,
Saralıb ömrümün gülü-çiçəyi,
Qönçə bir tərəfdə, xar bir tərəfdə.

Çəkən yox başımdan duman-zənimi,
Qara tikan basıb gül-gülşənimi,

Bülbül tək gəzirəm öz çəmənimi,
Qartal bir tərəfdə, sar bir tərəfdə.

Östümdə tanrımın xoş nəfəsi var,
Başımda gəncliymin min həvəsi var,
Bu yolun Salman tək divanəsi var,
Alov bir tərəfdə, qor bir tərəfdə.

**15.05.2005.**

## ÖLDÜRMƏ

Nə bəzənib oğrun – oğrun baxırsan?
Bu nə əda, bu nə nazdı, öldürmə!
Niyə məni yandırırsan, yaxırsan,
Yandıranlar bəyəm azdı, öldürmə!

Paltar qara, gözün ala, saç sarı,
Görəndə dağıldı könlüm hasarı,
Belədimi şairənin ilqarı?
Can almağın hələ tezdi, öldürmə!

Nə haqqım var, söz deməyə, yazmağa,
Gücüm çatmaz haqq yazanı pozmağa,
Olmaz eşqi min bir yerə yozmağa,
Ürəyin daş, könlün buzdu, öldürmə!

Salmanın könlünün şahına döndün,
Dilimin amanı – ahına döndün,
Əhli gözəllərin mahına döndün,
Həsrətin canımı üzdü, öldürmə!

**12.11.2007**

## QOCALDIR

Mən neyləyim bu taleyin hökmünə,
Orda səni, burda məni qocaldır.
Bir – birmizə həsrət qoyub bizləri,
Harda səni, harda məni qocaldır.
Zamandımı, insandımı dəyişən,
Bizmi olduq qismətinə qəm düşən,
Getmir üstümüzdən bu duman, bu çən,

Göydə səni, yerdə məni qocaldır.

Dilim – dilim dilimləndim, yaşadım,
Dərdi – səri ürəyimdə daşıdım,
Şaxta döydü, sazaq vurdu, üşüdüm,
Buzda səni, qarda məni qocaldır.

Budu tale, budu qədər əzizim,
Minib boynumuza bu qismət bizim,
Əsəbdən əl əsir, tirəyir dizim,
Qarğa səni, sar da məni qocaldır.

Elə yandım, tüstüm ərşə dayandı,
Nə çəkdiyim bir Allaha əyandı,
Şair Salman bir alovlu insandı,
Odda səni, qorda məni qocaldır.

**30.06.2006.**



**KÖPƏK QIZI**

Yenə qaşı – gözü oxa dönübdü,
Qəsd edir canıma bu köpək qızı.

Bir Huri – mələkdi, göydən enibdi,
Susayıb qanıma bu köpək qızı.

Sazını götürdü, istəkdən dedi,
Ərşdən - gürüşdən, fələkdən dedi,
Hər nə dedisə də, ürəkdən dedi,
Girdi imanıma bu köpək qızı.

Yenə baxışları yandırır, yaxır,
Dünyamı dağıdır, öyümü yıxır,
Kanardan kanara oğrunca baxır,
Yanıma gəlməyir bu köpək qızı.

Hərdən cavan dedi, hərdən çal - dedi,
Gəlibsən - Gəncədə bir az qal - dedi,
Dedim mehmanım ol, məni al - dedi,
Baxmır imkanıma bu köpək qızı.

Mən sözün sərrafı, bu işvə – nazın,
Qovurur içində alovun – közün,
Salman ovu oldu bu dilbilməzin,
Döndü cananıma bu köpək qızı.

**28. 09. 2003.**

**OLDU**

Bir gözələ tərif dedim bir yerdə,
Çox sağ ol söylədi, çox xoşhal oldu.
Bu tərif yayıldı eldən - ellərə,
Dildə - dodaqlarda bir misal oldu.

Bu gözəl bir sözlə ulduza döndü,
Gah alova döndü, gah közə döndü,
Gah gəlinə döndü, gah qıza döndü,
Ancaq mənnən ötrü bir xəyal oldu.

Boranmı qalıxdı, tufanmı əsdi?
Dedilər, tərifi az elə, bəsdi!
Canan üz döndərdi, arvadım küsdü,
Arada qan düşdü, qalmağal oldu.
Könül bağbanıyam, əkdiyim güldü,
Günlərim sökülür, düz otuz ildi,
Saraldı bağ - bağçam, bülbülüm öldü,
Dərdiyim meyvənin çoxu kal oldu.

Yaşımmı çoxaldı, vədəmi keçdi?
Fələk düşmənliyə mənimi seçdi?
Təbəssüm Salmandan üzağa qaçdı,
Görənlər dedi ki, şair lal oldu.

**6. 05. 2004.**

**A ZALIM QIZI**

Dünyamı əlimdən alıb apardın,
Dünyasız qalmışam, a zalım qızı.
Gör məni nə günə salıb hicranın,
Vaxtsız qocalmışam, a zalım qızı.

Qovuşmaq həsrəti əyibdi məni,
Möhnətin didibdi, döyübdü məni,
Sənsizlik içimdən yeyibdi məni,
Saralıb-solmuşam, a zalım qızı.

Xəbərim var, sən də mənsiz dözmürsən,
Necə olub, harda qalıb - demirsən,
Axtarmırsan, aramırsan, gəzmirsən,
Elə bil ölmüşəm, a zalım qızı.

Kimdən bu dərdlərə dərman istəyim?
Mən kimin könlünün budağnı əyim?
Dilim gəlmir başqasına yar deyim,
Sənə öyrəşmişəm, a zalım qızı.

Sən dəli könlümün söz-söhbətisən,
Salmanın sevgisi, məhəbbətisən,
Məkkəsi, Mədnəsi, ziyarətisən,
Səcdənə gəlmişəm, a zalım qızı.

**6.05.2004.**

**QARĞAMA GÖZƏL**

Niyə qarğayırsan məni görəndə,
Çoxdandı boynumda bu minnət qalıb.

Bir ucu səndədi, bir ucu məndə,
Arada yarımçıq məhəbbət qalıb.

Görünür göydəki belə buyurmuş,
Ondan bir – birmizə qismət yoxuymuş,
Bizim taleyimiz - qədərmiz buymuş,
Fələkdən bu boyda cinayət qalıb.

Bilirəm könlündə olanları mən,
Ömür – gün ötüşüb, saçlarında dən,
Olub – keçənləri unudan döysən,
Səndən bir üzümdə əmanət qalıb.

Salmanın başında qara buludlar,
Mən nələr çəkirəm, nə xəbərin var.
Qönçə qismətinə yazılıbmış xar,
Sevənlər əzəldən kəm qismət qalıb.

**SƏNIN**

Nə mən cavan oğlan, nə sən cavan qız,
Mən qurtaranmıram nazından sənin?
Bu nə qısqanclıqdı, de ay insafsız,
Mən heç nə qanmıram sözündən sənin.

Neçə dildən, neçə sözdən keçmişik,
Neçə oddan, neçə közdən keçmişik,
Bir ilqar eyləyib, bir and içmişik,
And tutar yaxandan , közündən sənin.

Səni də, məni də yandırıb fələk,
Mənə yaraşarmı fırıldaq – kələk?
Belə şər danışıb, hədyan söyləmək,
Söylə necə gəlir üzündən sənin?
Nağayrım, əlimdə bir imkanım yox,
Coşqun məhəbbətim, sağlam canım yox,
Alıbsan əlimdən, din – imanım yox,
Xəbərin yoxdumu özündən sənin?

Salmana od vurub, oda salıbsan,
Diri gözlü cancığazmı alıbsan,
Mənim ürəyimi daşmı bilibsən,
Yanıram odunnan, közündən sənin.

**06. 01. 2007.**

## VALLAH

Hardan baxdı gözlərinə gözlərim?
Gözün od ələdi, gözümə, vallah!
Ildirıma dönüb, vurdu sinəmdən,
Hələ gələmmirəm özümə, vallah!

Niyə oğrun – oğrun baxdın ay zalım?
Canımı yandırıb – yaxdın ay zalım,
Şairin evini yıxdın ay zalım,
Təzə ilham verdin sazıma, vallah!

Qınama şairi ahıl yaşında,
Gözəlmi görübdü səni nişanda,
Gənclik eşqi at oynadır başımda,
Çəpər çəkəmmirəm sözümə, vallah!

Çox əfsus, ötüşür cavanlıq çağım,
Baxmayır sözümə əlim – ayağım,
Şöləsi azalır, sönür çırağım,
Daha baxan yoxdu üzümə, vallah!

Deyirlər gözəlin adı gözəldi,
Dilindən bildim ki, dadın gözəldi,
Salmanı yandıran odun gözəldi,
Maşallah məndəki dözümə, vallah!

**12.01.2007**

## GÖZÜMDƏN GÜLÜŞÜ ALIB GEDIBSƏN

A göyçəyim, bilinməyir məkanın,
Sən məni odlara salıb gedibsən.

Həsrətindən gör nə günlər çəkirəm,
Gözümdən gülüşü alıb gedibsən.

Bu yaşımda oda salıb, əritdin,
Mən yazığı bilə – bilə çürütdün,
Ac qalanda, dil – dodağın yedirtdin,
Yoxsa məni toxmu bilib gedibsən.

Gözümə tor gəldi yol gözləməkdən,
Özmü hicran boğur, saçlarımı dən,
Bilmirəm mən necə ayrıldım səndən?
Mənə şirin xəyal olub gedibsən.

Necə ürəyimə yol eyliyibsən,
Məni evli – evli dul eyliyibsən,
Salmanı eşqinə qul eyliyibsən,
Məni ürəyimdən çalıb gedibsən.

**8.11.2005**

## DÜŞÜR

Qanmaza nə var ki, günü xoş keçir,
Dünyanın azarı qanana düşür.
Çirkinlər dolanır var - hal içində,
Ağırlıq, yoxsulluq canana düşür.

O sevdi, mən sevdim, fələk qoymadı,
Nə mən ondan doydum, nə o doymadı,
Tale bircə eşqi bizə qıymadı,
Sevən sevgisində gümana düşür.

Mən necə qınayım Əsli - Kərəmi,
Şeyxi kafir etdi haqqın kərəmi,
Bir eşqin atəşi tutub sinəmi,
Şair təbib gəzir, dərmana düşür.

Mən bilmirəm bu nə tale - qədərdi?
Kimə sevinc verib, kiməsə dərdi,
Sevən - sevilənin eşqi hədərdi?
Nə ağır vaxt gəlir, zamana düşür.

Nədəndi yazılır yaxşılar pisə?
Haqq da nəzər salmır düz olan kəsə,
Dünyanın işini qanmıram nəsə..,
Bütün dərd - azarı Salmana düşür.

**OLMAZ**

Qısqanma yetənə, sudan da safam,
Axı, əmanətə xəyanət olmaz.
Özümü biləndən gözü sərrafam,
Şairdə bir qeyri cinayət olmaz.

Sən mənim bəsimsən, özgə alammaz,
Gözəllər gözünnən tora salammaz,
Yerini bir başqa gözəl verəmməz,
Ürəkdə hər kəsə məhəbbət olmaz.

Baldan şirin dadır dilin – dodağın,
Mənə əvəzisən balın – qaymağın,
Gecələr bir sənsən yanar çırağım,
Haqqın sevgisində zarafat olmaz.

Bir gecən əvəzdi bir ömrə gülüm,
Sənsiz hər bir anım zülümdü, zülüm.
Salmanı qəflətən haxlasa ölüm,
Sən yola salmasan, yer cənnət olmaz.

**5.04.2007**

**QOŞAYARPAQ**

A Leyli camallım, tərlan xəyallım,
A mələk misallım, harda qalıbsan?
Sənsiz pisdir halım, çaşıb xəyalım,
Pozulub əhvalım, harda qalıbsan?

Gəzirsən kənarda, insafın harda,
Qoyma dərd – azarda, saxlama darda,
Yanıram alovda, ataşda – narda,

Mən Məcnun misalda, harda qalıbsan?
Ey dava – dərmanım, harda qalıbsan?

Necoldu ilqarın, əhdü – peymanın?
Yoxdumu insafın, ya kərəm kanın?
Can verir həyanın, şair Salmanın,
Gəl göstərt imkanın, harada qalıbsan?

## MƏNI

Necə aralanıb getdin, bilmədim?
Tapşırdın o gecə yağışa məni.
Könlüm istədiyni səndən almadım,
Bəs niyə çağırdın görüşə məni?

Sən çağırdın, mən də gəldim birbaşa,
Baxmadım küləyə, yağan yağışa,
Mən özüm də mat qalmışam bu işə,
Saymadın qohuma – qardaşa məni.

Görən – bilən baş açmadı işimdən,
Külək əsdi, yağış döydü başımdan,
Tale yenə itələdi döşümdən,
Çərxi – fələk saldı qarğışa məni.

Sakit – sakit, gəzə – gəzə gedərdik,
Şirin – şirin, dadlı söhbət edərdik,
Öpüşməyə ağac altı güdərdik,
Axı, sən öyrətdin bu işə məni.

Bu yaşında salıb eşqin közünə,
Sən Salmanı öyrədibsən özünə,
Deyən heç nə görünmədi gözünə,
Tək – tənha əylədin bir başa məni.

**4. 07. 2007**

## QALDI

Əzəldən oxlandı bəxtim – yığvalım,
Taleyim – qismətim yaralı qaldı.

Atımı səyirtdim qara günlərə,
Baxdımkı ağ günlər aralı qaldı.

Tufanda - boranda sevdim – sevildim,
Nə sevinc tanıdım, nə gülüş bildim,
Bir qızın eşqindən yandım, töküldüm,
Sinəmdə od oldu, vüsalı qaldı.

Əl atdım çiçəyə, qanqala döndü,
Eşqimin səməndi göylərdən endi,
Arzumun şöləsi, tonqalı söndü,
Gözümdə həsrətin məlalı qaldı.

Sinəmdə qəm – qüssə yuva salıbdı,
Diri gözlü mənim canmı alıbdı,
Deyirlər ki, Salman tez qocalıbdı,
Ötdü cavanlığım, xəyalı qaldı.

**2.07.2006**

**GÜNAH KIMDƏDIR**

Sən məndən betərsən, mən səndən betər,
Bəs döymü, başımız çəkdiyi, yetər,
Bu şair könlümün eşqi təzətər,
Bir söz sultanını saldın kəməndə,
Günah nə səndədir, nədə ki, məndə.

Yazan belə yazıb, kimdi günahkar?
Sən nəyi axtarsan, hamsı məndə var.
Sağalmır taleyim vuran yaralar,
Durub – düşünürəm yeri gələndə,
Günah nə səndədir, nədə ki, məndə.

Gör necə gözəldi, çöllərə bir bax,
Ötüb - keçdiyimiz illərə bir bax,
Bizim düşdüyümüz yollara bir bax,
Bu ahıl çağımda, bu gözəl gündə,
Günah nə səndədir, nədə ki, məndə.

Kimdi bu taleyi yozan insafsız,
Ömrü puç eyliyən, pozan insafsız,
Yaxşını yamana yazan insafsız,
Bizi saxlayıbsa dumanda – çəndə,
Günah nə səndədir, nədə ki, məndə.

Könül bir saraydır, onun şahı var,
Ömürün olmuşu, olacağı var,
Əzəldən bu eşqin öz Allahı var,
Iki eşq dəlisi oda düşəndə,
Günah nə səndədir, nədə ki, məndə.

Bir əlimdə qələm, birində Quran,
Allaha xoş gedər, eşqli insan,
Səni saf bir eşqlə sevirsə Salman,
Sevmək qadağan döy dində – imanda,
Günah nə səndədir, nədə ki, məndə.

**27.05.2008**

## SƏN DE, MƏN YAZIM

Gəl otur üz – üzə, aç tök sinəni,
Bu dərdü – möhnətdən sən de, mən yazım.
Sən də dərd əhlisən, mən də dərd əhli,
Dosta sədaqətdən sən de, mən yazım.

Ürəkdən sevilmək xoşdur insana,
Odlu baxışların işləsin qana,
Dönüm pərvanəyə, sən də dön şama,
Eşqi – məhəbbətdən sən de, mən yazım.

Biz fani dünyanın qonaqlarıyıq,
Qədərin - qismətin dustaqlarıyıq,
Bir dönük taleyin qurbanlarıyıq,
Bu əzab - əziyətdən sən de, mən yazım.

Səni mən duymuşam, ay gözəl mələk,
Duyğu insanlara verilir tək – tək,
Sevəni sevənə yazmayır fələk,

Haqqa şikayətdən sən de, mən yazım.

Taleyi Salmanı saldı odlara,
Qismətim günümü eylədi qara,
Dilbilməz yanında çəkildim dara,
Əsl həqiqətdən sən de, mən yazım.

9.05.2008

## BƏNÖVŞƏ

Bəlkə ya görüşək, ya görüşməyək,
Səninlə mən, gələn yazda, bənövşə.
Ürək parçalanır görüşənədək,
Vüsalın yaş olub gözdə bənövşə.

Harda baş qaldırdın, harda yetişdin?
Payızda qəflətən yadıma düşdün,
Bir çölün düzündə könlümdən keçdin,
Axtardım, tapmadım düzdə, bənövşə.

Çöllər də tanış döy, yer mənə yaddı,
Havası, suyu bambaşqa daddı,
Gəzdim, sorağını verən olmadı,
Taqətim qalmadı dizdə, bənövşə.

Salmana əzizsən, xətrinə qurban,
O bükük boynuna, ətrinə qurban,
Sənin bircə aylıq ömrünə qurban,
Haçan gələcəksən, tezdə, bənövşə!

## NƏ MƏNASI VAR

Axı mən deyəni deyir ürəyin ,
Yandırıb – yaxmağın nə mənası var?
Sən mənin vurğunun, məndə ki sənin,
Kanardan baxmağın nə mənası var?
Olan oldu, keçən keçdi ömürdən,
Əkən əkdi, biçən biçdi ömürdən,
Yeyən yedi, içən içdi ömürdən,

Gürlayıb - çaxmağın nə mənası var?

Fələk gözəlləri dara yazıbdı,
Dilbilməzə, gözü kora yazıbdı,
Qönçənin ömrünü xara yazıbdı,
Özünü boğmağın nə mənası var?

Dilim – dilim dilimləndim yolumda,
Zəncir ayağımda, qandal qolumda,
Tale səni saxlayırsa zulumda,
Ürəyni sıxmağın nə mənası var?

Salmanın dərdini təzələdin sən,
Şairin başına od ələdin sən,
Dərdini belimə şələlədin sən,
Qəm – dərd danışmağın nə mənası var?

**21.05.2008**

## SƏNIN

Şəkərdən dadlıymış dilin – dodağın,
Arıyam, bal tapdım dilindən sənin.
Nə yaşa baxmaynan, nə keçənlərə,
Bahar ətri duydum telindən sənin.

Bir dəfə bir toyda oxladın məni,
Çəkib bərkə – boşa yoxladın məni,
Odlu ürəyində saxladın məni,
Mən çoxdan halıydım halından sənin.

Kim səni görərsə ilhama gələr,
Göyçəkdi buxağın, sinəndi mərmər,
Hələ təzə – tərdi dummağ məmələr,
Kəbə bilidim, öpdüm əlindən sənin.

Gördüm gözlərində gülün şehini,
Düydum ətirində dağlar mehini,
Beh - bazar bağladıq, aldım behini,

Dodağındın sənin, dilindən sənin.

Təzədən açıldı ömür baharım,
Bir günlük yox oldu dərdim – azarım,
Sındı qabağında şair vüqarım,
Bircə gül qopartdım gülündən sənin.

Salmanı Salmanın əlinnən aldın,
Eşqinin gözünü canıma saldın,
Dərdim azıydımı, bir də sən oldun,
Indi hara gedim əlinnən sənin?

**21.05.2005**

## GÖZƏLDIR

Aram yoxdu payız ilə, qış ilə,
Təbiətin yazı, yayı gözəldir.
Ömür – gün keçirmə qəlbi daş ilə,
Yazılsa hər kəsə tayı, gözəldir.

Bu odlu könlümdən od istə, apar,
Əsl dosta canı, baş üstə, apar,
Şirin dil hər yerdə imarət yapar,
Mərd oğulun günü - ayı gözəldir.

Qanan kəsdən qanmazlara söyləmə,
Xainlərdə əmanətin əyləmə,
Nadandan kanar qaç, dostluq eyləmə,
Qanmaz dostdan qorxunc ayı gözəldir.

Şair Salman, belə getməz, darıxma,
Dünya dəyirmandı, çalış karıxma,
Ağı versə, zəhər versə qoruxma,
Qəbul eylə, haqqın payı gözəldir.

**11.01.2010**

## DEMƏYNƏN ŞAIRLƏR DUYĞUSUZ OLUR

Bahar buludu tək niyə dolubdur?

Hardan gözlərində belə nəm, gözəl.
Deməynən şairlər duyğusuz olur,
Dərdli ürəkləri bilənəm, gözəl.

Xoşum gəlir gül - çiçəyin tərinnən,
Gözəllərin təzəsindən, tərinnən,
Kaş qarışam ağ sinənin tərinnən
O mərmər bədənə bələnəm, gözəl.

Nə gözəldir gül camalın, incəsən,
Mənim üçün qızıl, ləlsən – incisən,
Salman ölər, sən Salmandan incisən,
Ömrümü səninlə bölənəm, gözəl.

**YANDIRIR**

Bir sevginin əsiriyik ikimiz,
Odu səni, közü məni yandırır.
Niskilindən dən düşübdü saçıma,
Çoxu səni, azı məni yandırır.

Göz axtarar, ürək sevən bulunmaz,
Küsən könül heç bir şeylə alınmaz,
Elin ağzı parça ilə sarınmaz,
Gözü səni, sözü məni yandırır.

Aşığam, şairəm söz adamıyam,
Məni anlayanın öz adamıyam,
Bu əyri dünyanın düz adamıyam,
Içi səni, üzü məni yandırır.

Salmanam, azalmır dərdü – məlalım,
Soruşub bilmirsən necədir halım,
Məni gözəllərə qısqanan zalım,
Biri səni, yüzü məni yandırır.

**7.08.2006**

**A BƏY TOYUN MÜBARƏK**

Allah mübarək etsin, qoşa qarıyannan ol,

Işləri düz gətirən, bəxti sarıyannan ol,
Dost - qohuma, qonşuya bacar yarıyannan ol,
Günlər o günlər olsun , səni ağsaqqal görək!
A Bəy, toyun möbarək! Gəlin, toyun möbarək!

Gəlin sənin namusun, sənin adın - sanındı,
Sən onun ruhu - canı, o sənin cananındı,
Sizin qovuşmağınız Allahın fərmanıdı,
Bizim də borcumuzdur fərmana amin demək,
A Bəy, toyun möbarək! Gəlin, toyun möbarək!

Arxalan əllərinə, halal çörək şirindi,
Haram qoyma evinə, haram qandı - irindi,
Ailənin qayğısı nə deməkdi - bil indi,
Kişi öz ailəsində ər gərək, ərən gərək!
A Bəy, toyun möbarək! Gəlin, toyun möbarək!

Çalış mərdanə dolan, başı aşağı gəzmə,
Abad könlü uçurma, ürəyi - qəlbi əzmə,
Özgə bağna daş atma, dəyməmiş meyvə üzmə,
Ürəyi nə istəsə , kişinin öznünkü gərək!
A Bəy, toyun möbarək! Gəlin, toyun möbarək!

Həyat gözəl neymətdi, onu qanan kəslərə,
Bu eşqi , bu nəşəni görüb duyanmaz hərə,
Gözlərini tox saxla, uyma qızıla - zərə,
Qızıl - zər sən özünsən ,sən qəşəng,gəlin qəşəng!
A Bəy, toyun möbarək! Gəlin, toyun möbarək!

Sözlərində bötöv ol, görən desin - kişidir,
Ara vurub - ev yıxmaq, zatı qırıq işidir,
Cavanlara məsləhət Salman üçün peşədir,
Yamanlardan uzaq ol, yaxşılardan qeyrət çək!
A Bəy, toyun möbarək! Gəlin, toyun möbarək!

**17.06.2005.**

## BÜLBÜLLƏRI OXUDAN, GÜLÜN MƏHƏBBƏTIDIR

Bir çiçəyin xətrinə, çox yaylaqlar gəzmişəm,
Minmişəm eşq səməndin, uca dağlar gəzmişəm,
Zümzüməli – nəğməli buz bulaqlar gəzmişəm,
Yaddaşıma həkk olan mənim təbiətimdir!
Bülbülləri oxudan gülün məhəbbətidir!

Səsimə - göy gurlayıb, ildırımlar səs verib,
Könlüm göylər gəzəndə, qartallar həvəs verib,
Orman qol – boyun olub, meşələr nəfəs verib,
Dunyanın gözəlliyi çöllərin adətidir!
Çayları qurutmayan selin məhəbbətidir!

Kəkliq qayasız durmaz, göllər sonasız olmaz,
Gəlinlərmiz gərdəksiz, əllər xınasız olmaz,
Çəmən - yaylaq ətirsiz, çiçəklər balsız olmaz,
Arıya qanad verən balın məhəbbətidir!
Sərin bulaq, göy çəmən, çölün məhəbbətidir!

Eşqim çağlayıb – coşur, çıxanda məhvərindən,
Ürəyimdən keçənlər, oxunub gözlərimdən,
Könül dostum mənimlə əyləşib hərdən – hərdən,
Deyib – gülüb, oxuyub, keçmişin söhbətidir!
Telləri tumarlamaq əlin məhəbbətidir!

Köz yandıra bilərmi, sinəsi köz olanı,
Söz yandıra bilərmi, dünyası söz olanı,
Allah sevər, bağışlar imanı düz olanı,
Sazlı – sözlü məclislər ömrümün cənnətidir!
Sazı saza döndərən telin məhəbbətidir!

Nəhlət! Xain – paxıla, qoy onlara ar olsun,
Kim mən anlamırsa, qulaqları kar olsun,
Kim deir ki, dağılıb - elim – obam var olsun,
Sinəmdəki bu hikmət, saz – sözün hikmətidir!
Şairləri yaşadan elin məhəbbətidir!

**11.01.2007**

## QADASI

Səni ocaq bildim, od – alov bildim,

Niyə məni üşüdürsən, qadası.
Körpə uşaq kimi qaçıram sənə,
Itələyib, yox deyirsən, qadası.

Bağbanın borcudu verə barını,
Gizlətməyə hevasını, narını,
Ovçu buraxarmı öz şikarını?
Əl atanda inciyirsən, qadası.

Altdan – altdan, oğrun – oğrun baxırsan,
Sən canımı yandırırsan, yaxırsan,
Mən yazığı öldürəcən axır sən,
Bəyəm bunu istiyirsən, qadası.

Bir de, sənin kəramətin necolub,
Aşiqlərə mərhəmətin necolub,
Urəyində məhəbbətin necolub,
Niyə salıb itirirsən, qadası.

Sən Salman Qazini oda salıbsan,
Külli – ixtiyarmı əldən alıbsan,
Yoxsa məni daş – dəmirmi bilibsən,
Qəm gölündə batırırsan, qadası.

**19. 09. 2009**

## EŞQINƏ

Haqq Salavat çəkdi, yarandı dünya,
Ay günəşin, nur cahanın eşqinə.
Insanlıq yarandı, bərqərar oldu,
Həm Adəmin, həm Həvvanın eşqinə.

Bülbül gülə, kəmər belə yaranıb,
Dağ dumana, çaylar selə yaranıb,
Allah yaradanda elə yaranıb,
Ruhu canın, damar qanın eşqinə.

Bilirəm ürəyin varaqdan təmiz,
Dağ kimi böyükdür, bulaqdan təmiz,

Bənövşə tək kövrək, yaylaqdan təmiz,
Yaşa – yarat yaradanın eşqinə.

Heç kəs qəm tanıyıb, dərd daşımasın,
Bəxtin arabası vaxtsız aşmasın,
Allah, düşmənim də tək yaşamasın,
Bir insan ver, bir insanın eşqinə.

Körpəlikdən fələk qoydu zulumda,
Aşıq oldum sədəfli saz əlimdə,
Mola oldum həqqın zikri dilimdə,
Şair oldum bir cananın eşqinə.

Salman Qazi dərd əhlini qanandı,
Odlasalar, odlarına yanandı,
Yaşa baxıb, könlün pozma, amandı,
Yaratdığın baxça – barın eşqinə.

**28.11.2006**

## QOCA QARI QIZ OLMAZ

Dəli könlüm, məndən nə istəyirsən?
Yandırırsan, belə alov - köz olmaz.
Demirəmmi burax eşqin başını,
Bir çiçəklə bahar olmaz, yaz olmaz.

Bəyənmədin bu dünyanın varını,
Yaşlaşırsan, yaşın ötüb yarını,
Gənc görürsən bir qocalmış qarını,
Qoca – cavan, araları düz olmaz.

Bu yaşda çox olar eşqin xatası,
Ehtiyatlı dolan, çıxar tasası,
Könüldə yoxdusa könül sevdası,
Incik düşər, araları saz olmaz.
Salmanın sözünü sözə saymadın,
Düz yola çağırdım məhəl qoymadın,
Gözəl gördün, gözəllərdən doymadın,

Qoca qarı təzdən dönüb qız olmaz.
**5.10.2008**

### AĞLAMA QURBANIN OLUM, AĞLAMA

Bizə bəxt yazanın əli qurusun,
Ağlama qurbanın olum, ağlama.
Onsuz da ürəyim param parçadır,
Dağlama qurbanın olum, dağlama.

Ciyarım ovulur bu göz yaşından,
Bilirəm, tufanlar əsib başından,
Acı günlərini sil yaddaşından,
Ağlama qurbanın olum, ağlama.

Gülümü – çiçəymi xar alıb əldən,
Güvəndiyim dağı qar alıb əldən,
Bir tərlan quşumu sar alıb əldən,
Ağlama qurbanın olum, ağlama.

Sən mənim könlümdə ötən bülbülsən,
Qaynar ilhamımda coşqun bir selsən,
Salmanın xəzana verdiyi gülsən,
Ağlama qurbanın olum, ağlama.
**9. 07.2009**



### GÖZƏLDƏN - GÖZƏL

Aman Allah, gözələ bax, özü gözəldən gözəl,
Dil şirin, dodaq şirin, sözü gözəldən gözəl,
Şövq əhlini oda salır, yandırır od – ocaqsız,
Sinəmə düşübdü közü, közü gözəldən gözəl.

Deyirəm ki, kərəm eylə, yandırıb – yaxmaq olmaz,
Bir evi yıxılmışın, evini yıxmaq olmaz,
Deyirsən ki, çək gözünü, bir belə baxmaq olmaz,
Axı necə aralayım gözü gözəldən, gözəl?

Çox gözəllər görmüşdüm, görünməyib beləsi,
Hansı çəmənnən gəlibdi bu dağların laləsi?
Sinəsinə işıq salır, ağ buxaqın şöləsi,
Bədirlənmiş aya bənzər, üzü gözəldən gözəl.

Ötüşüb vaxtım – vədəm, mən yarı yaş, o çiçək,
Mənə xatirə yaraşır, ona isə sevilmək,
Dedi: - Salman, salamat qal, bu sevdadan əlni çək,
Baxıb gördüm çox düz deyir, düzü gözəldən gözəl.

**26.05.2009**



**TELEFONA BAXIRAM**

Telefonun dəstəyini götürürəm əlimə,
Zəng etmək istəyirəm,
Söz demək istəyirəm,
Ürəyim deyənləri, sənə demirəm ancaq,
Gizlətmək istəyirəm,
Məndə sifət utancaq…..

Yaş o yaş olsa idi,
Nə istəsəm deyərdim.
Telefonla olsa da,
Səndən söz istəyərdim,
O söz ən uca,
Ən ali bir sözə çevrilərdi,
Dilucu deyilməzdi,
Ürəklərdən gələrdi.

Ancaq nə fayda canım,
Daha yaş o yaş deyil.
Məni hələ yandıran,
Ataş o ataş deyil.
Sən yeni yanan ocaq,
Mən sönən qor kimiyəm.
Sən günəş, mən şöləndə
Əriyən qar kimiyəm.
Ya sahibsiz bir sazam,
Ya simsiz tar kimiyəm.
Simləyib çalarsanmı,
Qeydimə qalarsanmı,
Bir viran olan könlü,
Təzədən alarsanmı?
Axı necə deyim mən?
- Sən mənim olarsanmı?

**16. 09. 2009**

## NƏ CANIMI ALIR, NƏ CAN VERIRSƏN

Nə qəsdi – qərəzin var mənim ilə,
Görəndə ölmümə fərman verirsən.
Cəllad tək boynuma kəndir salıbsan,
Nə canımı alır, nə can verirsən.

Uzaqdan uzağa oğrun baxırsan,
Oda salıb, yandırırsan – yaxırsan,
Nə yıxıb kəsirsən, nə buraxırsan,
Nə də mən yazığa aman verirsən.

Duşmana dönübsən «can » deyə – deyə,
Alış deyə – deyə, yan deyə – deyə,
Sənin azarını çəkən xəstəyə,
Arabir bir öpüş dərman verirsən.

Şərab tək içirsən canımdan qanı,
Tutarım qalmayıb, insafın hanı?
Divanə eyləyib Şair Salmanı,
Vüsal əvəzinə hicran verirsən.

**13.10. 2010**



**ƏZIZIM**

Gəl otur, söyləyim başa gələni,

Taleyimdən yaralıyam, əzizim.
Bir dərvişəm sazlı - sözlü gəzirəm,
Qismətimdən aralıyam, əzizim.

Boğuluram qəm – hicranın gölündə,
Söz olmuşam bir şahmarın dilində,
Çərxi fələk atır – tutur əlində,
Heç bilmirəm haralıyam, əzizim.

Dilim – dilim dilimləyib yığvalım,
Insafdımı yana – yana qocalım,
Oğul – qız ərköyün, yanımda zalım,
Yaman bəxti qaralıyam, əzizim.

Içim özmü, çölüm eli yandırır,
Ahım dağı - daşı, çölü yandırır,
Məni bir qanmazın dili yandırır,
Yaş o yaş döy aralıyam, əzizim.

Adım Salman Qazi, sirdaşım kədər,
Dilim qələm olub, sinəm də dəftər,
Ömrümü – günümü vermişəm hədər,
Belə başıbəlalıyam, əzizim.

**12. 09. 2009**



**XAR IÇINDƏSƏN**

Bir anlıq mən sənə nəzər yetirdim,

A şeyda bülbülüm, sar içindəsən.
Bənzətdim tər gülə - çiçəyə səni,
Çox əfsuslar olsun, xar içindəsən.

Xəsyətin də gözəl, özün də gözəl,
Söhbətin də gözəl, sözün də gözəl,
Ürəyni oxudum üzündən gözəl,
Tufanda, boranda, qar içindəsən.

Nə gözəl yaradıb pərvərdigara,
Bu gözəllik hara, çətinlik hara,
Kaş daş doğulaydın, ay günü qara,
Sən şərdə – kələkdə, tor içindəsən.

Sənin anlıyanın, qananın yoxdu,
Tək – tənha gəzirsən, həyanın yoxdu,
Bir dəmli çay gətir -, deyənin yoxdu,
Odda – alovdasan, qor içindəsən.

Salmanın canına dərd oldun sən də,
Şairi ovlayıb, saldın kəməndə,
Günah nə səndədi, nə də ki, məndə,
Sən də mənim kimi dar içindəsən.

**15. 09. 2009**



**DOSTUM ADILXAN MÜƏLLIMƏ (FEYIZOĞLUNA)**

Ay evin tikilsin, bu nə üsyandı?
Dünyanın özünnən üsyan edirsən!

Məgər bilmirsənmi qədər, taleyi?
Niyə öznü dağıdırsan, didirsən?

Sultan itgisinə dözməyir canın,
Dünyadan nə qədər sultanlar köçüb.
Bir canan odunnan od alıb canın,
Nə odu səngiyir, nə közü keçib!

Bu od sönən deyil, neçəki sağsan,
Hələ tələsimə nakam görüşə!
Maşallah, sən özün bir barlı bağsan,
Qıyma ürəklərə təzə xal düşə.

Sənin taleyindir bu yazı - qədər,
Necə olur olsun, yaşamalısan!
Qoy səni əyməsin bu dərd, bu kədər,
Dağdan ağırdısa, daşımalısan!

Cavanlıq şeirlərin qaytardı məni,
Təzədən dağlara, bulağa sarı.
Hələ də başımda dağların çəni,
Sinəmin üstündə boranı – qarı!

Mən də ilk sevgimdən nakam qalmışam,
Təsadüf görüşdə lala dönürəm!
Təsəllimi xatirəmdən almışam,
Keçmişə, çığıra, yola dönürəm!

Bir yol peyda olub əziz qardaşım,
Baxıram bu yolun yolçusuyam mən!
Bu dünya fanidir, onla nə işim,
Burda o dünyanın elçisiyəm mən!

**16.02. 2010.**



# QƏZƏLLƏR

## DODAQDƏYMƏZ QƏZƏL

Haradasan dili dildar, yenə səni can istəyir,
Çarəsizdir, çarə səndə, səni də hər an istəyir.

Can cananın əsiridir, neçə ildir, anla sən də,
Axtarar hər yerdə səni, axtardığı qan istəyir?

Eşqin ataş, yananların nədədir ki, çarələri?
Ataşinə alışanlar nə ad, nə də san istəyir.

Sənə yəqin əyandır ki, nələri çəkir şairin,
Həsrətindən gileylidir, yar yarını tən istəyir.

Sən Qazini əylədin yenə, nəzərindən kənarda,
Gecələr hicran ilə tənha qalan dan istəyir.

**05.03.2008**

**TƏLƏSMƏ**

Gedərgiyəm ey könül, bu kannan məkana, tələsmə,
Xaqanlar yox eyləyib, gərdişi - dövranə, tələsmə.

Sinəmi yandırır odu bir əhdinə beyilqarın,
Dünya göstərər özün, can alan canana, tələsmə.

Mən bir əzabinnaram ki, tək gileyim Allahdandı,
Peşimançılıq verəcək əhdini danana, tələsmə.

Məcnun kimdi, Kərəm kimdi, Şeyxi Sənan kimdi ki?
Onları gerdə qoyar, bu dəli – divanə, tələsmə.

Bu beş günlük dünyadan kim nə aparıb görəsən,
Əhli hallar söyləyər: - Rəhmət Salmana, tələsmə.

**9.11.2008**

**NƏ XƏBƏRIN**

Hər gecə fərağından odlanıram, nə xəbərin?
Yatırsan şirin – şirin, mən yanıram, nə xəbərin?

Getməyir xəyalımdan bağladığmız əhdü – peyman,
Hələ də  sözlərinə inanıram, nə xəbərin?

Arabir də gecələr gəlib girirsən yuxuma,
Mən sənin hər  sözünə  aldanıram, nə xəbərin?

Aranı dağa çəkib, dağı çəkirəm arana,
Yatmıram səhərə tək, oyanıram, nə xəbərin?

Şah olubsan Salmanın  çağlayan, çılğın könlünə,
Fərağını çəkməkdən oysanıram, nə xəbərin?

**3. 11. 2007**

**OLMADIN**

Mənimlə ilqar bağladın, mənə canan olmadın,
Ucbatından xəstə düşdüm, dərdə dərman olmadın.

Sən söz verdin, əhd eylədin, şahid oldu Allah buna,
Uydun şeytan sözünə, bir  xalis insan olmadın.

Sonrakı  peşmançalıq fayada verməz, olan oldu,
Çox əfsus öz vaxtında bu günü qanan olmadın.

Yaş keçib, saç ağarıb, ayılıbsan ey binava,
Yandırdın oda məni, özünsə yanan olmadın.

Keçənə güzəşt deyiblər, Salmanı əydi zəmanə,
Halımdan hali olub, sən  mənə mehman olmadın.

**2.11.2007**

**GÖZÜN**

Gülüm, niyə   oxşayır  ox ilə kamana  gözün,
Yenə  çəkir   aşiqini  qırğına, qana  gözün?

Bəs döymü fələyin verdiyi dərdü – sər mənə?
Bir tərəfdən də yenə qəsd eyləyir cana gözün.

Sevincin bircə anlıq, həsrətin dünya qədər,
Onsuz da mən yazığı eyliyib divanə gözün.

Ox atır hər görəndə, sinəmi nişanə seçib,
Baxmayır sinəmdəki bu aha – amana gözün.

Görəndə oxşamışam qayğısını çəkə – çəkə,
Yoxsa yağımı kəsilib şair Salmana gözün.

**30.08.2006.**

**PƏRVƏRDIGAR**

Məni heç kəs döndərəmməz amalından pərvərdigar.
Harda olsam çıxmırsan xəyalımdan pərvərdigar.

Bu beş günlük qonağın üzünə aç qapıların,
Yanıltma bu bəndəni gümanından pərvərdigar.

Suleymanlar durmadı, mən kiməm ki, bu dünyada,
Ərz olub, xəbərim var, fərmanından pərvərdigar.

Mən ki, mömin bəndəyəm, din – imana bağlanmışam,
Məni kənar eyləmə ümmanından pərvərdigar.

Sən ərşi – əlada, mən ədimül ərzəm, – bilirəm,
Salmana bir yer ayır öz yanından pərvərdigar.

**11. 11. 2007**

**BÜLBÜLÜM**

Dünyada nə çəkməyib başın dilindən, bülbülüm,
Nə sən yolundan döndün, nə mən yolumdan bülbülüm.

Sənin yerin bağ – bağçadı, mənim yerim el – obam,
Ikimiz də ayrı düşdük, güldən, vətəndən bülbülüm.

Sən səsdən düşdün bəlaya, mənsə eşqin ucundan,.
Mən yarımdan olmuşam, sən də gülündən bülbülüm.

Sən dəmir qəfəsdəsən, mən də dərd qəfəsindəyəm,
Dur gəl  bərabər oxuyaq, dərd əlindən bülbülüm.

Öz dərdim bir yana, sənin dərdin də dərdim olub,
Çəkdiyini Salman bilir, varam halından bülbülüm.

**12. 11. 2007**

## VAR

Mey haram buyrulmayıb, meyin də öz hikməti var,
Həddən  artıq içənlərə  dinimizin  nifrəti var.

Mey içən  meyxoş olar, o  unudar  dərdü – qəmi,
Meyin  özgə  ləzzəti, özgə  cürə qüdrəti var.

Mey içən gözəllər var, seçilməz huri – qılmandan,
Maşallah  Məshətinin indi də  söz – söhbəti var.

Şairlər  mey içsələr də, günaha hesab olunmaz,
Onlarda şeir  deyilən  dünyanın sərvəti var.

Ölümdən pislər qoruxsun, onu  cəhənnəm gözlər,
Salmana müjdə verilib, onun öz  cənnəti var.

**16.11. 2007**

## KÖNLÜMƏ

Yarəb, nə qədər ağıl verim mən bu sərxoş könlümə,
Bu eşqi, bu həvəsi, salmayaydın kaş könlümə.

Mən ki, bülbül həvəsliyəm, növbaharı arzularam,
Necə atım bu vərdişi, bağlayımmı daş könlümə?

Əsir edib əllərində, bir qula döndərib məni,
Nə vaxtandır ağalıq edir, bircə qələmqaş könlümə.

Cavanlığım tüğyan edir, qocalmaq istəmir könül,
Baxıram saçım ağarıb, yaraşmayır yaş könlümə.

Salmana divan edir, salıb məni əldən – ayaqdan,
Onsuz bu dünyam görünür başdan - başa boş könlümə.

20.11.2008

**QƏZƏL**

Kor ol səni zalım fələk, ayrı saldın cananımdan,
Bir gün bərbad olacaqsan mənim ahu – fəğanımdan.

Bir alov saldın canıma, görənlər deyir bu nədi?
Dağlar–daşlar dilə gəldi gileyimdən, amanımdan.

Kimə deyim məni boğan bu qüssəni, bu kədəri,
Uçurduğum o tərlanım bir an çıxmır xəyalımdın.

Kimdi Məcnun, kimdi Kərəm, qoy gəlsinlər sual edim,
Bəlkə onlar yalan olar, xəbər tutsa bu halımdan.

Salman Qazi əhli iman, o peşiman, mən peşiman,
Özünə bir saray tikib mənim dini – imanımdan.

**10. 04. 2010**

# RÜBAILƏR

# ÇƏLƏNGI



*****

Meyvəni kal vaxtı qopartmaz bağban,
Yalnız yetişəndə dərər ağacdan.
Atalar deyib ki, gözü qızanda,
Dəymişi kalından düz seçməz nadan.

*****

Bəxt nərd zərləridir, anlasan əgər,
Hər kəsin payına bir cürə düşər.
Şeşlər diləyərsən, atdığın zaman,
Fələk əvəzində iki-bir verər.

*****

Var-dövlət çoxunu salıb marağa,
Onun üçün qoylur vicdan qırağa,
Hər şeyi əlindən alaraq fələk,
Əli boş göndərər qara torpağa.

*****

Göylərə çatsa da başın papağı,
Çalış, unutmaynan dostu-qırağı.
Əl çək yamanlıqdan, yaxşılıq eylə,
Neçə ki, sönməyib ömrün çırağı.

*****

Bir əlimdə sazım, birində quran,
Dururam namaza sökülündə dan.
Hərdən nuş edirəm mey dolu camı,
Girməsin qəlbimə nə cin, nə şeytan.

*****

Gəl yanaşı duraq, ey əhli dindar,
Şəriət elmindən eylə xəbərdar.
Mən qələm götürüm, sən də quranı,
Tanrı gözəlliyi görək kimdə var.

*****

Qabaqda sirat var, biliynən onsuz,
Keçənlər keçəcək dövlətsiz -varsız.
Səni çəkəcəklər sorğu-suala,
Mən isə keçəcəm sorğu-sualsız.

*****

Biz buğda dənəsi, dünya dəyirman,
Işləyir, üyüdür durmayır bir an.
Əgər üyüdübsə Adəmi, Nuhu,
Sən kimsən, nəçisən, söylə- ey insan.

*****

Dilim, nə dediyni anlasan, əgər-
Şirin sözlərindən gül-çiçək bitər.
Acı dil zəhərli ilan kimidir,
Şirin dil nə bəla, nə ziyan çəkər.

*****

Şəraba haramdır demə ey dindar,
Şərabdan görmədim bir dərd, bir azar.
"Maidə" surəsində haram buyrulub,
"Nisa" surəsidən halallığı var.

*****

Bir gözələ baxdım, açıldı ürək,
O da mənə baxdı, çox hürkək-hürkək.
Ürəyim dedi ki, tapdın-buraxma,
Könlümsə dilləndi-tayın döy, əl çək!

*****

Ilanla yoldaşlıq etmə, çalandı,
Nə məsləki düzdü, nədə ki, andı.
Ağına da lənət, qarasına da,
Dişində zəhər var, ilan-ilandı.

*****

Ömürə dedilər, beş gündür, güldüm,
Yəni beş günlüyə dünyaya gəldim?
Dağ kimi kişilər köçüb gedəndə,
Bu sözün hikmətni dərk etdim, bildim.

*****

Bir cavan qocaya baxdı lağ-lağı,
Çünki, tutarlıydı əli-ayağı.
Baxdım o cavana qırx ildən sonra,
Palıd bir əsaydı onun dayağı.

*****

Bir gözəl görmüşdüm, Şirin misallı,
Bir günəş şöləli, bir ay camallı.
Bu yaxından gördüm həmin gözəli,
Üzü qırışlaşıb, pisləşib halı.

*****

Ay ovçu, baxma kı, çox hünərvərsən,
Neçə ki, silah var, ər oğlu-ərsən.
Səni də ovlayan tapılar bir gün,
Əzrayıl əlində ova dönərsən.

*****

Çalış könül yıxma, şad et ey insan,
Ağılda-kamalda olsan da loğman.
Yaxşılar rəhmət, pislərsə lənət
Aparar gedəndə fani dünyadan.

*****

Bir sazın üstündə paslanan, siməm,
O qədər köklə ki, çətin ki dinəm,
Əlimə almışam bir qəm badəsin,
Omar Xəyyam kimdi, baxın mən kiməm!

*****

Alova dönübdür ürəymin dağı,
Yandırır ağzımda dili – dodağı,
Qismətim əlində qəm piyaləsi,
Al iç: - şərab deyil, ağıdır, ağı!

*****

Şeir də şərabdır, içirəm su tək,
Doldurur badəmi vəhy verən mələk,
Islamda haramdır, sənə halaldır,
Söylədi, nuş eylə, al başına çək!

*****

Tələsmə gözəlim, saxla ayağın,
Belə qalmayacaq hüsnü – çırağın,
Hamsı əmanətdir, itib gedəcək,
Qabaqda gözləyir qocalıq çağın!



# BAYATILAR

# ÇƏLƏNGI



Əzizim, yurda sarı,
Yol gedir yurda sarı.
Əcəl məni aparsa,
Aparın yurda sarı.
******

Əzizim, güləndə çək,
Güləni, güləndə çək,
Bikefəm, hələ çəkmə,
Şəklimi güləndə çək.
******
Əzizim, güləmmərəm,
Kefsizəm, güləmmərəm,
Sən gülsən, dünyam gülər,
Gülməsən, güləmmərəm.
******
Əzizimdə tər sinə,
Büllur buxaq, tər sinə.
Bəxt yazan, əlin sınsın,
Niyə yazdın tərsinə?
******
Əzizim, göy çəməndən,
Dər gülü göy çəməndən.
Nə mən səndən dönənəm,
Nə bülbül göy çəməndən.
******
Əzizinəm, nə çarə,
Yazılana nə çarə?
Qədər-tale alında,
Nə əlac gəz, nə çarə.
******
Əzizinəm, Lalə sən,
Süsən - sünbül, laləsən.
Təbib əlac tapmadı,
Dil öyrətdin lala sən.
******
Əzizim, nə şirindi,
Şəkər-baldan şirindi.
Ayıl, a Fərhad canım,
Bü gəzdiyin Şirindi.
******
Əzizim, yar canımı,
Parala, yar canımı.

Bir yandan fələk alır,
Bir yandan yar canımı.
******
Əzizinəm, cananı,
Can axtarar cananı.

Xəstə şəfa hayında,
Əzrail da can anı.
******
Əzizinəm, yaxan sən,
Yandıran sən, yaxan sən.
Mən könüllər tikənəm,
Uçuran sən, yıxan sən.
******
Əzizinəm, ağalar,
Gəlib-gedib ağalar.
Nə Süleyman əyləşib,
Nə də ağır ağalar.
******
Əzizim, Minaya gəzdim,
Dildə min ayə gəzdim.
Məcnun Leyli soruşdu,
Mən də, Minayə gəzdim.
******
Əzizim şəfa səndə,
Dərd, əlac, şəfa səndə.
Yanıram od - ocaqsız,
Yoxdumu şəfa səndə?
******
Əzizim, yenə səni,
Gəl görüm yenə səni,
Gəldim görüş yerinə,
Görmədim yenə səni.
******
Əzizim, gülşən gəzər,
Gül gəzər, gülşən gəzər.
Bayquş viranəliyi,
Bülbüllər gülşən gəzər.
******
Əzizim, oxu məndən,
Yazıram, oxu məndən.
Atıbsan, sinəmdədi,
Gəl çıxart oxu, mənnən.

******
Mən aşiqəm o dilə,
O dodağa, o dilə,
Mən yazığa od vurub,
Oynayırsan od ilə!

******

Yasəməni....
Laləsən, ya səməni,
Verdilər özgəsinə,
Saldılar yasa məni.

******

Ağlağana....
Qar yağdı Ağlağana,
Bilməzdim ağlamağı,
Döndərdin ağlağana.

******

Yar canımı...
Parala, yar canımı,
Bir yandan fələk alır,
Bir yandan yar canımı.

******

Yarı gəz,
Taleyindən yarı, gəz,
Qaraqabaq könül açmaz,
Könül açan yarı gəz.

******

Yarı dan,
Yarı zülmət, yarı dan,
Yar dedim, yar axtardım,
Ömür keçdi yarıdan.

******

Yar aşanı….
Aşmışam yar aşanı.
Fələk əlimdən aldı,
Ömrümə yaraşanı.

******

Yar da məni,
Yar gördü harda məni.
Saç – saqqalım ağarıb,
Tanımır yar da məni.

******

Oda mənə….
Kəc baxır o da mənə,
Onun alovu neylər?
Köz yeyib, od əmənə.

******
Əzizim dözəmmirəm…
Dərd ağır dözəmmirəm,
Səbr verdin, - çox sağ ol,
Mən dərdə dözəmmirəm.
******
Yar məni….
Yarsan, özün yar məni,
Görəndə tanımadı,
Dərviş bildi yar məni.
******
Zəhrimardı,
Ağıdı, zəhrimardı,
Əlindəki bal - şəkər,
Dilin ki, zəhrimardı.
******
Göz gözəl,
Qaşlar incə, göz gözəl,
O qədər gözəlsən ki,
Baxsa, döymaz göz, gözəl.
******
Gözdən qoru…
Gəl götür, gözdən qoru,
Aman, gözəl özünü,
Bədnəzər, gözdən qoru.
******
Türkə çəkər,
Türk oğlu Türkə çəkər,
Ruhum Təbriz dolaşır,
Qanımsa Türkə çəkər!



# MÜXƏMMƏSLƏR ÇƏLƏNGI



**DOQDƏYMƏZ MÜXƏMMƏS**

Səni qana yar dediyin, eşq adlı dəryanı qıya,
Çağıranda gələ çata, istəsən hər yanı qıya!

Istəyini sənə sala, şəninə al qanı qıya!
Dağıda hicran, kədəri, yaylağı, aranı qıya!
Deyələr "əhsən" qadası, şirinlikdə şanı qıya!

Eşqi dağdan-dağı aşa, səsləsən qənşərə gələ!
Sığal çəkə hilal qaşa, gecədən səhərə gələ!
Yaraşıqda tək yarana, dərdə qıla çarə gələ!
Işarədən qana səni, kaş anlaya hara gələ!
Nə yandıra, nə də yaxa, sinəni, yaxanı qıya!

Yaşına yaş calaya, şən keçə ayların, ilin.
Ətirli çiçək tək aça, ləçəyində gəzə əlin.
Yar eşqinə sadiq qala, dəyərli keçə illərin.
Dərdi əzə, kanar ata, yad eyliyə nəsillərin.
Həcər təki, Nigar təki, dar ayaqda canı qıya!

Həyata hər gələn insan, qalan deyil gələr-gedər!
Incəliyi, qəşəngliyi hansı şair yazar hədər?
Neyləsin eşqə alışan, can-canı çəkirsə əgər?
Salmanı şair eylədi, haqdan gələn yazı-qədər,
Eşqlə əkiz yaranan, eşqə adı - sanı qıya!

**01.11.98.**



**DODOQDƏYMƏZ MÜXƏMMƏS**

Nə qəşəngdir yaradanın
Yaratdığı qara gəlin.
Zil qara siyah tellərin

Çəkir yenə dara, gəlin.
Sən yaylağın laləsisən,
Dəyər sənə xar, a gəlin.
Şairi dindən eylədin,
Indi eylə çarə gəlin.

Eşq ilə əkiz yarandın,
Xəlq eylədi ana səni.
Rast gələnlər həsrət qalır,
Gəzir yana-yana səni.
Yanaqların qan axtarır,
Çəkər, salar qana səni.
Cığalı Tərlan tayısan,
Tanrı yazdı sara, gəlin!

Nə qəşəngdir sinə, gərdən,
Al yanaq qaşa yaraşır.
Naz edirsən hərdən-hərdən,
Naz-ədan yaşa yaraşır.
Sənin çılğın eşq-istəyin
Şair tək yara yaraşır.
Salmanı nəzərdə saxla,
Əlindədir çarə gəlin!

**25.02.2000**



**MÜXƏMMƏS**

Bel bağlama, bu dünyaya,
Suleyman meydanıdı - bu.
Gələni saxlamaz - əkər,

Fanidi – hədyanıdı bu.
Nə olsun çoxdur var - halı,
Heç kəsə verməz - saxlayar.
Kimiyə zindana dönüb,
Kimə, kərəm kanıdı - bu.

Ay ariflər fikir verin,
Dədəmiz - babamız hanı?
Kim saxlayıb əllərində
Deyin bu fani dünyanı?
Gədaları ağa etdi,
Qul etdi sultanı - xanı.
Nahaq qan üstə quruldu,
Cəhənnəm tufanıdı - bu.

Şair Salman köçər, gedər,
Sözü qalar söz yazanın.
Könlünü ala bilmədi
Nə şairin, nə ozanın.
Insan oğlu dərk elə, qan,
Qonağıyıq bu dünyanın.
Kimini dindirdim - dedi,
Lap əzəldən fanidi - bu.

**30.11.2003**



**GƏLIN**

Bərəkallah camalına, ay dodağı püstə gəlin.
Inan ki, boyunu görən gedib olar xəstə gəlin.
Bənzəyirsən qızıl gülə, əndamın bir dəstə gəlin.
Könlün tutana hazıram, nə istəsən, istə gəlin.

Qüdrətim çəkib qaşını, sifətin aya oxşuyur.
Gözlərin canlar alandı, mavi dəryaya oxşuyur.
Danışığın, bu qəhqəhən, bir daşqın çaya oxşuyur.
Incitməynən ayaqlarnı, gəl gəz sinəm üstə gəlin.

Yenə zülfünü dağıdıb, gəl mənə divan eləmə.
Bəsti burax qəmzə - nazı, ürəymi al-qan eləmə.
Alma canım ay qadası, məni beyiman eləmə.
Öldürmə şövq əhliyəm, özgə bir şey istə gəlin.

Mən şairəm, gücüm çatır, biliynən tərifə-sözə,
Incitmə məni sən allah, tutar səni qəhri-qəza.
At getsin bu sərtliyi, bir gəl nəzər yetir bizə.
Salmanam yaman möhtacam, sənin kimi dosta gəlin.

**ZƏRXANIM**

Çoxdan səni görməmişdim,
Nə göyçəksən, ay Zərxanım.
Çox maşallah camalına,
Bir mələksən ay, Zərxanım.
Gördüm, könlüm havalandı,
Mindim ilham səməndinə,
Şövq əhlinin xoşu gələn,
Gül - çiçəksən ay, Zərxanım.

On dörd gecəlik ay kimi
Al yanağın, üzün gözəl.
Allah səni xoş yaradıb,
Ədan gözəl, nazın gözəl.
Səni görən havalanar,
Min gözəldən özün gözəl.

Dodaq şəkər, dil də şirin,
Bal-pətəksən, ay Zərxanım.

Mən bunu dəqiq bilirəm,
Sən də bəxtdən gileylisən.

Taleyindən yarımayan
Ya Şirinsən, ya Leylisən.
Salman sənə qula dönər,
Sən yanında qul eyləsən.
Şair səndən inciyərmi?
Dara çəksən ay, Zərxanım.

**1.01.2004.**

**AY MARALIM**

***Bir Borçalı gözəlinə***

Borçalıda çoxdu gözəl,
Yoxdu tayın, ay maralım!
And içirlər başına
Yeznə-qayın, ay maralım!
Sən nurusan, şöləsisən,
Bir tayfanın, ay maralım!
Şairi valeh eylədi
Şirin dilin, ay maralım!

Ürəyimdən qanlar axır
Sınıq görsəm gözəlləri.
Bəzən nadan tora salır
Canlar alan bir dilbəri.
Yaxşılar yamana düşür,
Budur fələyin qədəri.
Görüm tutsun dilbilməzi,
Ah-bavalın, ay maralım!

Arzum budur bar verəsən,
Öz baxçanın barı ola.
Qədir bilən, can söyləyən,
Bir vəfalı yarın ola.
Bənzərin var ayparıya,
Açıq rüzigarın ola.
Salmanı valeh eylədi
Məhcamalın, ay maralım!

**DÜNYA**

Sənnən aram düzələrmi?
Çox fanisən, fani dünya.

Əzabın saya gəlməyir,
Kəsmirsən divanı dünya.
Yox eylədin Məshətini,
Heyran, Natəvanı, dünya.
Bir-birindən ayrı saldın
Çox canı, cananı dünya.

Bir çox ağır pəhlivanı,
Zülm ilə atdan endirdin.
Sönən ocağı qaladın,
Yanan ocağı söndürdün.
Mənəm-mənəm deyənləri
Ilan kimi süründürdün.
Taxtını tarac eylədin,
Yedin Suleymanı dünya.

Vaqif hanı, Vurğun hanı,
Neylədin Növrəst Imanı?
Qürurundan sən endirdin
Şair Nəbi, Ağacanı.
Göstər görüm xan Əmrahı,
Saraclını, Kamandarı.
Indi də oda salıbsan,
Mən Qazi Salmanı dünya.

**03.08.2001**



**ŞAXI BACI**

***Həmi qonşum, həmi el qızım, xətrini dünyalar qədər istədiyəi Şaxı bacıma, Mustafa müəllim sevgisi qədər Salman Qazidən***



Günəşliyə günəş doğdu,
Sən gələndə Şaxı bacı.
Bildim, bizim elqızısan,
Şellənəndə Şaxı bacı.
Ürək cavan, könül cavan,
Təravətnə qurban olum.
Ətirin dağlar ətridi,
Əməlində Şaxı bacı.

Sağ olsun oğlanların
Tofiq ilə Fəxrəddini.
Allahım uca saxlasın
Gülər üzlü Nürəddini .
Hər üçü səni qoruyub,
Şux saxlayıblar qəddini.
Nə istəsən gətiriblər
Əllərində Şaxı bacı.

Yasin ilə Rövşənin
Aramıza körpü saldı.
Babalarının ətrini
Günəşlidə mənnən aldı.
Nəvələr də şirin olar,
Bizim üçün şəkər - baldı.
Salman - Salman baba - bitdi
Dillərində Şaxı bacı.



Baxanda könlüm köyrəlir,
O ağarmış tellərinə.
Çox maşallah bənzəyirsən
Biz tərəfin güllərinə.
Yüz qız ola, yüz də gəlin
Su tökəmməz əllərinə.
Dahanından bal tökülür
Dillənəndə Şaxı bacı.
Bir - birmizə öyrəşmişik,
Doğma qardaş – bacı qədər.
Xətrini çox istəyirəm
Öz başımın tacı qədər.

Qıymaram xətər toxuna
Bir iynənin ucu qədər.
Salmanın könlü açılır
Hər görəndə Şaxı bacı.

**5.07.2007**

**ILMƏZLI**

***(anadan olduğum kəndə)***

Mən qürbətdə, sən əlçatmaz,
Boğur fərağın Ilməzli.
Əlləşirəm, əlim çatmır,
Sinəmdə dağın Ilməzli.
Fələk pəl vurdu, pozuldu
Kefin-damağın Ilməzli.
Dağıldı elin-oban,
Ağır yığnağın Ilməzli.

Bir yanın Seyid təpəsi,
Bir yanın Şifahanlı düzü.
Yaz ayları düzənliyin
Xatırladardı dənizi.
Götürərdi çöllərini
Ilxı, naxır, qoyun-quzu.
Çox ellərin köç yeriydi
Sənin yaylağın Ilməzli.



Axışıb gələrdi hər yan,
Qarayazıynan, Borçalı.
Hər tərəfin and yeriydi,
Övlüya babam Haşqalı.
Bir tərəfində Qaraxaç,
Bir tərəfində Axçalı.
Binə idi, çadır idi
Başın-ayağın Ilməzli.

Sağ olsun Aşıq Əşrəfi,
Yaralarma düzdü közü.
Özü tərif edib, deyib,
Dadlı-duzlu şirin sözü.

Gəldim gördüm ot basıbdı
Gəzdiyimiz yolu-izi.
Kəsilibdir Borçalıdan
Əlin-ayağın Ilməzli.

Çox daşınıbdı arana
Sap-sarı yağın, motalın.
Min dərdlərə dərman idi
Şanasında arı balın.
Sən çağırsan, mən gələrəm
Yüyrə-yüyrə, ayağı yalın.
Heç nə lazım döy, bəsimdi
Qatıq-qaymağın Ilməzli.



Adımdı Salman Qazi,
Təmirlərdəndi əsilim.
Sənə qurban lazımdırsa,
Gəl apar, qurban kəsilim.
Göz açdığım, su içdiyim,
Ana yurdum, doğma elim.
Çağır, olum bircə günü
Sənin qonağın Ilməzli.

**09. 07.1996.**

**SƏMƏD QAĞA**

***Ağsaqqal dostum, həmkəndlim***
***Şəmilov Səmədə həsr edirəm.***

Hər ikimiz Ilməzliyik,
O dağlardan, Səməd qağa.
Saflıq, təmizlik gətirdik
Yaylaqlardan Səməd qağa.
Sən söz sevən, mən söz yazan,
Bir elin şair oğluyam.
Ilhamımı götürmüşəm
Bulaqlardan Səməd qağa.

Səndəki sadəlik, saflıq
Mərd oğula qismət olar.
Yaxşı oğul baş tacıdır,
O oğula hörmət olar.

El – oba mərdə söykənsə,
Orda mərfət – hörmət olar.
Bu comardlıq keçib sənə
Babalardan, Səməd qağa!

Sağ olsun Vəzuhə xanım,
Ömür – günün yoldaşıdır.
Sən tək bəyin yaraşığı,
Dar gününün sirdaşıdır.
Çox çeşiddə gözəl gördüm,
Billah gözəllər başıdır.
Bəzənsə seçmək olarmı,
Durnalardan, Səməd qağa!

Harda görsəm fəxr eyliyib,
Hörmətini saxlayıram.
Arabir də zəng edirəm,
Kef – halını yoxlayıram.
Şəhər yeri kənd yeri döy,
Görməyəndə darıxıram.
Allah bizi uzaq tutsun
Bəlalardan Səməd qağa!

Şair Salman söz sərrafı,
Həmi molla, həmi aşıq,
Sən Ilməzli, mən Ilməzli,
Həmi dostuq, həm sirdaşıq.
Doğma elə - obamıza,
Sən yaraşıq, mən yaraşıq.
Vüqar, qeyrət götürmüşük,
Qartallardan Səməd qağa!

**28.04.2010.**

## TUTDU, NƏ TUTDU

Zamanmı bəd gəldi, ya taleyimmi?
Fələk gözlərimi tutdu, nə tutdu!

Ha çalışdım dərd əlindən qurtarım,
Ikiəlli yaxamdan tutdu, nə tutdu!

Çox yemişəm qəm – qüssəni nə qədər,
Düzəlmədi nə qismətim, nə qədər.
Aman Allah, bu yazdığın nə qədər?
Əlimi, ayağmı tutdu, nə tutdu!

Salman bəxtin düzəlmir ki, düzəlmir,
Günün – ayın düz gəlmir ki, düz gəlmir,
Qismətimə əyri çıxır, düz gəlmir,
Bəxtim mənə divan tutdu, nə tutdu!

**13. 03. 2010**

## GƏLIR - GƏLIR

Nə illah edirəm işim düzəlmir,
Illərim illərdən nəs gəlir, gəlir!
Axı neyləmişəm çərxi – fələyə?
Arası mənimlə pis gəlir, gəlir!

Sinəmə çəkibdi çal – çarpaz dağı,
Saralır ömrümün bağçası - bağı,
Necə bulanıbsa könlüm bulağı,
Heç durulmur suyu, pas gəlir, gəlir!

Bir yandan gədalar çoxalıb yaman,
Oturub – durana vermirlər aman,
Qanmaza kar etməz nə din, nə Quran,
Onunku şeytanla xas gəlir, gəlir!

Ağlını küləyə, ayaza verən,
Meylini özü tək dayaza verən,
Mənlik, mərfətini güdaza verən,
Durub Salman ilə bəs gəlir, gəlir!

**6. 04. 2010**



# BULANLIQ SULAR
# AXA – AXA DURULAR

## SƏNƏDLI POVEST

Mən onunla tanış olanda onun 85 yaşı olardı. Yaşına baxmayaraq çox çevik və cəld bir adam idi. Mən bağa enən kimi gələrdi, oturardıq. Bir-birimizə quşumuz qonmuşdu. Demək olardı ki, bir yerli idik. Qazaxla Borçalının arasında nə varıydı ki? Bir də ki, aranlı - dağlı Borçalının camaatının çoxu Qazaxdan gəlmə idilər. Elə bizi bir-birimizə bağlayan bu tellər idi. Mənim ana nənə – babam Qazağın ikinci Şıxlı kəndindən olduğunu ona söyləmişdim. Kişi bunları biləndən sonra mənə hörməti və ehtiramı çoxalmışdı. Mənim şairliyimdən də xəbəri var idi. Televizordan, radiodan eşidib, bilmişdi. Ancaq söz - söhbəti bu günkü gün - güzaranmızdan olardı. Qoca dostumun adı Qurban kişi idi. Uzun illər prokurorluq orqanlarında çalışmışdı. O səbəbdən hamı ona «prokuror Qurban» deyərdi. Qurban dayı mənim hüquq - mühafizə orqanlarında işlədiyimi və oradan təqaüdə çıxdığımı bilirdi. Bizim dostluğumuzun bir səbəbi də bu idi. O, mehriban-mehriban mənə «şairim», mən isə ona «prokuror dayım» deyərdim. Bir gün yenə bağda oturub nərd oynayırdıq. Birdən bir hay-küy qopdu ki, gəl görəsən. Bağın o biri tərəfində iki cavan oğlan ələbəyaxa olmuşdu. Ətrafda olan camaat isə bivec-bivec onlara baxır, sanki sirkə və ya kinoya baxırdılar. Mən dözə bilməyib, oyunu yarımçıq buraxaraq bağçanın çəpərindən bayıra tullandım. Bu «tamaşaçılara» ağzımdan çıxan nalayiq sözləri dedim. Çünki, bu davaya laqeyd olmaqları məni hövsələdən çıxartmışdı. Dərhal cavanların arasına keçib hərəsinə tərs bir şillə çəkdim və əllərindən tutub bağa gətirdim. Əl-üzlərini yudurdub, barışdırdım və hər ikisini möhkəm danladım. Deyəsən mənim bu hərəkətim prokuror Qurbanın ürəyincə oldu. Qaynar samavardan hərəmizə bir stəkan çay süzüb oyunmuzu davam eyləməyi təklif etdim. O, stəkanı qarşısına qoyub dərin bir xəyala getmişdi. Kim bilsin kişinin xəyalı harada idi? Sakitcə nərd oynunu yarımçıq qoyub, nərdtaxtanı bağladı, sağ əlini üzünə qoyub, mənə öz ömrünün bəlkə indiyənəcən heç kimə danışmadığı bir tarixini danışdı.

*****

Sovet höküməti yenicə qurulmuşdu. Bu hökümətin qurulmasında o vaxtlar qaçaqlıq-quldurluq etmiş adamlar

əllərindən gələni edirdilər. Onların çoxu ağaları, bəyləri gözü götürməyən paxıl və xain insanlar idi. Insafən desək ağalar və bəylərin çoxu öz əllərinin əməyi ilə və atalarından qalan miras hesabına varlanmışdılar. Müsəlmanın qaydasıdır oğul, paxıllıq və gözügötürməzlik. Şura hökuməti isə bəyləri bəylikdən saldı, varlını yoxsula döndərdi. Az-çox savadım olduğuna görə məni rayon firqə təşkilatından prokrorluq sisteminə oxumağa göndərdilər. Əzəllər getmək istəmirdim, sonra fikirləşdim ki, gedim oxuyum, millətə az-çox köməyim dəyər. Onu deyim ki, elə bil mənə əyan olmuşdu ki, bizim milləti qarşıda bir qasırğa gözləyir. Bu qasırğa isə millətin faciəsindən xəbər verirdi. Çünki bu Şura hökümətinin qurulmasında narazı və razı olanlar çox idi. Şura hökümətinin qurulmasında canfəşanlıq edənlər, suyu bulandırır, ana-bacı tanımırdılar. Nəysə…

1932–ci ildə məni dağ rayonlarının birinə prokuror göndərdilər. O vaxtlar 1931-ci ildə başlanmış kollektivçilik (kolxozlaşma) hələ başa çatmamışdı. Var-dövlətini əlindən vermək istəməyən bəylər -ağalar birləşib dəstələr yaradıb, hökumətə qarşı açıq-aydın silahlı üsyana qalıxmışdılar. Camaatın çox hissəsi onların tərəfində idi. Ərzaqla, silahla onları təmin edirdilər, yeri gələndə isə əli silahlı onlarla qoşulub, çiyin-çiyinə ruslara və yerli rusyönlü adamlarla vuruşurdular. Ruslar və onların əlaltıları əməlli-başlı qan içənə dönmüşdülər. NKVD-nin rəisləri çoxu qeyri millətlərdən olanlar idi. Onlar isə qoca-cavana, arvad-uşağa məhəl qoymayırdılar. Sürgünlərin ardı-arası kəsilmirdi. Ölən-itənin sayı-hesabı yox idi. Beləcə Şura hökuməti öz mövqeyini bərkidirdi.

Günlərin birində, iş kabinetimdə işləyirdim. Milis rəisi mənə məlumat verdi ki, rayonun aktivlərindən birini öldürüblər. Qatili isə həbs eyləmişik. Göstəriş verdim ki, dərhal yanıma gətirin. Gətirdilər. Baxanda gördüm ki, on beş-on altı yaşı yenicə olar-olmaz bir oğlandır. Axı bu uşaq adam öldürüb, insan qatili ola bilərdimi? Nəysə… dindirməyə başladım. Bu cavan oğlan qəti etiraz etdi ki, mənim bu işdən xəbərim yoxdu! Ancaq yığılan dəlillər və subutlar bu uşağın əleyhinə idi. Çox çək-çevirdən sonra bu tutulan uşağı milis idarəsinə göndərdim, apardılar. Bu uşağın törətdiyi hadisə rayonda böyük səs-küyə səbəb olmuşdu. Ölənə camaat nəhlət oxuyurdu, heç kim rəhmət sözü demirdi. Bu

da məndə böyük bir marağa səbəb olmuşdu. Deməli öldürülən adam təmiz adama oxşamırdı. Yuxarlar isə məndən bu işin nəticəsini istəyirdilər. Ancaq fakt faktlığında qalırdı. Uşaq boynuna heç nə almırdı. Bu hadisədən on-on beş gün keçmişdi. Milis idarəsinə və istintaq şöbəsinə əlavə göstərişlər verdim ki, işi yaxşı və düzgün araşdırsınlar. Özüm də bu işin üstünə dərindən düşmüşdüm. Öldürülən adam Şura hökümətinin qurulmasında fəallardan biri imiş. Bu isə yuxarıları daha çox narahat edirdi. Mən isə tutulan uşağı ölümün ağzına verə bilməzdim.

Birincisi - o, bu işdə əlinin olmadığını deyir, hadisəni inkar edirdi.

Ikincisi - tutarlı dəlillər və subutlar yox idi.

Şahidlik edənlərin ikisi isə bu öldürülən adamın qardaş-ları idi. Bu isə məhkəmə üçün kifayət etmirdi.

Axşamdan xeyli keçmişdi. Qaranlıq qarışmış, küçədən əl-ayaq yavaş-yavaş çəkilirdi. Qapım döyüldü. Buyurun, dedim. Içəri qara paltarda, otuz beş - qırx yaş arasında bir qadın daxil oldu. Salam verdi. Salamlaşdıq, oturmaq üçün yer göstərdim. Razılıq edib əyləşdi. Özünü təqdim etdi. Mənim adım Gülsənəmdir. Tutulan uşağın anasıyam - dedi və ağladı. Sakitləşdirdim. Bir az susub danışmağa başladı.

- Ay prokuror qardaş, tutulan uşaq mənim oğlumdur. On altı yaşı yenicə oldu. Ölən adamı da mən öldürtdürmüşəm. Niyəsini və səbəbini soruşanda əhvalatı olduğu kimi danışmağa başladı.

*****

- Mən cavan olanda bu rayon balanca bir rayon idi. Bir oğlanla (rəhmətlik ərimlə, oğlumun atası ilə) ailə qurduq. Təmiz əməyimizlə, alın tərimizlə dolanmağa başladıq. Ərimin camaatın arasında nüfüzü böyüdükcə, sevincimdən quş kimi qanad açmağım gəlirdi. O, heç bir kəsin xatirinə dəyməzdi, köməksizlərə kömək edərdi, iş - güclərinə yarayardı. Haqsız adamlarla isə arası olmazdı. Ələlxüsus da bu rayonda yaşayan üç qardaş var idi. Əmirxan, Mehdixan, Teymurxan. (onlardan birini - Teymurxanı oğlum öldürdü) Bu üç qardaş camaatın gün - güzaranını ağıya döndərmişdi. Yetənə yetir, yetməyənə qara daş

atırdılar. Mənim ərimi isə heç görən gözləri yox idi. Şura hökumətinin isə səs-sorağı yeni-yeni yayılırdı. Bir gün qarğıdalı tarlamızda işləyirdik. Ərim kərənti - zindanının arxasınca getdi. Evimiz çox da uzaq deyildi. Yüz-yüz əlli metr idi. Bu yerdə Teymurxan haradansa yanımda peyda oldu. Məni dilə tutmağa başladı ki, ərindən boşan. Səni mən sevirəm, evlənək. Boşanmasan, səni ərinin altından zorla aparacam. Mən isə onun üzünə möhkəm tüpürdüm və əlimdəki orağı az qaldım ki, boğazına çəkəm. O, mənə hədə-qorxu gələrək rədd oldu.(hədə-qorxusu isə ərimi öldürəcəkləri ilə hədələdilər) Mən bu sirri ərimə demədim, pünhanca saxlayıb, allaha pənah apardım, allaha təvəkkül dedim. Məni bağışlayın, mən onda bu oğluma hamilə idim. Qoruxdum ki, ərimə deyəm, o da bir xata çıxarda. Nəsə…

Ana olmağa hazırlaşırdım. Bir gün xəbər gəldi ki, ərim Eyvazı su kanalının içində öldürülmüş tapıblar. Mənə hər şey məlum idi. Sonralar bu hadisəni görənlər təsdiqlədilər ki, bu üç qardaşın üçünə də Eyvaz dov gəlirmiş. Teymurxan arxadan Eyvazın başına iti bel ilə vurub öldürmüşdü. Görən adam isə qorxaraq heç kəsə demirdi. Onda dövlət, qayda - qanun nə gəzirdi. Bu sözləri mən eşidəndə oğlumun bir yaşı olardı. Onda bildim ki, fikrimdə yanılmamışam. Eyvazı dəfn eyləyən gündən mən and içmişdim ki, bu qanı yerdə qoymayacağam.

Bir - iki il keçmişdi bu hadisədən, Teymurxan mənə elçilər saldı və mən ona rədd cavabı və söyüşlər göndərirdim. Sonralar bu qardaşlar mənim ünvanıma olar - olmaz, dedi - qodu yaratdılar, məni rüsvay eyləmək, bir pozğun küçə qadını kimi qələmə vermək istəyirdilər. Lakin sağ olsun qədir bilən insanlar. Məni və mənim yetim körpəmi daima öz qanadları altında saxlayıb, qorudular. Oğlum Vüqar böyüdükcə mənim də həyacanım çoxalırdı. Çünki verdiyim vədin, içdiyim andın vaxtı yaxınlaşırdı. Nəhayət mən qisasımı aldım. Indi isə sizin insanlığınıza arxalanıram. Alın, bu da məndən - deyərək əlini örpəyinin altına salıb qara bir torba çıxartdı.

- Burada on dənə Iranın çervon qızıl onluqlarıdır, saf qızıllardır, dedi və mənim iş masamın üstünə qoydu. Geri çəkilərək: - Ay prokuror qardaş, əgər mənim oğlum tutulsa sizi də güllələcəyəm, özümü də dedi və əlində tutduğu yağlı naqan

tapançası ilə məni hədələdi və cəld otağımı tərk eylədi. Elə bil yerimdə qıfıllanmışdım. Həyacanımdan əllərim əsirdi. Qadının zəhmi məni basmışdı, özümü itirmişdim. Qara torbanı seyfi açıb, seyfin içinə qoydum. Allaha təvəkkül deyib, olduğum evə tərəf yola düşdüm. Subay oğlan idim deyə evə tələsimirdim. Qadının tapançası isə mənim vicdanıma tuşlanmışdı.

*****

Qadınla mənim aramda olan söhbətdən bir - iki gün keçmşdi. Mən qanun keşikçisi olsam da, qadının ağlaya - ağlaya söylədikləri qulaqlarımda əks - səda verirdi. Elə bil bu üç nəfər qardaşın sataşdıqları mənim bacım idi. Ürəyimdə onlara qarşı bir nifrət oyanmışdı. Qadına gəldikdə isə onu yaxalatmağa nə var idi ki? Deməli, qadın məni öz pənahı bilib, mənə olanları danışmışdı. Mən də öz növbəmdə etibar etdiyim bir - iki ağsaqqalları yanıma dəvət etdim. Olanlarıdan - keçənlərdən söhbət etdilər və söhbət əsnasında bu tutulan uşaq haqqında mən onlara bir – neçə sual verdim. Qadın mənə hər bir şeyi düz danışıbmış. Bu ağsaqqallar da bu üç qardaşın əllərindən dad çəkirdi ki, allah onlara lənət etsin, kökləri kəsilsin! Bu köpək uşaqları çox evləri dağıdıb, viran qoydular. Neçə - neçə namuslu adamları ya güllələtdilər, ya da sürgün etdirdilər. Daha mənə hər şey məlum idi.

*****

Milis idarəsinə telefon edib tutulan uşağı yanıma göndərməyi göstəriş verdim. Bir azdan uşağı əlləri qandallı yanıma gətirdilər. Gətirən kanvoy qandalları açıb, bayırda, qapının arxasında mənim göstərişimi gözlədi. Gecədən xeyli keçmişdi. Tutulan uşağın adı Vüqar idi. Bu ad həmi cinayət işində var idi, həmi də anası Gülsənəm mənə demişdi. Seyfimi açıb, bu qara torbanı ona göstərdim, tanıyırsanmı dedim?

- Bəli, anamındır, içində isə on dənə qızıl onluq olmalıdır.
- Bəs onda niyə günahını boynuna almırsan?
- Mənim heç nədən xəbərim yoxdur!
- Axı, ay Vüqar, anan mənə hər şeyi açıb, danışıb. Sən isə düzünü demirsən!
- Ola bilməz, mənim heç bir günahım yoxdur!

Bu uşağın diri - diri danışmağı məni valeh etmişdi.

- Onlardan birisini yenə ölürə bilərsənmi?
Oğlan qəflətən kükrədi.
- Iyrimi dəqiqə vaxt verərsinizmi? Bu saat, onun o biri qardaşı sizin idarədən bir az aralıda olan qartof anbarında gözətçidir!
- Get, dedim. Fikirləşdim ki, gəlməsə mürəkkəbi, qələmi, kağızları dağıdacam, hay salacam ki, qaçdı. Onsuz da qanun mənim əlimdə, mənim tərəfimdə idi. Bir quş cəldliyi ilə uşaq ikinci mərtəbədə olan otağımın pəncərəsinə bitişik olan ağaca tullandı və ağacdan qaranlıqda yoxa çıxdı. Iyrimi dəqiqə mənim üçün aya - ilə döndü. Kaş uşağa bir şey olmayaydı. Böyük bir riskə getmişdim. Saatın əqrəbindən elə bil daş asılmışdı. Vaxtdan iyrimi beş dəqiqədən çox keçirdi. Fikirləşdiyim plana əl atmaq istəyirdim ki, uşaq içəri tullandı. Tərin - suyun içində idi. Oturdu, əlləri əsirdi.
- Əmirxanı öldürdüm. Anbarın yanında mürgü vururdu. Kərənti ilə boğazını kəsmişəm. Ölməmiş yanından aralanmadım. O, öləndən sonra meyidi buraxıb gəldim. Bir az oturdu, özünə gəldi,təri soyuduqdan sonra kanvoylara tapşırdım ki, aparsınlar. Bu qatil uşaqla mən artıq bir sırada idim. Uşaq kabinetimdən çıxanda, dönüb mənə minnatdarlıqla baxdı. Mən isə onun gözlərində bir qisasın alov şöləsini gördüm. Ikimiz də bir - birimizdən razı halda ayrıldıq. Mən evə, o isə dustaqxanaya yola düşdü. Heç idarədən əlli- altımış metr aralanmamışdım ki, dalımca qaça - qaça gələn milis nəfəri: - Yoldaş prokuror, indicə ölüm hadisəsi baş verib. Bu yaxında öldürülən adamın bir qardaşını da boğazlayıblar. Qatil məlum deyil!
- Əşi, onda bu yetim uşaqdan nə istəyirlər? - deyə-deyə, öz - özümə deyindim. Milis rəisini yanıma çağırın, deyib geri, kabinetimə qayıtdım. Otaqlarımın pəncərəsinin birini bağladım, o birisin isə açıq qoydum. Daha dərdim-sərim yox idi. Yuxum gəlmirdi, özümü isə quş kimi yüngül, su kimi təmiz bilirdim.
Yuxarı, ulduzlara baxdım. Tərtəmiz səma səhər günəşli hava olacağından xəbər verirdi. Bir azdan qapım döyüldü. Milis rəisi kabinetimə daxil oldu.
- Yoldaş prokuror, bu son bir ayda iki qətl hadisəsi. Ikisi də eyni ailənin başında çartlayıb. Teymurxanın qətlindən heç bir ay keçməmiş, onun qardaşı Əmirxan qətlə yetirilib!

- Ə, bəs o yetim uşaqdan nə istəyirsiniz? Sübutsuz - dəlilsiz gətirib salıbsınız dama. Mən də sizə qarışıb incidirik günahsız adamları. Hər tərəf qaçaq-quldurlarla dolub. Gündə bir-iki kəndin yenicə yaranmış kolxozlarına hücum edib, apardıqlarını aparır, apara bilmədiklərini isə od verib yandırırlar. Biz onlarla mübarizə aparmaqdansa, düşmüşük yetim-yesirin dalınca. Səhər o uşağı buraxın getsin! Alın, bu da buraxılış sanksiyası! Üzr istəməyi unutmayın! Bir aya yaxındır ki, dustaq eyləmişik!

- Baş üstə, yoldaş prokuror!

- Gedin, meyidi götürün, aparın tibbi yoxlamaya. Qoyun ekspertlər rəy versinlər. Səhər isə mənə məlumat verərsiniz! Indi isə yorulmuşam. Siz də bir az dincəlsəniz yaxşı olar. Gecəniz xeyrə qalsın!

Köynəyimin yaxasını açıb, otağımdakı divanın üstünə uzandım. Gözətçi milis nəfərinə məni narahat etməməyi tapşırdım. Artıq səhərə yaxın idi. Xoruzlar banlaşır, itlərin ara-sıra səsləri gəlirdi.

*****

Səhər işə gələndə yolumu dünənki hadisə yerindən saldım. Orada xeyli adam var idi. Bu ölüm hadisəsini isə hərə bir cürə yozurdu. Ay oğul, ancaq onu deyim ki, bura toplaşan camaatın əksəriyyəti öldürülən adama, yəni Əmirxana söyürdülər ki, kaş irəlidən öləydi bu vayıs oğlu, vayıs. Axır ki, gorbagor camaatın qarğışına tuş gəldi. Heyif ki, o biri hələ sağdır. Mən isə qanunun əleyhinə getdiyimə görə özümü qınamırdım. Camaatın dediklərinə qulaq asdıqdan sonra qəti qərar verdim - düz eləmişəm!

Iş otağıma gəldim. Qapıda məni milis rəisi, rayonun baş həkimi, mənim müstəndiqim qarşıladı. Məlumatları dinlədim. Milis rəisi məlumat verdi ki, şübhəli şəxs kimi tutulan uşağı buraxdıq və stolumun üstünə qırıq bir kərənti parçası qoydu:

- Yoldaş prokuror, bu kərənti parçası ilə dünən qətl törədilib. Hadisə yerindən özgə bir şey tapılmayıb.

Kərəntiyə baxanda gördüm ki, bu bir növ qəssab bıçağına oxşayır. Bu uşaq bunu haradan tapmışdı? Üryimdə öz-özümə dedim: - **«Qoç quzudan quzu törər, qoç olar», «Nahaq qan yerdə qalmaz, aslanın erkəyi dişisi olmaz».**

Milis rəisinə, müstəntiqə əlavə tapşırıqlar verib,iclası bağladım. Bir iki gündən sonra isə mənə məlumat verdilər ki, üçüncü qardaş Mehdixan gecə ikən ev əşyalarını yığıb başqa rayona qaçıb! Heç qardaşının yeddisini də gözləməyib. Tərtər rayonu tərəfə getdiyini söyləyənlər də oldu.

Bu hadisələrdən bir ay keçmişdi. Ölənləri, öldürülən qaçaqlardan gördülər. Tədricən ara yat-yüt oldu. Bir gün iş otağımda idim. Gözətçi milis qəbulumda bir qadının oturub gözlədiyni dedi. Buraxın gəlsin, dedim. Içəri girəndə dərhal onu tanıdım, Gülsənəm idi. O, artıq qara libasını dəyişmiş, sanki yasdan çıxmışdı. Yaşıl qoftası, qırçınlı, ətəkli donu ona çox yaraşır və yaraşıq verirdi. Salamlaşdı, oturmaq üçün yer göstərdim. Əyləşdi. Mənə ağlaya-ağlaya dərin minnatdar-lığını bildirdi. Sakitləşdirdim. Əlində tutduğu toy dəvətna-məsini mənə uzatdı:

- Ay prokuror qardaş, sizi Vüqarımın toyuna dəvət edirəm. Vaxtınız olsa, mütləq gələrsiniz!

Öz növbəsində məndə söz verdim ki, mütləq gələcəyəm. Sağollaşıb qapıdan çıxanda nəsə unutmuş kimi geri dödü. Əlin salıb donunun yan tərəfindən naqan tapançasını çıxardıb mənə uzatdı.

- Daha bu mənə lazım gəlmir, alın, nə edirsiz edin!

Sonra qəflətən atılıb boynumdan qucaqladı, və hönkürə-hönkürə ağlayaraq məni öpə-öpə dedi: - Allah mənə qardaş nəsib eyləməyib, qardaşım əvəzi olun!

Mən də onun alnından öpüb dedim: - Get bacım, üzün ağ olsun. Tapançanı isə hissələrə sökərək aparıb yaxından axan çaya tulladım.

Məhəllədə şıdırğı toy çalınırdı. Oynayan kim, deyən - gülən kim, hamı şənlik içində idi. Mən toy mağarına çatanda: - “Prokuror da gəldi, prokuror də gəldi” sözləri məclisə yayıldı, elə bil məni gözləyirdilər. Aşıq sinəsi sazlı «sarıtel» oxuya – oxuya:

Duman, gəl get bu dağlardan,
Dağlar təzə bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qübar eyləsin.

Yaşa sevdiciyim yaşa,
Deyilənlər gələr başa,
Bir yandan özün tut daşa,
Bir yandan el xar eyləsin……

mənim qabağıma pişvaza çıxdı. Əlimi cibimə salıb ona şabaş verdim, məclisin başında mənə yer göstərdilər. Razlıq eyləyib əyləşdim. Sağlıqlar sağlığı əvəz edirdi. Kim badə qaldırırdısa mənim sağlığıma içirdi. Düzü bir az da utanmağa başladım. Axı mənim nə yaşım var idi ki? Otuz yeddinci baharımı qarşılamışdım. Mənə məclisin ağsaqqalı kimi baxırdılar. Nəhayət bir çevik oğlan, əllərində qırmızı kəlağay çəkilmiş xonça məclisə girdi, başlandı nəmər yığmağa. Bu nəmər yığma mərasimi və adəti idi. Nəmər verənlərin adı, nəmərinin miqdarı deyilirdi. Məsələn: Filan filankəs on manat, (müxtəlif məbləğlər olurdu) allah ona da xeyir iş qismət etsin. Subayları üçün olsun. Nəmər yığan mənim yanımı gələndə, seyfimdən cibimə qoyduğum qara torbanı qırmızı bir parçaya bağlamışdım. Onu necə var idisə eləcə də xonçaya qoydum. Nəmər yığın isə: - Yoldaş prokrorun nəməri məlum deyil,allah payını çox, ömrünü uzun etsin. Camaat bir ağızdan « AMIN» dedi. Gülsənəm xanım isə sakitcə içəri daxil oldu və torbanı xonçadan götürdü:

- Ay qardaşlar, prokuror qardaşım nə pay verirsə Vüqarım üçün əziz bir paydır. Allah sizdən də razı olsun, mənim prokuror qardaşımdan da!

Mağardan sonra rəqslər başladı. Yorulanacan yaxşı oynadıq, rəqs etdik. Bəy - gəlini oynadanda Gülsənəm xanım da bizə qoşuldu.Çox gözəl rəqs edirdi. Qulağıma pıçıldadı: - Eyvazın ölümündən sonra ilk dəfədir ki, oynayıram. Sizin sayənizdə, sizə görə. Allahın nəzəri üstünüzdə olsun. Bir azdan möhkəm yağış başladı. Nə yaxşı ki, toyun sonu yaxınlaşırdı. Bir az gözlədim. Gülsənəm xanım gətirib çiynimə bir arxalıq asdı. Titrədi bədənim. Geri baxmağa cürət etmədim. Başımla razılıq etdim. Toydan çıxanda gördüm ki, rayonun içindən axan çay daşıb. Bulanlıq sel özünü qayalara çırpa - çırpa, nərildəyə - nərildəyə axır. Öz - özümə: - **Bulanlıq sular axa - axa durular,** dedim!

**Epiloq:** Rayonda daha yeddi il qalıb işlədim. Burada könlümü Sona adlı bir qıza verib onunla ailə həyatı qurdum. Iki

oğlumuz oldu. Indi hər ikisi mənim yolumu davam etdirirlər. Rayonda işlədiyim müddətdə Vüqarın əsl dayısı kimi ona bütün köməkliklərimi etdim. Oxudu, aqranom oldu. Gözəl ailə sahibinə döndü. Rayondan qorxub qaçan Mehdixanı isə Tərtər tərəflərdə ildırım vurub öldürdüyünü bildim.

***Bakı - 2008***



# « RUHANI »

Hər toy olanda onlar qoşa oynayardılar. Heç kəs onlara maneçilik törətməzdi. Əksinə hamı dönüb heyranlıqla onlara baxardı. Sevdikləri isə **«RUHANI »** havası idi. Bir şərtlə ki, qara zurnada ifa oluna. Hansı toylarda olursa olsun, camaat artıq onların sümüyünə düşən bu havanı bilirdi. Onları rəqsə dəvət edənlər də, onların könlündən keçən «Ruhani» havasını çaldırardılar. « Ruhani » saz havası olsa da, bu iki nəfərin bu havaya oynadığı qədər heç kəs belə oynaya bilmirdi.

*****

Mustafa əsgərliyini çəkib gələndən sonra, başqa rayonun ucqar bir kəndindən olan Telli adlı bir qızla ailə həyatı qurdu. Ilk öncə Telli qərib ölkədə qəribsəsə də, allaha təvəkkül deyib bəxtinə - taleyinə baş əydi. Insafən Mustafa da çalışırdı ki, Tellini ovundursun, ona qəribliyini hiss etdirməsin. Ailənin bütün qayğısı Mustafanın və Tellinin boynuna düşürdü. Çünki, Mustafa ailənin böyük oğlu olduğundan geridə azyaşlı qardaşları var idi. Özü də hamısı məktəbə gedirdilər. Onları geyindirib - gecindirmək, yemləyib məktəbə yola salmaq, məktəbdən sonra isə onların gündəlik qayğıları Tellinin üzərinə düşmüşdü.

Mustafanın valideyinlərinə gəldikdə isə onlar qocalıb yaşa dolmuş adamlar idi. Özlərinə zorla baxırdılar. Beləcə illər illəri əvəz edir, Telli bu yad ocağın doğmasına çevrilirdi. Mustafanın bacısı olmadığından ondan kiçik beş qardaş-larının hamısı Telliyə bacı deyə müraciət edərdilər. Telli də onlara bacıları kimi baxırdı.

Mustafanın öz ailəsi də yavaş - yavaş böyüyrdü. Artıq öz körpələri var idi. Mustafa özündən kiçik qardaşını evləndirib ailədən ayrıldı. Hökumətin tikdirdiyi bir binaya yığışdı. Telli ilə çiyin-çiyinə çalışıb gün-güzaranlarını qurmağa başladılar. Artıq onların ailəsində üç oğlan, bir qız böyüyürdü. Kəndin payız toyları başlamışdı. Mustafa və Telli tez - tez kənd toylarına dəvət

olunardı. Ancaq bu toylarda rəqsdən hər ikisi çəkinərdi, oynamazdılar.

Utanardılar. Günlərin birində qonuşu Almazın oğlunun toyu idi. Gəlin-qız, cavanlar, yaşlı-qoca biri-birinə qarışmışdı. Toyçulara istirahət vermək istəyən yox idi. Birdən toybabası toyu kəsdi:

- Ay camaat, aya nə qədər toylar olub, heç Səmədin gəlininin oynadığnı görməmişik. Bu insafdan deyil; - deyərək Tellinin qabağına gəldi.

- Hə, qızım, de görüm hansı havanı xoşlayırsan?

Mustafa bunu gözləyirmiş kimi: - «Ruhani» havası çaldırın, - dedi. Elə bil toyçular bunu gözləyirdi. Qara zurnada «Ruhani» havası dağı-daşı başına götürdü. Bir cütlük bu toyda rəqsə başladı nə başladı. Bütün kəndi heyrət götürmüşdü.

Mustafa ilə Telli oynayırdı. Bu tərəflərdə hələ «Ruhani» havasına oynayan olmamışdı, özü də belə gözəl və cazibəli. Onlar oynayıb qurtarandan sonra toybabası nəmər olaraq Tellinin boynuna bir gözəl, naxışlı kəlağayı asdı: - Xoşbəxt olasınız qızım , hər ikiniz qoşa qarıyasınız! Bu Tellinin kənd camaatından aldığı ilk toy nəməri idi.

*****

Sovet hökuməti dağılıb gedirdi. Millətçi siyasət yürüdən erməni daşnaklarına isə qaşın üstü qaradır deyən yox idi. Azərbaycanlı kəndləri hücümlara məruz qalır, talanır, oda verilirdi. Ölən-itənin sayı minləri keçmişdi. Hər yerdən əli üzülən Azərbaycanlılar dədə-baba yurd-yuvalarını qoyub Azərbaycana pənah gətirirdilər. Daha dəqiqini desək, Ermənistandan qovulurdular. Mustafa ailəsinin təhlükədə olduğunu anlayıb, onları Qazax rayonuna gətirdi. Sonralar isə ailə Bakıya pənah gətirdi. Birtəhər yerləşdilər. Çətin də olsa yavaş-yavaş şəhər mühütünə öyrəşib dolanmağa başladılar. Uşaqlar böyüdükcə qayğılar da böyüdü. Mustafa ilə Telli əl-ələ verib çalışdı, çabaladı. uşaqlarını böyütdü. Qaçqın düşən el-obanın toy-nişanında isə onların ömürlərinin möhürbəndi olan «Ruhani » havası idi.

*****

Qonşunun oğlunun toy məclisidəydilər. Böyük bir şadlıq evində təmtəraqlı bir toy məclisi keçirdi. Müğənninin şirin, məlahətli səsi, yenə də qara zurnanın ifası könülləri oxşayırdı. Toyun ortaları idi. Mustafa öz əməlinə sadiq olaraq «Ruhani» havası sifariş etdirdi. Oynaya-oynaya Tellinin qabağına gəlib onu rəqsə çağırdı. Telli keçən dəfələrdəkindən də gözəl oynayırdı. Hamı dönüb heyranlıqla bu cütlüyə tamaşa edirdi. Birdən sanki, dünya Tellinin başına hərləndi. O, tarazlığını itirib yıxıldı. Bir daha qalxmadı. Telli «Ruhani» havası çalına-çalına canını tapşırmışdı. Məclis biri-birinə qarışmış, toyda çaşqınlıq yaranmışdı. Mustafa ağlaya- ağlaya: - Ay camaat, nə oldusa mənə oldu. Toyunuzu davam edin. Allah mübarək etsin!

Tellinin ölümündən üç il keçirdi. El şənliklərinin birində idim. Mustafa da orada idi. Qohum-qardaş, dost-tanış Mustafanın könlünü açmaq üçün bir «Ruhani» havası sifariş etdilər. Mustafa oyuna çıxmadı. Çox minnət-xahişdən sonra o könülsüz-könülsüz oynamağa başladı. Ancaq bu oyun qabakı oyunlara heç oxşamırdı. Mustafa başa düşürdü ki, bu toyda onun yanında kimsə çatışmır…..





# TÜFƏNG SƏSI

## *( Sənədli oçerk)*

Ulu və gözəl Borçalı mahalının dağ rayonu olan Başkeçidin Qarabulaq kəndində təntənəli bir toy keçirdi. Ələddin müəllimin

oğlu Ənvər, böyük oğlu Alqayıtı evləndirirdi. Qara zurnanın səsi dağı - daşı başına götürmüş, Əyri qardan və Şamdüydən əks - sədası gəlirdi. Cavanlar və qocalar bir - birinə qarışmışdı. O qədər gözəl rəqs edirdilər ki, baxanlar valeh olurdu. Ələddin müəllim öz həyat yoldaşı Əsmər xanım ilə ortalıqdan çıxmaq bilmirdi. Bakıdan qonaq gəlmiş şair Vəli Qaraçaylı əlini cibinə salıb, bir onluq çıxarıb zurnaçının papağının altından alnına taxdı: - Çal ay usta, çoxdandı qulağımız zurna səsinə həsrətdi, - deyib, ortalığa atıldı. Dost - qohumların hamısı şair Vəlinin ətrafında rəqsə başladılar. Camaat şənləndikcə dəfçinin ayaqları da qalxıb - düşür, sanki o da rəqs edirdi.

El adətinə görə günortadan sonra toy gəlin evinə keçməliydi. Ələddin müəllim saydığı-seçdiyi adamları gedəcək maşına dəvət etdi. Ərköyün uşaqlardan maşına minmək istəyənlər də oldu. Ancaq Nadir kişi əlindəki ağacla onları hədələyərək: - Ora uşaq-muşağın yeri döy, düşün!

Ələddin müəllim əlavə olaraq maşına bir buynuzlu qoç qoydurdu ki, - getdiyimiz Qızıl Hacılı kəndinin cavanları qabağımızı kəssələr bu qoçu nəmər olaraq onlara verərik. Toy karvanı qonşu kəndə yola düşdü. Aşağı Qarabulağı keçib, Qızıl Hacılıya çathaçatda doğrudan da qabağımızı cavanlar kəsdi. Sağ olsunlar, on - on beş nəfər olardı. Ələddin müəllim toyçuları maşından düşürdüb bir «güləşəngi» çaldırdı və ortalığa girdi. Çox cəld və çevikliklə oynayır, qarşı tərəfin nümayəndəsini güləşməyə dəvət edirdi.Bu yerdə alçaq boylu, gənc, çevik bir oğlan akrobatik hərəkətlə əlləri üstündə meydana, Ələddin müəllimin qarşısına çıxdı. Bu oğlan Başkeçidin kəndlərində yaxşı tanınan Israfil idi. Güləşçilər bir - birinə xeyli hərbə-zorba gəldikdən sonra sülh bağladılar. Öpüşüb, qucaqlaşdılar. Ələddin müəllim özü ilə gətirdiyi qoçu və ərzaq dolu səbəti, üzüm çaxırını uşaqlara pay verdi. Onlar da razlıq edib toy maşınlarının yolunu açdılar və kəndə qədər müşayət etdilər. Israfil isə öz köhləninin belinə sıçrayıb, kəndə çapdı, xoş mücdə apardı.

Gəlin evində toy mağarı qurulmuş, hamı qonaqları gözləyirdi. Irəli toyçular çıxdı. Bir gözəl bəy - gəlin havası çaldılar. Bəyi maşından düşürdüb gəlin evinə apardılar. Başkeçid mahalında bəyin oğurlanması, filanı olmur. Buna görə də bəy özünü çox sərbəst hiss edirdi. Toyun masabəyi qonaqları

salamladı, hamıya gözaydınlığı verib məclisi başladı. Bəy və gəlin alqışlar altında məclisə gətirildi. Alqayıt bəyin sevib - seçdiyi Sevginaz xanım öz ata ocağında son gecəni keçirirdi. Səhər isə Qarabulağa, Ələddin müəllimin və Əsmər xanımın ocağına gəlin köçəcəkdi.



Toyun masabəyi sözü Orucəli müəllimə verdi. Orucəli müəllim tanınmış adam, elağsaqqalı idi. O, qonaqları salamladı, gənclərə xeyir-dua verdi, bir gözəl «zabul» oxuyub oturdu. Hamı Orucəli müəllimi alqışladı. Sağlıq sağlığa calandı. Məclis getdikcə gözəlləşirdi. Gözəl sağlıqlardan sonra Ələddin müəllimin kiçik dəstəsi geri – Qarabulağa qayıtmalı oldu. Səhər günortaüstü bəy evi gəlinlərini gətirmək üçün yola çıxdı və axşamüstü gəlin maşını kəndə gəldi. El adəti üzrə Ələddin müəllim gəlinin ayaqları altında bir yaxşı cöngə kəsdi. Əsmər xanım irəli yeriyib gəlini Sevginaz xanımın, sonra da nəvəsi Alqayıt bəyin alnından öpüb dedi:

- Allah sizi yarıyandan, qarıyandan eləsin, balalarım, Bu ocağı şenləndirin, qoy bu ocaq daha da odlu - alovlu olsun. Bu kənd - Qarabulaq kəndi sizin daimi yaşayış yeriniz, bu ev isə sizin gələcək nəsillərinizin inam və inanc yeri olsun. Camaat bir ağızdan AMIN dedi. Toy yenidən qızışdı. Ələddin müəllimin qurduğu mağar 300 – 500 adam tutan bir mağar idi. Məclisin yuxarı başında Başkeçid rayonunda yaxşı tanınan, səsi və sazı ilə seçilən aşıq Haqverdi əyləşmişdi. Məhz bu məclisə o masabəylik edirdi.



Nəsilin yaşlı nümayəndəsi olan ağsaqqal Nadir kişinin yanında, Aydın müəllim, Gödək dağdan Ibad müəllim, dünəndən bu işdə can yandırıb, irəli - geri maşın sürən Eyvaz, Mehdi kişi, Ilyas kişi kimi ağsaqqallar əyləşmişdi. Əl telefonları susmaq bilmirdi. Ələddin müəllimin kiçik oğlu Ilhamın tər kürəyindən axırdı. Məclisdə qonaqlara qulluq edən Ilham idi. Rusyadan toya görə gəlmişdi. Zarafat ha deyildi, qardaşı Ənvərin oğlu evlənirdi.

Haqvedi deyən sağlıqların gözəlliyi onda idi ki, bu sağlıqları eşidib – dinləyən hər kəs istər-istəməz bu elə - obaya bağlanır, buranın daimi sahibi olduğunu anlayır və dərk edirdi. Haqverdinin cavanlara arzuladığı da bu idi. Ona görə də nə özü, nə də övladları el-obasından kənar düşməmişdi. Elə toy şənliklərində qara zurnanın ifaçısı Haqverdinin oğlu Abdul idi. Toya gələn qonaqlar yavaş - yavaş seyrəlir, çöldən əl - ayaq yığışırdı.



Bəyi və gəlini öz otaqlarına ötürən sağdış bir azdan əli tüfəngli geri qayıtdı.Onun əlindəki gözəl bir qoşalülə idi. Sağdışı qapının ağzında qoyub, qonaqların bayırda qalan beş - on nəfərini Ələddin müəllim içəri dəvət eylədi. Qonaqlardan biri: - Bəs sağdışı niyə içəri çağırmadız?

Ələddin müəllim gülə - gülə: - O öz postundadır! Oranı buraxa bilməz, dedi və güldü. Otaqda əyləşənlərin gülüşləri Ələddin müəllimin gülüşünə qarışdı. Haqverdi yerində idi. O yenə masabəyi işini icra edirdi. Otaqda qalanlar ailənin yaxın adamları idi. Söhbətin və məclisin şirin yerində birdən tüfəng açıldı. Qoşalülənin səsi Armudlu dağda və Əyri qarda əks - səda verdi. Hamı gülüşdü. Sağdışı içəri çağırdlar. Haqverdi təzədən bəy və gəlinin sağlığına badə qaldırmağı təklif etdi. Hamı bir ağızdan: Allah mübarək etsin, Allah qoşa qarıtsın. Mən isə **AMIN** dedim.

***Dağ Borçalı, Qarabulaq – Bakı***
***sentyabr 2008***







# AĞSTAFA QATARI

Qazax rayonunun Böyükkəsik qəsəbəsinə, qardaşım oğlunun toyuna dəvət olunmuşdum. Mənimlə birlikdə kiçik qardaşım da gedirdi. Axşam çağı «Bakı – Böyük-kəsik» qatarına əyləşib kupedə yerimizi rahatladıq. Bir azdan bizim kupe qonşularımız da gəldilər. Kupemizə 45 – 50 yaşında bir qadın və bir cavan dəmiryolçu oğlan də gəldi. Kupemiz tam heyətdə doldu. Mənim və qardaşımın yeri aşağadakı yatacaqlar idi. Qadının və oğlanın yeri yuxarı düşmüşdü. Mən alicənablıq edərək öz yerimi qadına təklif etdim və özümə yuxarıda yer düzəltdim. Daha doğrusu qonşu qadın hamımızın yerini rahatladı. Şam yeməyinə əyləşdik. Kimin nəyi varıydısa stolun üstünə yığdıq. Qadın çox nəzakətlə yeməyimizi yerbəyer edib, bizi süfrəyə dəvət etdi.

Tanış olduq. Qardaşım öz adını, cavan oğlan öz adını, mən də öz adımı – Salman müəllim, dedim. Qadın bir xeyli mənə baxandan sonra, mənim də adım Zeynəbdir, dedi. Şam yeməyinə əyləşdik. Şirin–şirin yeyib, hərəmiz bir yanda əyləşdik. Hara gedib-gəldiyimizi bir-birimizə danışdıq. Zeynəb xanım gözlərini zilləyib üzümə baxırdı. Mən utandığımdan yuxarı dırmaşıb, yerimə uzandım. Ancaq nədəndisə yuxuya gedə bilmirdim. Qadın mənə çox tanış gəlirdi. Ancaq harada görmüşdüm, xatırlaya bilmirdim. Düzünü desəm, qadın da yata bilmirdi. Elə o üzünə, bu üzünə çevrilir, hərdən də yerindən durub otururdu. Nəsə, birtəhər gözlərimə yuxu getdi. Səhər tezdən Gəncə şəhərində qatar saxladı. Cəld qatardan düşüb səhər yeməyi üçün qaymaq-pendir aldım. Isti, təzə bişmiş çörəklərdən bir - iki dənə götürüb qatara gəldim. Zeynəb xanım artıq ayaq üstə idi. Geyinib gecinmiş, yuyunub daranmış və bir az da gözəlləşmişdi. Gətirdiyim ərzağı ona uzatdım ki, buyurun, səhər yeməyimizdi. Zeynəb xanım gülümsəyərək çox təşəkkür etdi ki, Salman müəllim bizi xəcalətli etdiniz. Dedim ki, o nə sözdü. Siz qadın xeylağısınız. Sizə qulluq borcumuzdur. - Siz həmişəki kimi çox nəzakətlisiniz. Heç dəyişməmişsiniz, - dedi. Fikir məni götürdü. Bu qadın məni tanıyır, ancaq haradan?

Qardaşım da yerindən durdu, cavan oğlan da. Hər ikisi paltarlarını geyinənə kimi mən Zeynəb xanımla birlikdə qatarın içindəki perrona çıxdıq. Zeynəb xanım məndən gözlərini çəkmirdi. Mən də utanıb yerə baxırdım. Tovuz şəhərinə çatanda hamımız süfrə arxasına əyləşdik. Cavan oğlan isə Tovuz şəhərində bizimlə sağollaşıb vaqondan düşdü. Yeməkdən sonra Zeynəb xanım süfrəni yığışdırdı. Soyuqbulaq qəsəbəsində düşəcəkdi. Ora çatmağa isə iki saat var idi. Yenə söhbət şirinləşdi, baxışlarmız toqquşdu. Utanmağı buraxıb dedim: - Haradasa sizi görmüşəm, ancaq xatırlaya bilmirəm.

- Salman müəllim olmağınızı bildim, televizorda tez – tez görürəm. Ancaq bilmirəm o Salmansanmı, deyib əl çantasından nimdaş, köhnəlmiş bir kağız parçası çıxardıb mənə uzatdı. Baxanda gözlərimə inanmadım.

*****

1975–ci il olardı. Cavan, iti addımlı, cəld bir hərbçi idim. Hissədə hörməti saxlanılan bir əsgər idim. Həmi də azərbaycanlı olduğumdan hərbi hissə komandiri məni yanına çağırdı. Silahlanmağımı və 15 silahlı əsgər götürüb Azərbaycana – Soyuqbulaq qəsəbəsnə getməyi-mi əmr etdi. Dövlət əhəmiyyətli yük gəlirdi. Orada yükü qəbul edib hərbi hissəmizə gətirməliydim. Oldu – deyib, komandirin otağından çıxdım. Səhərisi kiçik bir dəstə ilə Azərbaycana – Soyuqbulaq qəsəbəsinə gəldim. Soyuq-bulaq sovetlər zamanı stansiya idi. Orada əsasən rus hərbçiləri yaşayırdı. Hərbi sursat saxlanan bir yer idi. Bu qəsəbədə çox acınacaqlı həyat tərzi var idi. Demək olar ki, yaşamaq mümkün deyildi. Suyu yox, ya da istilər həddən artıq yüksək temprаturda olur, payızda palçıqlı yollar, qışda isə sərt soyuqlar olardı. Bu qəsəbəyə suyu dəmiryolu sisternisində gətirərdilər və stansiyada açardılar. Camaat isə oradan suyu daşıyıb aparar, yeməyə–çaya işlədərdilər. Gediş–gəliş ancaq elektrik qatarları ilə mümkün idi. Soyuqbulaq adına baxmayaraq, soyuq suya həsrət idi.

Ümumiyyətlə Sovetlər birliyi zamanı Azərbaycanın sərvətləri kənara daşınır, Azərbaycanın kəndləri və rayonları bərbad halın içindəydilər. Bu da ürəkaçan olmurdu. Nahar fasiləsindən sonra əsgərlərimi sıraya düzüb təlimatlandırdım, silahlarmızı anbara təhvil verəndən sonra gələcək yükü gözləməyə başladım. Mən də bilmirdim gələn nədir, haradan gəlir. Bir həftə gözlədik. Mənimlə gələn şəxsi heyət yaxşı dincəldi. On gün idi ki, yeyib yatırdıq. On birinci gün hissə növbətçisinin köməkçisi mənim yanıma gəldi ki, hazırlaşın, sizin eşalon gəlib. Gedin qəbul edin. Doğrudan da plomblu, möhürlü bir vaqon idi. Dərhal komissiya təşkil edib vaqonu qəbul etməyə başladım. Daha doğrusu vaqon diqqətlə yoxlanılıb akt tərtib edildi. Plombu, möhürü yalnız hərbi hissənin komissiyası açmaq iqtidarına malik idi. Mənim işim yalnız mühafizəni təşkil edib, vaqonu təyinatı olan yerə çatdırmaq idi. Işimizi qurtarandan sonra əsgərlərimi silahlandırıb növbələr təyin etdim. Necə deyərlər, işimiz başladı.Bizim vaqonun yanında iri bir su sisternesi saxlamışdılar. Qəsəbənin camaatı buradan su daşıyırdı. Hərə də bir cür. Kimi maşınla, kimi isə arabayla. Birdən yaxınlıqdakı evin həyətindən bir gözəl-göyçək, ceyran baxışlı qız

əllərində su qabları suya gəldi. Nədəndisə baxışlarımız toqquşdu. O da utandı, mən də! Sakitcə suyu doldurub apardı. Evləri düz su sisternisinin yanında idi. Dəmir yolu qapılarından 10 – 15 metr aralı idi. Bir də gəldi. Yenə suyu doldurub mənə baxdı və getdi. Ilhamım qayım – qayım qaynadı. Səhra çantamdan kağız – qələm çıxardıb bir küncə çəkildim.

Ürəyimdə bir sözüm var, deyərəm,
Qorxuram ki, tez götürər söz səni.
Qorxuram ki, çatma qaşın çatıla,
Nahaq yerdən incidərik biz səni.

Sən Qarayazının yasəmənisən,
Baharda yetişən tər səmənisən,
Gözəl, bu yerlərin çöl çəmənisən,
Gəl aparım bizim elə qız, səni.

Gözlərin can alan, qaşların çatma,
Qonağı öldürmə, insafı atma,
Yatıbsan könlümə, naz – qəmzə satma,
Mən nağayrım, sevdi – seçdi göz səni.

Necə gedim, sənsiz getmir ayağım,
Kimə deyim, yoxdur arxam – dayağım,
Salmanam, ol mənim yanar çırağım,
Ola bilsin, bəlkə sevir yüz səni.

Gözlədim. Yenə gəldi və bu dəfə su üstündə ləngidi. Tələsimədi. Dərhal yazdığım bu şeir məktubunu bir əsgərə verib, qızı göstərdim ki, apar ona ver. Əsgər qaça – qaça aparıb kağızı qıza verdi. Qız bir kağıza baxdı, bir biz tərəfə. Kağızı götürüb getdi. Yamanca qorxurdum. Fikirləşdim ki, birdən inciyər, qohumlarına deyər, burada inciklik düşər, peşmançalıq olar.

Bir az keçmiş bu qız bir rəfiqəsi ilə düz bizim vaqonun yanına gəldi.

– Bu kağızı kim yazıb, - dedi.

Artıq utanıb - danmaq olmazdı. Oxu atmışdım, kaman isə əlimdəydi.

- Mən yazmışam, dedim. Diqqətlə baxdı, mən də baxdım. Əsgərlərin içində həm rütbəmlə, həm də boy – buxunumla seçilirdim. Belimdə aşırmalı kəmər, ondan asılan tapançam, səliqəli hərbi geyimim mənə yaraşıq verirdi. Bu libasım onun da xoşuna gəlmişdi. Çox gözəl bir qızıydı. Yaxından onu ilk dəfə gördüm. Birdən məndən ünvanımı, atamın-anamın adını və varlığını soruşdu. Suallarına cavab verdim. Evlərini göstərdi və getdilər. Bir az keçmiş mənim yolum üçün hazırladığı çörək – xörək də gətirdi ki, yolda lazım olar, ac qalma. Təşəkkür etdim. Bir xeyli vaqonun yanında qaldı. Bir – birimizin adını soruşmadıq, utandıq. Qatar isə tərpənirdi. Bir-birimizə əl etdik. Belə vidalaşmaq əsgərlərimin də xoşuna gəldi. Beləcə Qarayazı xatirəsi mənim üçün romantik bir səfərə dödü. Qarayazı təlim– toplanış məntəqəsinə gəldikdə isə, bizim hərbi hissə ora tez – tez gəlirdi. Qarayazı Qafqaz Hərbi dairəsinin hərbi təlim – məşq poliqonu idi. O cümlədən Kür çayının sağ sahili bu poliqona aid edilmişdi. Böyük-Kəsik və ona bitişik stansiyalarını, o cümlədən, Soyuqbulaq və Saloğlu stansiyaların təyinatı və işi hərbi eşalonları qəbul etmək və yola salmaqdan ibrət idi. Bu ərazi Qafqaz Hərbi dairəsinin silah və sursat anbarı idi. Ona görə də çox ciddi mühafizə olunur və qorunurdu.

*****

Bizim hərbi hissə mühəndis – istekamçı hissəsi olduğuna görə demək olar ki, günümüz orada keçirdi. Ezamiyyətlərin hər birində ya mən, ya da mənim köməkçilərimin biri hökmən orada olmalı idi. Arxa təsərrüfat vzvodunun komandiri mən olduğumdan hissə poliqona çıxanda onun ərzaq və yanacaq təminatına mən cavabdeh idim. Ona görə də əvvəlcədən hazırlıq görürdüm ki, işlərimiz asan olsun. Innən belə ezamiyyət olanda özüm gedirdim. Düşərgəmiz isə Böyükkəsik stansiyasının həndəvərində olurdu. Soyuqbulaq qəsəbəsi düz düşərgəmizin qənşərində olurdu.

Ezamiyyətə gedən kimi Soyuqbulaq qəsəbəsinə, dəmir yolundakı su sisternisinin yanına gəldim. O qızı görməyə can

atırdım. Tanışlığmızdan dörd ay keçməsinə baxmayaraq yenə utana–utana evlərinin qapısına tərəf baxırdım.

Bir – iki dəfə gəldim gözlədim, gəlmədi. Bir gün səhər tezdən su çənini maşının qoşqusuna qoşub, su dalınca stansiyaya gəldim. Su stansiyaya təzə gəldiyindən camaat çox idi. Gözlədim ki, seyrəlsinlər sonra su doldurum. Birdən arxadan kimsə paltarımdan çəkdi. Geri dönəndə gözlərimə inanmadım. O idi. – Xəbərim var, iki-üç dəfə gəlib-gedibsən, dedi. Mən burada yox idim, Qazaxa, dayımgilə getmişdim. Rəfiqəm bura sənin gəldiyini görüb, mənə deyib. Evlərinə dəvət eylədi. Cəsarətlənib razılıq verdim. Şoferimə isə su doldur-mağını tapşırdım. Evləri adi bir kənd evi idi. Səliqəli və sahmanlı. Məni qapıda ata-anası qarşıladı. Mehribanlıqla evlərinə dəvət etdilər. Söhbət edə-edə çaya-çörəyə qonaq etdilər. Gördüm ki, köməyə ehtiyacları var. Qız onların yeganə övladları idi.

- Mənim adım Zeynəbdir, dedi.

Atası isə: - Bu il onilliyi qurtarır, görək neyliyəcəyik? Instituta Bakıya göndərmək istəyirik, yaxşı oxuyur.

Beləliklə mənim Zeynəbgilə gəlməyim mütamadi hal aldı. Əlimdən gələn bütün köməkliyimi və bacarığımı əsirgəmədim. Bu ailə ona layiq idi. Zeynəb ilə mənim aramda bir qığılcım var idi. Utancaq olduğumdan ona heç nə deyə bilmirdim. Bəlkə onun özü də məndən betər idi. Sonralar əsgərlik həyatımda dəyişiriklər baş verdi. Məni də evləndirdilər. Evladlarım dünyaya gəldi. Sonralar müxtəlif yerlərdə və ölkələrdə hərbi qulluğum davam etdi. Azərbaycan ordusu qurulanda mən də minlərdən biri kimi öz ordumuzda çalışdım. Qarabağda gedən döyüşlərdə iştirak etdim. Sonralar ordu sıralarından təsis olundum. Mülki həyata qayıtdım. Bu hadisədən qırx ilə kimi vaxt keçmişdi. Zeynəb isə mənim üçün şirin bir xəyala dönmüşdü.

*****

Mən onun üzünə utana–utana baxdım və nitqim qurudu. Udquna-udquna yerə baxdım. Şeir 1974–cü ildə yazılan həmin şeir idi. O sakit-sakit ağlayırdı. Göz yaşları bahar yağışının damcılarına dönmüşdü. Mən isə xəcalətdən az qalırdı yerə girəm. Verdiyi kağızı geri istədi.

- Bu şeir səndən etibarlıdır. Çünki, o həmişə mənimlə olub, məni yalqız qoymayıb. Stansiyaya hərbi maşın gələndə uşaq kimi maşının yanına qaçırdım. Səni orada görməyəndə ağlaya – ağlaya evimizə qayıdırdım. Bir sözlə səni çox gözlədim. Sonra Bakıya getdim. Universitetin kitabxanaçılıq fakültəsinə daxil oldum və oranı bitirdikdən sonra Soyuqbulağa qayıtdım. Məni də evləndirdilər. Bir traktorçuya ərə getdim. Iki oğlumuz var. Böyük oğlum sənin adaşındır, adını Salman qoymuşuq. Polis əməkdaşıdır. Ikinci oğlum isə evimizdədir. Ara işlərində işləyir. O da traktorçudur. Mən isə indiyənə kimi kitabxanada işləyirəm. Atasını və anasını soruşdum. Hər ikisi dünyasını dəyişib, - dedi.

Göz yaşlarını silərək: - Indi hara gedirsən? Gəlişimin məqsədin dedim. Qardaşımı tanıyırdı. Qatar Soyuq-bulaq stansiyasına yaxınlaşanda Zeynəb xanım yığışdı. Əşyalarını götürdüm. Qatar dayananda ona düşməyə kömək etdim. Aşağı düşəndə isə: - Salman, kaş təzədən doğulaydıq! – dedi və ağladı.

Vaqona qayıdanda kiçik qardaşım soruşdu ki, o kim idi? - Heç, nə bilim, bir Allah bəndəsi idi, - dedim!

***Sentyabr, 2010 - cu il, Bakı – Böyükkəsik.***





# MUROVAM, KƏPƏZƏM, SAVALANAM MƏN

## SALAM, XXI ƏSR

Qədəmlərin mübarək, yeni il, yeni əsr,
Nə qar boran üşüdür, nə şaxta-ayaz kəsir.
Təkcə küləkli hava, şıltaqlıqdan dönməyir,
Bir də ki, qoca dünya qürurundan enməyir.
Getdi XX-ci əsr, bizə düşmədi əsla,
Bizə əylədi getdi dava-dalaş, dərd-bəla.
Bu əsrdə Azərbaycan bölündü, parçalandı.
Rusun, farsın əlində talan oldu, talandı.
37 balta tək kəsdi, tökdü başları,
Iş bilməyən kəslərə tikdilər çox işləri.
Bədənmizə calaq tək, Ermənistan calandı,
Zəngəzurum, Borçalım ayrıldı, haçalandı.
Keçən əsr düşmədi taleyinə millətin,
Müharibələr kəsdi əlacını məmləkətin.
Ər oğullar davaya getdilər, gəlmədilər,
Necə oldu, harda qaldı yerini bilmədilər.
Bəylər bəylikdən düşdü, varlı yoxsula döndü,
Abad evlər dağıldı, min-min ocaqlar söndü.
Qorxudan tir-tir əsdi, satdı qardaş-qardaşı,
Ölüm kabusu güddü, hər sadə vətəndaşı!

Beləcə keçdi illər, biz dandıq həqiqəti,
Orda fars, burda rus qul etdi bu milləti!
Bir yandan da qonşular bizə kəsildi yağı,
Gürcü Borçalını tutdu, erməni Qarabağı!
Dinib-danışmadıq "qardaşlıq" ailəsində,
Çünki bir xof var idi Sovetlər ölkəsində.
Bu ölkə də dağıldı Berlin hasarı kimi,
Axı zülmün üstündə qurulmuş idi himi!
Erməni baş qaldırdı, rusa arxalandı,
Qovuldu obam-elim, Qarabağ alovlandı!
Təkləndik, yalqızlaşdıq bu boyda dünyada biz,
20 yanvarda qırdılar, ərşə çıxdı səsimiz.
Vəzifənin üstündə qırdı qardaş-qardaşı.
Təhlükə aldı yenə, adicə vətəndaşı.
Kömək verən olmadı, kömək duran olmadı,
Bu boyda bir millətə fikir verən olmadı!
Getdi Qarabağ əldən,

Dağıldı Şuşa, Laçın,
Əl çıxdı Kəlbəcərdən, daha nələrdən, nədən,
Biz vicdanı ləkəli yola saldıq o əsri!
20-ci əsr getsə də, əylədi dərdi-səri.
Salam 21-ci əsr! Qədəmlərin mübarək!
Etdiyimiz səhvləri gərək səndə düzəldək!
Sındıraq ermənინin bütün dayaqlarını,
Azad edək yağıdan vətən torpaqlarını.
Gərək səndə bu millət uca tuta başını,
Üstümüzdən ataq biz, yoxsulluğun daşını.
Səni firavan görək,
Səndə sevinclə vüqar!
Sənlə əl-ələ verək, kaş çin ola arzular!
Onda ürəkdən gülək!
Onda ürəkdən deyək!
Xoş gəldin yeni əsr,
Qədəmlərin mübarək!



**MƏNI BÖLDÜRƏN ARAZ**

Axıram sellər kimi, illərin axarında,

Gedirəm yollar kimi, tarixin damarında,
Fırlanıram, yolum yox əsrin burulğanında,
Qasırğa, fırtınalar təntidib, döyüb məni,
Illər qəhraman bilib, tarixlər öyüb məni.
Dağıdan olmamışam, tikən, quran olmuşam,
Bir vaxt ucsuz-bucaqsız yaylaq, aran olmuşam.
Sonralar bölünmüşəm, talan, viran olmuşam,
Araz bölən, böldürən Azərbaycan olmuşam!
Savalanlı, Kəpəzli, mən Gəncəli, Təbrizli,
Bayrağı ay-ulduzlu Azərbaycan olmuşam!
Cavanşirim, Babəkim, Xətai tək şahım var,
Zamanın çaynağında amanım var, ahım var.
Məni Araz böldürüb, mənim nə günahım var?…
Zülmət mənim ha döylü, bir nurlu sabahım var.
Mən zülməti dağıdan, sökən-yıxan olmuşam,
Odlar yurdu olmuşam, Azərbaycan olmuşam!
Bənzəyirəm qartala, bağlanıb qanadlarım,

Necə dözürlər buna, bəs mənim övladlarım?
Çırpınıb, hayqırıram fırtınada, tufanda,
Boğuluram qırğında, nahaq tökülən qanda.
Əsarətdən bezmişəm, qul olub yorulmuşam,
Bir zamanlar qandalsız Azərbaycan olmuşam!
Böldürüb iki yerə, şimaldan gələn məni,
Yaxasından tut soruş - kim olub bölən məni?
Mən çörəyə dönmüşəm rusun, farsın əlində,
Yad bayraqlar yellənir, bayrağımın yerində.
Mən belə olmamışam, mən bütöv, tam olmuşam!
Tarix hörmət eyləyən Azərbaycan olmuşam!
Bir tərəfi Naxçıvan, Irəvan, Borçalıyam,
Dəmir qapı Dərbənd tək, bir alınmaz qalayam.
Bu gün viran olmuşam, mən ona-buna payam,
Ortadan bölünmüşəm, mən o tayam, bu tayam.
Varım - halım dağılıb, yandan baxan olmuşam,
Bir zamanlar sərvətli Azərbaycan olmuşam!
Tarix! Ey qanlı tarix! Sən nələr eyləmədin?
Həqiqəti gizlətdin, düzgünü söyləmədin.
Ahım göylərə çıxdı, sən heç yerdə demədin.
O yan, bu yana baxıb mən mat-məətəl qalmışam,
Mən belə olmamışam. Igidlərim aslan tək,

Düşmənə qan udduran Azərbaycan olmuşam!
Araz, Araz, ay Araz! Məni böldürən Araz,
Iki yerə kəsdirib, məni öldürən Araz!
O vaxtdan gözü yaşlı, ürəyi qan olmuşam!
Tarix didən, dağıdan Azərbaycan olmuşam!
Araz bölən, böldürən,
Rus, fars öldürən,
Sürgünlərə sürdürən,
Lenin gülləyə tutan,
Stalinsə döydürən, varı-halı yox olan,
Bu gündə kimlərinsə, gözlərinə ox olan,
Kələyə, müharibəyə yenə meydan olmuşam!
Mən həmişə göz tökən, Azərbaycan olmuşam!
Dur ayağa övladım! Bir gör kimin oğlusan?
Nərəsi səflər pozan, sən igid Koroğlusan!
Sən dur, aç qanadımı, bir daha bağlanmasın,
Səni böyüdən Vətən, qoru, tapdalanmasın!

Sən məndən bəhrələnib, mənə Vətən demişsən,
Mən səni əzizləyib, sənin anan olmuşam!
Bu gün iki bölünən Azərbaycan olmuşam!
"Araz, Araz, xan Araz,
Evimi yıxan Araz!
Sən məni niyə böldün?
Bölünərmi can Araz?!"

**05.07.1991**

### AYIL, MILLƏTIM, AYIL

Əldən gedib Qarabağ, ləkəlidir ünvanın,
Dəmirdimi, daşdımı sənin ürəyin - canın,
Hanı sənin igidin, ərənin, qəhramanın?
Sönür sənin ocağın, kül olur közün millət,
Görmürsənmi bunları, görmürmü gözün millət?

Hanı Cəbrayıl, Füzuli, necolub Zəngilanın?
Laçının, Kəlbəcərin, Qubadlıynan Ağdamın?
Şuşa yada düşəndə əti ürpəşir adamın,
ATƏT, BMT deyirsən, keçməyir sözün millət,
Görmürsənmi bunları, görmürmü gözün millət?

Zorlandı gəlin - qızın, Xocalı külə döndü,
Körpələrin harayı, göz yaşı selə döndü,
Bizim "qisas!" sözümüz, düz on dörd ilə döndü,
"Qaytaracağıq" - deyrisən, xoşdur avazın millət,
Görmürsənmi bunları, görmürmü gözün millət?

Ağlayıb yaş tökürük əcnəbi qabağında,
Erməni kef eyliyir Xankənddə, Xan bağında,
Söyürlər zatımıza - bil Isa bulağında,
Niyə dönüb toyuğa oğulun - qızın millət?
Görmürsənmi bunları, görmürmü gözün millət?

Güllələndi Natəvan, güllələndi Üzeyir,
Şuşa qalasına da, erməni mənim deyir,
Barımı-bərəkətmi o talayır, o yeyir,
Qaçqın qalıb içində torpağın - tozun millət,
Görmürsənmi bunları, görmürmü gözün millət?

Cibi pullu adamlar özünü fikirləşir,
Rüşvətlər yekələnir, varlılar harınlaşır,
Bu fəlakət, bu dəhşət get - gedə dərinləşir,
Atılır ayaqlara çörəyin - duzun millət,
Görmürsənmi bunları, görmürmü gözün millət?

Şah Ismaylı xatırla, Cavad xanı yada sal,
Ya dur atıl savaşa, ya da kölə olub qal,
Vətənin sahibi ol, torpağını geri al,
Taleyinin sahibi olgunan özün millət,
Millətlərin içində, qoy gülsün üzün millət!

## AZƏRBAYCAN ƏSGƏRINƏ

On ildir Xocalının qurumur göz yaşları,
Ahı göyü yandırır, amanısa daşları,
Dur ayağa vətəninin əsl vətəndaşları,
Çağırıram qovğaya ər kişilər, mən sizi!
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Yadlara bel bağlama, onların nə vecinə,

Subut et kimliyini sən erməni bicinə,
Kim nə deyir inanma, mən bələdəm gücünə,
Hünər göstər, zəfər çal, özün sevindir bizi,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Sülh bizə xeyir döy, qalx başla savaşı,
Qovğalarda ucalıb bilin igidin başı,
Çox həddini aşıbdı bu erməni oğraşı,
O görüb bilməlidir bizim sərt üzümüzü,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Onun gücü yoxdu yox, güvənir dayısına,
Birləşək, zor göstərək şimalın ayısına,
Lənət gəlsin ilanın ağına, qarasına,
Vaxt çatıb, sənli- mənli göstərək gücümüzü,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Kimdi ATƏT, Avropa bizə gün ağalayarmı?
Biz sarımayan yaranı, o bizə sarıyarmı?
Biz ayağa qalıxsaq dığa sarsaqlayarmı?
Qarabağdan itməlidir mənfur düşmənin izi,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Azərbaycan əsgəri! Sən hər şeyə qadirsən,
Təbiətdə mülayim, savaşda aslan-şirsən,
Döyüşlərdə pələngsən, caynaqlı bir bəbirsən,
Did, parçala iki cır, bu çaqqalı, quduzu,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Göyçəni "Sevan" etdi, Zəngəzuru aşırdı,
Sinəmizə od qoydu, ürəymizi bişirdi,
It uşağının qəlbi pis, tamam paxırdı, kirdi,
Qonşu deyil düşməndi, gözü götürmür bizi,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Xocalının fəryadı hələ qulağımdadı,
Bu günahlar məndədi, mənim ayağımdadı,
1905-dən bəri hər bir şey yadımdadı,
Gəl tutaq yaxasından bir görək nədir sözü?

Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Başkəsən, qulaq kəsən odur, bizi sayırlar,
Adımıza ləkəni hər bir yerdə yayırlar,
Anlayan "fərsiz" deyib, bizləri qınayırlar,
Qoyma daşnı daş üstə, qalmasın izi-tozu,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

Pazı pazla çıxart sən, daha yoxdu əlacı,
Erməni ermənidir, yalnız tanıyır gücü,
Yay, hər yana yayılsın vətənimin sevinci!
Fikirləşmək nə lazım, budur hər şeyin düzü,
Əl-ələ ver qardaşım, qurtaraq yurdumuzu!

**2001**

Xocalı – dərdin böyük, daşımaq, çəkmək olmaz,
Uçub, yanan evləri söz ilə tikmək olmaz,
Bu dərd öz dərdimizdi, özgəyə demək olmaz,
Qisasını almasaq, bizdən sonra kim alı?
Qisasın yerdə qalmaz,Xocalı, ay Xocalı!

Bir gecənin içində od aldın, külə döndün,
Bir bədəndən kəsilən, biləksiz ələ döndün,
Gəlin – qızın gözündən çağlayan selə döndün,
Yer – göy tumur bu ahı, bu nalə, bu məlalı!
Qisasın yerdə qalmaz,Xocalı, ay Xocalı!

O gecə qanlı düşmən səni boyadı qana,
Erməni – rus əlində can verdin, yana – yana,
Sağ qalanlar çöllərdə düşdü güllə - borana,
Ana – bacılar öldü orda yanı balalı!
Qisasın yerdə qalmaz,Xocalı, ay Xocalı!

Sən bizdən kömək umdun, sənə kömək etmədik,
Inlədin, hay saldın harayına getmədik,
Qan içində can verdin, son nəfəsnə yetmədik,

Gün gələr oğulların bir qana min qan alı!
Qisasın yerdə qalmaz,Xocalı, ay Xocalı!

Qanıma qəltan olum, mən qanının almasam,
Səni yandıranları yandırmasam, yaxmasam,
Qəbirdə yatanmaram, əvəzini çıxmasam,
Mən qanla yumalıyam bu ləkəni, bu qanı!
Qisasın yerdə qalmaz,Xocalı, ay Xocalı!

**26.02.2004.**



***Təbrizdə izim qaldı,***
***Yazmadım, sözüm qaldı.***
***Alovunu gətirdim,***
***Sönməmiş közüm qaldı!***

**BAKI DA GÖZƏLDIR, TƏBRIZ DƏ GÖZƏL**

Hər ikisi müqəddəsdir, əzizdir,
Hər ikisi dünyam qədər təmizdir,
Hər ikisi doğma şəhərimizdir,
Bakı da gözəldir, Təbriz də gözəl.

Orda Qız qalası, burada var Ərk,
Hər ikisi möhtəşəm, hər ikisi bərk,
Mən heç nə demirəm, özün eylə dərk,
Bakı da gözəldir, Təbriz də gözəl.

Orda da, burda da gözəl insanlar,
Birada Savalan, orada Qoşqar,
Orada Səməd Vurğun, burda Şəhriyar,

Bakı da gözəldir, Təbriz də gözəl.

Orda Şirvanşahlar, birda Şah bağı,
Cəlb edir özünə gələn qonağı,
Dünyada dolaşır səsi – sorağı,
Bakı da gözəldir, Təbriz də gözəl.

Qarabağ, Qaradağ – havası oxşar,
Kəkliklər ötəndə, bülbüllər coşar,
Bumbuz bulaqları diş qamaşdırar,
Bakı da gözəldir, Təbriz də gözəl.

Kəlbəcər, Kəleybər əkiz yaranıb,
Gözəl təbiəti qoşa dayanıb,
Vüqarlı dağlarmız gülə boyanıb,
Bakı da gözəldir, Təbriz də gözəl.

Ora da, bura da Türk elləridi,
Türkün sələfidi, nəsilləridi,
Ora da, bura da Türk şəhəridi,
Bakı da gözəldir, Təbriz də gözəl.

Sualın cavabı budur, Türk qızı,
Bakı - Təbrizliyə ayırma bizi,
Təbriz, Təbriz dedim, gördüm Təbrizi,
Bakı da gözəldir, Təbriz də gözəl.

Vətən bölünməzdir, yollar açıqdır,
Vətəni sevmək də bir ucalıqdır,
Salman nə özgədir, nə də qonaqdır,
Bakı da gözəldir, Təbriz də gözəl.

**Təbriz 06.06. 2010**



**TƏBRIZ**

Qədimsən, ucasan, təzəsən – tərsən,
Sən mənim özümdə özümsən, Təbriz!
Şəhərlər içində gözəl şəhərsən,
Yad ola bilməzsən, bizimsən Təbriz!

Yayda dağlarının qarı yerində,
Xəqanisi, Şəhriyarı yerində,
Gözəldi « Şah bağı », barı yerində,
Əbədi baharım, yazımsan, Təbriz!

Ərk qalası ünvanımız, adımız,
Qız qalası ocağımız – odumuz,
Çıraq qala açılmamış kodumuz,
Sinəmi yandıran közümsən, Təbriz!

Küçələrin, xiyabanın gözəldir,
Doğma dilin, qaynar qanın gözəldir,
Çox şükür ki, hər imkanın gözəldir,
Gözümün nurusan, gözümsən, Təbriz!

Sən millətə ruhsan, millətə cansan,
Bizim damarmızda dövr edən qansan,

O taylı, bi taylı Azərbaycansan,
Salmanam, söhbətim – sözümsən, Təbriz!

**06.06. 2010.**



**ƏZƏM TƏBRIZ GÖZƏLI**

Yaşıyla işim yoxdu, gördüm gözəldən gözəl,
Sanki anası doğub onu əzəldən gözəl,
Dünyanı gah dağıdan, gah da düzəldən gözəl,
Billah ona tay olmaz, dünyanın yüz gözəli!
Təbrizdə gözəllər çox, Əzəm Təbriz gözəli!

Sifətində nur gördüm, ürəyində od – atəş,
Yanağına yaraşır ala gözlər, qələm qaş,
İki ürək bir ola, bir canda birləşə kaş,
Od alır, oda dönür , tutanda söz gözəli!
Təbrizdə gözəllər çox, Əzəm Təbriz gözəli!

Hərdən - hərdən məclisdə şer qoşub, söz dedi,
Abır – həya donunda ədəb – ərkan gözlədi,
Odundan mən od aldım, şair könlüm döz dedi,
Görmüşəm bi nişanda dünyada az gözəli!
Təbrizdə gözəllər çox, Əzəm Təbriz gözəli!

Ürək ürəyə baxdı, göz gözləri oxudu,
Qələmini götürüb sözdən çələng toxudu,
Aman Allah, baxışı bir ovçunun oxudu,
İndi necə unudum belə əziz gözəli!

Təbrizdə gözəllər çox, Əzəm Təbriz gözəli!

Mən qurbana getmişdim, kəsmədi, dayan dedi,
Dedim: - axı yanıram, neylək şair, yan dedi,
Mən Əzəm xanım dedim, o mənə Salman dedi,
Bakıda hardan tapım bi əvəzsiz gözəli!
Təbrizdə gözəllər çox, Əzəm Təbriz gözəli!



**CƏNUBI AZƏRBAYCAN ŞAIRI HƏMDULLAYA**

Mənə ustad dedin, şair qardaşım,
Qaynadı damarda qanım Həmdulla!
Özüm Bakıdyam, ruhum Təbrizdə,
Ikiyə bölünüb canım Həmdulla!
Türkə çəkər,
Türk oğlu Türkə çəkər,
Könlüm Təbrizi gəzər,
Ruhum Türkə çəkər!

Bəxtimdə ayrılıq faciəsi var,
O taylı, bu taylı olub oğullar,
Murova qəm yağıb, Savalana qar,
Bu tarixi, necə danım Həmdulla?
Araz, Araz xan Araz,
Evimi yıxan Araz,
Məni niyə bölübsən?
Bölünərmi can Araz?

Sən orda yaralı, mən burda dağlı,
Igidlər neyləyər qolları bağlı?
Bir böyük millətin bölünüb ağlı,
Bu millətdən mən nə qanım Həmdulla?
Azar məni,

Buraxmır azar məni,
Qoymaz kefim açıla,
Beymürvət pozar məni.

Salman Qazi yarı yaşı ötübdü,
Bu gün – sabax altımışa yetibdi,
Belə getsə bil axrımız itibdi,
Tapdalanır adım – sanım Həmdulla!
Qana məni,
Dost gərək qana məni,
Bütöv bir millət üçün,
Boyansam qana məni!

**01.05. 2011**

## GƏNCƏ GÖZƏLDIR

Gəncə gözəldimi - söyləyən gözəl,
Ay məni imtahan eyliyən gözəl,
Məni bu yerlərdə əyliyən gözəl,
Allah qarşısında, haqq nəzərində
Gəncə də gözəldir, Gəncəlilər də!

Qədim bir tarixdir qayası, daşı,
Bahar ətirlidir payızı - qışı,
Cənnətə bənzəyir hər bir qarışı,
Nişanəsi durur əsirlərin də,
Gəncə də gözəldir, Gəncəlilər də!

Burda Nizaminin söz dastanı var,
Məshəti xanımın öz dastanı var,
Qeyrət qalasıdır - Cavad xanı var!
Bu mərdlik, qeyrətin kökü dərində,
Gəncə də gözəldir, Gəncəlilər də!

Ürəkdən bağlıdır kamana, saza,
Saflıq öyrədibdir oğlana, qıza,
Bülbül öyünməsin, çatmaz Şahnaza,

Dinləsən yox olar dərdin - sərin də.
Gəncə də gözəldir, Gəncəlilər də!

Duzlu - çörəklidir, namədlik bilməz,
Qapına gələndə, pisliyə gəlməz,
Aynası Göy göldür, vüqarı Kəpəz,
Çətin məqamlarda dayanmaz gerdə,
Gəncə də gözəldir, Gəncəlilər də!

Sücayət yaşadı, yaşayır Bəhmən,
Gözlərində vüqar, saçlarında dən,
Şeyriylə bəzənib al - əlvan çəmən,
Burda tərifi var gözəllərin də,
Gəncə də gözəldir, Gəncəlilər də!

Könlümün çırağı, ay sarı gəlin,
Dadlıdır söhbətin, şirindir dilin,
Var olsun mahalın, şen olsun elin,
Bəxti açıq olsun sən dilbərin də,
Gəncə də gözəldir, Gəncəlilə də!

Nə Yelizavetpoldu, nə Kirovabad,
Əvvəlki Gəncədi, firavan - abad,
Bu yerlər şairə verir qol - qanad,
Dəvətsiz qonaqlar gələr – gedər də,
Gəncə də gözəldir, Gəncəlilər də!

Salmanın könlünün sönməz şamıdır,
Gəncə şairlərin söz ilhamıdır,
Kəbə dediyimiz pir məqamıdır!
Görürəm Mədinə - Məkkə yerində,
Gəncə də gözəldir, Gəncəlilər də!

**Gəncə , 28.09.2003.**



**SAQQALIMIN ÇAL VAXTINA DÜŞÜBSƏN**

Sənin nə halındı, mənim nə halım,
Sən səngiyən sel vaxtıma düşübsən.
Fələyin yanında sözüm keçməyir,
Qolu bağlı qul vaxtıma düşübsən.

Qaynamayır qanım, kül oldu közüm,
Titrəyir əllərim, tor görür gözüm,
Sən deyəni deyənmirəm əzizim,
Şux qəddimin «dal» vaxtına düşübsən.

Yandırma canımı odla – ataşla,
Az divan eyləynən o gözlə-qaşla,
Sən bu şıltaqlıqla, oğrun baxışla,
Saqqalımın çal vaxtına düşübsən.

Bir qəmli bülbüləm, gül üstündəyəm,
Tükənib atəşim, kül üstündəyəm,
Mən Kannan Məkana yol üstündəyəm,
Mən Salmanam, yol vaxtıma düşübsən.

**5.06.2010.**

**QONMAZ**

Əzzim, bilirsənmi bal yığan arı,
Şirəsi kəm olan budağa qonmaz.
Elə küsdürübsən könül quşumu,
Bir də könlündəki budağa qonmaz.

Demə ki bəxtimdən, qaçıb gəlmişəm,
Onun qapısını açıb gəlmişəm,
Uca zirvələrdən uçub gəlmişəm,
Meylim hər tikanlı budağa qonmaz.

Salman mömin bəndə, kor fələk nadinc,
Məni əllərində eyləyib gülünc,
Məndən uzaq düşüb fərəhlə, sevinc,
Gəlib sinəmdəki bu dağa qonmaz.

**14.08.2010.**

**DƏLLƏK ISRAILƏ**

***Babaların şərəfli yolunun davamçısı, hamımızın əzizi, el – obamızın gənc dəlləyi – mənim sevimlim ISRAIL bəyə***

Sən Allah adıyla bıçaq çəkəndə,
Bir Allah bəndəsi müsəlman olur.
Kimin ki, qanını tökürsən oğul,
Allahın yanında saf insan olur!

Bir yanın Borçalı, bir yanın Bakı,
Nə qədər evlərə nur çiləyirsən.
Sənin savabını bilir göydəki,
Bunu mən demirəm, özün bilirsən.

Əlindəki bıçaq, adi bıçaq döy,
O bıçaq Ibrahim peyğəmbərindi!
O bıçaq insana şəfa verirsə,
Mənası, hikməti, sirri dərindi!

O bıçaq Ismayıl babamda olub,
« **DƏLLƏK** » ləqəbini gətirib ona.

O bıçaq Idrisdən yadigər qalıb,
Bizim nəslimizdə keçibdir sənə!

Mənim dəllək balam əlin var olsun,
Sən də baban kimi ad al, süfrə sal.
Sən sünnət çaldığın bəxtiyar olsun,
Sənət yollarında göylərə ucal!

Bu gün toy günündür, gözümün nuru,
Sevdiyin gözəllə qoşa qarı sən!
Dəlləkli adını şərəflə qoru,
Bir şair əminin iftixarısan!

**23. 09. 2010.**

## GƏL HA GƏL

**( təcnis)**

Şair könlüm sevdi, seçdi sən yarı,
Yarımadım, neylək yarım sən yarı,
Keçən keçib, unutmaynan sən yarı,
Soraqlasam, sorağıma gəl ha, gəl!

Nə gəlir ki, bir şairin əlinnən,
Təbib bildim, əlac yoxdu əlinnən,
Qaçammıram dərdin – qəmin əlinnən,
Yeriyib üstümə gəlir, gəlha gəl!

Yaş ötüşür, il azalır, ay keçir,
Həvəsimdə günəş sönür, ay keçir,
Qoyma yandım, aman Allah, ay keçir,
Alovuma su çilə, gəl ha gəl!

Salman Qazi ha yar dedi, yar andı,
Yar həsrəti mənlə qoşa yarandı,
Inanmazdım mənlə poza yar andı,

Peşman olub, indi deyir - gəl ha, gəl!

**12. 10. 2010.**



**MƏNI**

Iki əlli yaxalayıb,
Buraxmır qəm – kədər məni.
Uşaqlıqdan gözdən salıb,
Qismət məni, qədər məni.

Üzümdə fələk şilləsi,
Əlimdə qəm piyaləsi,
Belimdə dərdin şələsi,
Gecə – gündüz didər məni.

Əlləşirəm yetmir sona,
Qoyur məni yana – yana,
Çarəsizlik ona – buna,
Əyər, möhtac edər məni.

Salman əl açıb Allaha,
Kimə dərdim deyim daha,
Mən acizəm, dərd əjdaha,
Öz içmdən yeyər məni!

13. 10. 2010



## GÖRMƏDIM

Ey fələk, dad əlindən, səndə dövran görmədim.
Hey incitdin, qan ağlatdın, bir kərəm - kan görmədim.
Dedim işdi keçər gedər, dərd yüklədin belimə,
Günüm gündən çətin gəldi, səndən aman görmədim.

Mən sənə ümid bağladım, sən məndən üz döndərdin,
Mən səndən xoş gün dilədim, mənə kədər göndərdin,
Bir şairi zəlil edib, ayaqlara endirdin,
Mən səndən şəfa dilədim, amma dərman görmədim.

Zalımlara qanad verdin, şahin şonqar eylədin,
Itirdin insafını, tərlanı sar eylədin,
Möminlərin bu dünyada yerini dar eylədin,
Imanı şeytana satdın, səndə iman görmədim.

Salman Qazi qan ağlayır, sən kənardan baxırsan,
Doymayırsan zülümündən, yandırırsan - yaxırsan,
Ayaq üstə qalxanda itələyib yıxırsan,

Səndən başqa mən özümə qatı duşman görmədim.

**14. 10. 2010**



**NƏLAYIQDI, NƏLAYIQ**

Bir insana can yandırdım nə fayda,
Nə biləydim nəlayiqdi, nəlayiq.
Nəlayiq….
Namərd gəzər nəlayiq,
Əsli, soyu saf olan,
Billah gəzməz nəlayiq.
Hər xatanı nəlayiqdə görmüşəm,
Çünki zatı nəlayiqdi, nəlayiq.

Haramxora əyri nədi düz nədi?
Tapdalayar, çörək nədi, duz nədi?
Düz nədi?
Mərdin sözü düznədi,
Alçaq insan düzəlməz,
Onnan ötrü düz nədi?
Dedim ki, insandı, insan oğludu,
Bilən dedi nəlayiqdi, nəlayiq.

Salman can yandırdı, od əvəzinə,
Özümü od etdim od əvəzinə.
Od əvəzinə….
Odla od əvəzinə.
Özümü məşəl etdim,
Verdim od əvəzinə.
Mənə badaq qurdu o da əvəzinə,
Baxıb gördüm nəlayiqdi, nəlayiq.

**18. 10. 2010**



**NIYƏ PƏRMÜJDƏSƏN AY ŞAIR QARDAŞ**

Niyə pərmüjdəsən ay şair qardaş?
Nə tez tərk eylədi xoş anlar səni.
Bəxtin yatıb, yarı yaşı ötübsən,
Bəyənmir yaxşılar, yamanlar səni.

Şələn kədər oldu, yediyin hicran,
Ömrünü bəzədi tufan, qar – boran,
Dilində söz gəzdin, sinəndə dastan,
Əfsus, anlamadı nadanlar səni.

Dünya pəncərədir bəni - insana,
Hər kəs dərk eyliyə, anlaya, qana,
Bir gün köçün gedər Kannan Məkana,
Üç, yeddi, qırıxda anallar səni.

Salman, şama dönüb ha alış, ha yan,
Sənin zəhmətini kimdi ki duyan?
Axı sən daş döysən, insansan, insan,

Qorxma, unutmaz insanlar səni.

**21. 10. 2010**



## INSAN OĞLU IKIƏLLI YAPIŞMA

Insan oğlu, ikiəlli yapışma,
Kirkirəli, dəyirmanlı dünyadan.
Gedən gedib, qalan qanlar ağlayır,
Dərd – kədərli, qəm – hicranlı dünyadan.

Havalanma, gördüyümüz yuxudu,
Yaranannan insan ilə yoxudu,
Taleyimiz Əzrailin oxudu,
Halısanmı gözü qanlı dünyadan.

Kimyə baş tumarlar, kimyə xor baxar,
Kimyi nakam qoyar, yandırar, yaxar,
Gah qaldırar, gah edirər, gah yıxar,
Bunu gördüm « istiqanlı » dünyadan.

Ha çalış – çabala, nədir dəyərin?
Qalacaq dünyada qızılın – zərin,
Qabaqda Sirat var, varmı xəbərin,

Süleymanlı, Rüstəm - Zallı dünyadan?

Salmandan söz qalar, rəhmət gələr,
Rəhmət sözündən kəramət gələr,
Kəramətdən Ruha mərhəmət gələr,
Heç nə umma bu « səfalı » dünyadan.

**23. 10. 2010**



## MURAD MÜƏLLIMƏ

Biz dağların balasıyıq,
Sən olmasan, mən olmazdım.
Könüllərdə qalasıyıq,
Sən olmasan, mən olmazdım.

Sən xan Araz, mən dəli Kür,
Qovuşmuşuq, yolumuz bir,
Kəndimiz bir, elimiz bir,
Sən olmasan, mən olmazdım.

Hər ikimiz söz Məcnunu,
Əynimizdə alov donu,
Görünmür bü yolun sonu,
Sən olmasan, mən olmazdım.

Sən də yazan, mən də yazan,
Belə yazıb yazı yazan,

Sən Qorqudsan, mənsə Qazan,
Sən olmasan, mən olmazdım.

Sənə baxdım qürurlandım,
Sən yandıqca mən də yandım,
Hərdən sənə arxalandım,
Sən olmasan, mən olmazdım.

Salman Qazi yanar ocaq,
Sən yolumda sönməz çıraq,
Sən kitabsan, mən də varaq,
Sən olmasan, mən olmazdım.

**5.11.2011.**



**O KÖNÜLDƏN BU KONLUMƏ**

Bir təptəzə yol tapıbsan,
O könüldən bu könlümə.
Eşqin səməndin çapıbsan,
O könüldən bu könlümə.

Keçmişi əlimdən aldın,
Eşqimlə baş – başa qaldın
Nur élədin, işıq saldın
O könüldən bu könlümə.

Sönmüş odumu qaladın,
Sən məni haqqa culadın,
Bir təzə istək yolladın,
O könüldən bu könlümə.

Ürəyimdə şaha döndün,
Dünyamda günaha döndün,
Bir sönməyən atəş saldın

O könüldən bu könlümə.
**8.11.2005**

## ƏŞRƏF KİŞİ

***Soyuqbulaqlı rəhmətlik Cahangir Nəsib oğlunun hüzr məclisində idim. Ailənin yaxın qohumu, rəhmətlik Cahangir kişinin qudası Əşrəf kişi üzünü mənə tutub dedi:***
***- A Salman Qazi, beş ildir ki, mən səndən bir şeir istəyirəm. O şeirdə bizim ellərin adı çəkilsin. Niyə yazmırsan?***
***Dedim ki, Əşrəf kişi, indii həmin şeirin maqamı gəlib.***

Dağlar dağ çəkibdi mənim sinəmə,
Ellər unudulmaz, ay Əşrəf kişi.
Hansı yeri nişan verim mən sənə,
Burada tapılmaz, ay Əşrəf kişi.

Hanı Soyuqbulaq, Hacxəlil baba,
Ilməzli, Yırğançay, o el, o oba,
Cücəkənd yadımdan çıxmayır, toba,
Hicranı sayılmaz, ay Əşrəf kişi.

Qaraisə, Qaraqala viranə qalıb,
Neçə – neçə cana dərd – azar salıb,
Uşaqlar yaşlaşıb, cavan qocalıb,
Dil ilə deyilməz, ay Əşrəf kişi.

Güllü yaylaqlarda ötür qarğalar,
Bir gördünmü kimə qaldı o dağlar?
Ürəyim od tutar, gözüm qan ağlar,
Çəkdiyim duyulmaz, ay Əşrəf kişi.

At sürərdik Sarvan çayı boyunca,
Quyu bulaqdan su içərdik doyunca,
Seyidin təpəsi gül – çiçək, yonca,
Axtarsan bulunmaz, ay Əşrəf kişi!

Şifhannı düzündə ötərdi bülbül,
Qartal qıy vuranda açardı könül,
Gülüm bülağında çadır quran el,
Oraya qayıtmaz, ay Əşrəf kişi!

Qara xaç, Dəli dağ, Axçalı hanı,

Oy dərə tutmazdı malı – heyvanı,
O dağlar qoynuna almır aranı,
Bakıdan görünməz, ay Əşrəf kişi!

Salman sən çəkəni hər bir an çəkir,
Yurd – yuva həsrəti belimi bükür,
Yaşa yaş calanır, saça dən çökür,
Getdi, geri gəlməz, ay Əşrəf kişi.

**14.05.2009 Lökbatan**



**SARI MÜLKADAR**

***Bütün şairlərin, aşıqların dostu, Saz müəllimi Sarı Mülkadara həsr edirəm)***

Həmi rəssamdı, həmi də aşıq,
Ilməzli oğludu, Sarı Mülkədar!
Sənətə bəzəkdir, saza yaraşıq,
Yarı mühəndisdir, yarı mülkədar.

Aşıqdı, şairdi onun dostları,
Dostlar arasında var etibarı,
Bir tikə çörəyi böləndi yarı,
Axtarmaz dövləti – varı Mülkədar.

Rəsm əsərləri muzeylər bəzər,
Hərəsi cürbə-cür, hamsı təzətər,
“Heydər Əliyev”dən də yaradıb əsər,
Gözəl çəkib xilaskarı, Mülkədar!

Rəsmə çəkir yaylaqları, dağları,
Bülbül ötən baxçaları, bağları,
Xatırlayır ötüb, keçən çağları,
Çəkə – çəkə intizarı Mülkədar.

Sənət yollarında ağarıb başı,
Gah sazı götürür, gah karandaşı,
Salmanın kirvəsi,dostu - qardaşı,
Sarı Mülkədardı,Sarı Mülkədar!

**20. 10. 2009**

**ƏYLƏŞ ŞAIR DOSTUM, BIR AZ DƏRDLƏŞƏK**

Əyləş şair dostum, bir az dərdləşək,
Sən niyə aralı gəzirsən bizdən,
Ürəkdən keçəni bilək, bölüşək,
Bizim ürəyimiz dönmərmi sizdən.

Şairlər paxıllıq bilən olmayıb,
Sonuncu tikəni yarı bölüblər!
Dostum, bu dünyada heç kəs qalmayıb,
Dünyanı fəth edən şahlar ölüblər!

Səməd Vurğun Məzahir axtarışıyla,
Fadeevlə bərabər çöllərə düşdü.
Şair etibarı, Vurğun mərdliyi,
Elləri dolandı, dillərə düşdü!

Namərdlik şairə yaraşmaz əsla,
Sağ - solda xeyiri, şəri yazan var!

Qələm dostlarına xoş gün arzula,
Qabaqda axirət, sirat, mizan var!

Döşünə vuraraq mənəm – mən demə,
Səndən də yüksəkdə şairlər durur.
Bu bir məsləhətdi, məndən incimə,
Şairə yaraşmaz təkəbbür, qürur!

**ƏLINDƏ**

Aran dağa qovur, dağ da arana,
Top olmuşam bu dünyanın əlində.
Gah selə düşürəm, gah da borana,
Çöp olmuşam bu dünyanın əlində.

Daha yavaş-yavaş qəddimi bükür,
Deyəsən bəyənmir başından əkir,
Gah irəli buraxır, gah geri çəkir,
Ip olmuşam bu dünyanın əlində.

Arzu-diləyimi apardı yellər,
Dolandı boynuma fitnələr, fellər,
Girdi ürəyimə küpə girənlər,
Küp olmuşam bu dünyanın əlində.

Doyan deyil yandırmaqdan-yaxmaqdan,
Çox həzz alır yerə vurub, yıxmaqdan.
Gah o yana, gah bu yana baxmaqdan,
Çəp olmuşam bu dünyanın əlində.

Yaylaq yayda gözəl, aran da qışda,
Yazısı alında, sevdası başda,
Günlərim ötüşür dava-dalaşda,
Sap olmuşam bu dünyanın əlində.

Bir qonağam, gedərgiyəm vaxtı var,
Hər bir kəsin qisməti var, bəxti var,
Deyirdilər devrilməyən taxtı var,
Gop olmuşam bu dünyanın əlində.

## ŞAIRLƏR

Aman Allah, dünya qəm dəryasıymış,
Dərd-qəmin içində üzər şairlər.
Bülbülə dönərlər çiçək görəndə,
Qalxıb səmalara, süzər şairlər.

Safdı məsləkində, safdı andında,
Odla qucaqlaşıb, oda yandı da,
Bəxtinə tək səbir düşən anda da,
Onu da xeyirə yozar şairlər.

Ürəkdən keçəni deməsələr də,
Qarnı doyunca yeməsələr də,
Kafe, restoranda gəzməsələr də,
Dildə,dodaqlarda gəzər şairlər.

Ağlarla ağlayıb, gülənlə gülüb,
Amalı yolunda dirilib, ölüb,
Sözü cavahirət, inci, ləl bilib,
Sərraf tək yan-yana düzər şairlər.

Bənzərlər əl çatmaz uca bir dağa,
Xalq üçün canını verər sadağa,
Adicə bir bəndi, bir ağ varağa,
Gündə min yol yazar-pozar şairlər.

Qələmə danışar giley-güzarı,
Danışmaz, gizləyər dərdi-azarı,
Şairlərdi şairlərin dostları,
Salmanı sözlərlə bəzər şairlər.

**27.05.2002.**

## SƏN MƏNI SEVIRSƏNMI MƏN SƏNI SEVƏN QƏDƏR

Sevirəm dağlar kimi, mən dağların oğluyam,
Büllur bulaqlar kimi, yaylaqların oğluyam.
Sənsiz ömrüm puç olar, dünyamsa gedər hədər,
Sən məni sevirsənmi, mən səni sevən qədər?

Sevirəm güllər kimi, sən güllərdən incəsən,
Çəmənlərin bəzəyi, budaqdakı qönçəsən,
Tayın yox əvəzsizsən, mənə bircə dənəsən.
Sənsən mənə bal, şəkər,
Sən məni sevirsənmi, mən səni sevən qədər?

Dodaqların qönçədir, yanaqda qara xallar,
Gözlərin bənövşədir, baxanda canlar alar.
Alışsa köz tək yanar,
Kim səni anlamasa,
Səni sevən anlayar!
Cavab ver, susma, yetər,
Sən məni sevirsənmi, mən səni sevən qədər?

Bircə gün körməyəndə, həsrətin sıxır məni,
Vüsalın oda dönür, yandırır, yaxır məni.
Sinəmi tutar kədər,
Yanaram oddan betər,
Sən məni sevirsənmi, mən səni sevən qədər?

Adını ürəyimə həkk edib Allah-Taala,
Sən ki, mənə "yox" desən, tutar səni dərd-bəla.
Dön könlümün şahına, qoyma şair qocala,
Sevgi yaşa baxmayır, bunu bilmirsən, məgər?
Sən məni sevirsənmi, mən səni sevən qədər?

**10. 08. 2000.**

## KAŞ SƏN MƏNIM OLAYDIN

Döyməyəydi başıma dünyanın qəm - hicranı,
Fələk yoldaş eyləyib yaxşılara yamanı,
Niyə mənə yazmayıb, səni kimi ceyranı?
Bu yaşımda, bu çağda, mənim ilə qalaydın,
Kaş mən sənin olaydım, sən də mənim olaydın.

Telini sığallayıb, basaydım qucağıma,
Sənin nurun bəsiydi evimə-ocağıma,
Heyif, dostluğmuz düşdü ahıl çağıma,

Qüssə-kədər döyəndə könlümü sən alaydın,
Kaş mən sənin olaydım, sən də mənim olaydın.

Dünyanın min üzü var, tək bircədir hikməti,
Səndə gördüm sevgini, istəyi, məhəbbəti,
Təmizliyi, duyğunu, həya-arı, isməti,
Kaşki otuz il qabaq mənə rast gələydin,
Bu ala gözlərinlə oxlayaydın məni-
Məni, məndən alaydın,
Qürurumu ovlayıb, səməndimdən salaydın,
Kaş mən sənin olaydım, sən də mənim olaydın.

Mina boylu gözəlim, gözlərimin nurusan,
Bəlkə o göydən gələn mələklərin birisən,
Bir Allaha əyandı, Salman Qazi yarısan,
Ürəyimdən keçəni anlayaydın, biləydin,
Kaş mən sənin olaydım, sən də mənim olaydın.

**5.08.2002.**

## TANRISINA SIĞINMIŞAM DÜNYANIN

Hey deyirlər beybafadı, fanidi,
Budağına sığınmışam dünyanın.
Nur bilmişəm günəşini, ayını,
Çırağına sığınmışam dünyanın.

Hikmətinə, heyrətinə bağlıyam,
Həmi aşıq, həmi şair oğluyam,
Bir dərvişəm - aranlıyam, dağlıyam,
Torpağına sığınmışam dünyanın.

Bir gün acı, bir gün şəkər-bal olur,
Çox dəyişib, bunda neçə hal olur?
Yaz ayları çiçək olur, gül olur,
Yaylağına sığınmışam dünyanın.

Qarlı dağlar, zirvələrdən aşmışam,
Selə dönüb, çaylar kimi daşmışam,
Gözəllərdən ilham alıb, coşmuşam,
Fərağına sığınmışam dünyanın.

Gedərgiyəm, qalan varmı, mən qalam?
Bir zirvəyəm, duman qalam, çən qallam,
Ölənədək bu dünyayla tən qalam,
Qılığına sığınmışam dünyanın.

Ömür verən, qismət verən özüdür,
Ilham verən, qanad verən özüdür,
Kömək duran, nicat verən özüdür,
Tanrısına sığınmışam dünyanın!

**10.03.99**



**QISMƏT OLMAZ YAXŞI KƏSƏ, YAXŞI KƏS**

Bir ucu səndədir, bir ucu məndə,
Kəsirsənsə bu dostluğu yaxşı, kəs!
Deyirdin ki, sənsiz günüm olmasın,
Tapanmaram səndən qeyri yaxşı kəs.

Nə çəkirəm, taleyimə özün bax,
Yadı qoyma, baxırsansa özün bax.
Təbibim ol, aç yarama özün bax,
Lazımdırsa yaxşı doğra, yaxşı kəs!

Şairin qanmazı, tərsi, nə yazar?
Molla tərs oxuyar, tərsinə yazar,
Fələkdə qaydadır tərsinə yazar,
Qismət olmaz yaxşı kəsə yaxşı kəs.

Salmana od vurma, odunu saxla,
Köz üstə tullama odunu, saxla,
Görürsən alışıb, odunu saxla,
Ondan sonra nə kəsərsən, yaxşı, kəs!

**28.11.2011**



**EYLƏR**

Qışın qaydasıdır şaxta gətirər,
Bağlayar yolları, qar - boran eylər.
Çərxi - fələk bir kəs ilə düşməsin,
Onu gözdən salar, eldə xar eylər.

Yazda yal - yamacı bəziyər çiçək,
Bir - birindən gözəl, ətirli, göyçək,
Ha yana boylansan açılar ürək,
Insanın könlünü novbahar eylər.

Yayda sinəsini açar yaylaqlar,
Hər yandan axışar, gələr qonaqlar,
Yadıma düşəndə büllur bulaqlar,
Könlüm kədərlənər, göz qubar eylər.

Payızda saralar açılan güllər,

Dəyişər təbiət, susar bülbüllər,
Aramsız yağışlar, car olan sellər,
Bu fani dünyanı mənə dar eylər.

Bu dörd fəsil bərabərdir bir ilə,
Insanın ömründə dönər müşkülə,
Dərd - hicran Salmanı gətirər dilə,
Şair qələm alar, ahu - zar eylər.

**26.01.2004.**



**SƏNIN RUHUN MƏNIM RUHUM**

Ruhuna minnatdaram, yanımdadı hər bir an,
O məni tənha qoymur, qoruyur od – alovdan.
Ruhun sənin yerinə, ruhuma qulluq edir.
Sən mənim olmasan da, bu mənə bolluq edir.

Gözəgörünməz bir əl gecələr alır səni,
Harda olursa olum, yanıma salır səni.
Sənin nə xəbərin var, olub keçən gecədən?
Bəlkə də hiss edirsən bunları özün hərdən.

Istəyirsən fikirləş, bircə anlıq sən məni,
Onda özün görərsən Allahdakı qüvvəni.
Bu iş, sən bilmədiyin məhəbbətin işidir,
Göydə Allah deyilən bir qüdrətin işidir.

Ruhuna minnətdaram, ruhumun dayağıdır,
Gündüzlər yol yoldaşı, gecələr çırağıdır!
Ruhun ruhumundur, özündə yoxdur işim,
Sənin ruhunla gəzmək olub mənim vərdişim!

Yaranıbsan torpaqdan – torpağa dönəcəksən,
Nə qədər parlasan da, bir günü sönəcəksən.
Fəqət, ruhun ruhumla yaşayacaq əbədi,
Səndən fərqli olaraq o yolundan dönmədi.

**08. 10. 2005**



**VƏTƏN DƏRDI ÇƏKƏNƏ BAX SƏN ALLAH**

Namusu – qeyrəti itirib gəlib,
Nəsil – nəcabətni gətirib, gəlib,
Elin nifrətini götürüb gəlib,
Vətən dərdi çəkənə bax sən Allah!

Indi şair olub, Vətəndən yazır,
Bölünüb, dağılıb, itəndən yazır,
Bu satqın, torpağı satandan yazır,
Vətən dərdi çəkənə bax sən Allah!

Şəhərdə qudurub, harınlaşıbdı,
Deyəsən baş şişib, ağlı çaşıbdı,
Nə vaxtdır vətəndən uzaqlaşıbdı,
Vətən dərdi çəkənə bax sən Allah!

Nənəsi – babası düşməyir yada,
Bu da istəyir ki, adam aldada,

Aman Allah, nələr varmış dünyada,
Vətən dərdi çəkənə bax sən Allah!

Evini – eşiyni qoyub virvna,
Qoşulub şəhərə gələn karvana,
Qaçıb örüşündən bu dılğır dana,
Vətən dərdi çəkənə bax sən Allah!

Yoxlamır obanı, axtarmır eli,
Unudub dağları, çəməni – çölü,
Dönüb şəhərliyə, uzanıb dili,
Vətən dərdi çəkənə bax sən Allah!

Vətən dərdi çəkənlər dərd daşıyır,
Qəriblikdə canı qızmır, üşüyür,
Vətən – vətən deyən hələ yaşıyır,
Vətən dərdi çəkənə bax sən Allah!

**22. 02. 2011**

**HƏR ŞEY QALASIDI, APARAN DÖYSƏN**

Az çalış çabala ay yazıq insan,
Hər şey qalasıdı aparan döysən.
Əlində Fərhadın külüngü olsa,
Bircə qamqalaq da qoparan döysən.

Iskəndəri  yola salıb əliboş,
Dilin şirin olsun, günün keçsin xoş,
Var – hal  aldadandı, az başını qoş,
Əzrayıl əlindən sapıran döysən.

Fironu, Namrudu düşün xatırla,
Danışma güc  ilə, öyünmə zorla,
Oynama od ilə, alovla – qorla,
Fələk kəməndindən qutaran döysən.

Salmandan sizlərə məsləhət olsun,
Qoymayın arada kin – küdrət olsun,
Insandan insana mərhəmət olsun,
Olan olub keçsə, qaytaran döysən!

**10. 03.2011**



***Dövlətdə dəvə, övladda nəvə.***

***(Atalar sözü)***



# KÖRPƏ NƏVƏLƏRIMIZ ÜÇÜN

**BAHAR GƏLƏNDƏ**

Təbiət təzəlləşir,

Bahar gələndə.
Hər tərəf gözəlləşir
Bahar gələndə.

Yuxudan aylır meşə,
Bitir nərgiz, bənövşə,
Yaylır yamaca - döşə,
Bahar gələndə.

Əriyir çaylarda buz,
Bəzənir çöl, çəmən, düz,
Tən olur gecə - gündüz
Bahar gələndə.

**QARANQUŞ**

Yaz gələndə qayıdır
Üz tikdiyi yuvaya.
Qaranquşlar yaraşır
Həm yerə, həm havaya.

Qaranquşlar sevərlər
Yamyaşıl təbiəti.
Yeyərlər, yox edərlər
Zərərli həşarəti.

Qaranquş qayıdanda
Sevinirlər uşaqlar.
Qaranquşlar gəlibsə
Deməli gəlib bahar.

**ÇƏPİŞ VƏ ÇOBAN**

Sürüdəki bir çəpiş
Göyçək və dəcəliydi.
Çox atılıb düşərdi
Sürüyə əngəliydi.

Baxmazdı çən - dumana
Hara gəlsə, qaçardı.
Qoşulub bir dovşana
Min bir oyun açardı.

Çoban güdüb çəpişi,
Dovşanla birgə tutdu.
Dovşan öz yuvasını,
Çəpiş çölü unutdu.

**TÜLKÜ VƏ XORUZ**

Bir tülkü çox cumurdu
Häninə toyuqların.
Bəylikdən dəm vururdu
Qabağında onların.

Xülasə, toyuqları-
Yığmış idi boğaza.
Toyuqlar nə edəydi
Bu boyda dələduza?

Xoruz cəsarətlənib
Tülkünü dimdiklədi.
Quyruğundan yapışıb
Bayıra sürüklədi.

**ÇOBAN VƏ YAYLAQ**

Çiynində dağarcığı
Sürünü yayıb dağa.
Bu gözəl bahar çağı
Çoban çıxır yaylağa.

Dağa-daşa səs salır
Çobanın tütək səsi.
Sürünü qoynuna alır
Yazın isti nəfəsi.

Çülü başına alıb
Quzunun mələşməsi.
Dağı həvəsə salıb
Yenə, yazın gəlməsi.

**BULAĞIN NƏĞMƏSI**

Oxuyur nəğməsini
Durmadan şır - şır bulaq.
Duyub yaz gəlməsini
Sanki danışır bulaq.

Əriyib, suya dönüb
Paltan buzu bulağın.
Kamana, neyə dönüb
Bu gün üzü bulağın.

Durnagözlü bulağım,
Oxu, oxu susma sən.
Qış gedib, bahar gəlib,
Təbiətdən küsmə sən.

Səsim səsə qarışır.....
Bulaq mənlə danışır,
Şır, şır, şır.......

**KOSMONAVT**

Kainatda dolaşır,

Ilkinin arzuları.
Deyir, - kosmonavt olub
Gəzəcəm ulduzları.

Üçrəngli bayrağım
Planetlər gəzəcək.
Mən kosmonavt olacam,
Azərbaycan görəcək!

Böyök bir planetə,
“Heydər” adı verəcəm.
Milli kosmonavtların
Önündə mən gedəcəm!

**NOVRUZ NƏĞMƏLƏRI**

Gəlib Novruz bayramı,
Tonqal yandırıb hamı.
Kosa kezəllə birgə
Pay yığır bu axşamı.

Novruz gəlib, xoş gəlib,
Onla qaranquş gəlib.
Kosa gedib bir evə,
Ordan əliboş gəlib.

Uşaqlar atılır, düşür,
Hamı deyir, gülüşür.
Bu gülüşdən, sevincdən
Kezələ də pay düşür.

Kezəl, kezəl daz kezəl,
Dərdi - qəmi az kezəl,
Qoşul bizə, oynaşaq,
Gəlib bahar, yaz kezəl.

**SƏBİNƏNİN GÜLLƏRİ**

Özü əkib - becərib
Həyatin baxzasında.
Artıq bitib, cücərib,
Tumurcuq var hamsında.

Lalədir, qızılgüldür,
Reyhan, bənövşədir.
Çizək əkib - becərmək
Səbinəyə peşədir.

Artıq hamsı gül azıb,
Saçaq - saçaq telləri.
Baxçamızı bəzəyir,
Səbinənin gülləri.

**ILKININ OYUNCAQLARI**

Ev dolu topdu - tankdı,
Silah, sursat bir yana.
Təyyarədi, raketdi,
Tuşlanıbdı "döşmənə".

Deyir: - Lazımdır baba,
Mən zabit olacağam.
Qırılan körpələrin
Qisasnı alacağam.

Hələlik oyuncaqlar,
Ilkinin " qüdrətidir".
Gələcəyə bu uşaq,
Öz fikrində qətidir!

**GÖYƏRÇINLƏR**

Hər səhər eyvanmıza

Qonarlar dəstə - dəstə.
Hürkək baxaraq bizə
Cumarlar yemək üstə.

Mən də verərəm dəni,
Yeyib doyunca onlar.
Onlar da görcək məni,
Düz çiynimə qonarlar.

Bax beləcə dostlaşıb
Göyərzinlər mənimlə.
Özümə öyrətmişəm
Çörəyimlə, dənimlə.

**BABAMIN NAĞILLARI**

Biri vardı,biri yox,
Biri azdı, biri çox,
Biri kaman, biri ox,
Babamın nağılları.

Dünyanın düz vaxtında,
Bulaqların buz vaxtında,
Nənələrin qız vaxtında,
Babamın nağılları.

“Ovzu Pirim”, “Cırtdandı”,
“Tıq - tıq” xanım,”Aslandı”,
“Bir ağ atlı oğlan” - dı,
Babamın nağılları.

Hər bir axşam təzətər,
Nə qurtarar, nə bitər,
Bizi yuxuya çəkər
Babamın nağılları.

**SƏBINƏ BALAMA**

Bir xallı ceyranım var,
Adı da Səbinədir.
Babasını çox sevər,
Çönki bircə dənədir.

Ilkinlə gecə-gündüz,
Bir oturar, bir durar.
O da əla oxuyar,
Bu da əla oxuyar.

Nənəsi iş görəndə,
Səbiş ütü götürər.
Qol zırmayıb bəzən də,
Dadlı yemək bişirər.

Səbiş, belə Səbişdi,
Əldən - ayaqdan zirək.
Babasının balası,
Həyatda qoçaq gərək!

**ILKIN**

Telefon qulağında,
Ona - buna zəng edir.
Üzüyola oğlandır,
Hara buyursam, gedir.

Yaxşı oxuyur, yazır,
Qiyməti dörddür, beşdir.
Fikri kosmosda gəzir,
Arzuları genişdir.

Çox sevir babasını,
Onla birgə çalışır.
Incitmir nənəsini,
Hər bir şeyə alışır.

Mənim bu Ilkin balam
Həm qoçaq, həm zirəkdir.
Qoymayır ki qocalam,

Nəvə belə gərəkdir!

**DÖRD FƏSIL**

Yazda gülər ruzigar,
Çünki açılar bahar.
Qayıdıb yuvasına,
Gələr köçəri quşlar.

Yayda yaylaqlar gözəl,
Sərin bulaqlar gözəl,
Baxsan, könül açılar,
Qartallı dağlar gözəl.

Payız məhsul yığılar
Tarladan, baxzalardan.
Qışa hazırlaşarlar
Böyök - kiçik durmadan.

Qışda ağ don geyinər
Meşələr, uca dağlar.
Şaxta baba pay verər,
Çox sevinər uşaqlar.

**CIRTDAN VƏ DIV**

Cırtdan ilə div çoxdan
Duşmana dönmüşdülər.
Bir meşədə hər iksi
Qəflətən görüşdülər.

Div dedi: - Aha, əlimdəsən,
Parçalayıb, didəcəm.
Tikə - tikə eyləyib,
Asta - asta yeyəcəm.

Cırtdan dedi:- güclüsən,
Bunu çoxdan bilmişəm.
Sənə yem olmaq üçün
Mən meşəyə gəlmişəm.

Ancaq bircə şərtim var,
Ey böyük div, səninlə.

Məni yeməkdən ötrü,
Gəl yarışaq mənimlə.

Qaçdı - tutdu oynayaq,
Tutsan ətim halaldır.
Yüzə kimi sanayaq,
Sanaya bilsən öldur.

Div dedi: - razıyam,
Bax bu meşə, bu da sən...
Haraya qaçacaqsan?
Onsuz da əlimdəsən!

Cırtan birdən atıldı
Qalın meşəyə sarı.
Div də yerdən atıldı,
Belindən sancdı ağrı!

Düşmüş idi dibinə
Qaranlıq bir quyunun.
Bildi Cırtan aldadıb,
Axrı bitdi oyunun!



## BİLƏNLƏRƏ SALAM OLSUN

*Onunla ilk dəfə tanış olub, ünsiyyət tapan elə bilər ki, neçə ilin tanışı, nəinki tanışı, dostu-doğmasıdır. Və mən*

*də elə düşündüm. Elə bildim ki, bu dilli-dilavər, xoş simalı, şirin ovqatlı, ecazkar auralı, söhbətcil, sinədəftər kişini on illərdir tanıyıram, aşıq poeziyasının incilərinə söykənən, şifahi xalq ədəbiyyatının, folklorun dumduru çeşməsindən su içən, geniş ürəyinin sonsuz axar-baxarından daşlanıb gələn bu şirin qoşmalarına, təcnislərinə, müxəmməslərinə haçansa qulaq asmışam. Acılı-şirinli əhval-ruhiyyənin bəhrəsi olan bu ovqat şeirləri mənə müəllifinin özü qədər doğma, mehriban , yaxın və munis göründü.*

*Bu oxuculara neçə-neçə kitabları ilə, dövri-mətbuatda işıq üzü görən şeirləri, nəhayət televiziya və radio dalğalarındakı səmimi çıxışlarıyla artıq çoxdan tanış olan Salman Qazidir. Qazi ləqəbini də elə-belə götürməyib. Torpaqlarımızın bütövlüyü uğrunda yeganə oğlu ilə birlikdə döyüşüb, çarpışıb.*

*Füzuli ətrafında yaralanıb. Onun vətən sevgisi qanından, iliyindən gəlir. Yazdığı şeirlər olsa*-olsa bu böyük *sevginin kiçik ifadəsidir.*

*Uzun illər təhlükəsizlik orqanlarında çalışıb, sərhəd qoşunlarında çətin xidmət yolu keçib. İndi təqaüddədir. Ömrünün altmışıncı baharını bir oğul kimi üzağlığı ilə, eyni zamanda bir vətəndaş kimi torpaq itkisi nisgili ilə qarşılayır. Neyləmək olar? Bu, bizim hamımızın, bütün soydaşlarımızın taleyidir. Ancaq o, bir vətəndaş, bir qələm sahibi kimi bu cür tale ilə barışmayan, mübariz bir insandır, şeirləri də elə bu yanğıdan doğulur:*

***Burda mənə hər şey yaddı,***
***Nə yedimsə ağı daddı.***
***Bir yarım var Vətən addı,***
***Ov dərəsi, göl yeridi.***

*Salman Qazi dinli-imanlı qələm sahibidir. Saflıq, təmizlik, doğruluq və halallıq onun şeirlərinin aparıcı, ana xəttidir:*

***Salman, haqqa sığın, ondadır kərəm,***
***Halala sadiq ol, pis şeydir haram.***
***Əsil dostlar ilə hər yerdə varam,***
***Mərifətsiz varsa, mərifət də var.***

*Yuxarıda qeyd elədiyim kimi onun bütün yaradıcılıq nümunələri saz havası üstündə doğulub, doğma ana dilimizin şirin axarından süzülüb gəlib.*

*Aşıq şeirinin bütün şəkillərində qələmini sınağa çəkən Salman Qazi aşıqlarımızın dilinin əzbəridir. Şeirlərinə xeyli musiqi də bəstələnib.*

*Salman Qazi şeirin, sözün dəyərini, çəkisini, sambalını bilən yaradıcıdır. Az qala "qələmdaş"ların kütləviləşdiyi, poetik sözün dəyərdən düşdüyü bir vaxtda onun şairdən, şeirdən, sözdən umacağı böyükdür:*

***Söz yazan çox, şair olmaz hər yetən,***
***Şair bir zirvədir başı duman-çən,***
***Bu yol ibadətlə, şəriətlə tən,***
***Bilənlər atını sürsə yaxşı olar.***

*Mən bu yerdə Yunis İmrənin əsrlərin bağrını yara-yara gələn bir beytinə söykənib sözümü tamamlamaq istəyirəm:*

***Bilməyən nə bilər bizi,***
***Bilənlərə salam olsun!***

***Musa Ələkbərli,***
***Yanvar, 2012***

# KİTABIN İÇİNDƏKİLƏR

SALMAN QAZI ........ 3
ÖN SÖZ ƏVƏZI ........ 5
XALQIMIN GÜNƏŞI ........ 9
BU YOL HEYDƏR YOLUDUR ........ 10
USTADNAMƏLƏR ÇƏLƏNGI ........ 13
INSAN ........ 13

USTADNAMƏ ........ 15
USTADNAMƏ ........ 15
ATMASIN ........ 16
OLSUN GƏRƏK ........ 17
BU DÜNYA ........ 18
FƏLƏKLƏ OYNAMA, OXALAR SƏNI ........ 18
DÜNYANIN ........ 19
DÜNYADAN KIM NƏ APARIB ........ 20
DÜNYADI ........ 21
KEÇIR ........ 23
MƏNI ........ 23
SORUŞ O DESIN ........ 24
MEHRACNAMƏ ........ 25
TƏMIZ OLSUN ........ 26
TƏLƏSMƏ INSAN ........ 26
TANRISINA SIĞINMIŞAM DÜNYANIN ........ 27
EYLƏR, EYLƏR ........ 28
ELIM VAR OLSUN ........ 28
EYLƏR ........ 29
AY INSAN OĞLU ........ 30
BELƏLƏRI VAR ........ 30
QABAĞINDA ........ 31
OĞLUMA ........ 32
ÖMÜR KARVANI ........ 33
A DÜNYA ........ 34
NAHAQDAN FƏLƏKDƏN KÜSDÜM - INCIDIM ........ 36
DOSTUM ........ 36
IKI ƏLLI YAPIŞMAYNAN DÜNYADAN ........ 38
DIVANILƏR ÇƏLƏNGI ........ 39
A TANRIM ........ 40
DANIŞ ........ 40
QABAQDADI ........ 41
BIR VƏ BIR ........ 43
DIVANI ........ 44
BƏHRI DIVANI ........ 44
MƏNƏM MƏN ........ 45
KIMDI KI ........ 46
DIVANI ........ 47
ELƏ ........ 47
GÖRMÜŞƏM ........ 48

FƏLƏK ........ 49
BƏHRI DIVANI ........ 50
DIVANIDIR DIVANI ........ 51
MƏNDƏDI ........ 51
İNŞALLAH ........ 57
YAŞ ÖZÜNÜ GÖSTƏRIR ........ 58
VƏSSALAM ........ 59
SƏNIN ........ 60
SƏNIN SORAĞINDAYAM ........ 60
DEMƏ ........ 61
VAR ........ 62
GƏRƏK ........ 63
BURDADI ........ 65
TƏCNISLƏR ÇƏLƏNGI ........ 66
DODAQDƏYMƏZ CIĞALI TƏCNIS ........ 67
DODAQDƏYMƏZ CIĞALI TƏCNIS ........ 68
DODAQDƏYMƏZ CIĞALI TƏCNIS ........ 69
TÖRƏMƏ TƏCNIS ........ 70
CIĞALI TƏCNIS ........ 71
CIĞALI TƏCNIS ........ 72
CIĞALI TƏCNIS ........ 73
CIĞALI TƏCNIS ........ 74
CIĞALI TƏCNIS ........ 75
CIĞALI TƏCNIS ........ 76
CIĞALI TƏCNIS ........ 77
CIĞALI TLCNIS ........ 78
DAHA NƏ ........ 79
GÖZƏL ........ 80
AY ÜZƏ MƏNI ........ 80
AY BELƏSINƏ ........ 81
YA SARI ........ 81
AY SARI SARI ........ 82
GƏRAYLI TƏCNIS ........ 82
YADA SAL MƏNI ........ 83
MƏNI ........ 83
GÖZƏL GÖZƏLƏ ........ 84
TƏCNIS ........ 84
TƏCNIS ........ 85
BIR AYƏ MƏNI ........ 86
MEHRACNAMƏ - CIĞALI TƏCNIS ........ 87

YARALI CANIM ........ 88
O YARA DEDI ........ 89
BIR AYA BURDA........ 89
TUTAR - TUTAR ........ 90
AY AĞI GÖRDÜM ........ 90
YAN DA YAN ........ 91
A CANIM........ 92
QOŞMALAR ÇƏLƏNGI ........ 94
MƏN YAZIQ ........ 95
MƏNDƏDI........ 96
YAZDI........ 97
NƏ FAYDA ........ 97
AĞRIN ALIM ........ 98
DƏRDIMI KIMƏ DANIŞIM ........ 98
BƏS DÖYMÜ SƏNƏ ........ 99
ÖPÜŞ VAR ........ 100
AÇMAZ - AÇMAZ........ 100
GÜLÜM ........ 101
MƏNI ........ 102
YANDIR A DÜNYA ........ 102
BƏDNƏZƏRDƏN QORXURAM........ 103
GÖZÜMDƏ ........ 104
GÖRMÜŞƏM ........ 104
BILƏ – BILƏ ........ 105
KASIBLIQ ........ 106
BIR KÖNÜL DOSTUMA ........ 106
BU GECƏ ........ 107
NƏ GÖZƏL ZƏNG IDI O GECƏKI ZƏNG........ 107
YANDIR MƏNI, YANDIRMAĞA NƏ VAR KI ........ 108
NƏDI ........ 109
GÖZƏLLIYIN TƏRƏNNÜMÜ ........ 109
DÜNYANIN ........ 110
BU CANIM ........ 111
KÖNLÜMÜN HARAYI ........ 111
ƏZIZIM ........ 112
GÖZLƏRIM........ 112
SƏNI........ 113
GÖRƏM ........ 114
DƏRDIMI ........ 114
ÖZÜNƏ BIR BAX........ 115

FƏLƏK ... 115
INCIYIB KÜSMƏYƏ NƏ VAR KI GÜLÜM ... 117
GEDIRƏM ... 118
DÜNYA ... 119
NƏ DƏRDIM ... 120
BACARDIM ... 121
BU INSAN GƏNDINƏ GƏLƏ BILMƏYIR ... 122
ÇƏKDI ... 122
DOSTUM MIRASLAN BƏKIRLIYƏ ... 123
BILDIM ... 124
GƏLIBDI ... 124
EYLƏR ... 125
MƏNI ... 125
CEYRANIM ... 126
SƏNIN ... 127
ŞAIRƏM, AŞIĞAM, SÖZ ADAMIYAM ... 128
DÜNYA ... 129
AY INSAN OĞLU ... 130
ALLAHA XITAB ... 131
ƏLIM ALLAH ƏTƏYINDƏ ... 131
ŞEYTANA DAŞ ATANLARA ... 132
HƏVƏSIM BIR ÖZGƏ ÇIRAĞA YOXDU ... 133
GÖRDÜM ... 133
DÜŞDÜM ... 134
BIR BAX ... 135
GƏLIR ... 136
YAXŞI DÖY ... 137
GƏRAYLILAR ... 139
ÇƏLƏNGI ... 139
TORPAQ DEDI : MƏNIMKIDI ... 140
ELLƏR MƏNƏ ŞAIR DEDI ... 140
VARMI SƏNDƏN DOYAN DAĞLAR ... 141
DƏYMƏ MƏNIM ÜRƏYIMƏ ... 142
BIR KÖNÜLDƏN MIN KÖNÜLƏ ... 142
YARI SƏNIN, YARI MƏNIM ... 143
DEMƏDIMMI ... 143
O TƏRƏFDƏN, BU TƏRƏFDƏN ... 144
GÜLƏ – GÜLƏ ... 145
MƏNI ... 145
BU DÜNYANIN BƏDBƏXTLƏRI ... 146

QOCALIRAM ........ 147
TANIDIM SƏNI ........ 148
QOCALIQ ........ 148
IBADƏTI IRAD TUTMA ........ 149
SAZ SEHRINƏ QURBAN OLUM ........ 149
MƏNIMKINDƏN BEŞDI BETƏR ........ 150
VAR ........ 151
KAŞ KI ........ 151
QURBAN OLUM ........ 152
QIŞ AYLARI ........ 152
GÖZƏL ........ 153
OYNAYARMI ........ 154
A CEYRANIM ........ 154
KÖNLÜM ........ 155
FƏRQI VAR ........ 155
GÖZƏL ........ 156
QURBAN OLUM ........ 156
DAĞLAR ........ 157
BIZIM DAĞLARA, DAĞLARA ........ 158
OLMASA ........ 159
GÖZƏLDIR ........ 159
SINƏMDƏDI BU DAĞ MƏNIM ........ 160
RİZVANIN OTAĞINDA. ........ 160
ALLAH MƏNIM HALIMA BAX ........ 161
SƏN ARALI, MƏN ARALI ........ 162
ŞAIR ELIN VURĞUNUDUR ........ 162
YA SƏN MƏNI, YA MƏN SƏNI ........ 163
BƏXTIM ........ 163
SAZNAN ARAN HƏNCƏRIDI ........ 164
SƏN OLUBSAN ........ 164
ISTƏMIRƏM ........ 165
DÜNYA KIMIN DÜNYASISAN ........ 166
TANRIM, SƏNƏ GƏLƏCƏYƏM ........ 166
BƏSINDIMI ........ 167
SƏNIN XƏTIRINƏ ........ 168
KEÇƏN GÜNƏ QAYTAR MƏNI ........ 168
SATIRAM ........ 169
ZIRVƏLƏRDƏN ENƏN CANIM ........ 170
GÖZƏLDIR ........ 171
GÖDƏK DAĞDA ........ 171

IBAD MÜƏLLIM: ..... 171
QIFILBƏNDLƏR ..... 173
ÇƏLƏNGI ..... 173
BIR ALIMDƏN EŞITMIŞƏM BIR SUAL ..... 173
VAR ..... 175
BAX ..... 175
DÜŞMÜŞƏM ..... 176
BAĞLANIB ..... 177
BAĞLIYAM ..... 177
DÜŞMƏK OLMUR IZINƏ ..... 178
YOXDU ..... 179
ELLƏRIMIZDƏN, ..... 180
OBALARIMIZDAN ..... 180
ELLƏR VAR OLSUN ..... 180
BORÇALI ..... 181
BAŞKEÇID ..... 182
QARAÇI ..... 183
KƏPƏNƏKÇIDƏ ..... 183
BU « HACI» - LARIN ..... 185
NEYLƏK GURULDAYIR QOY GURULDASIN ..... 185
ŞAIR EDIB, DÖNDƏRIB SÖZ DƏLISINƏ ..... 187
MURAD MÜƏLLIMƏ ..... 188
ODUN PEÇI ..... 189
MƏNƏ BƏS EYLƏR ..... 191
QARABULAQ, GÖDƏK DAĞDA ..... 192
VAXTIM GƏLIBDI ..... 193
DAĞLAR SAĞ OLSUN ..... 194
AŞIQ HAQVERDIYƏ ..... 195
GEDIRƏM ..... 196
AY KƏND CAMAATI, ŞƏHƏRDƏ NƏ VAR ..... 196
SAQQALLI HACILARA ..... 198
OĞLUMA ..... 199
SÖZ ADAMININ ..... 201
OĞLUYAM ..... 201
MƏSCIDƏ YAXŞILAR – YAMANLAR GƏLIR ..... 202
DÜŞÜBDÜ ..... 203
SALMAN QAZININ ..... 205
ALIXAN KAMALA (ORUCLUYA) CAVABI ..... 205
KIÇIK QARDAŞIM AŞIQ ƏŞRƏFƏ ..... 206
SAQQAL ..... 207

AY MUSA ........ 210
MƏN DƏ MƏHƏBBƏTDƏN ........ 214
ÇƏLƏNG HÖRMÜŞƏM, ........ 214
MƏNIM DƏ ÇƏLƏNGIM ........ 214
OLUB MƏHƏBBƏT. ........ 214
AY ÖZÜNDƏN XƏBƏRSIZ, MƏNDƏN ........ 214
XƏBƏRIN VARMI ........ 214
VERMƏRƏM SƏNI ........ 215
ISTƏK ISTƏK OLDU, YOL YOLA DƏYDI ........ 216
QÖNÇƏ BIR TƏRƏFDƏ, XAR BIR TƏRƏFDƏ ........ 217
ÖLDÜRMƏ ........ 218
QOCALDIR ........ 218
KÖPƏK QIZI ........ 219
OLDU ........ 220
A ZALIM QIZI ........ 221
QARĞAMA GÖZƏL ........ 221
SƏNIN ........ 222
VALLAH ........ 223
GÖZÜMDƏN GÜLÜŞÜ ALIB GEDIBSƏN ........ 223
DÜŞÜR ........ 224
OLMAZ ........ 225
QOŞAYARPAQ ........ 225
MƏNI ........ 226
QALDI ........ 226
GÜNAH KIMDƏDIR ........ 227
SƏN DE, MƏN YAZIM ........ 228
BƏNÖVŞƏ ........ 229
NƏ MƏNASI VAR ........ 229
SƏNIN ........ 230
GÖZƏLDIR ........ 231
DEMƏYNƏN ŞAIRLƏR DUYĞUSUZ OLUR ........ 231
YANDIRIR ........ 232
A BƏY TOYUN MÜBARƏK ........ 232
BÜLBÜLLƏRI OXUDAN, GÜLÜN ........ 233
MƏHƏBBƏTIDIR ........ 233
QADASI ........ 234
EŞQINƏ ........ 235
QOCA QARI QIZ OLMAZ ........ 236
AĞLAMA QURBANIN OLUM, AĞLAMA ........ 237
GÖZƏLDƏN - GÖZƏL ........ 237

TELEFONA BAXIRAM ........ 238
ƏZIZIM ........ 240
XAR IÇINDƏSƏN ........ 241
DOSTUM ADILXAN MÜƏLLIMƏ ........ 242
QƏZƏLLƏR ........ 244
DODAQDƏYMƏZ QƏZƏL ........ 244
TƏLƏSMƏ ........ 245
NƏ XƏBƏRIN ........ 245
OLMADIN ........ 246
GÖZÜN ........ 246
PƏRVƏRDIGAR ........ 247
BÜLBÜLÜM ........ 247
VAR ........ 248
KÖNLÜMƏ ........ 248
QƏZƏL ........ 249
RÜBAİLƏR ÇƏLƏNGI
BAYATILAR ÇƏLƏNGI ........ 254
MÜXƏMMƏSLƏR ÇƏLƏNGI ........ 259
DOQDƏYMƏZ MÜXƏMMƏS ........ 259
DODOQDƏYMƏZ MÜXƏMMƏS ........ 260
MÜXƏMMƏS ........ 261
GƏLIN ........ 262
ZƏRXANIM ........ 263
AY MARALIM ........ 264
DÜNYA ........ 264
ŞAXI BACI ........ 265
ILMƏZLI ........ 267
SƏMƏD QAĞA ........ 268
TUTDU, NƏ TUTDU ........ 269
GƏLIR - GƏLIR ........ 270
BULANLIQ SULAR ........ 271
AXA – AXA DURULAR ........ 271
SƏNƏDLI POVEST ........ 271
« RUHANI » ........ 281
TÜFƏNG SƏSI ........ 285
AĞSTAFA QATARI ........ 290
MUROVAM, KƏPƏZƏM, ........ 298
SAVALANAM MƏN ........ 298
MƏNI BÖLDÜRƏN ARAZ ........ 299
AYIL, MILLƏTIM, AYIL ........ 301

AZƏRBAYCAN ƏSGƏRINƏ ........ 302
XOCALI ŞƏHIDLƏRINƏ ........ 304
BAKI DA GÖZƏLDIR, TƏBRIZ DƏ GÖZƏL ........ 305
TƏBRIZ ........ 307
ƏZƏM TƏBRIZ GÖZƏLI ........ 308
CƏNUBI AZƏRBAYCAN ŞAIRI HƏMDULLAYA ........ 309
GƏNCƏ GÖZƏLDIR ........ 310
SAQQALIMIN ÇAL VAXTINA DÜŞÜBSƏN ........ 312
QONMAZ ........ 313
GƏL HA GƏL ........ 314
MƏNI ........ 315
GÖRMƏDIM ........ 316
NƏLAYIQDI, NƏLAYIQ ........ 317
NIYƏ PƏRMÜJDƏSƏN AY ŞAIR QARDAŞ ........ 318
MURAD MÜƏLLIMƏ ........ 320
ƏŞRƏF KİŞİYƏ . ........ 322
SARI MÜLKADAR ........ 323
ƏYLƏŞ ŞAIR DOSTUM, BIR AZ DƏRDLƏŞƏK ........ 324
ƏLINDƏ ........ 325
ŞAIRLƏR ........ 326
SƏN MƏNI SEVIRSƏNMI MƏN SƏNI SEVƏN QƏDƏR ........ 326
KAŞ SƏN MƏNIM OLAYDIN ........ 327
TANRISINA SIĞINMIŞAM DÜNYANIN ........ 328
QISMƏT OLMAZ YAXŞI KƏSƏ, YAXŞI KƏS ........ 329
SƏNIN RUHUN MƏNIM RUHUM ........ 331
VƏTƏN DƏRDI ÇƏKƏNƏ BAX SƏN ALLAH ........ 332
HƏR ŞEY QALASIDI, APARAN DÖYSƏN ........ 333
KÖRPƏ NƏVƏLƏRIMIZ ÜÇÜN ........ 335
BAHAR GƏLƏNDƏ ........ 335
QARANQUŞ ........ 336
ÇƏPİŞ VƏ ÇOBAN ........ 336
ÇOBAN VƏ YAYLAQ ........ 337
BULAĞIN NƏĞMƏSI ........ 338
KOSMONAVT ........ 338
NOVRUZ NƏĞMƏLƏRI ........ 339
ILKININ OYUNCAQLARI ........ 340
GÖYƏRÇINLƏR ........ 340
BABAMIN NAĞILLARI ........ 341
SƏBINƏ BALAMA ........ 341
ILKIN ........ 342

DÖRD FƏSIL ............ 343
CIRTDAN VƏ DIV ............ 343
KİTABIN İÇİNDƏKİLƏR ............ 346

